ƏDALƏT TAHİRZADƏ

# ŞƏKİNİN TARİXİ

## QAYNAQLARDA

2005
992

T3(2A)
T 17

Azərbaycan Milli Elmlər Akademiyası
Şəki Regional Elm Mərkəzi

Ədalət TAHİRZADƏ

# ŞƏKİNİN TARİXİ QAYNAQLARDA

46659



76041

M.F.Axundov adına
Azərbaycan M...
Kitabxanası

MASTER

Bakı - 2005

بسم الله الرحمن الرحيم

**Bu kitab
Allah yolunda,
Haqq, Ədalət, Qurtuluş yolunda
bütün tarix boyunca
şəhid olmuş
ş ə k i l i l ə r i n
müqəddəs ruhlarına
ərməğandır.**

*Naşir:*
**Nazim İBRAHİMOV,**
*Şəki Şəhər İcra Hakimiyyətinin başçısı*

***Bilgisayar tərtibçisi:***
**Emil SADIQOV**

***Bilgisayarda yığanlar:***
**Oğuztoğrul TAHİRLİ, Məzahir CƏMİLLİ**

**Ədalət Şərif oğlu TAHİRZADƏ. Şəkinin tarixi qaynaqlarda.**
Bakı, MASTER nəşriyyatı, 2005, 256 səh.

Kitabda Şəkinin tarixinə dair başlıca olaraq XIX yüzil qaynaqları toplanıb. Bu mənbələrin çoxu indiyədək oxuculara bəlli deyil, bilinənlərsə indiyədək araşdırılmamış daha bitkin və daha doğru əlyazma nüsxələri əsasında ortaya qoyulub. Salnamə-xronikaları yazanların yaşayış və yaradıcılığı haqqında ilkin və geniş bilgi verən Ə.Tahirzadə qaynaqların məzmununu daha asan mənimsəməkdən ötrü həm çoxlu qeydlər və aydınlatmalar edib, həm də zəngin maddeyi-tarixlər toplusu hazırlayaraq qaynaqlara artırıb.

Kitabda Şəkinin yetirməsi olan məşhur şairlərin Şəkiylə, onun tarixiylə bağlı şerləri də verilib.

Əsər Azərbaycan tarixiylə maraqlanan bütün oxucular üçündür.

© Ədalət TAHİRZADƏ

ISBN 0-9769954-0-9

**e-mail: tahirzade@yahoo.com
Mob.: +(99450) 612 68 13**

## İÇİNDƏKİLƏR


Şəkinin tarixi qaynaqlarda: yazılanlar, yazanlar ..................5

**Qaynaqlar**

*Mustafa ağa ŞUXİ*
Kərim ağa Fatehin tərcümeyi-halı. (Seçmə parçalar) ..........88

*Kərim ağa FATEH*
Şəki xanlarının ixtisar üzrə tarixi ........................................94

*Mustafa ağa ŞUXİ*
Nuxu xanlarının keçmiş əhvalatının hekayəti. (Hekayəti-əhvalati-sabiğeyi-xəvanini-Nuxu) ....................................113

*Hacı Seyid ƏBDÜLHƏMİD*
Şəki xanları və onların nəsilləri. (Dər bəyani-əhvalat və silsileyi-xəvanini-sələfi-Şəki) ........................................124

*Mirabbas MİRBAĞIRZADƏ*
Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat ............................................................135

*Mirabbas MİRBAĞIRZADƏ*
Şəki qəzası ..............................................................................175

*Ələşrəf KƏRİMOV / İSMAYILOV*
Şəki keçmişdə və imdi..........................................................194

**Maddeyi-tarixlər** ................................................215

**Artırmalar**

*Şəkili NƏBİ*
Hacı Çələbi xana ..................................................................226
Ağakişi bəyin öldürülməsi ....................................................228
Məhəmmədhüseyn xanın tərifi ..............................................230
Küngüt əhvalatı ....................................................................231

*Mustafa ağa ŞUXİ*
Nuxu şəhərinin tərifi...............................................................234

*Məhəmmədəmin oğlu Salman MÜMTAZ*
Ənvəriyyə ..............................................................................236
Öyün, millət ..........................................................................238

*Bəxtiyar VAHABZADƏ*
Şəki.........................................................................................240

**Adlar göstəricisi**...........................................................242


# ŞƏKİNİN TARİXİ QAYNAQLARDA: YAZILANLAR, YAZANLAR



Böyük imperator ***Nadir şah Əfşar*** (22.10.1688-20.6.1747) öldürüldükdən sonra Azərbaycanda **Şəki, Şirvan (Şamaxı), Bakı, Quba, Dərbənd** (bu ikisi sonralar birləşdirildi), **Gəncə, Qarabağ, İrəvan, Naxçıvan, Talış, Təbriz, Xoy, Sərab, Qaradağ, Ərdəbil, Marağa, Urmiya, Makı** xanlıqları yarandı. Nüfuz dairələrini genişləndirmək uğrunda onların arasında başlanmış iç savaşları torpaqlarımızı qamarlamağa uyğun vaxt gözləyən gənc xaçpərəst imperiyası Rusiyadan ötrü göydəndüşmə oldu. 10 mart 1735-də Nadir şahın Gəncə yaxınlığında silah gücünə imzalatdırdığı müqaviləylə *Dəli Petro*'nun 13 il qabaq tutduğu bütün Azərbaycan torpaqlarını geri qaytarmağa məcbur olmuş Rusiya Nadir şahın dəhşətli şapalağından sonra yavaş-yavaş özünə gələrək yenidən işğalçılıq niyyətinə düşdü. Onun onilliklər boyu çəkən hərbi yürüşləri anamız ulu Azərbaycanı və qədim millətimizi iki yerə parçalayan amansız *Gülüstan* (1813) və *Türkmənçay* (1828) andlaşmalarıyla başa çatdı. *Şəki, Şirvan, Bakı, Quba, Gəncə, Qarabağ, İrəvan, Naxçıvan, Talış* xanlıqlarını Rusiya işğal etdi, *Təbriz, Xoy, Sərab, Qaradağ, Ərdəbil, Marağa, Urmiya, Makı* xanlıqlarısa yenilmiş Qacar dövlətində qaldı. Yurdumuzun və elimizin bütün tarixi boyunca bundan daha sarsıntılı hadisə olmayıb. Azərbaycan torpağının yetirdiyi tarixçilər, şairlər və sənətkarlar bu parçalanmaya kəskin etiraz bildirdilər.

Tarixçi Həsi Abdullayev yazır: "...*XVIII yüzildə tərtib edilmiş Azərbaycan salnamə əsərləri indiyədək üzə çıxarılmayıb. Azərbaycan tarixi-salnamə əsərləri yalnız Azərbaycanın XIX yüzildə Rusiya tərkibinə* ***daxil olmasından*** (?! - Ə.T.) *sonra bizə gəlib*

*çatıb"*[1]. Gerçəkdən də belədir. Ancaq bu, Rusiyanın "maarifləndiriciliyi"nin yox, müstəmləkə siyasətinin nəticəsiydi. Belə ki, Azərbaycanın üçdə birini caynağına keçirmiş yağmaçı Rusiyanın Tiflisdəki canişin dəftərxanası yenicə çarizm boyunduruğu altına düşmüş xanlıqlarımızın gerçək yiyələrinin keçmişini öyrənmək və çar hakimiyyətinin onlara bəsləyəcəyi siyasi-iqtisadi münasibəti bu bilgi üzərində qurmaqçün dünənki xan və bəylərin, bölgədəki ən ad-sanlı uruqların soykötüyünü (nəsil ağacını, şəcərəsini) hazırlamağı, bu torpaqların yaxın keçmişini qısa da olsa təsvir etməyi inandığı yerli aydın-məmurlara tapşırdı. (Güney xanlıqlarıyla bağlı belə tarixi araşdırmaya ehtiyac yoxuydu, çünki o torpaqlarımızda kimin kim olduğunu Qacar dövləti gözəlcə bilirdi).

Beləliklə, artıq Rusiya torpağı sayılan Quzey Azərbaycanda XIX yüzildə təkcə Qarabağ tarixiylə bağlı ***Mirzə Adıgözəl bəy***'in (təx.1780-9.9.1848) *"Qarabağnamə"* (1845), ***Mirzə Camal Cavanşir Qarabağı***'nin (1773-1853) *"Qarabağnamə"* (1847), ***Əhməd bəy Cavanşir***'in (2.3.1828-9.1.1903) *"Qarabağ xanlığının siyasi vəziyyətinə dair"* (1883), ***Mir Mehdi Xəzani***'nin (təx.1819-1894) *"Kitabi-tarixi-Qarabağ"* (təx.1866)... əsərləri kimi 7 salnamə-xronika qələmə alındı. Həmin yüzildə ***Kərim ağa Fateh***'in (1788-13.1.1859) *"Şəki xanlarının ixtisar üzrə tarixi"* (24 may 1829), ***Abbasqulu ağa Bakıxanov***'un (1794-1847) *"Gülüstani-İrəm"* (1841), ***İsgəndər bəy Hacınski***'nin (1809-1878) *"Qubalı Fətəli xanın həyatı"* (1847), ***Mirzə Həsən əfəndi Əlqədari***'nin (1834-1910) *"Asari-Dağıstan"* (1890), ***Mirzə Cəbrayıl Süpehri***'nin (?-1.2.1902) *"Dərbəndnamə"* (1891) kimi tarix əsərləri, onlardan başqa da yenə xeyli xronika yazıldı.

Sözsüz, hansı niyyətlə ortaya qoyulmasından asılı olmayaraq, adı çəkilən və çəkilmyən bütün bu əsərlərin Bütöv Azərbaycan tarixinin öyrənilməsində müstəsna önəmi var və onları qələmə almış hər bir yazarın əməyini yalnız ən xoş sözlərlə anmağa borcluyuq, çünki bu gün Azərbaycan tarixinə dair araşdırmalar hər şeydən öncə məhz bu dayanıqlı özül üzərində qurulur. Çox sevindiricidir ki, bu özülü qoyan ustaların, Azərbaycan tarixşünaslığının ən şanlı səhifələrinə imza atanların içərisində Şəki tarixçiləri mühüm yer tutur.

[1] Гаси Абдуллаев. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку: Изд-во АН Азерб.ССР, 1965, s.41.



***

Şəki bilginlərinin, alimlərinin tarix kitabları yazmaqda böyük təcrübə və bacarığı var. Son 200 ildə xanzadə ***Kərim ağa Fateh***'dən (1788-1859) tutmuş professor ***Mahmud İsmayıl***'adək (1920-2001) çoxsaylı Azərbaycan tarixçiləri bu ulu torpağımızın yetişdirməsidir.

Şəkidə doğulmuş, uzun müddət yüksək ruhani vəzifələrində çalışmış görkəmli alim, Qur'anın dilimizə ilk tərcüməçisi (iki-cildlik *"Kitab əl-bəyan fi təfsir əl-Qur'an"*, Tiflis, 1908) ***Axund Hacı Məhəmmədhəsən İsmayıl oğlu Mövlazadə Şəkuyi*** qiymətli *"Tarixi-müqəddəs. Ənbiya əhvalatı"* (Tiflis, 1913) kitabının müəllifi, *"Əmirəlmöminin əleyhissəlamın Misir hakimi Malik Əştərə yazdığı əhdnamənin tərcüməsidir"* (Tiflis, 1910), Nəsuh Həsənin 2 cildlik *"Tərcümeyi-töhfeyi-Nəsuhiyyə fi əhvali-kürrətül-ərziyyə və hiyə coğrafiyə ümumiyyətüd-düvəlül-aləm"* (Bakı, 1904) əsərlərinin tərcüməçisidir. Bu əsərlərin hər biri öz çağında xalqımızın ictimai düşüncəsinə yetərincə güclü təsir göstərib və onlar öz yüksək elmi dəyərini bu gün də saxlamaqdadır.

Şəkidə[1], Gəncəli məhəlləsində doğulduğuna görə özünə ***"Gəncəvi"*** nisbəsi götürmüş[2] şeyxülislam ***Hacı Şeyx Həsən Mollazadə Gəncəvi*** (1853-1932) doğma türk dilində 4 cildlik *"Zübdətüt-təvarix"* ("Tarixlərin seçməsi") adlı möhtəşəm bir tarix əsəri yaradıb (I cild, Tiflis, 1905; II cild, Gəncə, 1909; III cild, Gəncə, 1913; IV cild, Gəncə, 1912) ki, həmin kitab istər müsəlman tarixini, istərsə də Ön Asiya, Qafqaz və Azərbaycan tarixini öyrənənlərçün indinin özündə də ən dəyərli qaynaqlardandır. Onu da bildirək ki, bu əsər Mövlazadənin çoxlu kitablarından yalnız biridir.

**Üzərində *"Azərbaycan tarixi"* yazılmış ilk kitabı (Bakı, 1923) Şəkidə doğulmuş[3] *Rəşid bəy Əsəd bəy oğlu İsmayılov*'un (1877-1941) yazdığını bildirmək də çox fərəhlidir.** Onun qələmindən çıxmış *"Müxtəsər Qafqaz tarixi və Zaqafqasiyada zühur edən məşhur türk ədib və şairlərinin müxtəsərən tərcümeyi-halları"* (Tiflis, 1904) əsəri də yüksək elmiliyiylə seçilir.

[1] Ə.N.Quluyev, İ.M.Həsənov, İ.V.Striqunov. XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı. Bakı: Azərnəşr, 1960, s.189.

[2] Mahmud İsmayılov. Şəki. Bakı: Azərnəşr, 1982, s.108.

[3] Yenə orada.

Görkəmli alim, Azərbaycan MEA-nın müxbir üzvü, professor, MEA Tarix İnstitutunun direktor müavini ***Mahmud Əlabbas oğlu İsmayıl***'ın (1.9.1920-16.8.2001) bütün əsərləri bir yana, *"Şəki"* (Bakı, 1982), *"Sənin ulu baban"* (Bakı, 1989), *"Azərbaycan tarixi"* (Bakı, 1993) monoqrafiyaları çağdaş Azərbaycan tarixşünaslığının qızıl fondunu bəzəyir.

Bu baxımdan yanaşdıqda **XIX yüzil salnaməçiləri içərisində də ilk yeri Şəki müəlliflərinin tutması tam qanunauyğundur.**

Maraqlıdır ki, bu çağ Azərbaycan tarixçilərinin öndəgedəni məhz ***Kərim ağa Fateh Şəkixanov***'dur - onun *"Şəki xanlarının ixtisar üzrə tarixi"* xronikası Abbasqulu ağa Bakıxanovun möhtəşəm *"Gülüstani-İrəm"*'indən 12 il, Mirzə Adıgözəl bəyin *"Qarabağnamə"*'sindənsə 16 il qabaq yazılıb. Söz yox, iş əsərin gec, ya tez yazılmasında yox, onun elmi dəyərindədir. Sevindiricidir ki, istər Fatehin, istərsə də başqa Şəki müəlliflərinin qələmindən çıxmış salnamələri çağdaş Azərbaycan tarixşünaslarının ən görkəmli nümayəndələri yüksək dəyərləndirib.

Şəkidə bir atalar sözü var: *"Dərin su bulanmaz"*[1]. Olduqca hikmətli kəlamdır! Yazılı tarixi qaynaqlarımız nə qədər çox olsa, tariximizi nə qədər dərindən öyrənsək, araşdırmaları nə qədər dərinə aparsaq keçmişimiz daha da durular, arınar, düşmənlərimiz tariximizi "bulandırmağı" bacarmaz!

***

1970-inci illərin sonunda aspiranturada oxuduğumuz zaman Şəki bölgəsi dialekt və şivələrinin materialları üzərində qurduğumuz namizədlik dissertasiyasını yazanda, təbii ki, yazılı qaynaqlardan da dil faktları götürməli olmuşduq. Şəki müəlliflərinin qələminə məxsus, indiki Əlyazmalar İnstitutunda saxlanılan əlyazmaları elə o çağda ərəb qrafikasından kirilə çevirərək üzünü köçürmüş, bu zaman əlyazmalarda gördüyümüz bir çox maddeyi-tarixləri də toplayaraq sistemləşdirmiş, bütün bunları makinadan da çıxararaq nəşrə hazır saxlamışdıq.

---

1 Azərbaycan folkloru antologiyası. VI kitab. Şəki folkloru. II cild. Toplayan və tərtib edən: Hikmət Əbdülhəlimov. Bakı: Səda, 2002, s.57.



Artıq Əlyazmalar İnstitutunda çalışdığımız zaman iş yoldaşımız, tarix elmləri namizədi ***Akif Fərzəli*** *"Qarabağnamələr"*'i tərtib edərək "Yazıçı" nəşriyyyatında buraxdırdı (1989). O, bildirdi ki, Azərbaycanın başqa xanlıqları haqqındakı salnamələri də beləcə basdırmaq istəyir. Bu məqsədlə indi bu kitabda verdiyimiz bir sıra əsərlərin əlyazmasını bizdən götürdü, ancaq hansı nədənləsə həmin nəşr gerçəkləşmədi. Aradan bir müddət ötdü, Akif bəy köçüb Sankt-Peterburqa getdi, biz də Akademiyadan çıxdıq. Bakıya gəlişlərinin birində həmin əlyazmaların taleyini Akif bəydən soruşduq; kitabı nəşr etdirə bilmədiyini, verdiyimiz əlyazmalarısa itirdiyini söylədi...

Aradan çox illər keçsə də həmin əlyazmaları nəşr etdirməyə özümüz nə vaxt, nə də imkan tapa bildik. Ulu Tanrıya min şükür ki, indi həmin vaxt və imkan əlimizə düşüb. O zaman nəşrə hazırladığımız əlyazmaların üzərində son bir ildə yenidən xeyli işlədik, oğlu *Mustafa ağa Şuxi*'nin *Kərim ağa Fateh*'in ömürlüyü haqqında yazısını, *Mirabbas Mirbağırzadə* və *Ələşrəf Kərimov/İsmayılov*'un indiyədək tarixçilərimizin gözündən yayınmış əsərlərini də ərəb qrafikasından çevirərək buraya artırdıq, onların hamısına çoxlu aydınlatmalar və qeydlər verdik.

Söz yox ki, buradakı qaynaqları ideal saymaqdan, onların bütün mühüm hadisələri əhatə etdiyini söyləməkdən uzağıq. Əksinə, hətta bəzi başqa əsərlərdə oxuduğumuz bir sıra tutarqalarla bunlarda üzləşmirik. Məsələn, bir sıra tarix əsərlərində Şəki hakimləri ***İsa xan*** (1578-in hadisələriylə bağlı), ***Şahəmir xan*** (1593-1601-inci illər), ***Əli sultan Saxuri (Zaxurlu Əli sultan)*** (1720-ci illər) kimi gerçək şəxslərin adları dönə-dönə çəkilsə də "bizim" müəlliflərdə onlar, demək olar ki, unudulub. Belə iradların sayını yəqin ki, yenə artırmaq olardı. Ancaq biz bu kitaba salınmış xronikaların elmi dəyərini aşağı salmağın da qəti əleyhinəyik və inanırıq ki, onlar həm Şəki bölgəsinin, həm də bütövlükdə Azərbaycanın sənədli tarixini hazırlamaq, indiyədək ortalıqda olan mətnlərə tənqidi yanaşmaq işində tarixçilərimizə əvəzedilməz yardımçı olacaq.

***

Bu salnamələri yazanların kimliyinin üzə çıxarılması da tarixşünaslıq baxımından çox önəmlidir. Aşağıda bu vacib məsələyə, eləcə də qaynaqları haradan götürdüyümüzə və onların üzərində necə işləməyimizə aydınlıq gətirməyə çalışacağıq.

## MUSTAFA AĞA ŞUXİ.
## KƏRİM AĞA FATEHİN TƏRCÜMEYİ-HALI.

***Fətəli xan Möhnəti***'nin oğlu ***Kərim ağa Fateh***'in oğlu ***Mustafa ağa Şuxi***'ni (?-oktyabr 1895) çar hökuməti hicri 1274-də (miladi 1857/58-də) atasından alaraq Peterburqa girov aparıb. Orada hərbi təhsil alan Mustafa ağa *kornet*[1] çininə yüksəlib.

Şəkili alim ***Böyük Salman Mümtaz*** (1884-1941) yazır: *«Kərim ağanın babası şair olduğu kimi, atası və oğlu Mustafa ağa da şair idi. Fəthəli xanın qollandığı məxləs*[2] *"Möhnəti", Mustafa ağanınkı da "Şuxi"dir»*[3].

Salman Mümtaz başqa bir qaynaqda Mustafa ağa haqqında belə qısa bilgi verir:

*"Mustafa ağa dört il kanvoyluq*[4] *eləyib. 1857-ci tarixdə kanvoyluğa apar[ıl]ıb, [18]61-də karnet [çini] alıb qayıtdı. Karnetdən qayıtdığı zaman Şəkidə murov pamoşnikliyi elədi. Təxminən beş il bu xidmətdə qaldı. Mustafa ağa əvaxiri-ömrüsünü Qaraqosı*[5] *adnalı kəndisinə məxsus kəndində keçirmiş və orada da fücətən*[6] *vəfat etmişdir. Sonra cənazəsini Şəkiyə gətirib Hüseyn xan məscidinin həyətində Kərim ağa Fatehin qəbrinin yanında dəfn etmişlər"*[7].

Mustafa ağa Şuxinin də şerlərinə həyat vermiş S.Mümtaz onun bir neçə şerini özünün *"Azərbaycan ədəbiyyatı"* silsilə kitablarının 12-ci sayına (ss.120-122) salıb. Hacı Seyid Əbdülhəmidin *"Şəki xanları və onların nəsilləri"* əsərində (Bakı, 1930,

---

[1] *Kornet* süvari qoşunda bölük (rota) bayrağını aparan kiçik zabitdir.

[2] İşlətdiyi təxəllüs.

[3] Salman Mümtaz. Tənqid və mülahizələr. "Şəki xanlarının ixtisar üzrə tarixi". - "Maarif işçisi", 1929, №№2-3 (43-44), s.89.

[4] Konvoy məhbusları qoruyan və müşayiət edən hərbçiyə deyilir.

[5] Bizcə, katib yanlışlığı baş verib, çünki Şəkidə bu adda kənd olmayıb. Yəqin ki, "Qaraqoyun(lu)" (indiki: Çay Qaraqoyunlu) yazılmalıydı.

[6] Qəflətən.

[7] Əlyazmalar İnstitutu, arx. 38, 1-2/78.



s.9) Mustafa ağanın *"türkcə divanı qeyri-mətbudur"* deməsi S.Mümtazın həmin divanla[1] tanışlığını göstərir.

Azman araşdırıcımız ***Firidun bəy Köçərli*** (1863-1920) də özünün məşhur *"Azərbaycan türklərinin ədəbiyyatı"* kitabında (bu əsər sovet dövründə *"Azərbaycan ədəbiyyatı"* adıyla buraxılıb) Mustafa ağa Şuxiyə ayrıca yer ayırıb[2], onun şerlərindən örnəklər verib.

Mustafa ağanı *"validi-büzürgüvarı kimi mərifət və kamal sahibi, möhtərəm bir şəxs", "ziyadə dindar və millət təəssübü çəkən bir vücud"* kimi dəyərləndirən Firidun bəy göstərir ki, Mustafa ağa *"əksər övqat məclisini ürəfavü şüəralar ilə təzyin edərmiş*[3]*. Zindəganlığının ibtidasında dövlətmənd olub, axır vaxtlarda bir az kasıb düşübdür və özünə mütəəlliq olan əmlakın mədaxili ilə güzəran edərmiş"*[4].

Firidun bəy onun Şəki şəhərində ***cəmadiyül-əvvəl 1312-də (oktyabr 1895-də)*** vəfat etdiyini bildirir[5] və biz bu tarixə inanırıq.

Daha çox böyük şair kimi tanıdığımız görkəmli alim ***Seyid Əzim Şirvani*** (1835-1888) də özünün *"Təzkirə"*sində Şuxinin türkcə 6 qəzəlini və Şəki şəhərinin tərifi haqqında 20 beytlik dəyərli qəsidəsini verib[6].

Şuxinin yazdığı *"Kərim ağa Fatehin tərcümeyi-halı"*nı Əlyazmalar İnstitutunda saxlanılan əlyazmadan götürmüşük. Yazılma tarixi bəlli olmasa da əsərin **1861-dən sonra** qələmə alındığını deyə bilərik.

---

[1] Əlyazmalar İnstitutunda Şuxinin M-125/13619 və B-2584/4209 şifrəli iki divanı var (heç biri nəşr edilməyib). M-125/13619 şifrəli divanı müəllif *"tarixi-hicrətən-nəbəvi fi 27 mahi-rəbiül-əvvəl 1308 və dər hesabi-məsihiyyə fi 29 mahi-oktobr* (yeni üslubla: 10 noyabr - Ə.T.) *1890"*-da, B-2584/4209 şifrəli divanısa *"tarixi- hicrətən-nəbəvi fi əvvəli-mahi-rəbiüs-sani 1310 və dər hesabi- məsihiyyə fi 11 mahi-oktobr* (yeni üslubla: 22 oktyabr - Ə.T.) *səneyi-milad 1892"*-də ***öz əliylə köçürüb.*** F.B.Köçərli əsərinə şərhlərdə 11 oktyabr 1892 yanlış olaraq Şuxinin ölüm tarixi kimi göstərilib (*Azərbaycan ədəbiyyatı, II cild*, s.424, 419-uncu qeyd).

[2] F.B.Köçərli. Azərbaycan ədəbiyyatı. II cild. Bakı: Elm, 1981, ss.270-274.

[3]Ariflər və şairlərlə bəzəyərmiş.

[4] F.B.Köçərli, II cild, s.270.

[5] Yenə orada, s.273.

[6] S.Ə.Şirvani. Əsərləri. III cild. Bakı: Elm, 1974, ss.154-156. Şəki şəhəri haqqında qəsidənin əsli Şuxinin B-2584/4209 şifrəli divanındadır (s.181).

## KƏRİM AĞA FATEH.
## ŞƏKİ XANLARININ İXTİSAR ÜZRƏ TARİXİ.

Şəki xanı Fətəli xanın oğlu ***Kərim ağa Fateh Şəkixanov*** (h.1202-8.6.1275/m.1788-13.1.1859) haqqında ilk ən geniş və doğru məlumat azman ədəbiyyatşünasımız ***Firidun bəy Köçərli***'nin (1863-1920) məşhur *"Azərbaycan türklərinin ədəbiyyatı"* kitabındadır. Kərim ağa Fatehə ayrıca məqalə həsr edən Firidun bəy burada onun 2 qəzəlini də verib[1].

Firidun bəy yazır: «*Kərim ağa ibn Fətəli xan "Fateh" təxəllüs Şəki şairlərinin bərgüzidələrindən birisi hesab olunur. Kərim ağa Şəki xanlarının xanədanından olmağa görə, nəcib və alitəb bir zat imiş; familiyiası - Şəkixanov. Mirzə Fətəlinin müasiri olubdur və onun xatirini əziz tutarmış və hər dəm ləyaqətli töhfələrlə Mirzəni yad edərmiş.*

*Fətəli xan Şəkidə xanlıq edən zamanı hicrətin 1235-ci salında[2] Şəki vilayəti Rusiyanın təhti-təsərrüfünə keçdi və Fətəli xan rus dövləti tərəfindən təsdiq olundu.*

*Fətəli xanın fərzəndi-ərcüməndi Kərim ağa atasının təhti-himayəsində nəşvü nüma tapıb, gözəl təlim və tərbiyə almışdır. Fars və ərəbcə yaxşı savadı var imiş. Təbi-səlim sahibi imiş. Özləri əhli-kəmal və sahibi-hal olduğu üçün üləma sinfini, üdəba və şüərani ziyadə dost tutarmış və müdam məclisini onların vücudu ilə müzəyyən qılıb həqiqi xan tərzində güzəran edərmiş.*

*Kərim ağa Fateh hicrətin 1274-cü tarixində[3] Nuxa şəhərində yetmiş beş sinlərində vəfat edibdir[4].*

*Fatehin öz əsərlərindən cəm olunmuş mükəmməl bir divanı vardır və lakin təb olunmamışdır. Əsərlərinin çoxu fars dilindədir, türkcə olanı bunlardır ki, dərc olunur*»[5].

---

[1] F.B.Köçərli. Azərbaycan ədəbiyyatı. I cild. Bakı: Elm, 1978, ss.466-467.

[2] Miladi 1819-da.

[3] Miladi 1857/58-də.

[4] Bizcə, bu kitabda verilmiş 85-inci maddeyi-tarixdəki vəfat tarixi (13.1.1859) daha doğrudur.

[5] Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. I cild. Bakı: Elm, 1978, s.466.



Kərim ağanın türkcə 2 qəzəlini verdikdən sonra Firidun bəy yazır: *"Mərhum Kərim ağa Fatehin burada təstir olunmuş hər iki əsəri onun alim və sahibi-təbi-səlim olduğunu göstərir. Əvvəlinci kəlam - ki, Fateh peyğəmbəri-valatəbarımızın şəni-aliləri vəsfində deyibdir - Nabi əfəndinin[1] kəlamına bənzəyir. Onun ikinci kəlamı müasiri olan Qasım bəy Zakirin kəlamına oxşayır. Əfsus ki, Fateh türk dilində başqa əsərlər vücuda gətirməyibdir; gətiribsə də onlardan bizim əlimizə düşən olmadı"*[2].

Kərim ağa Fateh haqqındakı bir cızma-qaramızda[3] onun türkcə başqa əsərlərinin olduğunu göstərmişik. Bu əsərlər içərisində, söz yox ki, ən dəyərlisisə tərtəmiz türkcə yazdığı ***"Şəki xanlarının ixtisar üzrə tarixi"***dir.

**24 may 1829-da** qələmə alınmış bu *"Tarix"*'i (əsəri qısaca belə adlandıracağıq) ilk dəfə müəllifin öz sağlığında - 1858-də Sankt-Peterburqda akademik *Bernqard Dorn* (1805-1881) əlyazmadan götürərək *"Auszüge aus muhammedanischen Schriftstellern..."* kitabında verib[4]. Əsər burada 515-531-inci səhifələrdə ***"Şəki xanlarının ixtisar üzrə tarixi. Qazi Əbdüllətif əfəndi təsnifidir"*** başlığıyla təqdim olunub.

Dorn yazır: *"Bu qısa tarixi nəşr etməyi ona görə qərara aldım ki, bilmirəm onu yaxın gələcəkdə 6-cı hissəsini 1854-üncü ildə* ***"Tarixi-filoloji jurnal"****a təqdim etdiyim "Qafqaz" adı altında sonadək işləyə biləcəyəmmi"*[5].

Söz yox ki, B.Dornun əməyi dəyərlidir. Bununla belə, onun nəşrində ciddi əyintilər də var. Onlardan birincisi və ən böyüyü akademikin əsərin yazarını düzgün aydınlaşdırmayaraq *"Qazi Əbdüllətif əfəndi təsnifidir"* göstərməsidir. Bu yanlışlığın səbəb-

---

[1] Böyük türk şairi Yusif Çələbi Nabi (1642-1712).

[2] F.B.Köçərli. Azərbaycan ədəbiyyatı, I cild, s.467.

[3] Ədalət Tahirzadə. Kərim ağa Fatehin həyat və yaradıcılığından qeydlər. - *"Əlyazmalar xəzinəsində"* toplusu, VIII cild. Bakı: Elm, 1987, ss.55-63.

[4] B.Dorn. Auszüge aus muhammedanischen Schriftstellern, betreffend die Geschichte und Geographie der südlichen Küstenländer des Kaspischen Meers, nebst einer kurzen Geschichte der Chane von Scheki. St.Petersburg. Buchdrucrei der Keiserlichen Akademie der Wissenschaften. 1858.

[5] B.Dorn. Auszüge aus muhammedanischen Schriftstellern..., s.12.

karı N.V.Xanıkov (1819-1878) olub. Dorn yazır: «...*Xanıkov 1858-inci ildə mənə bu əsərin tərtibçisi haqqında aşağıdakıları yazdı:* ***"Şəkinin kiçik tarixinin müəllifi mənim dostum, Nuxa şəhərinin irsən qazisi Hacı Əbdüllətif əfəndi Hacı Səlim oğlundan başqa heç kəs ola bilməz. Bu, indi altmış yaşlı bir adamdır. O, ərəb dilini yetərincə yaxşı bilir və fars poeziyasıyla çox məşğul olub. 1845 və 1846-cı illərdə İstanbul, Misir və Məkkəyə ziyarət edib, Suriya, Bağdad, Qezbelu, Həmədan, Tehran, Təbriz və Şuşadan keçərək öz yurduna dönüb..."***»[1].

Deyilənə bütünlüklə inanan Dorn, görünür, ya türk dilini bilməyib, ya da əsəri oxumayıb; axı əsərin sonunda Çələbi xanın soykötüyünə (şəcərəsinə) baxan kimi müəllifin kimliyi özözünə ortalığa çıxır.

B.Dorn nəşrinin ikinci əyintisi əlyazmanın düzgün oxunmaması üzündən çoxlu yanlışlığa yol verilməsidir. Məsələn, bir neçə yerdə اما (*"əmma"*) sözünün üstündə qoyulan təşdid iki nöqtəyə bənzədilib və söz اغا (*"ağa"*) kimi oxunub. Bundan başqa, nöqtəylə seçilən hərflərin qarışdırılması üzündən *"bunları qovubdurlar"* yerinə *"yolların qurubdurlar"*, *"Hacı Şıxəli"* yerinə *"Hacı Şıxqulu"*, *"deyər mənim"* yerinə *"vermənəm"*... kimi çoxlu qaba yanlışlıqlar özünə yer tapıb.

Azərbaycanı Öyrənən Cəmiyyət (Tədqiq və Tətəbbö Cəmiyyəti) əsəri 1926-da Dornun həmin nəşrindən götürərək dəyişmədən (ancaq bir neçə dolaşıqlıq da artırmaqla) prof. *N.İ.Aşmarin*'in (1870-1933) giriş sözüylə türkcəmizdə və rusca yayınlayıb[2]. Bu nəşr Dornunkundan heç bir üstünlüyüylə seçilmir.

Deməli, ***Kərim ağa Fatehin "Şəki xanlarının ixtisar üzrə tarixi"* 1858-dən 1926-yadək iki dəfə nəşr olunub.** 68 üstəgəl 3 - ilk nəşrdən son nəşrəcən olan 68 və ondan sonrakı 3 il. Bu 71 illik zaman içərisində *"Tarix"*'in gerçək yazarı bilinməyib, o, oxuculara *Qazi Əbdüllətif əfəndi*'nin əsəri kimi tanıdılıb.

Kərim ağa Fatehin müəllifliyi yalnız 1929-da aydınlaşdırılıb. Aydınlaşdırıcınınsa yenə ***Böyük Salman Mümtaz***'ın (1884-1941) olması bütünlüklə təbiidir. O, *"Maarif işçisi"* dərgisin-

[1] Yenə orada.

[2] Əbdüllətif əfəndi. Şəki xanlarının ixtisar üzrə tarixi. - Azərbaycan tarixinə dair materiallar. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin nəşriyyatı. Bakı, 1926.



dəki çox dəyərli yazısında[1] *"Tarix"*'in əsl müəllifini üzə çıxarıb[2].

Salman Mümtaz yazır: *"Bizcə, Xanıkov, Dorn, Səniidövlə, Aşmarin və Azərbaycanı Tədqiq və Tətəbbö Edən Cəmiyyətin elmi katibi [A.R.]Zifeldt və təqribən bir əsrdən bəri bunlardan iqtibas və istifadədə bulunan şəxslər də tamamilə yanılaraq xətaya uğramışlar. Buna da ilk əvvəl Xanıkov və Dorn bais olmuşdur. Birincisi əsərin müəllifini tanımamış, ikincisi də tarixçəyi tədqiq etmədə iqtidarsız olmuşdur. Bubirilər də onlar kibi..."*.

Salman Mümtaz qabaqca *Qazi Əbdüllətif*'in Hacı Səlim əfəndinin deyil, *Hacı Əbdüssalam əfəndi*'nin oğlu olduğunu aydınlaşdırır. Bununçün o, Şəki şəhərindəki *Qazılar* qəbiristanlığında olan üç başdaşından köçürdüyü yazılara əsaslanır. Sonra göstərir ki, *"Tarix"*'i hansı müəllifin yazdığını *"ilk əvvəl əsərin özündən axtarıb tapmalıyız. Çünki müəllif əsərinin içərisində bu nöqtəyi aydınlaşdırmaq üçün beş yerdə lazım dərəcədə məlumat vermişdir"*.

S.Mümtaz sözünə davam edərək yazır: «*Müəllif dəfələrlə Fətəli xan adlı bir şəxsin oğlu olduğunu qeyd edir. Sonra atasının Məhəmmədhəsən xan ismində bir adamla qardaş olduğunu anlatmaqla bərabər, Hüseyn xanın istəkli oğlu olmaq münasibətilə gözlərinin çıxarılıb dusdaq edildiyini aydınladır. Məsələyi bir az da parlatmaq üçün atasının xan seçildiyini və iki-üç aylıq xanlıq etməsini də nişan verməddir. Nəhayət, dostluq möhkəm olmaq üçün özünün Şirvana göndərildiyini və Cəfərqulu xan əyyamı Şəkiyə gəldiyini söyləyir. Bu istixrac və çıxarışlardan bəlli olur ki, tarixçənin müəllifi Şəki xanlarının sonuncusu olan Fətəli xanın oğlu Kərim ağadır. İbrahim bəg, Puri-Pələng ilə Göynüklü Şikəst Əhməd əfəndinin şerləri də sözümüzü qüvvətləndirmədədürlər...*

*...Xülasə, ...**tarixçənin müəllifi Hacı Əbdüssalam oğlu Əbdüllətif olmayub "Fateh" təxəllüs Kərim ağa Şəkixanovdur** ki, hələ gənc ikən yazmışdır*».

[1] Salman Mümtaz. Tənqid və mülahizələr. "Şəki xanlarının ixtisar üzrə tarixi". - *"Maarif işçisi"*, 1929, №№2-3 (43-44), ss.85-90.

[2] 1937-də "gedərgəlməzə" göndərilmiş S.Mümtazın yazısını tarixçi Ənvər Şükürzadə aradan 22 il keçəndən sonra dəyişdirərək öz adından buraxdırıb. (Bax: «Об авторстве "Истории Шекинских ханов"». *"Azərb. SSR EA Məruzələri"*. 1951, №1, ss.43-45).

Bundan sonra oxuyuruq: «*Təəssüf ki, yanılan mühüm şəxsiyyətlərin sırasında İranın məşhur ədiblərindən sayılan Mirzə Məhəmmədhəsən xan Səniidövlə də durur. Bu qiymətli alim əslən marağalı və azəri türkü olduğu halda, nədənsə, türkcə yazılmış bu tarixçəyi tədqiq etməmiş və öylədə də Xanıkova, Dorna uyaraq aldanmışdır. Səniidövlə təb və nəşr etdiyi "Miratül-büldan" adlı kitabında Car vilayətindən bəhs etmək istərkən işbu sətirləri yazır: "Dər tarix-e xəvanin-e Şəki, ke bər zəban-e torki və əz mosənnefat-e Ğazi Əbdollətef əfəndist, esm-e Car betəkrar zekr şode əst"[1] (c.4, s.28)*».

***"Şəki xanlarının ixtisar üzrə tarixi"* Fatehin adı altında ilk nəşrdən 100 il sonra - 1958-də buraxılıb**[2]. Əsərin əhəmiyyətini və bədii dəyərini düzgün qiymətləndirən redaktor F.Babayev transliterasiya zamanı bu qiymətli abidənin dilini olduğu kimi saxlamağa çalışıb, bütünlükdəsə *"Tarix"*in uğurlu bir nəşrini ortaya qoymağı bacarıb. Ancaq mətn ilk qaynaqdan - *Dorn nəşrindən götürüldüyünə görə* oradakı yanlışlıqlar eynilə buraya da köçürülüb. (Söz yox ki, buna görə redaktoru qınamaq olmaz, axı bu yanlışlıqları düzəltməkçün onun əlində başqa qaynaq yoxdu).

Bəli, Kərim ağa Fatehin *"Şəki xanlarının ixtisar üzrə tarixi"* əsərinin indiyədək yalnız bir - Dornun 1858-də nəşr etdirdiyi əlyazması bəlliydi[3]. Ancaq hələ aspirantlıq çağımızda - 1979-un oktyabrında Əlyazmalar İnstitutumuzda ***əsərin daha iki əlyazma nüsxəsini üzə çıxararaq*** transliterasiya etmişdik. *Əbdülcabbar Əliyev*'in 1964-də buraya verdiyi ***B-5184/26540 şifrəli*** əlyazma ***Dornun yararlandığı nüsxədən daha bitkindir.*** Bir neçə sözün düzgün oxunmamasından (məsələn, *"Təbriz"* yerinə *"Tərtər"*, *"Nebolsin"* yerinə *"Nebosin"* yazılıb), kağızının yeniliyindən orijinal yox, köçürmə olduğu bilinir. Köçürənin adı, köçürülmə tarixi göstərilməyib. ***Əsərin adı da yoxdur.*** Nəstəliq xəttiylə çox səliqəli yazılıb. 25 səhifəlik əlyazmanın başlanğıcında ***Dornun nəşrində bulunmayan*** bu bir neçə cümlə var:

[1] Çevirməsi: *"Qazi Əbdüllətif əfəndinin yazdığı türkcə Şəki xanlarının tarixində Carın adı dəfələrlə çəkilib"*.

[2] Şəki xanlığının tarixindən. Redaktoru F.Babayev. Azərbaycan SSR EA nəşriyyatı. Bakı, 1958.

[3] Dorn göstərir ki, həmin əlyazma Asiya muzeyindədir.



46659

*"Buyurmuşdunuz ki, Şəki vilayətində olan bir para xan və xanzadələrin əslü nəcabətin və bir para vaqeat böyük əhvallardan teyişib, həqiqət edib, doğruluq ilə yazıb hüzurunuza izhar edək. Mən də böyük, köhnə adamlardan teyişib və həqiqət edib, bir para xan və xanzadələrin əslü nəcabətin və bir para da böyük vaqeatlardan doğruluq ilə yazıb zeyldə yazılan qərar üzrə hüzurunuza izhar elədim..."*.

Bizcə, bu nüsxənin birbaşa ***orijinaldan köçürüldüyünü*** demək olar, çünki göstərdiyimiz parça yalnız ilk qaynaqda ola bilərdi. Dornun nəşrisə, göründüyü kimi, yarımçıqdır; göstərilən yerin yoxluğu və yanlışlıqların çoxluğu onun orijinaldan uzaq əlyazmadan köçürüldüyünü bildirir.

Əsərin başlığından gətirdiyimiz kiçik parça *"Tarix"*'in yazılma səbəbini də az-çox aydınlaşdırır. Deməli, Kərim ağa onu, necə deyərlər, özxoşuna yox, kiminsə göstərişi, buyruğuyla yazıb. Buyuran, çox güman ki, Qafqaz canişinidir. Bəllidir ki, Mirzə Camal Cavanşir Qarabaği (1773-1853) də *"Qarabağnamə"*sini məhz canişin *M.S.Voronsov*'un tapşırığıyla qələmə almışdı (1847). Fatehin *"Tarix"*'i yazılan ildəsə (1829) Qafqaz canişini *İ.F.Paskeviç*'di (o, 1827-1856 arası bu vəzifədə olub); deməli, ***Kərim ağa Fatehin də "Şəki xanlarının ixtisar üzrə tarixi"ni Paskeviçin buyruğuyla yazdığını düşünə bilərik.***

Maraqlıdır ki, elə B-5184/26540 şifrəli əlyazmadan köçürüldüyünü aydınlaşdırdığımız B-6134/7448 şifrəli 23 səhifəlik (12 vərəq), çox səliqəsiz yazılmış ***başqa bir nüsxə*** hələ 1941-də ozamankı Əlyazmalar Fonduna verilib. Bu iki nüsxə arasında ayrıntılı yerlər də var. Məsələn, *"mən"* yazılan yerlər ikinci nüsxədə atılıb, *Cəfərqulu xan*'dan sonra oğlu *İsmayıl xan*'ın xanlıq etdiyi göstərilib və *Hacı Çələbi xan*'ın soykötüyünə *Abdulla ağa, Əbdürrəhim ağa, Haşım ağa, Kərim ağa (Fateh)* və *Mahmud ağa*'nın oğullarının da adları artırılıb.

## MUSTAFA AĞA ŞUXİ. NUXU XANLARININ KEÇMİŞ ƏHVALATININ HEKAYƏTİ (HEKAYƏTİ-ƏHVALATİ-SABİĞEYİ-XƏVANİNİ-NUXU).

Əlyazmalar İnstitutunda saxlanılan B-3159/13840 şifrəli *«Hekayəti-əhvalati-sabiğeyi-xəvanini-Nuxu» («Nuxu xanlarının keçmiş əhvalatının hekayəti»)* adlı türkcə əsər (qısaca: *«Heka*



M.F.Axundov

*yət») 1283-ün cəmadiyül-axir ayında (oktyabr 1866)* yazılıb. **Üstündə müəllifin adı yoxdursa da biz onu Mustafa ağa Şuxinin əsəri sayırıq.** Niyə?

1) İ.L.Seqal 1902-də «Kavkazski vestnik» məcmuəsində Şəki tarixinə dair bir xronika dərc etdirib[1]. Əsərə sərbəst yanaşaraq onu öz sözləriylə verən Seqal Kərim ağa Fatehin oğlu *Mustafa ağa Şuxi*'nin (?-1895) adını çəkərək bildirir: «Şəki xanlığının tarixini o yazıb».

Seqalın nəşriylə «Hekayət»in əlyazmasını diqqətlə tutuşdurduqdan sonra aydınlaşdırdıq ki, onun Mustafa ağa Şuxinin adına yazdığı xronika məhz bu «Hekayət»dir.

Fikrimizi aşağıdakı tutarqalar da bir daha təsdiqləyir.

2) «Hekayət»lə ötəri tanışlıqdan aydınlaşır ki, bu əsərin yazarında Kərim ağa Fateh «Tarix»inin əlyazması olub və o, «Tarix»dən geniş yararlanıb. Kərim ağanın əlyazması onun ailə üzvündə ola bilərdi, bu şəxssə atasının bütün arxivini qoruyub saxlamış sevimli oğlu Mustafa ağadır.

3) *«Hekayət»*də həm özündən qabaqkı Kərim ağanın *«Tarix»*ində, həm də özündən sonrakı Hacı Seyid Əbdülhəmidin *«Şəki xanları»*nda bulunmayan bir çox yeni tutarqalarla üzləşirik. Məsələn, *Şəki xan*'ın oğlu Həsən sultan, Dərviş Məhəmməd xan haqqındakı geniş məlumat başqa qaynaqlarda yoxdur. Məhəmmədhəsən xanın Qubadan çıxıb Qazıqumuqlu *Surxay xan*'ın yanına getməsi, Surxay xanın Dağıstan qoşunlarını yığaraq Məhəmmədhəsən xanı götürüb Şəkiyə xan tikməyə gətirməsi haqqında qeyd də yalnız buradadır. «Hekayət»dən xüsusən Məhəmmədhəsən xan, Səlim xan və onlardan sonrakı xanların yaşayışının son çağları haqqında çox dəyərli bilgilər alırıq. Şəkidə hicri 848 (m.1444/45)-dən qabaq xan (hakim) olmaması haqqında fikir də ilk dəfə bu əsərdə deyilib. Şəki xanlarının övladları haqqında ən geniş və doğru bilgi də məhz «Hekayət»də verilir.

[1] И.Л. Сегаль. Елисаветпольская губерния. Впечатления и воспоминания. (Отдельный оттиск из журнала "Кавказский вестник" за 1902 г.). Тифлис, 1902, ss. 4-12.



Bütün bu göstərdiklərimizi yalnız xan ailəsindən çıxmış ən məlumatlı şəxs yaza bilərdi ki, o da, bizcə, Mustafa ağa Şuxidir.

4) Atasının əsərindən sonra yeni bir salnamə yazmağı Mustafa ağadan, fikrimizcə, yenə rus məmurları xahiş edib və o, atasının 35 il qabaq yazdığı xronikadan yararlanmaqla ən yeni, ən son bilgiləri ortalığa qoyub.

Mustafa ağa Şuxinin *«Hekayət»*də məhz Kərim ağa *«Tarix»*indən yararlanmasına gəlincə, bu fikri hər iki əsərdəki bir çox cümlələrin az qala üst-üstə düşməsi də təsdiqləyir. Məsələn, «Tarix»də yazılır: *«...Şahın qabağında pişxidmətin ururlar»*. «Hekayət»dəsə deyilir: *«...Şahın pişgahında pişxidmətin tüfəng ilə atıb urubdurlar»*. Örnəklərin sayını artıra bilərik.

**Kərim ağa Fatehin *"Tarix"*indən sonra yazılmış *"Hekayəti-əhvalati-sabiğeyi-xəvanini-Nuxu"* əsəri Hacı Seyid Əbdülhəmidin *"Şəki xanları"*ndan qabaq yazılıb və *"Tarix"* *"Hekayət"*çün, *"Hekayət"*sə *"Şəki xanları"*yçün ilkin qaynaq olub.**

Bu gerçəklik üç əsəri tutuşdurarkən istər-istəməz ortaya çıxır. Tutuşdurmadan həm də aydınlaşır ki:

- *"Hekayət"* tarixləri və hadisələri *"Tarix"*dən geninə-boluna mənimsəyib;
- H.S.Əbdülhəmid Kərim ağa *"Tarix"*indən tam xəbərsizdir (görsəydi ondakı bir çox tarix və faktlardan hökmən yararlanar, yanlış tarixlərə üz tutmazdı), *"Hekayət"*dənsə yetərincə istifadə edib.

Sözümüz havadan asılı qalmasın deyə aşağıdakı örnəklərə baxaq.

**"Tarix"**: *"...Tarixi-islamyyə min yüz əlli altıda olanda Hacı Çələbini özlərinə hakim edib, Gələsən-görəsən(d)ə gedib sığnaq elərlər".*

**"Hekayət"**: *"Səneyi-islamiyyə 1156[-cı] ildə Hacı Çələbi Nuxuda xan olubdur".*

**"Şəki xanları"** (tarix göstərilmədən): *"Bədə xəlayiq Çələbini xan nəsb edibdirlər".*

***

**"Tarix":** *"Hacı Çələbi xan on iki il hakimlik edib, tarixi-islamiyyə min yüz altmış səkkizdə olanda mərhum olubdur".*

**"Hekayət":** *"Hacı Çələbi öz əcəliylə,* ***azarlayıb*** *Nuxuda* ***vəfat edibdir*** *səneyi-islamiyyə 1168 sənədə".*

**"Şəki xanları":** *"Ondan bir müddət sonra Hacı Çələbi xan* ***azarlayıb vəfat edibdir*** *1168-inci sənə".*

***

**"Tarix":** *"Hacı Çələbi çoq böyük olub.* ***Təbriz vilayətinə kibi*** *buna qulluq edibdirlər".*

**"Hekayət":** *"Hətta Hacı Çələbi Nuxudan qoşun götürüb* ***Təbriz vilayətinədəkin gedibdir".***

**"Şəki xanları":** *"Hacı Çələbi xan da qoşun götürüb İrana -* ***Təbrizədəkin gedibdir...".***

***

**"Tarix":** *"Məhəmməd xan Nuxuya gəlib. Hacı Çələbinin çoq pulunun və xəzinəsinin yerini [ona] deyibdirlər, yerdən çıqarıb. Nuxuda çoq zülmlər edib".*

**"Hekayət":** *"Ağaməhəmməd xan məzkur bir neçə vaxt Nuxuda hökumət edib, Nuxuda xanların* ***dəfn olunan pullarını*** *çıxartdırıb, nuxululara çox zülmlər edibdir".*

**"Şəki xanları":** *"Gəlib Nuxunu zəbt edib və Hacı Çələbi xanın* ***mədfunat pulların*** *çıkardır".*

***

**"Hekayət":** *"****Dəvəli SərdarMustafa xan*** *da gəlib* ***Xaçmaz mahalında*** *Padar qəryəsi həvaləsində* ***Hacı Pirəhməd çəməniylə mövsüm olan yerdə nüzul edibdir".***

**"Şəki xanları":** *"Bu halda da İran sərdarı* ***Dəvəli Mustafa xan*** *külli qoşunla Şəkiyə gəlib,* ***Xaçmaz mahalında Hacı Pirəhməd çəməniylə mövsüm yerdə nüzul edib*** *mütəməkkin olubdur".*

***

**"Hekayət":** *"Şıxəli bəy məzkur Nuxuya varid olmamış yolda* ***Fətəli xanın Nuxuda xan olmağın eşidib yoldan qayıdıb.*** *Şirvana gedib, Fətəli xanın Nuxuda xan olmağı* ***əhvalatın Mustafa xana məlum edibdir".***

**"Şəki xanları":** *"Məzkur Şeyxəli bəy* ***Fətəli xanın Nuxuda xan olmağın eşidib, yoldan qayıdıb*** *Şamaxıya gedib, o* ***əhvalatı Mustafa xana məlum edibdir".***

Bizcə, bu örnəklər sözügedən üç əsər arasındakı varisliyin ardıcıllığını izləməyə yetərlidir.

## HACI SEYİD ƏBDÜLHƏMİD. ŞƏKİ XANLARI VƏ ONLARIN NƏSİLLƏRİ (DƏR BƏYANİ-ƏHVALAT VƏ SİLSİLEYİ-XƏVANİNİ-SƏLƏFİ-ŞƏKİ).

***"Şəki xanları və onların nəsilləri"*** (qısaca: *"Şəki xanları"*) əsərinin yazıldığı tarix bilinməsə də, artıq yuxarıda sübut etməyə çalışdığımız kimi, bizcə, *"Hekayət"*dən (oktyabr 1866) sonra yazılıb. Bu fikri irəli sürərkən biz yuxarıda verdiyimiz örnəklərdən başqa, bu tutarqalara da söykənirik:

1) *"Şəki xanları"* məzmunca *"Hekayət"*i dabanbasma izləyir; "Hekayət"də olmayan yerlər (məsələn, Çələbi xanın Məlik Nəcəflə münasibətləri və Nadir şahın sarayında başına gələnlər) bu əsərə də düşməyib.
2) *"Hekayət"*də *"İsmayıl xandan sonra Nuxuda xan olmayıb, qəməndatlar olubdur"* cümləsindən sonra əsər üç abzasla yekunlaşırsa H.S.Əbdülhəmid *"Bundan sonra Nuxuda komendant təyin olundu, xan olmadı"* deyəndən sonra Şəki xanlarının övladlarını geniş ölçüdə incəliklə sadalayır.
3) H.S.Əbdülhəmid öz əsərinin hətta adını (*"Dər bəyani-əhvalat və silsileyi-xəvanini-sələfi-Şəki"*) da *"Hekayəti-əhvalati-sabiğeyi-xəvanini-Nuxu"*ya bənzətməyə çalışıb.

Kərim ağa Fatehin «Tarix»indən xəbərsiz olan H.S.Əbdülhəmid hadisələrin təsvirini məhz Mustafa ağa Şuxi «Hekayət»indən götürərək onları öz istəyinə uyğun dəyişdirib. Ancaq maraqlıdır ki, «Şəki xanları» daha gec yazılsa da ondakı bəzi tarixlər yanlışdır (mətndə verdiyimiz qeydlərə baxılsın); görünür, müəllif, nədənsə, Mustafa ağa Şuxi «Hekayət»inə çox da güvənməyib.

## MİRABBAS MİRBAĞIRZADƏ. ŞƏKİ QƏZASINDA HÖKMRANLIQ TARİXİ HAQQINDA MÜXTƏSƏR MƏLUMAT.

Şəkinin tarixiylə bağlı qaynaqlar toplusundan ibarət bu kitabı nəşrə hazırladığımız zaman *Mirabbas Mirbağırzadə*'nin *"Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat"* adlı yazısını da bura salarkən əməlli-başlı "işə düşəcəyimizdən" xəbərsizdik...

Mətni nəşrə tam hazırlayıb müəlliflər haqqında məlumat üzərində işləyəndə birdən aydınlaşdı ki, M.Mirbağırzadə haqqında heç nə bilmirik. Öncə qətiyyən daralmadıq - düşündük ki, eybi yox, ensiklopediyalardan, başqa sorğu kitablarından, dost-tanışlardan... onun haqqında tezliklə məlumat toplayarıq. Ancaq nəinki ensiklopediyalarda, tərcümeyi-halların verildiyi heç bir nəşrdə *"Mirabbas Mirbağırzadə"* adını tapa bilməyəndə xeyli təəccübləndik - axı bu cür kamil bir əsəri ortaya qoymuş şəxs izsiz-soraqsız yoxa çıxa bilməzdi. Nə yazıqlar ki, düşündüyümüzün gerçəklik olduğuna tezliklə inandıq!

İnandıq və 75 il bu insanın adını da yad etməmiş, onun kimliyini öyrənməmiş, bununla da fikir tariximizə zərbə vurmuş AZƏRBAYCAN ARAŞDIRICISI'nın "acığına" bu kişini özümüz üzə çıxarmağa qərar verdik...

***

...Artıq Şəki tarixi haqqındakı kitabın nəşrini yarımçıq saxlayaraq Mirabbas Mirbağırzadənin kimliyini öyrənməkçün ölkənin, demək olar ki, bütün arxivlərində gərgin işə başladıq.

Öncə Milli Elmlər Akademiyamızın Mərkəzi Elmi Arxivinə üz tutduq və nə yazıqlar ki, buradan əliboş qayıtdıq. Düşündük ki, bu adamı çox güman ki, 1937-də güllələmiş olarlar, ona görə Milli Təhlükəsizlik Nazirliyinin arxivinə də baş vurduq. Oradan bizə *Mirbağırzadə Mirabbas Seyid oğlu*'nun şəxsi işini verdilər. Ancaq *İsmayıllının Basqal kəndi*'ndən olan bu şəxs həm 1928-də Şəki tarixinə dair əsər yazacaq qədər yaşlı deyildi, həm də savadsızdı (görünür, Sovet hakimiyyətinə müqavimət göstərdiyinə görə bir neçə qohumuyla birgə tutularaq qolçomaq kimi güllələnmişdi). MTN-də başqa bir Mirabbas Mirbağırzadə haqqında məlumat tapılmadı. Beləliklə, Şəki tarixini yazmış M.Mirbağırzadənin **repressiya olunmadığı** düşüncəsi üzərində dayanmalı olduq.

İlk dəfəydi ki, axtardığımız şəxsin ömür yolunu heç yerdən öyrənə bilmirdik. Araşdırmaya başlayandan aylar keçsə də M.Mirbağırzadənin haçan və harada doğulduğunu, ata-anasının kimliyini, harada oxuduğunu, hansı vəzifələrdə işlədiyini, yaxud hansı peşəylə məşğul olduğunu... göstərən yarımca cümlə belə tapa bilmirdik.

Günlərin bir günü M.Rəsulzadə adına BDU-nun professoru olan dostumuz, tarix elmləri doktoru *İsmayıl Musayev*'in yanında ondan söz saldıq. M.Mirbağırzadənin adını eşidən kimi hörmətli professor onun İrəvandan olduğunu, 1919-da Naxçıvana - *Araz Türk Respublikası*'na xüsusi missiyayla getdiyini və orada çox mühüm işlər gördüyünü bildirdi. Sən demə, hələ bir neçə il öncə professor İ.Musayev öz kitabında "Mirbağırzadə missiyası"nın fəaliyyətindən geniş yazıbmış.

Beləliklə, ilk ipucu ələ keçdi və uğurlu oldu. Tezliklə AR Dövlət Arxivində (MDTA), AR Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində (SPİHMDA), Əlyazmalar İnstitutunda, AR Milli Kitabxanasında apardığımız sonrakı araşdırmalarda Mirabbas Mirbağırzadənin **iqtisadçı, tarixçi, etnoqraf, coğrafiyaçı, sənətşünas, ədəbiyyatşünas, dilçi... alim, pedaqoq, ictimai xadim, yazıçı, curnalist**... kimi qoyub getdiyi olduqca zəngin irsi üzə çıxardıq. Onun qələminin məhsulu olan 7 kitabı (bir neçəsinin adı çoxcildlik *"Azərbaycan kitabı"*'na düşməyib) və 200-dən artıq sanballı məqaləni aşkarladıq, həm Mirabbas Mirbağırzadə şəxsiyyətinin nəhəngliyinə, həm də bu nəhəngin ömür yolu haqqında niyə heç yandan heç nəyin tapılmadığına heyrətləndik. Bu heyrət eyni zamanda dəhşətli təəccübə çevrildi - necə ola bilər ki, insan yüz-mərtəbə bir binanın yanında dayansın, ancaq onu qətiyyən görməsin?!! Azərbaycan araşdırıcısının bu ensiklopedik zəka yiyəsini indiyədək görməməsini, duymamasını, unutmasını başqa heç nəyə bənzətmək olmaz!..

"Unutqanlıq" demişkən, **M.Mirbağırzadənin elmi-publisist irsi yalnız ana dilimizdə və əsasən ərəb qrafikasında olduğundan, təkcə rus dilini və kirillitsanı bilən çağdaş alimlərimiz onun yaradıcılığından bütünlüklə xəbərsiz qalıb.** Bu baxımdan akad. Əli-

söhbət Sumbatzadənin *"XIX-XX yüzillər Azərbaycan tarix-* M.Mirbağırzadə əsərlərindən *şünaslığı"* kitabı istisnadır - o, göstərməsə də) ötəricə söz açaraq (bir çoxunun yerini düzgün çəkib[1]. Bu qeyd-tarix və etnoqrafiyaya dair 8 məqaləsinin adını kitablarından lərindən aydınlaşır ki, Sumbatzadə onun tarix təsəvvürüylə yerli-dibli xəbərsiz olub. Ancaq hətta bu məhdud peşəkar belə Ə.Sumbatzadə M.Mirbağırzadəni geniş profilli alim sayıb[2].

Beləliklə, əlinizdə tutduğunuz bu kitabdan Şəki tarixi haq-qında ən dəyərli qaynaqlardan birinin yazarı *Mirabbas Mirba-ğırzadə*'nin tərcümeyi-halı və fəaliyyəti haqqında **Azərbaycan elm tarixində ilk dəfə** məlumat alırsınız...

***

***Mirbağırovlar*** qədim türk şəhəri İrəvanın ən say-seçmə seyid nəsillərindəndi. Bu seyidlərin şəhərin mərkəzində, *Pənah xanın bulvarı* deyilən yerdə böyük imarətləri vardı.

Bu soydan çıxmış ***Hacı Mircəfər Hacı Mirbağır oğlu*** (o, 1907-də İrəvan şəhər dumasına qlasnı seçilmişdi; bax: İrəvan xəbərləri. - *"İrşad"* qəzeti, 7 iyun 1907, №106, s.3) və onun oğlu, görkəmli iqtisadçı alim ***Mirhüseyn Mirbağırov*** (1896-1970), nəvəsi ***(Mir)cavad (Mir)bağır oğlu Mirbağırov*** (1907-1078), onun qızı, görkəmli tibb alimi ***Cülyetta Mirbağırova*** (1937) və bir çox başqaları Azərbaycanın elm və maarif tarixində önəmli iz buraxmış şəxslərdir. (AKP MK birinci katibi olmuş *Kamran Bağırov*'un, ADU-nun keçmiş rektoru *Faiq Bağırzadə*'nin də bu köklə bağlılığı deyilir).

Qəti inamımıza görə, *Mirabbas Mirbağırzadə*'nin atası ***Mirhüseyn ağa*** yuxarıda adlarını çəkdiyimiz *Hacı Mirbağır ağa*'nın oğlu, *Hacı Mircəfər ağa*'nın qardaşı, *Mirhüseyn Mirba-ğırov*'unsa əmisidir. Mirhüseyn ağanın nəsli haqqında olduqca az şey bilirik. Təkcə bu bəllidir ki, onun Mirabbasdan başqa ***Mirabdulla*** adlı oğlu da olub.

Naxçıvanın görkəmli maarif xadimlərindən olan ağsaqqal

---

[1] А.С.Сумбатзаде. Азербайджанская историография XIX-XX веков. Баку: Элм, 1987, ss.91, 93-94.

[2] Həmin əsər, ss.91, 93.



*Lətif Hüsyenzadə* bizimlə 2004-dəki telefon söhbətində bildirdi ki, mən 1919-da Naxçıvana gəlmiş Mirabbas Mirbağırzadəni görəndə onun 35-40 yaşı olardı. Bu hesabla Mirabbas ağanın ***1880-85 arasında doğulduğunu*** deyə bilərik. 1906-1907-ci illər mətbuatında da M.Mirbağırzadənin adı "İrəvanın gənc ziyalıları" içərisində çəkilir; bu da həmin tarixin doğruluğuna bir tutarqadır.

Aşağıda Mirabbas Mirbağırzadənin ömür yolu haqqında indiyədək öyrənə bildiklərimizin bir bölümünü tarixi ardıcıllıqla ortaya qoyuruq.

## Kitabçı

Mirabbas Mirbağırzadənin uşaqlıq və ilk gəncliyinin necə keçməsindən, harada oxumasından heç nə bilmirik (çox güman ki, İrəvan gimnaziyasını bitirib). Ancaq yazılarından onun yüksək savad yiyəsi olduğu öz-özünə üzə çıxır.

Alverlə məşğul olan M.Mirbağırzadə daha çox kitab ticarətinə üstünlük verib. İrəvanda açdığı kitab mağazasını ***"Umud kütübxanası"*** adlandırmışdı (o çağlarda *"kütübxana/kitabxana"* kitab mağazası anlamındaydı; kitabxanayasa *"qiraətxana"* deyilirdi). Bu mağazada o yalnız kitab və dəftərxana ləvazimatları yox, özünün nəşr etdirdiyi divar təqvimini də satırdı. Bu haqda *"İrşad"* qəzetində yazır: *"Keçən 1907-nci sənə üçün "Molla Nəsrəddin" məcmuəsi* (əslində: "Qeyrət" mətbəəsi - Ə.T.) *vasitəsiylə nəşr olunan divar kalendarı, özümüzə məlum olan qüsuratımız və özgələrə hər bir barədə möhtacatımız cəhətindən çox qüsurlu olmuşdu... [...] Lakin bu sənə - 1908-nci sənə üçün "Qeyrət" mətbəəsində ürfanpərvərimiz vasitəsiylə nəşr olunan divar kalendarı qiyas olunmamalıdır. [...]*

*İşbu kalendarlar xüsusunda İrəvan quberniyasının hər tərəfindən hər qisim xahişiniz olursa İrəvanda "Umud" kitabxanasına rücu buyurmalıdırlar"*[1].

Bu çağda Qafqazda, o sıradan İrəvan və Bakıda kitab tica-

---

[1] Mirabbas Mirbağırov. (Xüsusi müxbirlərimizdən). İrəvandan. "Umud" kitabxanası tərəfindən. - *"İrşad"* qəzeti, 5.1.1908, №3, s.4.

rəti, çətinliyi çox və qazancı az işlərdən sayılırdı. Məsələ burasındaydı ki, Qafqazda türkcə kitablar çox az nəşr olunduğuna görə əksər ədəbiyyat Türkiyədən gətirilirdi. Türkiyədən Rusiyaya malların (kitabların da) gətirilməsindəsə ciddi çətinliklər mövcuddu. Ancaq kitabçılar xalqı savadlandırmağı özlərinə milli borc saydıqlarına görə bu işin bütün məhrumiyyətlərinə dəyanətlə dözürdülər.

*"İrşad"* qəzetinin ***26*** və ***28 fevral 1908*** tarixli 24 və 26-cı saylarındakı *«İrəvandan. İxtar və izahat. İrəvanda "Umud" kitabxanası tərəfindən»* başlıqlı yazısında Mirabbas ağa kitab ticarətinin nə qədər ağır olduğunu öz başına gələnlərlə açıqlayıb. Məqalədə oxuyuruq: *"Təqribən* ***beş ay bundan əqdəm kitabxana üçün gedib İstanbuldan xirid etdiyimiz***[1] *kitablar ancaq bu günlər gəlib kitabxanamıza vüsul ola bildi..."*. Niyə belə gec? Bəlli olur ki, İstanbuldan kitablar paraxodla Batuma, oradan dəmiryolla Tiflisə aparılıb. *«"Kitablarımızı sansor zəbt etdimi? Yaxud dəmiryol məfzəllərində*[2] *qeyb oldumu?" malxulyası bizi cana gətirdi. Daha teleqram, məktub göndərməkdən usanıb və filaxir keyfiyyəti-halı anlamaq və kitabları cəsticu edib ələ gətirmək üçün Tiflisə getdik»*. Tiflisdəsə aydınlaşır ki, buradan İrəvana - Mirbağırzadəyə göndəriləcək kitablar... Bakıya - *A.Kazımzadə*'yə[3], Bakıya göndərilələrsə İrəvana yola salınıb. Tiflisdə kitablar senzordan keçirilib (təbii ki, bu zaman alt-üst edilib), İrəvanda və Bakıda alınan kitablara gömrük haqqı tutulub, onlar bir də geri qaytarılıb, bir də gömrük haqqı verilib. Beləliklə, hərənin öz kitabına yiyələnməsi böyük vaxt, əmək və xərc itkisi hesabına başa gəlir...

Məsələyə ictimai problem kimi yanaşan M.Mirbağırzadə bütün bu müşkülün səbəbini belə açıqlayır: *"Biz müsəlmanların ticarət aləmində bu qədər... dalı qalmağımızın səbəblərindən birisi də ətrafda ticarət işinə aşina, gözüaçıq və zirək, huşmənd adamlarımızın olmamağıdır"*. Bu çatışmazlığı qismən aradan götürmək - "gözüaçıq və zirək" adamların sayını artırmaq istəyiylə o, özünü belə adamlardan birinə çevirməyə, Türkiyəylə Qafqaz

[1] Satın aldığımız.
[2] Stansiyalarında.
[3] O da Bakının məşhur kitabçılarındandı. Sonralar Müsavat partiyasının qurucularından biri oldu.



arasında ticarəti genişləndirməyə çalışır, bu məqsədlə tez-tez xilafətin paytaxtına gedib-gəlir, orada işgüzar əlaqələr qurur.

*"İrşad"*'ın ***10*** və ***20 mart 1908*** tarixli 30 və 36-cı saylarındakı elanlarda "Umud" kitabxanasına İstanbuldan gələn kitabların siyahısı, onların satış qiymətləri və şərtləri verilib. 27 addakı kitabdan yalnız 4-ünün müəllifi türkdür *(Əhməd Midhət, Səlanikli Tofiq)*, qalanlarısa Qərbi Avropa yazıçılarıdır. Türkcəyə çevrilmiş bu əsərlərin müəllifləri *Jül Vern, Aleksandr Düma, Pol Dokük, Berdelkor, Jül Klars, Kisavye dö Montanyen, Andre Türbe, Artur Arnol, Emil Reşburq, Somen Heddin, Hektor Melo, Fortune dö Buğvaye, Jorj Bradel* və başqalarıdır.

M.Mirbağırzadənin *"Tərəqqi"* qəzetinin ***15 fevral 1909*** tarixli 36-cı sayından başlayaraq dərc edilən *"Tarixi-islamdan parlaq bir səhifə"* (müəllifi *İbrahim Rifət*'dir) tərcüməsinin sonunda *«"Umud" kütübxanəsi sahibi Mirabbas»* imzası qoyulub. Deməli, bu mağaza M.Mirbağırzadə ***1909-da Bakıya köçənədək*** işləyib.

Mirabbas Mirbağırzadə Bakıya gələndən sonra da kitab ticarətiylə məşğul olub. Ticarətini genişləndirən Mirbağırzadə kitab və başqa nəşrlər gətirməkçün dəfələrlə İstanbula gedib-gəlməli olub.

***1914-ün fevralında*** o, Bakıda da yeni kitab mağazası açdı. 20 fevral 1914 tarixli (№583) *"İqbal"* qəzetindəki *"Bakıda təzə kitab mağazası"* başlıqlı elanda oxuyuruq: *«Nikolayevski küçədə "Kaspi" qəzetəsi idarəxanasının qabağında* ***Mirabbas Mirbağırov****'un idarə etməsiylə təzə açılan kitab mağazasında hər cürə məktəb və mütaliəyə dair Qafqaz kitabları mövcuddur. Və İstanbuldan ən məşhur (tarix, roman, ədəbiyyat, hekayə, məzhəkə, fənn, fəlsəfə, hikmət, hifzi-səhhət, lüğət, qamus qəbilindən) Osmanlı kitabları dalbadal gəlib satılmaqdadır.*

***Баку, Николаевская ул. Книжн. магаз. Мир Багирова».***

Nikolay (indiki İstiqlaliyyət) küçəsində *"Kaspi"* qəzeti redaksiyasıyla (Sabirin indiki heykəlinin yerindəydi) üzbəüzdə (indi orada *Monolit* binasıdır) yerləşən həmin mağazada M.Mirbağırzadə həm milli şüuru inkişaf etdirən və milli duyğuları qüvvətləndirən kitabları, həm də istər Azərbaycanda, istər Rusiyada, istərsə də Türkiyədə və b. ölkələrdə nəşr olunmuş qəzet-jurnalları satırdı. *"Cənab Yusif və macərayi-məşhuru"* (1914)

kitabının titul səhifəsində mağazada satılan həmin kitabların siyahısı verilib.

Çox keçmədən başqa mətbəələr də öz çap məhsullarını onun kitab mağazasında satdırmağa başladı. Məsələn, *"İqbal"*ın 24 fevral 1914 tarixli 586-cı sayında oxuyuruq:

***"İsa bəy Aşurbəyli cənablarının nəşriyyatı.*** (Sonra kitabların adları və qiymətləri sadalanır - *Ə.T.*). *Bu kitablar külliyyətli surətdə satılır Bakıda Nikolayeviski küçədə Mirabbas Mirbağırovun idarə etməsiylə təzə açılan kitab mağazasında. İsa bəy cənablarının nəşriyyatından irani və avropai təzə ilə məxsus masa (istol) təqvimi dəxi satışa qoyuldu. Qiyməti 25 qəpik. Ətrafdan külliyyətli istəyənlərə güzəştimiz vardır.*

*Адрес: Баку, Николаевская у. Книжный магазин МИР-БАГИРОВА".*

Başlıca mövzusu tarixə həsr edilmiş əsərləri yazmaqda, tərcümə etməkdə M.Mirbağırzadənin, sözsüz ki, kommersiya maraqları da vardı. Bu maraqsa təkcə onda deyildi - həmin vaxtlar bir çox aydınlarımız həm də öz maddi durumlarını yaxşılaşdırmaqçün geniş oxucu kütləsini maraqlandıran əsərlər yazaraq nəşr etdirməyə üstünlük verirdi və onlardan biri, bəlkə də birincisi görkəmli türkçü şair və jurnalist ***Əlabbas Müznib Mütəllibzadə***'ydi (1883-1938). O, M.Mirbağırzadənin tarix kitablarını özünə yaxın qəzet-jurnallarda amansızcasına tənqid edirdi.

Əqidəcə qatı türk millətçisi olan Mirabbas ağa yeni kitab mağazasında dəftərxana ləvazimatı çıxılmaqla, öz kitabları daxil, yalnız türk milli qürurunu coşduran, Azərbaycan - Türkiyə münasibətlərini daha da qardaşlaşdıran, Türkiyəyə sevgi aşılayan ədəbiyyat satırdı. *"Sədayi-həqq"* qəzetinin 25 may 1914 tarixli 119-uncu sayındakı reklam elanı (təkrarı: №№121, 125, 130, 131, 146, 173 və b.) bunun ən gözəl sübutudur:

***«İstanbul qəzetələri və jurnalları.*** *Satılır Bakıda Nikolayeviski küçədə "Kaspi" qəzetxanasının qabağında* ***Mirabbas Mirbağırov****'un idarə etdiyi təzə kitab mağazasında. Tək-tək satılan qiymətlər:*

| | |
|---|---|
| *"Tənin" qəzetəsi* | *- 7 q.* |
| *"Təsfiri-əfkar" qəzetəsi* | *- 7 q.* |
| *"İqdam" qəzetəsi* | *- 7 q.* |



| | |
|---|---|
| *"Pəyam" qəzetəsi* | *- 7 q.* |
| *"Şəhbal" jurnalı* | *- 60 q.* |
| *"Türk yurdu" j.* | *- 20 q.* |
| *"İslam" məcmuəsi* | *- 20 q.* |
| *"Türk sözü" q.* | *- 7 q.* |
| *"Osmanlı Rəssamlar Cəmiyyəti qəzetəsi"* | *- 40 q.* |
| *"Osmanlı ziraət və ticarət qəzetəsi"* | *- 15 q.* |
| *"Sərvəti-fünun" jurnalı* | *- 30 q.* |
| *"Sabah" qəzetəsi* | *- 7 q.* |
| *"Rəsmli kitab" jurnalı* | *- 60 q.* |
| *"Türk sədası" (Bolqarıstanda çıxır)* | *- 5 q.* |
| *"Hürriyyəti-fikriyyə" jurnalı* | *- 15 q.* |
| *"Türk eli"* | *- 5 q.* |

*Bu qəzetələr və jurnallar kitabxanamızda həm tək-tək satılır, həm də bir illik, altı aylıq abunə qəbul edilir.*

*[...] Баку, Николаевск. улц. Книжн. магаз. Мир Багирова».*

*"Sədayi-həqq"*'in 15 iyun 1914 tarixli 137-ci sayındasa aşağıdakı məzmunda elanda (təkrarı: №№145, 154 və b.) oxuyuruq:

*«Bakıda Nikolayeviski küçədə "Kaspi" qəzetxanasının qabağında* ***Mirabbas Mirbağırov****'un idarə etdiyi kitab mağazasında satılır hər cürə* ***İstanbul şəkilləri****:*

| | |
|---|---|
| *Sultan Məhəmməd Rəşad, böyük qitədə[1], rəngli* | *- 1 m.* |
| *Ənvər paşa, böyük qitədə, rəngli (paşalıq paltarında)* | *- 1 m. 20 q.* |
| *Vəliəhd Yusif İzzəddin, böyük qitədə, rəngli* | *- 1 m.* |
| *İranın cavan şahı Əhməd şah, böyük qitədə, rəngli* | *- 1 m.* |
| *Osmanlı padşahlarının hamısı bir yerdə, rəngli, böyük qitədə* | *- 1 m. 20 q.* |
| *Dörd komandan bir yerdə* | *- 60 q.* |
| *Ədirnəyə Osmanlı qoşunlarının girməsi* | *- 50 q.* |
| *Hürriyyət meydanında keçid rəsmi[2]* | *- 40 q.* |
| *Ayasofya məscidində islamlıq rəsmi* | *- 40 q.* |
| *Dənizdə Osmanlı-yunan davası* | *- 40 q.* |
| *Səlanikdə Osmanlı sultanı* | *- 40 q.* |
| *Ayasofya məscidində islamlıq rəsmi* | *- 40 q.* |

[1] Ölçüdə.

[2] Parad.

*Ədirnə civarında Osmanlı manevrası* - 40 q.
*Osmanlı-bolğar davası* - 40 q.
*Osmanlı-Qaradağ davası* - 30 q.
*Osmanlı-İtaliya davası* - 30 q.

*[...] Adres budur:* **Баку, Николаевск. ул. Книжн. магаз. Мир Багирова».**

İki il sonrasa *"Açıq söz"* qəzetinin ***1916 tarixli*** saylarında tez-tez təkrarlanan aşağıdakı elandan ***qardaşlarıyla birgə işlətdiyi*** (onlardan hələlik yalnız *Mirabdulla*'nın adı bəllidir) bu kitab mağazasında hansı kitabların satıldığını dəqiqləşdirə bilirik: *«Bakıda Nikolayevski küçədə "Açıq söz" idarəsi qabağında* ***Mirabbas Mirbağırov və qardaşlarının*** *kitab mağazasında satılmaqda olan təzə kitablar.*

| ***Adları*** | ***cild*** | ***manat*** | ***qəpik*** |
|---|---|---|---|
| *Fransızcadan türkcəyə qamus* | *1-6* | *10* | |
| *Türkcədən fransızcaya qamus* | *1-6* | *10* | |
| *Fransa ixtilali-kəbir tarixi* | *1-2* | *4* | |
| *Elmi-hesab (Salyani)* | | | *60* |
| *"Füyuzat" [dəsti] (Ə.B.Hüseynzadə)* | | *15* | |
| *Məşahiri-islam* | *1-4* | *5* | |
| *Luğati-coğrafiyyə və tarixiyyə* | *1-6* | *15* | |
| *Tarixi-Cövdət* | *1-12* | *30* | |
| *Səyahətnameyi-Övliya Çələbi* | *1-6* | *20* | |
| *Hifzi-səhhət* | *1* | | *50* |
| *Şeytanın yadigarları* | *1* | *8* | |
| *Qamusi-Osmani* | *1-4* | *8* | |
| *Müxtəsər tarixi-ümumi* | *1* | *1* | *50* |
| *Dava[1] xəritəsi (müsəlmanca)* | *1* | | *50* |
| ***Cənab Yusif və Züleyxa*** | *1* | | *50* |
| ***Misir əhvali-coğrafiyyə və tarixiyyəsi*** | | | *40* |
| ***Vətən və millət nəğmələri*** | *1* | | *35* |
| ***Süzənək kitabı[2]*** | *1-2* | | *12* |
| *Müxtəsər Qafqaz tarixi* | *1* | | *30* |
| *Arvad ağısı* | *1* | | *10* |

[1] Balkan savaşı nəzərdə tutulur.

[2] Qara pənglə ayırdığımız son 4 kitabı M.Mirbağırzadənin özü yazıb.



| | | | |
|---|---|---|---|
| *Ana [H.Cavid]* | *1* | | *20* |
| *Keçmiş günlər [H.Cavid]* | *1* | | *12* |
| *Hophopnamə* | *1* | *1* | *50* |
| *Təfsiri-Qur'an* | *1-2* | *5* | *50* |
| *Tarixi-ənbiya* | *1* | *1* | *20* |
| *Rusca öyrənmək* | *1* | | *60* |
| *Rusca-firəngcə-türkcə öyrənmək* | *1* | | *50* |
| *Coğrafiyayi-ümumi* | *1* | *1* | *35* |

*[...] Adres:* **Баку, Николаевск. ул. Кн. маг. Мирбагирова».**
(*"Açıq söz" qəzeti*, №82, 11.I.1916, s.1; təkrarı: №№83, 84, 87, 88, 93...).

Görünür, Mirabbas ağanın Osmanlıları, Qacarları təbliğ etməsi, ümumtürk millətçiliyini dəstəkləməsi bir çoxlarına, o sıradan *"Molla Nəsrəddin"* məcmuəsinə də xoş gəlməyib. Bu jurnalın M.Mirbağırzadəyə sataşmasını başqa cür yozmaq mümkün deyil.

Mirabbas ağa *"Sədayi-həqq"* qəzetinin 23 iyun 1914 tarixli 144-üncü sayındakı ***«"Molla Nəsrəddin" məcmuəsinə»*** başlıqlı yazısında deyir:

*«Bununla iki dəfədir məcmuəniz vasitəsilə bizə şəxsi hücumlar ediyorsunuz. Aləmi-ədəbdə bu kibi hallar bulunmaz... [...]*

*Keçənlərdə birinci şəxsi hücumunuzda yazdığınız bir neçə sözlərdən başqa, acizlərinin* ***"Bakıda oturub tarix kitablarını qabağına qoyub yövmi[1] qəzetələrə məqalə yazmaqda olduğumu"*** *sevgili məcmuənizə keçirtmişdiniz. O zaman mən bunun cavabını yazıb xüsusi məktub vasitəsilə sizin ünvanınıza göndərmişdim, kopyası yanımda durur. Fəqət o vaxtdan bəri bu halınız hər yadıma düşdükcə heyrətimi artırmaqda idi. Düşünürdüm: yazılarını oqumaqda olduğumuz ən böyük və həqiqi yazıçılar belə yazılarını özlərindən daha böyük alimlərin, fazillərin yazılarıyla qüvvətləndirməmiş bir yazı yazamıyorlar - qorquyorlar. Əcəba, - dedim, - mənim bu üsula tabe olmağım başqalarını nə üçün sızıldadır, ürəklərini göynədir? Yazıçılıq aləmində bundan məqbul, bundan gözəl və camaata ən doğru sözü göstərici başqa bir üsul daha varmı?..*

[1] Gündəlik.

*Heyrət ediyor və "əcəba, - diyordum, - bu xüsusi nüktələri, dutalım ki, məcmuəyə məktub yazıb göndərən hərif anlamadı, əcəba, "Molla Nəsrəddin" məcmueyi-möhtərəməsinin indiki idareyi-ərkanıdamı bunları dərk edəmədi?..*

*İkinci olan budəfəki hücumunuzda genə şəxsimizi qəzetənizə nişan edib diyorsunuz: filan[kəs],* ***"kitabların qiymətlərini artırıb satır"****. Filvaqe, heyrət ediləcək söz!..*

*A canım, siz mənim ticarətimin "revizor"umusunuz?*

*Siz mənim zərərlərimi ödəyəcək bir səxavətkarmısınız?*

*Siz mənim tsenzor idarəsində qalan kitablarımı çıqarıb göndərə biləcək bir məharət sahibimisiniz?*

*Satılmayıb qalanları genə bizə pul edib verə biləcək dərəcədə iqtidar və mərifətə malikmisiniz?*

*Rica ediyorum, əgər bu saydığımız hallar sizdə mövcud isə lütfən "taksa"nızı yazıb bizə göndərin, yoq isə bilməm ki,* ***nə haqq ilə başqalarının hətta alış-veriş işinə belə qarışmağa özünüzü haqlı görürsünüz? Cürət ediyorsunuz?***

*İmdiyədək İrandan iranlılar gətirdikləri* ***"Sələbiyyə"***[1], ***"Gürbə-muş"***[2] *kitablarına (qiymətləri beş qəpik, səkkiz qəpik olduğu halda) və imdi genə bəzi kitablara öyləcə artıq qimətlər verib almağa öyrəşmiş hörmətli camaatımız qoy imdi də bizim acizanə vasitəmizlə Balkan hərbinə dair kitablara,* ***"Qamusül-əlam"****lara,* ***"Qamusi-türki"****lərə*[3], ***lüğəti-Naci****lərə*[4], ***"Tarixi-islam"****lara,* ***"Rübabi-şikəstə"****lərə və qeyri bu kibi əsərlərə bir az artıq - öz alicənablıqları, maarifpərvərlikləri sayəsində pul vermiş olsunlar. Zənn ediyorum ki, bunun sizə heç bir toqunacaq yeri yoqdur və olamaz.*

*Baqi təqdimi-ehtiram.*

***Kitabçı Mirabbas Mirbağırov.*** *Bakı».*

---

[1] *Molla Məhəmmədbağır Xalxali*'nin (1829-1900) 1893-də türkcə yazdığı bu poema *"Tülkünamə"* də adlanır.

[2] *"Pişik və siçan".*

[3] *Şəmsəddin Sami bəy*'in (1850-1904) *"Qamusül-əlam"* əsəri o çağda türkcə ən dəyərli ensiklopediya sayılırdı. Əsərin nəşr tarixi: I cild - 1306/1889, II cild - 1316/1899, III cild - 1308/1891, IV cild - 1311/1894, V cild - 1314/1896, VI cild - 1316/1898. Onun 2 cildlik *"Qamusi-türki"* lüğətisə ilk dəfə 1900-də nəşr olunub.

[4] *Müəllim Ömər Naci*'nin (1850-1893) 2 cildlik *"Çocuqlar üçün lüğət kitabı"* (İstanbul, 1317/1899) düşünülür.



Mirbağır ağa bu mağazada da Azərbaycan dövri mətbuatının satışıyla məşğuldu. Məsələn, *"Tuti"* məcmuəsində belə bir elan dəfələrlə oxucuların diqqətinə çatdırılır: *«"Tuti" məcmuəsini almaq olar: Bakıda - Mirbağırov və Ələkbərovların kitabfüruş mağazalarından...»* (*"Tuti"*, 27.XII.1914, №1, s.8 və b. saylar.)

## Kitabçı-qəzetçi

Mirabbas Mirbağırzadədə yazıb-yaratmaq həvəsi çox güclüydü. Ürəyindəki milli çırpıntıları, beynindəki mütərəqqi düşüncələri yurddaşlarına çatdırmağa yer axtarırdı, buna görə də *"Həyat"*ın - bütün Qafqazda XX yüzilin ilk türkcə qəzetinin açılması onu çox sevindirdi. İlk mətbu yazısı da ***"Mirabbas Mirbağırzadə"*** imzasıyla elə *"Həyat"* qəzetinə göndərdiyi, qəzetin ***19 iyun 1905*** tarixli 11-inci sayında dərc edilmiş *"İdarəyə kağız. 21 rəbiül-axir 1323 hicri.*[1] *Təbrik"*dir.

"Təbrik"də oxuyuruq: *«...İslam camaatı, xüsusən İrəvan müsəlmanları xarici millətlərin əlində mövcud olan qəzetələrin müsəlmanlar haqqında olan iftira və böhtanlarının altında əz qalmışdı ki, isim və namusları əzilib bərbad ola. Lakin belə vaxtda tovfiqi-rəbbani ilə*[2] *"Həyat" qəzetəsi nəşrə başlayıb öz müsəlman qardaşlarına kömək edib və bunlar xüsusunda olan iftira və böhtanları həqqaniyyət ilə rədd və təkzib etdi. Yaşasın "Həyat" qəzetəsi! Yaşasın "Həyat" müəssisləri olan ərbabi-həmiyyət Bakı müsəlmanları!».*

*"Həyat"*dan sonra *"İrşad"*la və nəşrə başlayan başqa qəzet və jurnallarla yaxından əməkdaşlıq edən M.Mirbağırzadənin 1905-1929-uncu illər arasında elmi yazılarından başqa 200-ə yaxın publisist məqaləsi, xəbəri, bədii tərcüməsi... işıq üzü görüb. Bu yazılar ***"Mirabbas Mirbağırzadə"***, ***"M.A.Mirbağırzadə"***, ***"M.A.Mir-Bağırzadə"***, ***"Mirbağırzadə"***, ***"Hacı Miriş Mirbağırzadə"***, ***"Mirabbas Mirbağırov"***, ***"Hacı Abbas Hacı Bağırov"***, ***"Ağdamdan Cəbrayıla gələn"***, ***"Millət nökəri Mirabbas Mirbağırov"***, ***"M.A.Mirbağırov"***, ***"M.A.Mir-Bağırov"***, ***"Mirabbas"***, ***«"Umud" kitabxanası sahibi Mirabbas»***, ***"Kitabçı Mirabbas Mirbağırov"***, ***"Mirabbas Mirbağırlı"***, ***"Mir Abbas Mir Bağırlı"***,

---

[1] Miladi: 12 iyun 1905.

[2] Allahın yardımıyla.

***"M.A.Mir-Bağırlı", "M.A.Mir Bağırlı", "Mir-Bağırlı", "Mir Bağırlı", "M.Nadi", "M...Nadi", "Nadi", "Nida"***[1], ***"M.", "Müslim", "Rahil", "Qaib", "Elçi", "M.B.", "M.A."*** imzalarıyla dərc edilib.

İlk çağlar *"Həyat"* və *"İrşad"* qəzetiylə sıx əlaqələr quran M.Mirbağırzadə sonralar *"Təzə Həyat"*, *"Tərəqqi"*, *"Yeni İrşad"*, *"İqbal"*, *"Sədayi-həqq"*... qəzetləriylə də yaxından əməkdaşlığa başladı.

*"Həyat"*dakı "Təbrik"dən sonra Mirabbas ağanın bu qəzetin ***2*** və ***18 oktyabr 1905***[2] və ***8 fevral 1906*** tarixli saylarında da yazıları dərc edildi.

5 fevral 1906-dan ***"Mirabbas Mirbağırov"*** imzayızla *"İrşad"* qəzetində çıxış edən[3] müəllif o ilin martında ***"Mirbağırzadə/Hacı Miriş Mirbağırzadə"*** imzasıyla həmin qəzetdə *"Ağdamdan"* başlıqlı xəbərlər verməyə başladı - görünür, ticarətiylə bağlı Ağdama tez-tez gedib-gəlirmiş. (14 fevral 1907-dən o, *"İrşad"*da artıq xüsusi müxbir kimi çıxış edir).

*"İrşad"*ın 7 aprel 1906 tarixli 84-üncü sayından Azərbaycan mətbuatında yeni bir daimi imza göründü - ***M.Nadi*** (sonralar sadəcə: ***"Nadi"***). M.Mirbağırzadə bu imzayla bir çox qəzetlərdə *"İrəvan xəbərləri"* və *"İrəvandan"* başlıqlı saysız-hesabsız xəbərlər dərc etdirib. Çəkinmədən deyə bilərik ki, **İrəvanın ocağkı tarixini öyrənməkçün bu yazılardan daha əhəmiyyətli ikinci bir qaynaq tapmaq çətindir.**

Bakıdakı bir sıra mətbuat orqanlarının ***İrəvanda vəkili*** olan Mirabbas Mirbağırzadə həm onlara bu şəhərdə abunə yazdırır,

---

[1] *"Nida"* imzasıyla M.Mirbağırzadənin bir yazısı çıxıb. Bu imzayla daha çox Şəkidən yazılar verilib (onların müəllifini hələ müəyyənləşdirə bilməmişik: ya *Mirzə Həsən Tahirzadə*, ya da *Mahmud Nədim Qaragözov*'dur).

[2] 2 oktyabr tarixli yazıda ermənilərin İrəvanda törətdiyi vəhşilikləri qələmə alan müəllif onların türk dövlətlilərindən ***Məşədi Yusif İsmayılov***'u qətlə yetirdiyini bildirir və xəbər verir: *"Şəhərdə bəzi dükanlar bağlı, bəzi - açıq, tərəddüd* (gediş-gəliş - Ə.T.) *yox, ətrafdan gələn yox. Şəhər məxrubə* (xaraba - Ə.T.) *hala dönüb"*.

[3] *"Qiraətxaneyi-islamiyyə"* başlıqlı bu yazıda İrəvanın gənc aydınlarından *Hacı Seyidrza Mirbabayev* və *Ağaməhəmməd Axundov*'un bu şəhərdə islam qiraətxanası açmasından danışılır.



həm də onları öz kitab mağazasında satırdı. Məsələn, Azərbaycanın mətbuat tarixində ən şərəfli yerlərdən birini tutan ***Əli bəy Hüseynzadə***'nin (1864-1940) *"Füyuzat"* məcmuəsinin (1906-1907) mart 1907 tarixli 11, 13 və b. saylarındakı elandan öyrənirik ki, M.Mirbağırzadə ***həm "Füyuzat"ın, həm də "Kaspi" qəzetinin*** (1881-1919) İrəvanda vəkilidir. (Yeri gəlmişkən, onların Şamaxı vəkili də ***Məşədi Ələkbər Sabir Tahirzadə***'ydi).

*"Təkamül"* (1906-1907) qəzetindən danışan X.Rəfiyev yazır: *"Qəzetin işində S.M.Əfəndiyev, M.Əzizbəyov, Z.Zeynalov, M.A.Əliyev,* ***Mirabbas Mirbağırov,*** *Məmməd, Əlibala... və başqaları iştirak edirdilər. Qəzetin redaksiyasında o dövrdə partiya sıralarında olan cığırdaşlardan - sonralar qatı millətçi-müsavatçı olan Mə[hə]mmədəmin Rəsulzadə və onun qardaşı Mə[hə]mmədəli də vardı"*[1]. Müəllif bir çox həqiqətləri kommunist prinsiplərinə uyğun biçimdə saxtalaşdırsa da (qəzetin başlıca redaktorlarından olan Mə[hə]mmədəmin Rəsulzadənin fəaliyyətinin əslində danılmasını və b. nəzərdə tuturuq) bu doğru bilgini də verir: *"Qəzetin Yerevanda* (İrəvanda - Ə.T.)*... yayılmasında Mirabbas Mirbağırov... xüsusi rol oynayırdı..."*[2].

"Umud" kitab mağazasının yiyəsi M.Mirbağırzadə ticarətindən qalmamaqla mətbuatda da ən müxtəlif mövzularda maraqlı yazılarla çıxış edirdi. *"İrşad"* qəzetinin *7* və ***9 fevral 1908*** tarixli 16 və 17-ci saylarındakı *«İrəvandan. "Vətən" teatrosu»* məqaləsində *Namiq Kamal*'ın (1840-1888) *"Vətən, yaxud Silistrə"* (1873) faciəsini könüllü gənclərin 19 yanvarda İrəvan şəhər klubunda səhnəyə qoymasından danışır.

İrəvandakı "Məktəbi-islamiyyə" naziri (müdiri) ***Haşım bəy Nərimanbəyli*** məşqləri aparmaqçün öz evini verib, "istudent" ***Mirhidayət Ordubadi*** tamaşanın hazırlanmasında çox iş görüb, bilet satmaq və paltar hazırlamaq işinin ağırlığısa *Haşım bəy*, ***Mirabbas Mirbağırzadə,*** gənc aydın ***Abbasəli Hacıkərimzadə*** və bəzzaz ***Rəhim bəy***'in üzərinə düşüb. *("...O teatro pulundan boğazımıza bir təam da yemədik. Biçarə rol götürənlərimiz elə acına rollarını ifa etdilər")*. Rollarısa bunlar oynayıb: *"İslam bəy rolunu uçitel* ***Mirzə Mustafa Rəcəbov***, *Zəkiyə xanım rolunu*

---

[1] X.Rəfiyev. Leqal bolşevik qəzeti "Təkamül". Bakı: Azərnəşr, 1962, s.11.

[2] Yenə orada, s.27. (Buraya da bax: *"Təkamül"*, 3 mart 1907, №11).

*Mircəfər* ***Seyidzadə***, *Hənifə -* ***<u>Mirhüseynzadə</u>***[1], *Sidqi bəy -* ***Meh-***
***di Qurbanzadə***, *Rüstəm bəy -* ***Həsən bəy Qazıyev***, *Abdullah çavuş*
***- Məhəmmədağa Şeyxülislamov***, *qaimməqam -* ***<u>Mirhüseynzadə</u>***,
*birinci zabit -* ***Hacı Səfərzadə***, *ikinci zabit - uçitel* ***İbrahim***
***Qədimov***, *üçüncü zabit -* ***Aslan Məhəmmədbəyzadə***, *birinci*
*könüllü -* ***Əli bəy Rüstəmbəyzadə***, *2-nci könüllü -* ***Əsgər Ha-***
***cıheydərzadə***, *3-ncü könüllü -* ***Həsən Salmanzadə***".

Yazıdan öyrənirik ki, son iki ildə könüllü gənclər İrəvanda <u>dörd dəfə</u> teatr tamaşası veriblər. Son tamaşanın pulu yarımçıq qalmış məktəbə sərf edilib.

Bu məlumatdan bir qədər sonra - ***10 mart 1908-də*** "*İrşad*" qəzetində görkəmli maarif xadimi *Haşım bəy Nərimanbəyli*'nin "*İrəvandan. İzahat*" başlıqlı yazısı dərc edilib. "*Vətən*" faciəsi-nin həmin tamaşasından yazan müəllif deyir: "*...Əlavə olaraq*
*bunu da izhar ediyorum ki, məsarifat və surəti-hesab* ***Mirabbas***
***Mirbağırov****'da olduğuna görə hesab görülən axşamı bəndə və*
*faciəmizin ümdə artisti bulunan* ***Mirzə Mustafa [Rəcəbov]*** *cə-*
*nabları kəmali-diqqət ilə məsarifat hesabını müşarileyh Mirbağı-*
*rovdan aldıq. Fövqdə*[2] *adları zikr olunan alihimmət ağalara, kö-*
*nüllü cavanlara, bu xüsusda hər növ ilə bizə kömək edən cənab-*
*lara və* ***ələlxüsus Mirbağırov cənablarına onun həddən ziyadə çək-***
***diyi zəhmətlər əvəzinə*** *həm öz tərəfimdən və həm də bu halda və gə-*
*ləcəkdə məktəbdə oxuyan məsum balalar tərəfindən səmimi təşək-*
*kürümüzü izhar etməklə sənabi-Həqdən o cənabların ali himmət-*
*lərinin və milli qeyrətlərinin daha da ucalmasını istirham edirəm*".

Bəli, gənc Mirabbas Mirbağırzadə bir maarifpərvər kitabçı kimi İrəvanın ictimai işlərində çox yaxından iştirak edib, həm özünün də qatıldığı tədbirlərdən, həm də qədim türk şəhəri İrəvanın mədəni həyatından mətbuata xüsusi müxbir kimi müntəzəm şəkildə xəbərlər göndərib.

Onun "*İrşad*"ın ***6 mart 1908*** tarixli 27-ci sayındakı "*İrəvandan. İaneyi-maarifpərvəranə*" başlıqlı yazısında oxuyuruq ki, "*şəhərimizin seyid və nəcib bir sülaləsindən olub da* ***iki ildən bəri***
*gedib* ***Şvetsariyada Lozan şəhərinin Tibb Darülfünununda***[3]

---

[1] "Mirhüseynzadə" Mirabbas Mirbağırzadənin özüdür. Qadın rolu oynadığına görə özünü tanıtmaq istəməyib.

[2] Yuxarıda.

[3] Oxu: İsveçrədə Lozanna şəhərinin Tibb Universitetində.



*təhsili-elmə məşğul olan* ***irəvanlı istudent Miryusif Mirbağırov***[1] *cənabları*" İrəvanın tanınmış ziyalılarından mühəndis ***Xəlil bəy Qasımbəyov***'a məktub göndərərək təhsilini davam etdirməkçün hər ayda ona 15 manatlıq maddi yardım göstərməyi İrəvan camaatından xahiş edib. Xəlil bəysə Mirabbas Mirbağırzadəni yanına çağıraraq (görünür, Miryusifin qohumu olduğuna görə) ona və qardaşı ***İbrahim bəy Qasımbəyov*** cənablarına bu tələbədən ötrü ianə toplamağı tapşırıb. Tez bir zamanda camaatdan 140 manat yığılıb. İanə verən *Abbasqulu xan İrəvanski* (20 manat), *Ağa xan İrəvanski* (10 m.), *Xəlil bəy Qasımbəyov* (10 m.), *Hacı Mirtağı Mirbabayev* (5 m.), *Cahangir bəy Topçubaşov* (3 m.), *Məşədi Ağa bəy Topçubaşov* (3 m.), *Hacı Əsgər bəy Feyzullabəyov* (2 m.), *Abbasqulu bəy Topçubaşov* (1 m.), *İsfəndiyar bəy Sultanov* (1 m.)... kimi dövlətli şəxslərin içərisində ***"Mirabbas Mirhüseynzadə"*** adını da oxuyuruq (ianəsi 2 manatdır).

Daha sonra müəllif toplanmış pulun hesabını qəpiyinəcən verib. (Ümumiyyətlə, o dönəmdə müxtəlif tədbirlərdə yığılan pulların hesabını mətbuatda hamıya açıqlamaq ənənəsi geniş yayılmışdı; bu, artıq söz-söhbətin yayılmasının qarşısını alırdı).

İrəvanda yüksək savadlı türk gənclərinin çoxalmasını ürəkdən istəyən Mirabbas Mirbağırzadə başqa tələbələrə də yardım edilməsinə çalışırdı. "*M.A.*" imzasıyla yazır ki ("*İrşad*", 10.6.1908, №84), «*əvvəlcə İrəvan seminariyasını qurtarmış və neçə ildən bəri İrəvan seminariyasında və russki-tatarski uşqolada böyük bir məharətlə müəllimlikdə bulunmuş, axır vaxtlarda isə təkmili-elmə olan ciddi şövq və həvəsi sayəsində həmi müəllimlik edib, həmi hazırlaşıb, İrəvan gimnaziyasının səkkizinci klasına tərifli və təhsinə layiq imtahan verdikdən sonra gedib şimdi Adessa Darülfünununun "yuridiçeski fakültet"ində təhsili-elmə məşğul olan istudent* ***Həmid bəy Şahtaxtinski*** *cənablarının Adessada məişət cəhətindən sıqıntı çəkməkdə olduğun eşitdiyimə görə*» onun üçün də ianə topladım və bu haqda ona məktub göndərdim. Cavabında Həmid bəy təşəkkür edərək yazdı ki, mənim ehtiyacım çox böyük deyil; yığılmış pulu ya başqa tələbəyə göndərin, ya da başqa bir xeyir işə sərf edin. Bundan sonra, yığılmış 46 manat 55 qəpik pulun ianə verənlərin razılığıyla İsveçrədə ("Şvetsariyada") oxuyan ***Miryusif Mirbağırov***'a göndərilməsi qərara alındı...

---

[1] Təəssüf ki, bu adamın şəxsiyyəti haqqında bizə heç nə bəlli deyil.

"*İrşad*"ın İrəvandakı xüsusi müxbiri bu şəhərin türk (müsəlman) əhalisinin problemlərini də vaxtında mətbuata çatdırır, ictimai rəyi vacib məsələlərə yönəldirdi. Qəzetin ***29 mart 1908*** tarixli 41-inci sayındakı böyük yazısında M.Mirbağırzadə (*M.Nadi*) həyəcan təbili çalıb: «***Otuz sənəyə yavuq*** *bir müddətdən bəri şəhərin[1] kənarı[nda]* ***"Toxmaxan"*** *deyilən yerdə min növ zəhmətlərlə abadanlıq və yurt salıb da şimdiyə qədər şəhərə artıq bir mədaxil verməkdə olan kənd əkinçi camaatı -* ***həştad iki evdən*** *ibarət bu Toxmaxan kəndlilərini* <u>*martın 6-sında*</u> *şəhər upravasının[2] təhrikiylə və* ***hökumət əmriylə zor ilə yurtlarını uçurub biçarə kəndliləri yersiz-avara buraqdılar***».

Göründüyü kimi, Mirabbas ağa heç nəyi ört-basdır etmədən barmağını birbaşa hadisənin səbəbkarına - hökumətə tuşlayıb və onun siyasətinə etiraz edib. Məhz bu yazıdan sonra "Toxmaxan faciəsi"ndən xəbər tutan başqa mətbuat orqanları da onun haqqında geniş materiallar verməyə başladı.

Bir neçə gün sonra - 1 apreldə "*İrşad*"dakı (№43) "*İrəvandan. Cəmiyyəti-xeyriyyə təsisi və lüzumu*" yazısında açıq imzayla (*"Mirabbas Mirbağırov"*) başqa bir ciddi problemə - İrəvanda müsəlman xeyriyyə cəmiyyəti yaratmağın vacibliyinə toxunub. Tez-tez Rusiyanın və Türkiyənin (başqa ölkələr haqqında məlumatımız yoxdur) ən müxtəlif şəhərlərinə gedən, dünyanın böyük mədəniyyət mərkəzlərində bulunan, ümumən müsəlmanların, o sıradan Qafqaz türklərinin dünya inkişafından necə və nə qədər geri qaldığını öz gözləriylə görərək bunun səbəblərini də özüyçün aydınlaşdırmış Mirabbas ağa yazır: «*Biz müsəlmanların arasında bu kibi ehsanat cəmiyyətinin lüzumunu Qur'ani-şərifimiz* ***"təavanu bi-l-bərri"***[3] *əmri-rəbbanisiylə*[4] *təbliğ buyurduğu halda, biləks, Qur'ani-şərifin mötəqidi*[5] *biz müsəlmanlar bu əmri, bu kibi asari-xeyriyyəni əncama və vücuda gətirməyib durur ikən dünyanın bütün xaçpərəstləri, bütpərəstləri, yəhudiləri bu əmri-rəbbanidən məxəz götürüb hər tərəfdə millətləri arasında "cəmiyyəti-xeyriyyə"lər təsis edib - daha bizim kimi hər fəqirə*

[1] İrəvanın.

[2] İdarəsinin.

[3] Qur'an ayəsindəndir: "*yaxşı işlərdə əməkdaşlıq edin*".

[4] Tanrı buyruğu, Allah əmri.

[5] Etiqad edəni, inananı.



*bir qəpik-iki qəpik, yaxud artıq verməklə füqəramızı azaltmaqdan isə, biləks, bu kibi verməyimizlə gün-gündən füqəramızın ədədləri[ni]*[1] *artırıb millətimizin abrusuna xələl yetirdiyimiz kibi yoq. Onlar isə hər kəsin xırda-xırda verməkdə olduğu ianə və ehsanatı bir yerdə, yəni bu kibi "cəmiyyəti-xeyriyyə"lərə toplayıb bir sərmayə etməklə millətlərini gözəl bir səadətə və möhtaclarını dəxi rifahiyyətə yetirməkdədirlər*».

Daha sonra müəllif hələ başqa yerləri yox, Qafqazın özünü örnək gətirərək *Bakı, Gəncə, Tiflis, Dağıstan* və başqa yerlərdə artıq xeyriyyə cəmiyyətlərinin yaradıldığını xəbər verərək deyir: "*...**Bizim İrəvanımız və İrəvan quberniyamız** bu möhtaclığa hər tərəfdən artıq möhtac olduğundan və İrəvan müsəlmanlarımız da daima hər kəs öz bildiyi qədər il başına kibi nə qədər əfvahi*[2]*, heç bir şeyə mənfəəti olmayan ehsanatı verməkdə olduqlarından, bu kibi cəmiyyətin vücudi-təsisi daha münasib bizim İrəvana lazımdır; onu da ki, həmd olsun, şəhərimizin nücəba və əyanından hörmətli **Abbasqulu xan [İrəvanski]** və **Əkbər ağa Qasımov** cənabları bu halları nəzərə alıb şəhərimizdə bu kibi cəmiyyəti-xeyriyyənin təsisi məqsədindədirlər*".

Xüsusi müxbir sonda bildirir ki, yaranması nəzərdə tutulan xeyriyyə cəmiyyətinin bütün işçiləri (başçı, katib və xəzinədar) camaatın seçdiyi şəxslər olacaq.

Böyük türk mütəfəkkiri ***İsmayıl bəy Qaspıralı***'nın (1851-1914) yaratdığı "*Tərcüman*" qəzetinin *2 may 1908-dəki* 25 illik yubileyi Azərbaycanın da hər yerində böyük bayram kimi qeyd olundu, məscidlərdə, cəmiyyətlərdə yığıncaqlar keçirildi, Bağçasaraya - İsmayıl bəyin adına onlarca təbrik teleqramı göndərildi[3]. *M.Nadi*'nin "*İrşad*"ın ***13 may 1908*** tarixli 67-inci sayındakı «*İrəvandan. İrəvanda İsmayıl bəyin "Tərcüman" yubileyini təbrik!!*» yazısından öyrənirik ki, bu şəhərimizdə də qəzetin 25 illiyi bayrama çevrilib. Mayın 1-ində "İrəvan cavanları" Bağçasaraya İ.B.Qaspıralının ünvanına bu məzmunda teleqram yollayıblar:

[1] Sayını.

[2] Boş, axvayı.

[3] Məsələn, Şəkidən də teleqram vurulub və 2 mayda Şəki cümə məscidində imam ***Nurməhəmməd əfəndi İmamzadə*** "*Tərcüman*" və İsmayıl bəylə bağlı nitq söyləyib. (Bax: "*İrşad*", 15.5.1908, №68, s.2).

*«Ədibi-şəhirimiz![1]*
*Camaatımız haqqında ənvayi-məşəqqətlərə qatlanıb ibraz buyurduğunuz təşəbbüsati-fövqəladələrə qarşı səmimiyyəti-qəlblə minnətdar olub ərzi-şükran edəriz. Mayın 2-sində olacaq yubileyinizə iştirakən biz də İrəvanda övraqi-"Tərcüman"ı[2] əldə dutaraq zati-ədibanənizə dualar edəriz. Xədəmat və təşəbbüsatınızın iyirmi beş illik bu gününü kəndimiz üçün böyük bir eydi-səid[3] edərək Sizi və "Tərcüman"ınızı sürəkli alqışlar ilə alqışlıyoruz, təbrik ediyoruz!*
***Mirabbas Mirbağırov,** Abbasqulu Sadıqov, İsfəndiyar bəy Sultanov, Abbasəli Kərimov, Məhəmməd Axundov, Abbas Ramazanov, Yusif bəy Qazıyev, Əsəd Əliyev, Əli Şağanov, Qaraxanov, Abbas Fərəcov, Heydərqulu bəy Əlibəyov, Haşım bəy Nərimanbəyov, İsmayıl bəy Şəfibəyov, Mirzə Məhəmmədəli Qəmərlinski, Mirzə Şükür Aruşanov, Paşa Bayramov».*

Teleqramda Mirabbas ağanın adının birinci gəlməsini onun nüfuzunun göstəricisi sayırıq. Bu fikri İrəvanın cümə məscidində şəhər əyan-əşrafının iştirakıyla 2 mayda keçirilən yubiley yığıncağındakı çıxışı da təsdiqləyir. Şəhərin vaizi *Mirzə Hüseyn Axundzadə*'dən sonra ilk söz *Mirabbas Mirbağırzadə*'yə verilib və o, türk millətini ittifaq və məhəbbətə çağırıb, birliyin önəmindən danışıb. (Ondan sonra *M.M.Qəmərlinski* söz alıb).

M.Mirbağırzadə *"Tərəqqi"* qəzetinin 15 fevral 1909 tarixli 36-cı sayından başlayaraq *"Tarixi-islamdan parlaq bir səhifə"* (müəllifi *İbrahim Rifət*'dir) əsərinin tərcüməsini nəşr etdirməyə başlayıb.

**1909-da Bakıya gələn** M.Mirbağırzadə burada da kitab ticarətiylə məşğul olub. O, ticarətini genişləndirməkçün dəfələrlə İstanbula gedib-gəlməli olur. Bu vaxt - 1912-də artıq Balkan savaşı qızışmışdı və xristian Avropası Osmanlı imperatorluğunu parçalamaqçün əlindən gələni edirdi. Beynəlxalq durumu öz gözləriylə görən Mirabbas ağa *"İqbal"* qəzetinin 20 dekabr 1912 tarixli 241-inci sayındakı ***"Tarixi fəqərələr. Bulğarların mazisi"*** adlı yazısına belə bir maraqlı giriş verib: *«İstanbuldan gəlirkən Bakıya vürudumuza qədər Batumda, Tiflisdə və şimdi də*

[1] Məşhur ədibimiz.
[2] *"Tərcüman"*ın vərəqlərini.
[3] Xoşbəxt bayram.



*Bakıda təsadüf etdiyimiz bir çoq dost və aşnalarımız Osmanlı aləminə və müharibə əhvalına dair bizdən bəzi suallar soruyordular. Məsələn, bəziləri: "Bolğarlar kim? Serblər kim idi? Yunan məlum. Qaradağlılar nə idi? Osmanlılar davanın[1] əvvəlindən bəri neçün basıldılar? İmdi Osmanlıların qüvvəti nasıldır? Sülhün, yainki müharibəyə davam etməyin hankisi Osmanlılara xeyir ola bilir? O böyüklükdə Osmanlı imperatorluğu nə səbəbdən bu ad-sansız, ufaq hökumətlərə məğlub olsun?..", daha bu kibi bir taqım mütəaddid[2] suallar ki, bunların həpsinin sorulması və anlaşılması lazım isə də, əlbəttə, bir məqalə sətirləriylə bunlara bir cavabi-kafi verməк müşküldür. Bunun üçün uzun-uzadı tətəbböat və tədqiqatda səhifələr dolusu mütaliədə bulunmaq icab edəcəkdir. Fəqət biz burada müxtəsərən, məlumatımızın vüsəti dərəcəsində və İstanbulda bulunduğumuz zamanlardakı şahidatımızın müavinətiylə fövqəzzikr sualların cavabını, bilməyən vətəndaşlarımıza ərz etmək istəyirik. Və ilk dəfə olaraq Osmanlı hökumətinin imdiki vuruşmada olduğu dövlətlərin nə kibi qövmlər, nə kibi hökumətlər olduğunu və nə kibi tarixə malik bulunduğunu müxtəsərcə ərzə çalışacağız. Və mümkün olursa başqa məbhəslərə[3] keçəcəyiz».* Beləliklə, çox keçmədən M.Mirbağırzadənin *"İqbal"* və *"Sədayi-həqq"* qəzetlərində **"M.B."** və **"M.A."** imzalarıyla ***"Tarixi fəqərələr. I. Bulğarların mazisi"*** (*"İqbal"*, 20 dekabr 1912, №241), ***"Osmanlı-Balkan müharibəsi"*** (*"Sədayi-həqq"*, 21 dekabr 1912, №230), ***"Avstriya və müharibeyi-hazirə"*** (*"Sədayi-həqq"*, 23 dekabr 1912, №231), ***"Tarixi fəqərələr. II. Serblər və mazisi"*** (*"İqbal"*, 23 dekabr 1912, №243), ***"Tarixi fəqərələr. III. Qaradağlılar və əhvali-haziirələri. Trakya"*** (*"İqbal"* qəzeti, 26 dekabr 1912, №246), ***"Albaniya (Arnaudluq) qitəsi"*** (*"Sədayi-həqq"* qəzeti, 27 dekabr 1912, №235), ***"Məlumati-mətnuə. Əfğanıstan ordusunun ələmləri (bayraqları)"*** (*"İqbal"* qəzeti, 27 dekabr 1912, №247), ***"Makedoniya və müharibeyi-hazirənin mənşəyi"*** (*"İqbal"* qəzeti, 27 dekabr 1912, №247; 30 dekabr 1912, №249), ***"Türkiyədə rum petrikliyi"*** (*"İqbal"* qəzeti, 31 dekabr 1912, №1) kimi siyasi-tarixi baxımdan olduqca mükəmməl məqalələri işıq üzü gördü.

[1] Balkan savaşının.
[2] Çoxlu, saysız.
[3] Bəhslərə, mövzulara.

Bu yazılar M.Mirbağırzadədə yazıb-yaratmaq həvəsini qat-qat artırdı və o, tezliklə bacarığını ən müxtəlif mövzulu kitablar yazmaqda da sınadı.

Kitablarının nəşrini əvəzsiz mənəvi qazanc sayan M.Mirbağırzadə bu işə 1913-dən ciddi girişsə də heç bir maddi qazanc əldə etmədi, çünki kitab basımı ağır xərc istədiyindən, naşirlər buraxdırdıqları kitabları özləri də satır, müəllifə, demək olar ki, heç nə vermirdilər. Məsələn, 1913-də çıxmış ilk kitabları: *"Osmanlı hökumətinin qüdrətli günləri"* və *"Osmanlı tarixinin mühüm səhifələri"* Orucov qardaşlarının mətbəəsində və onların vəsaitiylə nəşr edilib, elə onların da mağazasında satılıb (*"İqbal"* qəzetinin 1914 tarixli 629, 708-718 və b. saylarındakı elanlara baxılsın). *"İslamın mədəniyyət tarixi"* tərcümə əsərinisə *Məşədi Əyyub Ələkbərov* öz xərciylə buraxdıraraq öz kitab mağazasında da satıb (*"İqbal"* qəzetinin 1914 tarixli 570, 573, 582, 590 və b. saylarındakı elanlara baxılsın).

Mirabbas Mirbağırzadənin jurnalistlik fəaliyyəti sonrakı illərdə də dayanmayıb. Azərbaycan Cümhuriyyəti dönəmində *"Azərbaycan"*, sovet hakimiyyəti çağında *"Kommunist"* (eləcə də bu qəzetin əlavəsi olan *"Əmələ darülfünunu"*), *"Yeni yol"*... qəzetlərində, *"Xalq maarifi"*, *"Füqəra füyuzatı"*, *"Maarif və mədəniyyət"*, *"Azərbaycan Ali İqtisad Şurasının əxbarı"*, *"Xalq müəllimi"*, *"Qızıl qələm"*, *"Əkinçi"*, *"Maarif işçisi"*, *"İqtisadi xəbərlər"*... jurnallarında onun xeyli məqaləsi dərc edilib.

Mövzumuzdan uzaq olduğuna görə təhlilinə girişmədiyimiz bu yazılar Mirabbas Mirbağırzadənin Azərbaycan mətbuatı tarixində ən müqtədir qələm yiyələrindən biri olduğunu təsdiqləməkdədir.

## Kitabçı-alim

Qələmini artıq mətbuatda uğurla sınamış Mirabbas Mirbağırzadə indi də kitab yazmağa ciddi həvəs göstərirdi. Ümumiyyətlə, hədsiz geniş dünyagörüşlü bir şəxsiyyət, çoxyönlü elmi meylləri olan M.Mirbağırzadə bir-birindən çox uzaq ən müxtəlif mövzularda eyni uğurla yazmağı bacarırdı. 1914-də çıxmış *"Tarix səhifələri"* kitabının 79-uncu səhifəsində verdiyi *"Yazdığımız kitabların sıraları"*ndan[1] aydınlaşır ki, o, öz əsərlərini hələlik iki seriya (*"Tarixi kitablar"* və *"Hifzi-səhhətə[2] dair kitablar"*) üzrə buraxır.



M.Mirbağırzadə öz türk millətini dünyada hər şeydən yüksək dəyərləndirən alovlu millətsevər və yurdsevər bir kişiydi. *"Türk"* deyərkən o qətiyyən *Azərbaycan türkü, Osmanlı türkü, Rusiya türkü* bölgüsü aparmır, yalnız bir bölünməz və parçalanmaz türk soyu tanıyır və tanıdırdı. Bununla yanaşı, o, Osmanlı dövlətinə (Türkiyəyə) xüsusi sevgiylə yanaşır, onun tarixinin bütün Qafqazda, o sıradan Azərbaycanda öyrədilməsinə daha çox çalışırdı, çünki o, bu dövləti dünya türklərinin (biz də onların içində) güvənc, umud yeri, dar ayaqda qurtuluşçusu sayırdı. Bu üzdən də o, Türkiyəni yaxından öyrənməkçün dəfələrlə bu ölkədə olmuş, onun tarixiylə bağlı kitabları toplayaraq Azərbaycana gətirmiş və onlardan yararlanmaqla maraqlı Osmanlı tarixi kitablarını yazmışdı (bu işdə, sözsüz, az-çox kommersiya maraqları da vardı).

Soydaşlarının savadsızlıq üzündən kütləvi yoluxucu xəstəliklərə tutulması da Mirabbas Mirbağırzadəni rahatsız edən məsələlərdəndi. O, həkim olmasa da bir savadlı aydın kimi öz yurddaşlarına bu yöndə əl uzatmaq istəyirdi.

Beləliklə, öz qeydlərinə və başqa qaynaqlara[3] əsasən Mirabbas Mirbağırzadənin qələmindən çıxdığını müəyyənləşdirə bildiyimiz kitablar bunlardır:

1) **Osmanlı tarixinin mühüm səhifələri[4].** Osmanlıcadan döndərib yazanı ***Mirabbas Mirbağırov.*** Bakı: Nəşriyyati-bəradərani-Orucov. Orucov qardaşlarının elektrik mətbəəsində təb edildi. 1331/1913, 98 s. ("Tarixi əhvalat sırası"ndan "birinci sıra" əsərdir).

***"Yazan tərəfindən bir neçə söz"***də (ss.2-3) oxuyuruq:

*«Bu dəfə İstanbuldan qayıdıb Bakı şəhərinə gəldiyimdən sonra* ***"Sədayi-həqq"*** *qəzetəsində* ***"Osmanlı-Balkan müharibəsi",***

[1] "Sıra" *seriya* anlamında işlədilib.

[2] "Hifzi-səhhət" *tibbi profilaktika* anlamındadır.

[3] Məsələn: Əmin Əfəndiyev, Zakirə Əliyeva. Orucov qardaşlarının mətbəəsi. Bakı: Qartal, 1999, s.63.

[4] AR MEA Əlyazmalar İnstitutunda və Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılır.

*"Avstriya və müharibeyi-hazirə", "Arnaudluq qitəsi"* *məqalələrin "M.A." (م.ع.) imzasıyla və "İqbal" qəzetəsində* **"M.B." (م.ب.)** *imzasıyla* **"Bulğarların mazisi", "Serblərin mazisi", "Qaradağlıların hazirələri", "Makedoniya və hərbi-hazirənin mənşəyi", "Türkiyədə rum petrikliyi"** *məqalələrimi yazdım. Bunlardan məqsəd möhtərəm camaatımıza bəzi əhvalat və məlumatı yazıb ərz etmək idi. Bu yazılar Osmanlı şivəsində idi. Qəzetələrin şivəsi də elə olduğundan bən də o kibi yazmağa məcbur idim. Sonra camaat arasında anlayıb gördüm ki, yuxarı-aşağı siniflərimizdə olanlardan bir çoğu kibi yazılardan bir şey anlıyamıyorlar, halbuki qəzet, kitab oxumağa hörmətli camaatımızın hamısında böyük bir həvəs gördüm. Buna görə aciz bir qələm ilə yazıb möhtərəm oxuculara təqdim edilən bu* **"Osmanlı tarixinin ən[1] mühüm səhifələri"** *adlı kitabımızı mümkün olduğu qədər asan və* **öz Qafqaz dilimizdə** *yazdım ki, hər kəs oxuyub anlaya bilsin. İbarəpərdazlıq tərəfdarı olan möhtərəm ustadımız yazıçılar bizim bu kibi yazdığımıza diqqət dutarlarsa dutsunlar; biz camaatımız ilə danışmaq istədiyimiz üçün onların anlaya biləcəyi dildə yazı yazmağı özümüzə məslək dutduq.*

*Millətimizin kökü yerində olan avam[2] camaatımız bu xüsusda bizdən razı qalarlarsa dünyavü axirət bəsimizdir.*

***BİLDİRMƏ.*** *Bu yaxında çap olunacaq ikinci kitabımız* **"Osmanlı hökumətinin qüdrətli günləri"** *adındadır ki, birinci kitabımızdan sonra çap olunmağa başlanır. Kitablarımıza möhtərəm camaatımızın həvəs və rəğbətini gördükcə biz də camaatımıza bilinməsi ən lazım olan yazıları asanca yazıb təqdim edəcəyik.*

***M.A.M.Bağırov».***

Bu kitabın nəşriylə bağlı *"İqbal"* qəzetində (12 avqust 1914, №709, s.1; təkrarı: №№710-718...) belə elan gedib:

*"OSMANLI TARİXİNİN MÜHÜM SƏHİFƏLƏRİ.*

*Yazanı:* ***Mirabbas Mirbağırov.***

*Mündərəcatı: Osmanlı padşahlığının başlanması, Osmanlı padşahlarının sultan adlanması, xəlifəliyin Osmanlı hökumətinə keçməsi, xəlifəlik əmanətləri və ziyarətləri, Osmanlı sikkələri, Osmanlı hökumətinin əlamətləri. [...]*

*Müraciət üçün adres:* **Баку, Бр. Оруджевым, почт. ящ. 258"**.

[1] Bu söz kitabın adında yoxdur.

[2] Savadsız.



Yeri gəlmişkən, *"İrşad"* qəzetində də (1914, №№753, 756, 758, 760 və b.) bu kitabın nəşri və satışı haqqında çoxlu elan verilib.

1913-ün martında *"İqbal"* qəzetində bu əsər haqqında görkəmli yazıçı və jurnalist *Hüseyn Sadiq (Seyid Hüseyn)* (1887-1937) tənqidi bir yazı çap etdirmişdi. Mirabbas ağa buradakı tənqidləri haqsız sayaraq həmin qəzetin 19 mart 1913 tarixli 310-uncu sayında ona *"Tənqidi tənqid, yaxud məqaleyi-cavabiyyə"* başlıqlı cavab ünvanlayıb. Həmin cavabın kiçik bir bölümünü oxucuların diqqətinə çatdırırıq:

*«17 mart tarixli möhtərəm "İqbal"ın ikinci səhifəsində* **"Osmanlı tarixinin mühüm səhifələri"** *sərlövhəli və* **"Hüseyn Sadiq"** *imzasıyla yazılmış bir məqalə nəzərimizə çatdı. [...]*

***Əvvəla,*** *məzkur məqaləni yazılışının bəzi cümlələrindən tolayı tənqid eləməyə biz də özümüzdə haqq görürük, çünki məqaleyiməzburədə deyilir ki,* **"toqsan səkkiz səhifədən ziyadə olmayan bu kitabda..."**. *İştə bu cümlədən aydın bir surətdə anlaşılır ki, möhtərəm məqalə sahibi bizim kitabımızı müxtəsərcə toplanılıb yazılmış və genə müxtəsər bir kitab zənn etmiş, halbuki məsələnin künhü[1] bütün-bütünə bunun əksinədir. [...]*

*Məsələn, kitabımızda olan əhvalatlardan "Osmanlı padşahlığının başlanması", "Osmanlı padşahlarının sultan adlanması", "Xəlifəliyin Osmanlı hökumətinə keçməsi", "Xəlifəlik əmanətləri və onun Osmanlı hökumətində ziyarətləri", "Osmanlı sikkələri" və "Osmanlı hökumətinin əlamətləri" kibi keyfiyyətlərin hansı biri oqunursa o barədə bütün məlumat alınmış olur; dediyimiz kibi, daha təfsilatını anlamaq üçün özgə kitaba baqmağa ehtiyac qalmır.*

*İşin künhü böyləcə anlaşıldığı halda, kitabımızı tənqid eləyən məzkur məqalənin başdan yanılmış olduğu meydana çıxır. Yainki bundan əlavə, o məqaləni yazan möhtərəm qələmin səthi və böyük bir xəta eləmiş olduğu anlaşılır.*

*[...] Hakəza[2],* **"Osmanlı sikkəsi barəsində bu qədər müfəssəl məlumat vermək "Osmanlı tarixinin mühüm səhifələri" kibi ufaq (?) bir kitabın vəzifəsi deyildir"** *cümləsində olan sözlər məzkur məqalənin dutulmuş olduğu zənn ilə yürüdüyüyçün yuxarıkı izahatımızın qabağında üstünə qələm çəkmək lazım gəlir. [...]*

[1] Mahiyyəti.

[2] Beləcə, bu cür, bunun kimi.

*Üsul və ədəb dairəsində olan tənqid gözəl və istifadəli[1] bir şeydir; bu kibi üsul ilə yazılan tənqidlərdən möhtərəm oxucular da hissəmənd ola bilər. Vəlakin tənqid olunacaq şeyi əvvəlcə dürüst və ətraf ilə, bütün mənasıyla mütaliə etməli, ondan sonra əziz olan qələmi ələ almalı».*

Hüseyn Sadiq *"İqbal"* qəzetinin 29 mart 1913 tarixli 319-uncu sayında *"Bir tənqidin zeyli"* adlı yazısıyla bu cavabı da tənqid edib, M.Mirbağırzadə də öz növbəsində *"İqbal"*ın 31 mart tarixli 320-ci sayında yenə onu cavabsız qoymayıb.

2) **Osmanlı hökumətinin qüdrətli günləri.** Yazarı: ***Mirabbas Mirbağırov***. İki cilddə. Birinci cild. Bakı: Orucov qardaşlarının mətbəəsi, 1913, 216 s.

Kitabın nəşriylə bağlı *"İqbal"* qəzetində (17 aprel 1914, №629, s.4; təkrarı: №№708-711...) bu məzmunda elan gedib:

*"OSMANLI HÖKUMƏTİNİN QÜDRƏTLİ GÜNLƏRİ.*

*Yazanı: **Mirabbas Mirbağırov**.*

*Bu kitab Osmanlı hökumətinin parlaq vəqtlərini hekayə ediyor. Sultan Bayəzidin toyu, Osmanlı dava geyimləri, Sultan Murad Xudavəndigar zamanı, Trakya, Bolğarıstan və Makedoniyanın ilhaqı, Kosova davası, Sultan Məhəmməd Fateh, İstanbulun mühasirəsi (alınması), Serbistan, Arnaud, Trabzon imperatorluğu, Zülqədər, Qaraman, İsfəndiyar hökumətlərinin alınmağı kibi mühüm vaqiələr bu kitabın mündərəcatındandır.*

*216 səhifədən ibarət olub qiyməti bir manatdır. Posta xərciylə 1 manat 12 qəpik. Naloj edilərsə 1 m. 30 qəpik.*

*Müraciət üçün adres:* ***Баку, Бр. Оруджевым, почт. ящ. 258"***.

Seyid Hüseyn də inadcıl adammış - redaktoru olduğu *"İqbal"*ın 25 oktyabr 1913 tarixli 489-uncu sayındakı *"İntiqad"* və 30 oktyabr tarixli 492-ci sayındakı *"Bizdə tənqidçilik"* məqalələrində indi də *"Osmanlı hökumətinin qüdrətli günləri"* kitabını amansızcasına tənqidə girişdi. *"Seyid Hüseyn"* adının ucalıq və böyüklüyünə sonsuz sayğımızla yanaşı, onun M.Mirbağırzadəni *"ədəbsiz"* adlandıraraq təhqir etməsini, kitabına *"düşmənlik qələmi ilə yazılmışdır"* deyərək açıq-aşkar düşməncəsinə yanaşmasını, hətta belə əsərləri yazmağın qabağını almağı təklif etməsini... bağışlanmaz qəbahət və tənqidçi nüfuzuna ciddi zərbə sayırıq.

[1] Yararlı.



Nə yaxşı ki, Mirabbas ağa bu haqsız tənqidlərə dözümlə yanaşıb: *«Seyid Hüseyn cənabları! 25 oktyabr 1913 tarixli "İqbal"da mənə qarşı yazdığınız söyüş üçün razılığımı izhar edib "Allah atanızı rəhmət eləsin" deyirəm.*

*"Osmanlı hökumətinin qüdrətli günləri"ni yazan: **Mirabbas Mirbağırov**. Bakı, 25 oktyabr 1913».*

Ancaq M.Mirbağırzadənin əsərlərinə ən düşməncəsinə yanaşan görkəmli şair və publisist ***Əlabbas Müznib***'di. O, *"İqbal"*ın 31 oktyabr 1913 tarixli 493-üncü sayındakı *"Yazıçılarımız və yazılarının əhəmiyyəti"* məqaləsində qəzəb püskürərək bütün etika sədlərini aşır: *"Nə vaxt iki yazışanın yazılarına diqqət edilib ikisindən birisinin nahaq olduğunu özünə söyləmişlər və **murdar ləkə kibi** səhifeyi-mətbuata yapışdırdığı vərəq parasını cırıb atmışlar? Halbuki bu yaqınlarda öylə bir şeylər yazıb təb etmişlər ki, doğrudan da, **ən alçaq bir adam onu yazmaz**. O cümlədən biri də bir ildən bəri arabir mübahisəsi görünən **"Osmanlı tarixinin mühüm səhifələri"** və **"Osmanlı dövlətinin qüdrətli günləri"** kitablarıdır ki, adlarını elanda oquyanlar bir şey bilib alırlar, lakin **içinin malamal ciyər parçalayan zəhər ilə dolu olduğunu** bilmiyorlar. Umudvaram arabir məzkur kitablar xüsusunda bir qədər yazıb Qafqazın türk balalarına babalarının qüdrətli günlərini oqudaraq bu yazılan "...qüdrətli günləri"nin nə tövr **rəzalət olduğunu** bəyan edərik".*

Ə.Müznib sözünün üstündə durdu - eyni adlı məqaləsinin davamında (*"İqbal"*, 29.11.1913, №516) və sonrakı bəzi çıxışlarında M.Mirbağırzadənin kitablarına "ilişdi", ancaq heç bir ciddi qüsur tapmayandasa onlara lağ etməyə başladı...

Ə.Müznibin yaradıcılığına və şəxsiyyətinə bəslədiyimiz ən dərin ehtirama baxmayaraq, onun Mirbağırzadəyə qarşı tənqidlərinin başdan-ayağa qərəzli və haqsız olduğunu, sırf kommersiya rəqabətindən doğduğunu bildirməyə borcluyuq. (Ə.Müznib də Osmanlı tarixi, Yusif-Züleyxa və b. ortaq mövzularda kitablar buraxdırmışdı və Mirabbas ağanın onun "bazarına girməsinə" dözə bilmirdi).

Bu vaxt başqa bir nüfuzlu qəzetçi - ***Məhəmməd Səid Ordubadi*** Mirbağırzadənin müdafiəsinə qalxdı. *Mirməhəmmədkərim*'in ərəbcədən çevirdiyi *"Üzrayi-Qüreyş"* əsərini tənqid etmiş *"Molla Nəsrəddin"*'in yeni redaktoru *Rzaqulu Nəcəfov*'a *"Sədayi-həqq"* qəzetinin 17 dekabr 1913 tarixli sayında üz tutan

Ordubadi yazır: *«Onu demək istəyirəm ki, sizin Mirməhəmməd-kərimi tənqidiniz Ələbbas Müznib cənablarının öz "Muxtarnamə"sini, "Hacı baba"sını qoyub* ***Mirbağırov****'un əsərlərini tənqid etməyi kimidir...»*[1].

3) ***Mirabbas Mirbağırov.*** **Tarix səhifələri. I. İslam pulları. II. Misir ölkəsi və tarixi**[2]. Birinci cild. Naşiri: *Mirabdulla Mirhüseynzadə.* Bakı: İsa bəy Aşurbəylinin "Kaspi" mətbəəsi, 1914, 79 s.

Naşiri öz qardaşı *Mirabdulla Mirhüseynzadə* (əslində: *Mirbağırzadə*) olan bu əsər 20 avqust 1913-də yazılmış *"Bir neçə söz"*lə başlayır.

Kitabın Əlyazmalar İnstitutunda saxlanılan nüsxəsinin titul səhifəsində bu avtoqraf var: *«Kütübxanəmizin sahibi-fəxrisi və "Şəlalə" məcmueyi-müsəvvərəsi müəssisi-möhtərəmi* ***İsa bəy Aşurbəyli*** *cənabi-nəcabətpənahilərinə mühərriri-aciz tərəfindən təqdimi-naçizanədir.* ***M.A.Mirbağırov. Bakı, 27 fevral 1914»***.

*"İqbal"* qəzetinin 587-ci sayında (25.02.1914) belə bir elan gedib: *"****Tarix səhifələri. I. İslam pulları. II. Misir ölkəsi və tarixi.*** *Açıq türk dilindədir. Çapdan təzə çıxdı. Qiyməti 40 qəpikdir. Yüz [nüsxə] ilən alanlara 25 qəpikdən hesab olunur. Adres: Bakı, Nikolayeviski küçə, Mirabbas Mirbağırovun idarəsiylə təzə açılan müsəlman kütübxanəsi".*

*"Sədayi-həqq"* qəzetindəsə (7 aprel 1914, №78, s.3; təkrarı: №№90, 95, 96) bu kitabla bağlı elan belədir: *"İslamiyyət zamanlarında və daha sonra islam padşahlıqları vaxtında islam sikkələrinin nə sayaq kəsildiyini, nə şəkil və yazıda olduqlarını göstərmiş və Misir ölkəsinin nə kibi bir ölkə olduğunu yazmış və fironların əhvalatından bəhs etmiş bir tarix kitabıdır.* ***Açıq türk dilindədir.*** *Çapdan çıxdı. Müəllifi Mirabbas Mirbağırovdur. Oqumağı hər kəsə mənfəətli bu kitabın qiyməti yalnız 40 qəpikdir. [...] İstəyənlər bu adresə baxsınlar:* ***Bakı, Nikolayeviski küçədə Mirabbas Mirbağırovun idarəsiylə təzə açılan kitab mağazası****"*.

*"Sədayi-həqq"* qəzetinin 31 oktyabr 1914 tarixli 252-ci sayında (s.4) yenə bu kitabla bağlı daha geniş məzmunlu elan var (təkrarı: №№253, 254).

---

[1] M.S.Ordubadi. Bizdə tənqid. - *"Sədayi-həqq"* qəzeti, 17 dekabr 1913, №289.

[2] Əlyazmalar İnstitutunda Salman Mümtaz fondundadır.



4) ***Mirabbas Mirbağırov.*** **Cənab Yusif və macərayi-məşhuru**[1]. Məşhur alim olan həzrət Yusif və Züleyxa əhvalatının müfəssəl və aşiqanə tarixidir. Naşiri: ***Mirbağırov bəradərləri.*** Bakı: İsa bəy Aşurbəylinin "Kaspi" mətbəəsi, 1914, 98 s. Bu, *"Mirbağırov qardaşları"*nın nəşr etdirdiyi ilk kitabdır.

Əsər 4 mart 1914-də yazılmış *"Bir neçə söz"*lə (ss.3-4) açılır. Burada yazar Yusif və Züleyxa əhvalatının *Tövrat, İncil* və *Qur'an*'dan tutmuş sonrakı tarixi qaynaqlaradək necə geniş əks olunduğundan danışır və çoxlu tarixi ədəbiyyatdan yararlanmaqla qələmə aldığı bu ciddi elmi əsəri "hörmətli camaatımıza daha gözəl, daha xoş oxuda bilmək üçün" yazıya *roman* rəngi verdiyini göstərir.

Əlyazmalar İnstitutundakı nüsxəsinin üstündə belə bir avtoqraf var: *"Ürfanpərvər möhtərəm əsalətməab* ***İsa bəy [Aşurbəyli]*** *cənablarına təqdimi-qələmimdir.* ***M.A.Mirbağırov. Bakı, 10 may 1914****"*.

*"Sədayi-həqq"* qəzetində (28 may 1914, №122, s.4; təkrarı: №№128, 129, 239, 241, 242) bu kitabla bağlı belə elan verilib: *«Aləmin məşhuru olan həzrət Yusif və Züleyxa əhvalatının ən müfəssəl, ən həqiqi və aşiqanə surətdə, çoq asan dildə yazılmış tarixidir. Kitabın içində həzrət Yusifə, Züleyxaya, həzrət Yaquba dair üç yerdə gözəl tarixi şəkillər vardır. Müəllifi:* ***Mirabbas Mirbağırov.*** *Qiyməti əlli qəpikdir. [...] Bu kitabı oxuyub həqiqi surətdə ləzzətlənmək istəyənlər yalnız bu adresə yazmalı və təşrif gətirməlidirlər:* ***Bakı, Nikolayeviski küçə, "Kaspi" qəzetxanasının qabağında Mirabbas Mirbağırovun idarə etdiyi təzə kitab mağazası.*** *Bu mağazada İstanbulda çıxan hər cürə qəzetlər, jurnallar və şəkillər də satılmaqdadır. İstanbul jurnal və qəzetləri tək-tək satıldığı kibi, illik, altı aylıq müştəri də qəbul edilir».*

5) **Osmanlı marşları, Vətən və millət nəğmələri**[2]. Tərtib edəni və yazanı: ***Mirabbas Mirbağırov.*** Bakı: İsa bəy Aşurbəyovun "Kaspi" mətbəəsi, 1914, 104+2 s.

*"Sədayi-həqq"* qəzetində (29 iyul 1914, №174, s.4; təkrarı: №№175, 180, 191) bu kitabla bağlı belə elan verilib: *«Adından məlumdur ki, kitabın içində nələr yazılmışdır. 104 səhifədən*

---

[1] Əlyazmalar İnstitutunda saxlanılır.

[2] Mikrofilmi M.F.Axundzadə adına Milli Kitabxanamızın "Azərbaycan kitabı" bölməsindədir.

*ibarətdir. Qiymətì 35 qəpik. [...] Adres yalnız budur:* ***Bakı, Nikolayeviski küçə, "Kaspi" qəzetxanasının qabağında Mirabbas Mirbağırov kitabxanası».***

6) **Süzənək dutanlara və dutmamağa çarə**[1]. Bakı: "Bakı" elektrik mətbəəsi, 1914, 32 s.

Əsər haqqında ilk məlumat *"Cənab Yusif və macərayi-məşhuru"* (1914) kitabının cildinin arxasındakı bildirişdə gedib. Öz kitab mağazasında satışda bulunan *"Süzənək dutanlara və dutmamağa çarə"* kitabı haqqında müəllif reklam səciyyəli bu sözləri yazıb: *"Osmanlı doktorlarının və Avropa doktorlarının Osmanlı dilinə tərcümə edilmiş əsərlərindən, uzun-uzun tətəbböat nəticəsində toplanmış və bir çoq təcrübələrdən, doktorlarla görüşüb mübadileyi-əfkar etdikdən sonra yazılmış, çoq mənfəətli və arvad, kişi, oğlan, qız, böyük, uşaq - hər kəsin oxuması vacib bir kitabdır.* ***Kitabxanamız tərəfindən forma-forma nəşr olunur.*** *1-inci və 2-nci formaları çıxdı".*

*"Sədayi-həqq"* qəzetində verilmiş (8 aprel 1914, №79, s.3; təkrarı: №93) aşağıdakı elan deyiləni daha da dəqiqləşdirir: ***"1-inci və 2-nci forması çıxdı. Hamısı 5 formadan ibarət olacaqdır.*** *Bir neçə məşhur professor və doktorların əsərlərindən toplanılmış, çapa verilməmiş, bu dərdin həkimi olan məşhur doktorlara göstərilmiş, həkimlər komitəsinə təqdim edilmişdir. Açıq və asan türk dilində yazılmışdır. Qız, oğlan, arvad, kişi, cavan, qoca - hər kəsin alıb oxuması vacib bir kitabdır. Hər formasının qiyməti altı qəpikdir. [...] İstəyənlər bu adresə baxsınlar:* ***Bakı, Nikolayeviski küçədə Mirabbas Mirbağırovun idarəsində təzə açılmış kitab mağazası"***.

7) **İslamın mədəniyyət tarixi**[2]. Siyasi, ictimai, iqtisadi, coğrafi, dini, mədəni, ədəbi, fəlsəfi islamiyyət tarixidir. *Müəllifi:* Misirdə məşhur *"əl-Hilal"* məcmuəsinin sahibi və mühərriri, hazırkı əsrin namdar fazillərindən ***Cürci Zeydan.*** Osmanlıcaya mütərcimi: *"İqdam"* qəzetəsinin müqtədir mühərrirlərindən *Zəki Müğamiz.* Qafqaz türkcəsinə təbdil edəni: ***Mirabbas Mirbağırov.*** Naşiri: M[əşədi] Əyyub Ələkbərov. Birinci cild. İkinci hissə. Bakı: "Bakı" mətbəəsi, 1913, ss.129-256.

---

1 Mikrofilmi M.F.Axundzadə adına Milli Kitabxanamızın "Azərbaycan kitabı" bölməsindədir.

2 SPİHMDA-də saxlanılır.



*"İqbal"* qəzetinin 8 dekabr 1913 tarixli 523-üncü sayındakı reklam elanında (sonrakı bir çox saylarda da təkrarlanıb) deyilir: *"Bütün müsəlmanların ən sevə-sevə oquyacağı və oquduqca yürəklərini həqiqi surətdə şadlandıracaq tarix kitabı: İSLAMIN MƏDƏNİYYƏT TARİXİ. Bu kitab siyasi, ictimai, iqtisadi, coğrafi, dini, mədəni, ədəbi, fəlsəfi islamiyyət tarixidir. Müəllifi: Misrin ən məşhur ərəb alimlərindən* ***Cürci Zeydan****. Osmanlıcadan Qafqas türkcəsinə təbdil edəni:* ***Mirabbas Mirbağırov****.*

*Birinci cildinin birinci hissəsi 128 böyük səhifədən ibarət olmaqla çapdan çıxıb satışa qoyuldu*[1]*.*

*Gözəl kağızda və ziynətli qabdadır. Qiyməti 70 qəpikdir. [...] Satış mərkəzinin adresi: Bakı, Parapet, Ələkbərov" (s.4).*

Bu elan *"İqbal"*ın sonrakı bir çox saylarında qısaca verilib.

***

Gördüyümüz kimi, Mirabbas Mirbağırzadənin qələmindən 6-sı orijinal, 1-i (sonuncusu) tərcümə olmaqla 7 kitab çıxıb.

Yeri gəlmişkən, bu tərcümə kitabından başqa da onun tərcümələri var. *"Tərəqqi"* qəzetinin 1909-uncu il 15 fevral (№36), 20 fevral (№41) və 4 mart (№48) saylarında *«"Umud" kütübxanəsi sahibi* ***Mirabbas****»*ın İbrahim Rifətdən tərcümə etdiyi ***"Tarixi-islamdan parlaq səhifə"*** felyetonu yer alıb. (Görünür, sonralar onu kitab şəklində buraxmaq fikrində olub).

Bizcə, ***"Elçi"*** imzası altında 1912-ci ildə *"İqbal"* (№44) və *"Yeni İrşad"* (№47) qəzetlərində getmiş ***"Tale"*** yazısı və yenə *"İqbal"* qəzetinin 27 aprel - 30 iyul 1912-dəki 25 sayında getmiş ***"Eşq və namus"*** felyetonunun "tərcümə və təbdil"i də onundur.

Görünür, mətbuatdakı ona qarşı haqsız hücumlar Mirabbas ağanı xeyli ruhdan salıb, buna görə də o, 4 il yarım qələmi yerə qoyub. Yoxsa *"kitabçı Mirabbas Mirbağırov"*un *"Sədayi-həqq"* qəzetinin 23 iyun 1914 tarixli sayında *"Molla Nəsrəddin"* məcmuəsinə yazdığı cavabdan sonra 1918-in dekabrınadək mətbuatdan gen gəzməsini və daha kitablar buraxdırmamasını (hər halda, indiyədək apardığımız araşdırmalar bunu göstərir) başqa cür izah etmək çətindir.

---

1 I cildin I hissəsini *Axund Mirməhəmmədkərim Mircəfərzadə* tərcümə edib və 1910-da nəşr olunub.

## Alovlu vətənpərvər-diplomat

Azərbaycan Cümhuriyyəti (1918-1920) çağında Mirabbas Mirbağırzadənin bu hakimiyyəti ürəkdən sevdiyini, müstəqil dövlətimizlə qürur duyduğunu, buna görə də sıravi bir vətəndaş kimi onunla səmimi əməkdaşlıqda bulunduğunu görürük. Dediklərimizi *"Azərbaycan"* qəzetindəki çoxlu yazıları və başqa sənədlər təsdiqləyir.

Bütövlükdə Cümhuriyyət dövrü Mirabbas ağanın ömürlüyündə daha çox iki şeylə yadda qalıb: 1) soyadını *"Mirbağırzadə"*yə dəyişdirməsiylə; 2) *"Mirbağırzadə missiyası"*na başçılıq etməsiylə.

Nədir *"Mirbağırzadə missiyası"*? Gəlin öncə *"Azərbaycan"* qəzetində *"M.B."* imzasıyla çap etdirdiyi, əslində missiyanın hesabatı sayıla biləcək ***"Naxçıvan: Şərur məsələsi"*** silsilə məqaləsinin son bölümlərinə[1] göz yetirək.

*«[...] **Aras Türk Cümhuriyyəti** ətrafından deleqat[2] olaraq lazımi müavinətlər istəmək üçün Azərbaycan hökuməti yanına göndərilmiş **Paşa Bayramovun təşəbbüsüylə**, Bakıda yaşayan **İrəvan quberniyası müsəlmanlarının həmtopraqlılar cəmiyyəti** təşəkkül etdi.*

*Cəmiyyətin idarə üzvləri də həmin quberniyanın **hökumət yanında nüfuz və etibar sahibi məmurlarından** intixab edildi.*

*Bu cəmiyyətin təşəbbüsləri nəticəsində Naxçıvan və ətrafı müsəlmanlarının xahişinə əməl olunmağa hökumət tərəfindən yardım edildi. Özlərini Azərbaycanın ayrılmaz bir hissəsi məqamında təqdim edən Arasboyu həvalisi müsəlman arasına qaçıb dolmuş olan qaçqınlara sərf olunmaq üçün **bir milyona baliğ qaçqın pulu** və məhəlli müsəlmanların ehtiyaclarını öyrənmək üçün də bir **deleqat** Azərbaycan tərəfindən Naxçıvan və həvalisinə göndərildi.*

*Qaçqınlara pul aparmaqda olan **Paşa Bayramov** və **Yusif bəy Qazıyev** pul ilə bərabər Tiflis-İrəvan dəmir yoluyla [getmişdilər]. Bu əsnalarda Naxçıvan xanlarından **Bəhram xan** o həvalidə təyin edilən bitərəf məntəqə barəsində İngiltərə heyəti ilə müzakirədə bulunmaq üçün Naxçıvan hökuməti tərəfindən Tiflisə göndərilmiş idi.*

---

[1] **M.B.** Naxçıvan: Şərur məsələsi. - *"Azərbaycan"* qəzeti, 22 təmmuz (iyul) 1919, №231, s.3; 24 təmmuz (iyul) 1919, №233, ss.2-3. (Ən son yazıda imza qoyulmayıb).

[2] Nümayəndə.



*Bəhram xan Tiflisdə naxçıvanlı **Qasım Camalbəyov** ilə görüşmüş, Azərbaycan hökumətinin hal və fəaliyyətindən məlumat almış və məzkur hökumət tərəfindən qaçqınlar nəfinə Paşa Bayramov vasitəsiylə bir milyon [manat] pul göndərilməkdə olduğundan xəbərdar olmuşdur.*

*Binainəleyh **Bəhram xan, Camalbəyov** ilə bərabər **Paşa** ilə görüşmüş və **Aras Türk Cümhuriyyəti pozulmuş olduğunu**, imdi isə **Naxçıvan Türk Hökuməti təşkil edildiyini**, özünün də **Naxçıvan hökumətinin xariciyyə komissarı** bulunduğunu, buna görə oraya aparılmaqda olan pulun kəndisinə təslim edilməsinin lazım gəldiyini söyləmişdir.*

*Digər tərəfdən də, **Camalbəyov** parlaman üzvü olmaq münasibətilə Azərbaycan hökumətinə teleqraf çəkərək Naxçıvan ətrafındakı qaçqınlara göndərilməkdə olan pulun geri istənilməsini təklif etmişdi.*

*Camalbəyov və Bəhram xan tərəfindən vaqe olan bu kibi manealərə görə **Paşa Bayramov** və **Yusif bəy Qazıyev** pulu Naxçıvana aparmadıqları kibi, Bəhram xan və Camalbəyova da verməyib, **təkrar götürüb Bakıya gətirmişlər.** Həhayət, hökumət xəzinəsinə təslim edib, qəbzül-vüsul almışlardı.*

***Bəhram xanın və Camalbəyovun məzkur pul barəsində ortaya çıqardıqları manealər, Bayramovun və Qazıyevin də onların sözünə uyub pulu Naxçıvana aparmamaları Naxçıvan və ətrafı müsəlmanlarının imdi gördüyümüz fəlakətli hallara düşməsinə səbəbiyyət vermişdir.***

*Zavallı Ordubad, Naxçıvan ətrafı müsəlmanları umudsuz, köməksiz halda, sıqıntılar, böhranlar içində qaldıqlarından, bir-birinin arqasınca Azərbaycan hökuməti yanına qasidlər, deleqatlar, ərzi-hallar göndərib müavinətlər, çarələr xahişində bulunmaqda idilər.*

*Naxçıvan ətrafı müsəlmanları bu qədər möhtaclıq halında ikən **Camalbəyov Naxçıvan və ətrafı müsəlmanları xüsusunda edilən hər bir iqdamata ənvayi-vəsilələrlə əngəllər çıqarıb ortalığı səs-küylə doldurmaqda idi.***

*Naxçıvan tərəfi qaçqınlarına birinci dəfə pul aparmaqda olan deleqatlar məzkur manealər səbəbiylə vəzifələrini tamama yetirəməyib yarımçıq geri qayıtdıqları halda, **deleqat Mirbağırzadə** yigirmi gün zəhmətli yolları gedib Ordubad və Naxçıvana çatmışdı **(1919 fevralın 20-də)**. Yolları bağlı, ətraf ilə əlaqələri olmadığın-*

*dan əhval və hadisati-aləmdən[1] xəbər dutmayan, köməksizlik, umudsuzluq ilə intizar içində yaşayan* ***Ordubad və Naxçıvan ətrafı müsəlmanları deleqat Mirbağırzadəni və yoldaşlarını Azərbaycan naminə hörmətən böyük məhəbbət və hörmətlə, şahanə bir təntənə ilə qarşılayıb istiqbal və qəbul etmişlərdi.***

*Deleqatın Naxçıvanda hökumət tərəfindən şərəflərinə kəşidə edilən böyük ziyafət məclisində məhəlli müsəlmanların ehtiyacına sərf olunmaq üçün digər deleqatlar vasitəsilə də* ***bir milyon [manat] pul*** *gətirməkdə, kəndisinin də deleqat olaraq* ***məhəlli ehtiyacatı anlamaq üçün*** *göndərilmiş olduqlarını bildirmişdi.*

*Sabahı günü məsciddə toplanılmış külliyyətli camaat hüzurunda* ***Mirbağırzadə*** *eyni sözləri ətraflıca söyləmiş, anlatmışdır. Camaatın hər sinfi hazır oluğu halda, Azərbaycan deleqatları Azərbaycan hökuməti naminə böyük məhəbbət və səmimiyyətlərlə təkrar-təkrar alqışlanmışlardı.*

*Bütün camaat həp bir ağızla Azərbaycan hökumətinin bilatəxir bütün mənasıyla kəndi irqdaşlarına sahib durmasını, tərəflərinə Azərbaycandan hər qisim təşkilat və hökumət idarələri təsisi üçün məmurlar göndərilməsini, bu tərəfləri də tarixən və irqən Azərbaycanın təbii hissəsi olmaqla Azərbaycan məmləkətinə ilhaq etməsini misranə surətlə[2] tələb və təmənnada bulundular.*

*Sonra Naxçıvandakı ingilis general-qubernatoru* ***Lautin*** *Azərbaycandan gələn* ***deleqat Mirbağırzadə*** *və əsgəri təşkilat üçün göndərilmiş* ***zabitlər rəisi Ququşov*** *ilə rəsmi görüş eləmişdir. Məqsədi anladıqdan sonra general-qubernator deleqatın və zabitlərin geri qayıtmaları təklifində bulunmaq kibi hal göstərmişdir. Fəqət* ***Mirbağırzadənin general-qubernatora xitabən söylədiyi müfəssəl nitqdən sonra general-qubernator deleqata qarşı razılıq izhar edərək hər xahişinə əməl edilməsini, zabitlərin orada qalıb vəzifələrinə başlamalarına və bu uğurda onlara və məhəlli əhaliyə mümkün olan köməkliyi edəcəyini vəd etmişdi.***

***

*Bu müvəffəqiyyətə nail olduqdan və arxayınlıq hasil etdikdən sonra, iş başında bulunanlardan başqa, camaat nümayəndələrinin*

[1] Dünya hadisələrindən.

[2] Burada: təkidlə.



*də fikir və rəyini anlamaq lazım idi. Bununçün* ***Mirbağırzadə*** *bir neçə xüsusi ev məclislərində hazır bulundu. Və camaatın xanlar hökumətindən razı olmadıqlarını,* ***"İrana ilhaq edilmək"*** *sözünü də özləri üçün bir şərəfsizlik və həqarət məqamında dutduqlarını,* ***... Naxçıvan, Şərur, Vedi, Sürməli mahallarının yüzdə doqsan faizi müsəlman türklərindən ibarət olan camaatının*** *ancaq və ancaq öz tarix, dil, soy və dindaşları bulunan Azərbaycana səmimiyyətlə mülhəq olmaq istədiklərini öyrəniyor.*

***Mirbağırzadə*** *xüsusi məclislərdən anladığı bu məlumatını daha da vüsətləndirmək[1] istəyərək, onun təklifiylə hökumət sabahı gün əhaliyi məscidə toplar. Böyük izdiham ilə hər təbəqədən məscidə toplanan camaat, qarşısında Azərbaycanın deleqat və zabitlərin gördükdə qəhrəman və lakin müntəzir gözlərində böyük umud və sevinc ziyaları parlıyor. Bu səmimanə təsir altında Azərbaycan naminə olaraq onun zabitləri və deleqatı* ***Naxçıvan, Şərur, Sürməli, Vedi, Zəngibasar, Gərnibasar demokratlarının*** *məhəbbətli alqışlarıyla qarşılandılar.*

*Deleqat* ***Mirbağırzadə*** *Azərbaycanın əhvali-övzasından xəbərdarlıq verib bu tərəf haqqında Azərbaycan hökumətinin nöqteyi-nəzərini anlatıyor. Nitq əsnasında hər dəfə* ***"Azərbaycan Cümhuriyyəti hökuməti"*** *cümləsi keçdikdə camaat böyük bir məhəbbətlə* ***"Yaşasın Azərbaycan!"*** *sədasını ucaldır və özlərinin səmimiyyətlərinə, məhəbbətlərinə şahid olmaq üçün hər dəfə məscid günbədinin də ilahi sədasını özləriylə həmavaz edib həp birlikdə* ***"Yaşasın Azərbaycan!"*** *diyorlar.*

*Hələ Mirbağırzadənin Azərbaycan zabitlərini göstərərək* ***"bu zabitlər ki hüzurunuzdadır, bunlar Azərbaycanın ən dəliqanlı və cavan zabitləridir, Azərbaycanın ən sevimli oğullarıdır. Bunlar bu tərəfə hökumətin icbarı ilə gəlməmişlər, ancaq bu tərəf müsəlmanlarının sıqıntılar, nizamsızlıqlar altında yaşadıqlarını anladıqları vaxt, özlərini birinci olaraq könüllü qeyd etmişlər və bu tərəfə göndərilmələrini misranə tələb etmişlərdi. İştə sizin uğurunuzda, lazım görünərsə, cavan qanlarını nisar etməyə də bunlar yəmin etmişlərdir[2]"*** *cümləsini söylədikdə camaatın umudlu göz həlqələrində sevincli göz yaşları görünür.*

[1] Genişləndirmək.

[2] And içmişlər.

*Mirbağırzadənin nitqi xitam bulur-bulmaz hər tərəfdən* ***"biz azərbaycanlıyız, tarix, dil, soy, dindaşımız Azərbaycan Cümhuriyyəti hökumətinin pedəranə[1] vəzifəsidir ki, bizə atalıq əlini uzatsın, bizi öz qanadı altına alsın. Bizə başqa hökumət*** (yəni İran - Ə.T.), ***başqa məmur lazım deyil, Azərbaycan hökuməti öz daxiləsindən bizə məmurlar göndərsin, burada hökumət idarələrini o təsis etsin. İçimizə öz qanunlarını göndərsin"*** *[deyir]; bunun üçün Naxçıvan hökuməti başında duran xanların iş başından çəkilmələrini və Azərbaycandan məmurlar gəlincəyədək idareyi-hökuməti müntəxəb Milli Şuraya tərk etmələrini tələb edirlər.*

*Bu tələb üzərinə, məsciddə camaat hüzurunda birinci olaraq* ***Kəlbəli xan*** *istefa verib hökumət heyətindən çıxdığını camaata bildirir. Ondan sonra* ***atası Cəfərqulu xan*** *istefa verir.* ***Kərim xan İrəvanski*** *də məktubən istefasını göndərir.*

*Binainəleyh, yeni hökumət əzaları seçmək üçün hökumət dairəsində aqşam vaxtı əski Milli Şura əzalarından və camaat nümayəndələrindən ibarət bir məclis qurulmasına qərar verilir.*

*Xanlar bu dəyişiklik keyfiyyəti haqqında ingilis general-qubernatoruna məlumat vermişlərdi. General-qubernator isə* ***Mirbağırzadə*** *ilə başqa dəfəki görüşdə müstəfi[2] hökumət əzaları yanında demiş ki, camaatın hökumət dəyişməsinə mən mane deyiləm, ancaq iş başında kimlər duracaqlarsa dursunlar, fəqət o xüsusda mənə məlumat verilsin ki, rəsmi işlərimizi hanki heyət ilə idarə edəcəyimizi anlayalım.*

***

*Keçməkdə olan bu kibi günlər əsnasında məhəlli tabur komandanlarından bir çoxu və nüfuzluları Azərbaycan deleqatının və əsgəri nümayəndəsinin məhəlli-iqamətinə[3] gəlib əsgərlər ilə bərabər özlərinin Azərbaycan əsgəri nümayəndəsinə tabe və təslimiyyətlərini izhar və iqrar edirlər. Bəziləri də bu iqrarlarını yazı ilə təqdim edir. Böylə ki, məhəlli komandan və əsgərlərin əksəriyyəti Azərbaycan deleqat və zabitlərindən başqasını özlərinə hökmran*

[1] Atalıq.
[2] İstefaya çıxmış.
[3] Yerləşdiyi yerə, iqamətgaha.



*görmək istəmiyorlar. Hətta Şərur səngərləri mühafizəsinə dəyişilmək üçün Naxçıvana göndərilməkdə olan bir tabur məhəlli əsgər bir sabah qışladan[1] çıxarılıb göndərilərkən Azərbaycan deleqatı və zabitlərinin oturduqları mehmanxananın qarşısına yetişdikləri vaxt həp birdən apansızın dayanırlar, aralarından üç əsgəri vəkil edib deleqatın və zabitlər rəisinin yanına göndərirlər. Və dəyişilməyə getdikləri halda Azərbaycan zabitlərini gözləriylə görərək təsəlli tapıb da sonra getmək istədiklərini bildirirlər.*

*Binainəleyh, başda palkovnik* ***Hüseyn bəy [Ququşov]*** *olmaq ilə deleqat və zabitlər əsgərlərin hüzuruna çıqır, səmimi məhəbbətlərlə salamlaşıyorlar. Palkovnik rəsmi salamdan sonra əsgərlərin keçirdikləri qəhrəmanlıqlarına və gələcək vəzifələrinə aid* ***Mirbağırzadə****'nin əsgərlərə xitabən söylədiyi hərarətli nitqdən sonra əsgərlər* ***"Yaşasın Azərbaycan!"*** *sədaları altında rəsmi-keçid ilə ayrılıb yollanırlar.*

*Camaatın və əsgəri hissələrdən bəzilərinin Azərbaycan nümayəndələrinə qarşı etina və tabeiyyətləri artdıqca artır, hətta əsgərlərdən və tabur komandanlarından bəziləri aralıqda keçən bəzi məsələlərdən tolayı deleqatın və palkovnikin yanına gəlib* ***"əmrinizə mane olanlar varsa söyləyiniz, bir anda dəf edəriz"*** *derlər. Fəqət ortalığı hərc-mərcə salmamaları haqqında, palitika aləminə qarışmamaları haqqında deleqatın söylədiyi sözlər tabur komandanlarını və əsgərləri sakit edər.*

***

*İranın* ***Qaradağ*** *hissəsinin Araz kənarı kəndlərinin hamısında və* ***Urumu, Xoy, Mərənd*** *və qeyri yerlərdə Azərbaycanın səfil, pərişan bir halda gəzib son günlərini, yaxud kəndlərinə, yurdlarına qayıtmaq üçün çarə və umud yollarını gözləməkdə olan binlərcə qaçqın təbəələri vardı. On binlərcə pərişanhalları da Ordubad, Naxçıvan, Şərur və qeyri tərəflərdə gözləri yurdlarına qayıtmaq intizarını çəkməkdə olduqları halda sərsəri gəzməkdə idilər.*

*Zavallı qaçqınlar Azərbaycan deleqatı və zabitlərinin Ordubad və Naxçıvana gəldiklərini bilib hər tərəfdən, hətta uzaq kəndlərdən - arvad, uşaq, qoca, xəstə - dəstələrlə deleqatın yanına gəlib pərişan hallarına, yurdlarına geri qayıtmalarına çarə edilməsini pərişan hallarıyla sızlayıb-yalvarırlar.*

[1] Qazarmadan.

*Qaçqınlardan bir çoxunun aclıqdan öldükləri üçün meyitləri Qaradağ səhralarında və kənd yanlarında açıqda qalıb üfunətlənmişdi. Qaradağın Üçdibin kəndinin çayı kənarında su içmək halında bir qaçqın meyiti uzanıb qalmışdı. Bəzi şenliklərdə də qaçqın meyitləri kəfənsiz olaraq heyvan kibi çuqurlara atılıb üstü topraqlanmışdı.*

*Azərbaycan qaçqınlarının bu kibi əsəfnak halları İranın Qaradağ hissəsində dəfələrlə görünmüş oldu.*

*Binəvalar Zəngəzur tərəflərindən sonra Azərbaycandan xəbərləri yoq və Azərbaycan hökumətinin də bunlardan xəbəri yoq bir halda qalmışlardı. Binainəleyh, Azərbaycan deleqatı və zabitlərinin gəldiyin eşidən hər tərəfdəki qaçqınlar dəstələrlə gəlib dərdlərinə, hallarına çarə edilməsini Azərbaycan hökuməti naminə yalvarıb-yaqarırdılar.* ***Bunların dağılmış kəndlərinin və özlərinin nüfus siyahılarını Mirbağırzadə Ordubad və Naxçıvan Milli Şuralarından alıb toplamışdır.*** *Ordubad camaatı son vaxtlarda fəqirhal olduqlarıyla [bahəm] həm əsgər saqlıyorlardı, həm də bu qaçqınlardan bir neçə yetimləri yemləyirlərdi.* ***Arvad, qoca yüzə qədər qaçqınları da Mirbağırzadə Naxçıvanda məhəlli hökumət vasitəsilə Amerika darül-əczəsinə[1] qəbul etdirmişdir.*** *Qalan qaçqınlar isə səfil hallarla göz yaşı tökməkdə davam edib Azərbaycan hökuməti tərəfindən ediləcək müavinətə müntəzir qalıyorlar».*

***

Bu, Mirabbas Mirbağırzadənin özünün yazdığıdır. *"Mirbağırzadə missiyası"* haqqında Azərbaycanın tarixçi alimlərindənsə ***Aydın Hacıyev*** *"Qars və Araz-Türk respublikalarının tarixindən"* (Bakı: Azərnəşr, 1994, ss.53-57, 90), ***İsmayıl Musayev*** *"Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)"* (Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, ss.92-95, 134, 190) və ***Nəsib Nəsibzadə*** *"Azərbaycanın xarici siyasəti (1918-1920)"* (Bakı: "Ay-Ulduz" nəşriyyatı, 1996, s.161) monoqrafiyalarında danışmışlar[2].

[1] Yetimlər evinə, pansionata.

[2] Bu zaman onlarda da Mirbağırzadənin kimliyi haqqında heç bir bilgi olmayıb.



Onlar arxiv materiallarından da geniş yararlandıqlarına görə *"Mirbağırzadə missiyası"*nın işini daha incəliklə araşdırmağı və onun gerçək tarixi dəyərini verməyi bacarıblar. M.Mirbağırzadənin yazdıqlarını təkrarlamamaqla bu dəyərli tarixçilərimizin üzə çıxardığı faktları da oxuculara çatdırırıq.

Prof. İsmayıl Musayev, adı çəkilən monoqrafiyasında missiyanın yaranış tarixini dəqiqləşdirir: *"...1919-cu il yanvarın 5-də Bakıda parlamentin binasında keçmiş İrəvan quberniyasında, o cümlədən də Naxçıvan bölgəsində yaşayan azərbaycanlıların nümayəndələrinin fövqəladə iclası keçirildi, mahaldakı mövcud vəziyyət müzakirə olundu və quberniya müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradıldı. Cəmiyyətin əsas vəzifələrinə: a) ADR hökuməti ilə İrəvan quberniyasının müsəlmanlar yşayan hissələri arasında əlaqə yaratmaq; b) həmin quberniyadan olan azərbaycanlı qaçqınlara maddi yardım göstərmək və s. daxil idi.* ***1919-cu il yanvarın 6-da*** *həmyerlilər cəmiyyətinin birinci iclasında onun aşağıdakı tərkibdə idarə heyəti seçildi:* ***T.Makinski*** *(sədr),* ***H.Qasımov*** *(sədr müavini),* ***R.İsmayılov*** *(katib),* ***M.Ə.Sidqi*** *(katibin müavini) və* ***A.Makinski*** *(xəzinədar). İdarə heyətinin sabahısı gün keçirilən iclasında onun üzvlüyünə namizəd* ***Mirabbas Mirbağırov'u yerlərdəki vəziyyətlə tanış olmaq və müəyyən tövsiyələr hazırlamaq məqsədilə*** *təcili keçmiş İrəvan quberniyasına göndərmək qərara alındı. Burada həmçinin...* ***Mirbağırov'un xüsusi səlahiyyətlərlə[1]*** *İrəvan quberniyasına ezamiyyətə getməsinin* ***ADR-in Baş nazirinin nəzərinə çatdırılması*** *razılaşdırıldı"* (ss.90-92).

Aydın Hacıyev öz əsərində M.Mirbağırzadənin getdiyi ünvanı dəqiqləşdirir: *"...O* (Azərbaycan dövləti - *Ə.T.*)*, İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırovu* ***Araz Türk Respublikasına*** *göndərdi"* (s.53).

Prof. İsmayıl Musayev: *"Hökumətin razılığı... ilə* ***1919-cu il yanvarın 24-də*** *Bakıdan yola düşən M.Mirbağırov əvvəlcə* ***Gəncəyə*** *gəlmiş, burada Hərbi Nazirlik tərəfindən ona qoşulan* ***12 nəfər Azərbaycan zabiti ilə birlikdə*** *Qaryagindən (Füzulidən) İrana keçərək Ordubada, nəhayət, 27 gündən sonra - fevralın 19-da Naxçıvana çatmışdı".*

[1] Buradakı və başqa yerlərdəki bütün seçdirmələr bizimdir.

Prof. İ.Musayev göstərir ki, nümayəndələrin Ordubadda olduqları müddətdə baş verən ən dəyərli hadisələrdən biri ***Araz Türk Respublikası Milli Şurasının bu mahalın Azərbaycana birləşmək arzusu və niyyətinə dair protokolunun onlara təqdim edilməsi*** sayıla bilər. Qayıdandan sonra hökumətə təqdim etdiyi yazılı məruzəsində Mirbağırov bununla əlaqədar Ordubada Azərbaycan hökuməti tərəfindən bacarıqlı və nüfuzlu məmurlar təyin olunmasını təklif edib (s.92).

Hörmətli professor daha sonra yazır: «*Mirbağırovun Naxçıvana səfərinin mərkəzində duran məsələlərdən biri də onun* ***bölgənin yerli başçıları, habelə ingilislərlə apardığı danışıqlar*** *olmuşdur. Həmin danışıqlarda nəzər-diqqəti cəlb edən məqamlar çox olsa da onların ana xəttini* ***Naxçıvan bölgəsinin Azərbaycana mənsubiyyəti və idarəçiliyi, ingilislərin bu işdə iştirakı məsələləri təşkil edirdi.***

*Birinci belə görüş və danışıqlar* ***fevralın 22-də M.Mirbağırov****'un və onunla Gəncədən gəlmiş* ***polkovnik****'in[1], **ingilis general-qubernatoru***'nun, yerli hökumətin sədri* ***Cəfərqulu xan****'ın və komandan* ***Kəlbalı xan****'ın iştirakı ilə oldu. İngilis generalının "Siz kimsiniz və nə üçün gəlmisiniz?" sualına cavabında polkovnik izah etdi ki, biz yerli əhalinin arzusuna uyğun olaraq Azərbaycan hökuməti tərəfindən hərbi işin təşkili üçün göndərilmişik. Bunun müqabilində general bildirdi ki,* ***bu ərazi hələlik Azərbaycanın tərkib hissəsini təşkil etmir və kimə məxsus olacağı məlum deyildir, burada ingilis qubernatorluğu mövcuddur, sizin hökumətin buraya adamlar göndərmək hüququ yoxdur,*** *mən sizə qonaqlar kimi baxıram.*

*Belə olduqda* ***M.Mirbağırov kiçik xalqların Avropa millətləri, xüsusilə də ingilislər tərəfindən etiraf edilən öz müqəddəratını təyin etmələri prinsipini,*** *general* ***Tomson****'un* (Qafqazdakı İngiltərə qoşunlarının komandanı - *Ə.T.*) *və* ***C.Miln****'in* (Qafqazdakı müttəfiq qüvvələrin baş komandanı, ingilis generalı - *Ə.T.*) *Azərbaycan dövlətçiliyinə münasibətini açıqlamışdı. O həm də* ***bölgənin tamamilə müsəlmanlardan ibarət əhalisinin Azərbaycan hökumətinə xüsusi rəğbət bəslədiyini və onların adından gələn nümayəndələrin bunu təsdiqlədiyini, xeyirxah ingilis nümayəndələrindən biri kimi generalın da yerli camaatın rifahı naminə çalışacağına və erməni hərbi dəstələri tərəfindən qırılmasına imkan verməyəcəyinə əmin olduğunu*** *bildirmişdi*» (s.93).

[1] Polkovnik *Hüseyn bəy Ququşov*'un.



Fevralın 23-də Naxçıvan məscidində yerli hökumətin üzvləri və Azərbaycan Cümhuriyyəti nümayəndələrinin iştirakıyla keçirilən xalq yığıncağına toxunan prof. Musayev burada görülən işləri konkretləşdirir: "***Xalq yekdilliklə Azərbaycana birləşmək arzusunda olduğunu bildirdi, bütün əhalinin və hökumətin yalnız Azərbaycana tabe olmaq mövqeyi rəsmiləşdi*** *və bölgənin aşağıdakı şərtlər əsasında idarə olunması təklifi irəli sürüldü: 1) anarxiyanın ləğv edilməsi; 2) hökumətin hazırkı tərkibi ilə bağlı narazılıqla məsələnin mürəkkəbləşdirilməməsi; 3) hökumətin tanınması və onunla birgə işləməyə başlanılması; 4) Azərbaycan hökumətinə təqdimat üçün rəsmi sənədlərə nail olunması*" (ss.93-94).

Aydın Hacıyevsə bildirir: «*O gün Naxçıvanda daha bir əlamətdar hadisə baş verdi.* ***Cəfərqulu xanın hökuməti istefa verdi; görünür ki, bu hökumət Azərbaycana birləşməyin əleyhinə çıxış edirdi.*** *Bağırov* (M.Mirbağırov/Mirbağırzadə - *Ə.T.*) *öz məlumatlarında dəfələrlə köhnə hökuməti "diktatura hökuməti", onun tərəfdarlarını isə "diktatura tərəfdarları" adlandırmışdı*» (s.55). (Mirbağırzadənin özünün yazdıqlarısa bu hökumətin "İrana birləşmək" tərəfdarı olduğunu aydın göstərir).

Fevralın 25-də nümayəndələrin, ingilis general-qubernatorunun və Naxçıvan hökuməti üzvlərinin ikinci görüşündən danışan prof. İsmayıl Musayev açıqlayır: "*Görüşdən sonra zabitlər ancaq Kəlbalı xanı başçı kimi görmək istədiklərini söylədikdə* ***M.Mirbağırov Kəlbalı xanın öz namusluluğu və zəhməti sayəsində xalqın sevimlisi olduğunu, bizimlə işləyəcəyini və heç kimin onu kənarlaşdıra bilməyəcəyini*** *bəyan etdi*" (s.94).

Aydın Hacıyev: "*ADR nümayəndələri Cəfərqulu xanın tərəfdarları və əleyhdarları arasında qızışan ehtirasları söndürməyə nail oldular. Onlar məclisi sakitləşdirərək elan etdilər ki, ADR nümayəndələri kimi mövcud hakimiyyəti tanıyırlar və onunla əlaqədə işləyəcəklər. Bəyanat sürəkli alqışlarla qarşılandı...*" (s.55).

Prof. İ.Musayev: "*Elə həmin gün* (25 fevralda - *Ə.T.*) *Naxçıvan hökumətinin çox gurultulu və kəskin qarşılıqlı hədələr şəraitində keçən iclasında [...]* ***M.Mirbağırov könüllü surətdə Azərbaycana birləşmək barədə rəsmi akt tərtib etməyi və bunun üçün komissiya seçməyi məsləhət gördü.*** *Siyasi, iqtisadi, hərbi, mülki və mədəniyyət məsələlərinə dair maddələrdən ibarət olan* ***akt hö-***

***kumətin, Milli Şuranın və ətrafdakı əhalinin nümayəndələri tərəfindən imzalanaraq, Azərbaycan hökumətinə çatdırılmaq üçün xüsusi nümayəndə heyətinə (Naxçıvandan 2, Şərur, Zəngibasar və Vedibasarın hərəsindən 1 nəfər olmaqla) təqdim edildi"*** (s.94).

Aydın Hacıyev: ***"Bu akt Naxçıvanın könüllü surətdə ADR-ə birləşməsi haqqında idi.*** *Mətnin hazırlanması üçün komissiya seçildi.* ***M[ir]bağırov*** *və polkovnik* ***Ququşov*** *da bu komissiyaya daxil oldular.* ***Akt siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələlərə aid bəndlərdən ibarət idi"*** (s.56).

M.Mirbağırzadənin Naxçıvanda olduğu müddətdə yerlərdə hərbi işin vəziyyətini də öyrəndiyini faktlarla açıqlayan prof. İ.Musayev daha sonra göstərir: *"Nümayəndə heyəti texniki səbəblərə görə* ***iki gün İrəvanda qalarkən*** *ermənilərin ciddi maliyyə böhranlarına məruz qaldıqlarını, aclıq və bahalıq vəziyyətini, xəstəliklərdən çoxlu ölüm hallarını, əsgərlərin ağır şəraitini və s. müşahidə etmişdi.* ***Missiya Tiflisdə M.Təkinski və İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin nümayəndələri ilə də görüşdükdən sonra Azərbaycana qayıtdı"*** (s.95).

Professorun bu dəyərli əsəri "Mirbağırzadə missiyası"nın Azərbaycana döndükdən sonrakı fəaliyyətini də işıqlandırır: *"M.Mirbağırov bölgədəki və ətraf yerlərdəki siyasi-hərbi vəziyyətlə tanış olduqdan, azərbaycanlı əhalisinin müxtəlif təbəqələrinin, ictimai qüvvələrin mövqelərini və qarşılıqlı münasibətlərini dərindən araşdırdıqdan sonra* ***aşağıdakı təklifləri vermişdi:***

- ***bölgəyə Hərbi Nazirliyin yuxarıda sadalanan keyfiyyətlərə malik olan nümayəndəsi də göndərilməlidir;***
- ***mülki və məhkəmə idarələrinin rəhbərliyinə baş məmurlar mütləq azərbaycanlılardan təyin edilməlidir;***
- ***yerli hərbi işi təşkil etmək üçün göndərilən zabitlər kifayət etmədiyindən əlavə zabitlər dəstəsini bölgəyə yollamaq lazımdır;***
- ***Azərbaycanın uzaq ucqarları, məhsuldar torpağı, çoxlu məhsulu, duzu, digər faydalı mineralları olan və müttəfiqlərin, fars-erməni diplomatiyasının məkrli siyasəti ilə üzləşən Naxçıvan və Şərur Azərbaycan Respublikası tərəfindən səxavətlə təchiz olunmalıdırlar.***

*Bölgədəki vəziyyətin həddən ziyadə ağırlığını, oradakı problemlərin təxirə salınmadan həllinin zəruriliyini, səfərin əhəmiyyəti*



*və yekunlarını əsas tutaraq* ***M.Mirbağırov ümumdövlət məsələlərinə aid olan bir məruzə kimi onun Nazirlər Şurasının müzakirəsinə təqdim olunmasını da məsləhət görmüşdü"*** (s.95).

Aydın Hacıyev: *"Azərbaycan hökuməti və hərbi idarə M[ir]bağırovun gətirdiyi materialları* ***diqqətlə öyrəndilər və onun nəticələrini nəzərə aldılar"*** (s.57).

Prof. İsmayıl Musayev: ***"Bütün bu cəhətləri nəzərə alan Azərbaycan hökuməti özünün 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qübernatorluğunu... yaratdı.*** *Həmin qərara əsasən də* ***Bəhram xan Naxçıvanski*** *general-qubernator,* ***Kərim xan İrəvanski*** *onun hərbi hissə,* ***Hacı Mehdi Bağırov*** *isə mülki hissə üzrə köməkçiləri təyin olundular. [...] Martın 16-da B.Naxçıvanski öz ərizəsinə əsasən general-qubernator vəzifəsindən azad olunaraq xidmətdən tərxis edilən M.Bağırovun yerinə - mülki hissə üzrə köməkçüi oldu; Zaqatala general-qubernatoru* ***Haşımbəyov*** *Naxçıvan general-qubernatoru təyin edildi"* (ss.96-97).

Prof. İsmayıl Musayev "Mirbağırzadə missiyası"nın tarixi dəyərini bu cür verir: *"Naxçıvan bölgəsinin 1919-cu ilin əvvəli üçün ictimai-siyasi durumunun və ingilislərin burada yeritdiyi siyasətin, ADR hökuməti ilə bölgənin əlaqələri və s. məsələlərin araşdırılmasında M.Mirbağırovun Naxçıvana səfəri və onun yekunları barədə* ***İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyətinə məruzəsi*** *çox mühüm rol oynadı. Böyük əhəmiyyət kəsb edən bu səfər, bizcə,* ***ADR hökuməti ilə Naxçıvan mahalının azərbaycanlı əhalisinin əməli və faktiki əlaqələrinin yaradılması yolunda birinci addım*** *hesab oluna bilər"* (s.92).

***

Bunu da deməliyik ki, Azərbaycanın qədim torpağı olan keçmiş İrəvan quberniyasında (Naxçıvan da daxil) xristian qardaşlarının (rusların, ingilislərin və b.) qısqırtmasıyla ermənilərin törətdiyi vəhşiliklər və müsəlmanların, türklərin dözülməz durumu mövzusunu 1905-dən üzübuyana qələmə alan Mirabbas Mirbağırzadə, haqqında yuxarıda geniş söz açılmış missiyasından sonra da qələmi yerə qoymayıb. Onun bu dövrdə *"Azərbaycan"* qəzetində ***"M.A.Mirbağırzadə", "M.A.Mirbağırov", "Elçi", "M.B."*** imzalarıyla və imzasız çıxmış ***"İrəvan: erməni-müsəlman məsələsi"*** (7, 9, 21 kanuni-sani/yanvar, 3 şubat/fevral 1919,

№№81, 83, 93, 104), ***"İrəvan hadisələri"*** (15 kanuni-sani/yanvar 1919, №88), ***"İrəvan əhvalından"*** (19 mart 1919, №140), ***"Erməni cümhuriyyətində müsəlmanların halı"*** (9 həziran/iyun 1919, №199), ***"Erməni cümhuriyyətində müsəlmanların yaşayışı"*** (7, 8 təmmuz/iyul 1919, №№218, 219), ***"Ermənistanda. (Xüsusi müxbirimizdən). Müsəlmanların yaşayışı"*** (15 təmmuz/iyul 1919, №225), ***"Naxçıvan: Şərur məsələsi"*** (17, 20, 22, 24 təmmuz/iyul 1919, №№227, 229, 231, 233), ***"Erməni cümhuriyyətində"*** (18 eylül/sentyabr) 1919, №276), ***"Erməni cümhuriyyətində. İrəvandan gələnlər"*** (21 eylül/sentyabr 1919, №278), ***"Erməni cümhuriyyətində. İrəvan və ətrafında"*** (8 təşrini-əvvəl/oktyabr 1919, №290), ***"Qaçqınlara mənzil köməyi"*** (26 təşrini-sani/noyabr 1919, №330), ***"Erməni cümhuriyyətində"*** (4, 5, 6 kanuni-sani/yanvar 1920, №№3, 4, 5), ***"Zəngibasar və Eçmiadzin mahalı müsəlman kəndlərinə ermənilərin hücumu"*** (9 kanuni-sani/yanvar 1920, №8), ***"Erməni cümhuriyyətində nələr oluyor?"*** (18 kanuni-sani/yanvar 1920, №14)... məqalələri sözügedən bölgədə o çağda baş vermiş proseslərin ən doğru-düzgün salnaməsidir. Bu yazılarda o, vay-şivən qoparmır, durumu ən qısa vaxtda hansı yollarla düzəltmək haqqında təkliflər verir, bəzən hətta Azərbaycan hökumətini astagəllikdə, Xarici İşlər Nazirliyini İrəvandakı nümayəndəliyini unutmaqda kəskin tənqid edir.

Ancaq heç bir siyasi partiyanın üzvü olmayan Mirabbas ağa Azərbaycanın azadlıq və müstəqilliyini olduqca yüksək dəyərləndirən alovlu vətənpərvərdi, bu üzdən də Azərbaycan Cümhuriyyətiylə fəxr edir, onunla əməkdaşlığa, dövlətimizin tərəqqisinə əlindən gələn yardımda bulunmağa ürəkdən can atırdı. Çox bacarıqlı bir iqtisadçı olan M.Mirbağırzadənin bu dövrdə *"Azərbaycan"* qəzetində çap etdirdiyi ***"Əsgərlik vəzifəmizdir!"*** (14 kanuni-sani/yanvar 1919, №87), ***"Çörək bahalığı"*** (18 təşrini-sani/noyabr 1919, №324), ***"Təbii sərvətlərimiz"*** (25, 27, 30 təşrini-sani/noyabr, 10, 11 kanuni-əvvəl/dekabr1919, №№329, 331, 333, 341, 342), ***"Pulumuzun etibarı"*** (18 kanuni-əvvəl/dekabr 1919, №347), ***"Maliyyəmiz, pulumuz"*** (13 kanuni-sani/yanvar 1920, №11)... məqalələri dediyimizə əyani sübutdur.

M.Mirbağırzadənin bu cür vətənpərvərcəsinə fəaliyyəti birmənalı qarşılanmırdı. Məsələn, ***Hacı Kərim Sanıyev*** Parlamandakı çıxışında belə söyləmişdi: *"Po suşestvu ərz edəcəgəm. Belə ianələr bir neçə dəfə göndərilib. Bir dəfə Ağaxan və* ***Mirbağırova*** *verildi ki, aparub qaçqınlara versinlər. Onlar Bakıda qoydular ciblərinə, bunu biz bilirik. Milli Komitə adına iki vaqon buğda aparub Tiflisdə satıb pulunu ciblərinə qoymuşdular. Onu da bilirik"* [Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu). Bakı: Elm, 1998, s.141]. Təəssüf ki, Hacı Kərimin dediyinə Mirabbas ağanın münasibəti haqqında əlimizdə hələlik heç bir sənəd yoxdur, ancaq dəyərli oxucumuza bildiririk ki, əslində Rusiya nökərləri olan, bu üzdən də Azərbaycanın müstəqilliyinə düşmən kəsilən, "Azərbaycanın əbədi səadəti Rusiyadadır" bağıran sosialist (kommunist) deputatlar (H.K.Sanıyev/Sanılı da onlardandır) Azərbaycan Cümhuriyyəti hakimiyyətini və onu sevən insanları gözdən salmaq, onları şantaj etmək məqsədiylə ən yaramaz iftira və böhtan kampaniyası aparırdılar. M.Mirbağırzadəyə ünvanlanmış sözlərin də ağ yalan olduğuna ürəkdən əminik - o cür elsevər və yurdsevər, namuslu bir kişinin ac yurddaşlarının çörəyinə əl uzatması, sadəcə, ağlasığmazdır!

Unutmayaq ki, o çağda yardım və ianələrin mənimsənilməsi haqqında tez-tez söhbətlər düşür, ancaq bu fikir mətbuatda səslənдikdə onlara operativ təkzib verilirdi. Əyanilikçün bircə örnək göstərəcəyik. *"Azərbaycan"* qəzetinin xüsusi müxbiri *"Umudvar"* (Ömər Faiq Nemanzadə) bir yazısında Araz Türk Respublikasının Bakıda nümayəndəsi, artıq M.Mirbağırzadənin yuxarıdakı yazısından tanış olduğumuz *Paşa Bayramov*'un İrəvandakı soydaşlarımıza çatacaq pulları öz ticarətinə yönəltdiyini bildirib. Paşa bəyin qəzetə verdiyi təkzibdən bəlli olur ki, həmin puldan nəinki bir qəpik də mənimsənilməyib, hətta onun pulu dəyişdirməsi nəticəsində dövlətin xəzinəsinə böyük məbləğdə qazanc girib.

Görünür, H.K.Sanıyev bü sözləri parlamentdə deyib, ancaq mətbuata düşməyib, ona görə də M.Mirbağırzadə ya bundan xəbərsiz qalıb, ya da başqa yollarla böhtanı yalanlayıb.

## Ərzaq Komissarlığında

Sovet hakimiyyətinin ilk illərində - 1920-22-də Mirabbas Mirbağırzadənin nəylə məşğul olmasını dəqiq bilmirik. (Yenə ticarətini sürdürməsini güman etməkdəsə özümüzü haqlı sayırıq).

Azərbaycan SSR Xalq Ərzaq Komissarlığının Tədarüklər İdarəsi üzrə verilmiş 16 may 1922 tarixli 75 saylı əmrdənsə öyrənirik ki, *Mirabbas Mirbağırzadə* (komissarlığın/nazirliyin bütün sənədləri rusca olduğundan onun soyadı əsasən *"Mirbağırov"*, iki sənəddəsə *"Mirbağırzadə"* göstərilib) ***29 aprel 1922-dən*** komissarlığın (nazirliyin) ***Bakı qəzası üzrə sahə ərzaq vergisi müfəttişi*** təyin edilib[1]. Ancaq nəyə görəsə o, cəmi 1 ay 10 gün sonra - ***9 iyundan*** "vəzifədən və ümumən qulluqdan" azad edilib[2]. Buna baxmayaraq, aradan çox keçməmiş komissar/nazir ***Dadaş Bünyadzadə***'-nin 5 iyul 1922 tarixli 122 saylı əmriylə 28 iyundan Bakı qəzası Saray rayonu (mərkəz Pirşağı kəndində yerləşən 2 saylı tədarük kontoruydu) üzrə sahə ərzaq vergisi müfəttişi işləməyə başlayıb[3].

Ola bilsin ki, komissar (nazir) müavini Bukreyevlə Mirabbas ağanın arasında narazılıq varmış və bu narazılıq müavinin onu ***2 avqustdan*** Xızı tədarük kontoruna tədarükçü göndərmək haqqında əmr verməsiylə nəticələnib[4]. Görünür, Mirbağırzadənin həm də komissar/nazir Dadaş Bünyadzadəylə münasibətləri yaxın olub və bu yaxınlıq özünü nazirin ***9 sentyabrda*** Bukreyevin əmrini ləğv etməsində[5] üzə çıxarıb.

Ərzaq Komissarlığının Bakı qəzası üzrə müvəkkili ***İsgəndər bəy Əsgərbəyov***'un 9 noyabr 1922 tarixli 43 saylı əmriylə Saray sahəsinin sahə inspektoru M.Mirbağırzadə ştat ixtisarına görə ***10 noyabrdan*** işdən azad edilib[6].

"3 saylı Xızı tədarük kontorunun kontorçusu" (deyəsən, 2 avqustdan eyni zamanda bu sahədə də işləyirmiş) M.Mirbağırzadə 20 noyabr 1922-də 44 saylı əmrlə "Xızı sahəsi üzrə ərzaq vergisini 100% qurtardığına, tədarük kontorunun bağlanmasına və ştat ixtisarına görə" işdən azad edilib[7].

Ərzaq Komissarlığının 18 dekabr 1922 tarixli 205 saylı əmriylə "Bakı qəzasının keçmiş sahə ərzaq vergisi müfəttişi *Mirabbas Mirhüseyn oğlu Mirbağırov* həmin ilin ***28 noyabrından*** yenidən

1 AR MDTA, fond 61, siy. 1, s.v. 59, vər. 117; s.v. 240, vər.16.
2 AR MDTA, fond 61, siy. 1, s.v. 59, vər. 154.
3 AR MDTA, fond 61, siy. 1, s.v. 59, vər. 183; s.v. 240, vər. 4, 8.
4 AR MDTA, fond 61, siy. 1, s.v. 59, vər. 203.
5 AR MDTA, fond 61, siy. 1, s.v. 59, vər. 212.
6 AR MDTA, fond 61, siy. 1, s.v. 240, vər. 13.
7 AR MDTA, fond 61, siy. 1, s.v. 240, vər. 13.



qulluğa qoyulur və Şamaxı qəzası üzrə ***baş*** ərzaq vergisi müfəttişi vəzifəsinə təyin edilir"[1].

ZSFSR Xalq Ərzaq Komissarlığının Azərbaycandakı Müvəkkili İdarəsinin ərzaq vergisi şöbəsi üzrə 44 saylı əmrlə (17.4.1923) Şamaxı qəza ərzaq komissarının ezam etdiyi baş ərzaq vergisi müfəttişi M.M.Mirbağırzadə ***10 aprel 1923-dən*** ərzaq vergisi şöbəsinin sərəncamında sayılır[2] və ***16 apreldən*** Cəbrayıl qəzasına eyni vəzifəyə göndərilir[3]. Bu təyinatın onun iradəsinə qarşı verildiyini ondan bilirik ki, Cəbrayıl qəzasının öz işinə başlamamış baş ərzaq vergisi müfəttişi Mirabbas ağa cəmi 6 gün sonra ***-26 aprel 1923-də*** işdən çıxmalı olub[4].

## Yenidən qəzetçiliyə

İqtisadçı M.Mirbağırzadənin yolu yenidən köhnə peşəsinə - jurnalistikaya döndü. 22 may 1923-dən *"Kommunist"* qəzetinin *"Xalq ədəbiyyatı həyatdan doğar"* səhifəsində, eləcə də həmin qəzetin xüsusi əlavələri olan *"Əmələ darülfünunu"* və *"Dilimizin islahı"* dərgilərində yaxından iştirak etməyə başlaması M.Mirbağırzadənin yeni iş yerinin məhz *"Kommunist"* qəzeti redaksiyası olduğunu düşünməyə ciddi əsas verir. Bunu qəzetin 1000-inci sayıyla bağlı buraxılmış ***"İdarəmizin güzgüsü"*** (30 dekabr 1923) adlı xüsusi buraxılışdakı məzəli yazılar da təsdiqləyir. "Əbülhövl"ün (Süleyman Məlikovun) *redaksiya əməkdaşlarına* "sataşan" yazısının bir parçasında oxuyuruq:

**«Türk musiqisi**

*Türk musiqisində **zurna**nın çoq böyük əhəmiyyəti var. Ələlxüsus yanında bir də **zur** dutanı ola.*

*Musiqişünas:* ***Mirzapas Miryağırov.***

**Ədəbiyyat xüsusunda**

*"Bən hər ədib və şairi bəyənmədiyim kibi, hər ədib və şairin də əsərini oqumayıram". (Məbədini bilmək istəyənlər bu müqəddimə ilə başlanan əsərimizə müraciət etsinlər).*

*Ədəbiyyat müəllimi:* ***Mirzapas Miryağırzadə.***

1 AR MDTA, fond 61, siy. 1, s.v. 59, vər. 263.
2 AR MDTA, fond 61, siy. 1, s.v. 61, vər. 45.
3 AR MDTA, fond 61, siy. 1, s.v. 61, vər. 49.
4 AR MDTA, fond 61, siy. 1, s.v. 61, vər. 51.

*Maştağı "Abadanlıqlar"ının tarixini bu yaqınlarda yapdığım tətəbböat sayəsində, ən nəhayət, buldum.*

Müvərrix: ***Mirzapas Miryağırov»***[1].

Həmin *"İdarəmizin güzgüsü"*ndə "İdarə" başlıqlı ikinci şarj-yazıda (müəllifi: "MƏS" - Məhəmmədəli Sidqi) deyilir: *«Bun-dan əlavə,* ***Məhəmməd Səid [Ordubadi]*** *"Ədəbiyyat" cümhu-riyyəti nümayəndələrindən* ***Salman Mümtaz****ın köhnə qəbiristan-lıqlardan səfərbərliyə aldığı "Şair" adlı əsgərləri öz tərəfinə çək-məyə başlamışdır*[2] *ki, bu da onların arasında yeni bir ixtilafa bais olmuşdur. Bu ixtilafın həlli həman cümhuriyyət nümayəndələ-rindən* ***ülumi-mətnuə mütəxəssisi Mirabbas Mirbağırova*** *həvalə olunmuşdur»*[3].

Siyasətdən zəhləsi gedən, ancaq müsavatçılara rəğbət, allahsız kommunistlərə nifrət bəsləyən dindar Mirabbas ağanı bu qəzetə gətirən, bizcə, həm onun ensiklopedik savadına və peşəkar jurnalistliyinə qəzetin kəskin ehtiyacı, həm də qəzetin redaktoru *Həbib Cəbiyev*'lə və redaksiyada ikinci şəxs sayılan *Məhəmməd Səid Ordubadi*'ylə yaxşı münasibətləriydi - bu adamlarla hələ 10-15 il qabaq eyni mətbuat orqanlarında birgə qələm çalmışdı.

O, *"Kommunist"* qəzetinin 1000-inci sayının yubileyini ***"Yeni yol" qəzetinin əməkdaşı*** kimi qeyd etdi. Qəzetin 10 yanvar 1924-də çıxan ilk sayında ***"M.A.Mirbağırlı"***nın 2 yazısı gedib ki, onlardan biri bu yubileyə həsr edilib.

"Yeni türk əlifbası"nda - latın qrafikasında çıxan *"Yeni yol"*da M.Mirbağırzadənin imzası (daha çox: ***"M.A."***) ***1925-in martınadək*** görünməkdədir. Həmin ildən onun silsilə yazıları artıq *"Maarif işçisi"*jurnalında nəşr olunur. *"Maarif işçisi"*ndə məqalələrinin müntəzəm çıxması 1925-29 arasında M.Mirbağırzadənin ***məhz bu jurnalda çalışdığını*** düşünməyimizə əsas verir.

---

[1] Əbülhövl. Gündəlik *"Kommunist"* qəzetəsi nömrü 1000. - *"İdarəmizin güzgüsü"*. "Kommunist" qəzetəsi nəşriyyatı, Bakı, 30 dekabr 1923, s.5.

[2] "Kommunist"in *"Xalq ədəbiyyatı həyatdan doğar"* səhifəsində S.Mümtazla yanaşı M.S.Ordubadinin də klassik ədəbiyyatımıza dair yazılarla tez-tez çıxış etməsi nəzərdə tutulur.

[3] *"İdarəmizin güzgüsü"*, s.20.



## Qəzetçi-alim

Mirabbas Mirbağırzadə ***1923-ün mayından*** rəsmən jurnalistliklə məşğuldusa da qeyri-rəsmi şəkildə ən ciddi elmi araşdırmalar üzərində çalışır və ortalığa bu gün də yüksək elmi dəyərini saxlamış olduqca sanballı əsərlər qoyurdu. Bu əsərlər onun hərtərəfli bilikli, ensiklopedik zəkalı nəhəng alim olduğunu təsdiqləyir. Peşəkar publisistin qələmindən çıxmış və o çağın ən nüfuzlu mətbuat orqanlarında ***"Mirabbas Mirbağırzadə", "Mirabbas M. Bağırzadə", "M.A.Mirbağırzadə", "M.A.M.Bağır-zadə", "Mirbağırzadə", "Mir-Bağırlı", "M.A."***... imzalarıyla dərc edilmiş 200-dən artıq yazısı onun həm də peşəkar **iqtisadçı, etnoqraf, coğrafiyaçı, sənətşünas, ədəbiyyatşünas, dilçi, pedaqoq, tarixçi ... alim** olduğunu göstərir. (*"İdarəmizin güzgüsü"*ndə onun məhz bu cəhəti qabardılıb). Çox təəssüf ki, onun bu dəyərli yazıları indiyədək alimlərimizin araşdırmalarından qıraqda qalıb, çünki onların, demək olar ki, hamısı ərəb qrafikasındadır. Onların işini asanlaşdırmaqçün həmin yazıların burada heç olmazsa adlarını çəkməyi faydalı sayırıq.

<u>**İqtisadçı.**</u> M.Mirbağırzadə peşəcə iqtisadçıydı və ümumən iqtisadiyyatı, xüsusən ölkənin iqtisadiyyatını çox gözəl bilirdi. Təsadüfi deyil ki, sovet Azərbaycanında iqtisadiyyat üzrə çıxan iki ən nüfuzlu dərgidə: ***"Azərbaycan Ali İqtisad Şurasının əxbarı"*** və ***"İqtisadi xəbərlər"*** jurnallarında aparıcı müəlliflərdən biri də M.Mirbağırzadəydi. Onun müxtəlif imzalarla çap olunmuş, bir-birindən çox uzaq mövzulu ***"Azərbaycanda tibbi nəbatat"*** (*"Azərbaycan Ali İqtisad Şurasının əxbarı"*, 1924, №1, ss.12-14), ***"Azərbaycanda əlac***[1] ***otları"*** (*"Azərbaycan Ali İqtisad Şurasının əxbarı"*, 1924, №3, ss.18-21), ***"Azərbaycanda qiymətli nəbatat***[2] ***yetişdirilməsi"*** (*"İqtisadi xəbərlər"*, 1925, №4-5, ss.11-13), ***"Azərbaycanda dərman otları"*** (*"İqtisadi xəbərlər"*, 1926, №4-5, ss.45-47; №6, ss.23-25), ***"Salyan qəzasında dərman otları"*** (*"İqtisadi xəbərlər"*, 1926, №9, ss.46-47), ***"Azərbaycanda nəbatatı tədqiq və təcrübə işləri"*** (*"İqtisadi xəbərlər"*, 1927, №9-10, ss.16-19), ***"Azərbaycanda bağçaçılıq və bostançılıq təsərrüfatının artması haqqında tədbirlər görülməsi"*** (*"İqtisadi xə-*

---

[1] Dərman.

[2] Bitkilər.

*bərlər"*, 1928, №2, ss.53-54), ***"Azərbaycanın xaricə çıqarılmalı meyvələri"*** (*"İqtisadi xəbərlər"*, 1927, №11-12, ss.45-50), ***"Düyü ziraətinin[1] əhəmiyyəti"*** (*"Azərbaycan Ali İqtisad Şurasının əxbarı"*, 1926, №6, ss.21-22), ***"Azərbaycanda zəfəran təsərrüfatı haqqında tədqiqat nəticələri"*** (*"İqtisadi xəbərlər"*, 1926, №10-11, ss.72-76), ***"Kür çayında balıq təsərrüfatı"*** (*"Azərbaycan Ali İqtisad Şurasının əxbarı"*, 1924, №7-9, ss.16-18), ***"Azərbaycanda qiymətli dağ mədənləri"*** (*"Azərbaycan Ali İqtisad Şurasının əxbarı"*, 1924, №10-11, ss.20-22), ***"Azərbaycanda mədən varlıqları. Şamaxı qəzasında"*** (*"Yeni yol"* qəzeti, 23 may 1923, №16), ***"Azərbaycanda ipək təsərrüfatının iqtisadi tarixi"*** (*"İqtisadi xəbərlər"*, 1927, №1, ss.28-33; №3, ss.19-24; №7-8, ss.8-14), ***"Azərbaycanda dövləti əmanət kassalarının vəziyyəti"*** (*"İqtisadi xəbərlər"*, 1927, №9-10, ss.27-29)... məqalələri, adlarından da göründüyü kimi, ümumrespublika əhəmiyyətli problemlərə həsr olunub.

**Etnoqraf.** M.Mirbağırzadə iqtisadçı kimi respublikanın, demək olar ki, bütün bölgələrində bulunub və bu zaman gördüyü hər bir elmi dəyərli faktı qeydə alıb və sonra onları yazıya çevirib. Nəticədə dəyərli məqalələr ortaya çıxıb. Etnoqrafiyaya dair tədqiqatları da bu sıradandır. Onun əsasən ***"Mirabbas Mirbağırzadə"*** imzasıyla buraxdırdığı ***"Əqvami-qədimə arasında dini etiqadlar və ictimai adətlər"*** (*"Xalq maarifi"* jurnalı, 1920, №1, ss.37-40), ***"Tarix və coğrafiya qismi. Qafqas və qafqaslılara aid tarixi bəzi məlumat. I. Etnoqrafiya"*** (*"Füqəra füyuzatı"* jurnalı, 1920, №1, ss.8-10), ***"Şuralar Azərbaycanında. Talışlar"*** (*"Qızıl qələm"* məcmuəsi, 1924, №4, ss.61-62), ***"Şuralar Azərbaycanında yaşayan millət və tayfalar haqqında etnoqrafi məlumat. I. Yengiloylar"*** (*"Maarif işçisi"* jurnalı, 1926, həziran-təmuz/iyun-iyul, №6-7, ss.87-93), ***"Şuralar Azərbaycanında yaşayan millət və tayfalar haqqında etnoqrafi məlumat. II. Udilər"*** (*"Maarif işçisi"* jurnalı, 1926, ağustos-eylül/avqust-sentyabr, №8-9, ss.88-110; dekabr, №12, ss.66-72), ***"Kilvar erməniləri"*** (*"Maarif işçisi"* jurnalı, 1929, №2-3, ss.121-122)... məqalələri Azərbaycan etnoqrafiya elminin ilk və ən uğurlu örnəkləridir.

**Coğrafiyaçı.** Yazılarıyla elə ötəricə tanışlıqdan bu fikrə gəlirik ki, Mirabbas Mirbağırzadə Azərbaycanı qarış-qarış gəzmək

---
[1] Əkininin.



və ana yurdumuzu soydaşlarımıza da tanıtmaq istəyində olub. Bu diləklə o, əlinə imkan düşən kimi bulunduğu bölgələr haqqında hərtərəfli bilgi toplamağa çalışıb. Məsələn, 1929-da *"Maarif işçisi"* jurnalında buraxdırdığı ***"Bakı kəndləri haqqında coğrafi, etnoqrafi, iqtisadi və tarixi məlumat. Biləcəri kəndi..."*** məqaləsində göstərir: *«1922-ci ildə Azərbaycan Ərzaq Xalq Komissarlığı tərəfindən Bakı qəzasında maliyyə inspektoru vəzifəsində olduğum zaman* ***idarə etdiyim Bakı kəndləri haqqında*** *bəzi lazımlı məlumatları toplayıb dəftərimə qeyd etmişdim. Ölkəşünaslığa dair əhəmiyyəti olduğuna görə ayrı-ayrı kəndlər haqqında topladığım həmin məlumatı "Maarif işçisi" məcmuəsi vasitəsilə qarelərə təqdim etməyi münasib gördüm».*

İstəyinin böyüklüyünə baxmayaraq Mirabbas ağa yalnız Lənkəran, Zaqatala və Şəki bölgələri, Biləcəri kəndi haqqında materiallar dərc etdirməyə nail olub. ***"Şura Azərbaycan qəzaları. I. Lənkəran qəzası"*** (*"Xalq müəllimi"* məcmuəsi, 1924, mayıs, №1, ss.65-71), ***"Lənkəran qəzasında"*** (*"Əkinçi"* məciuəsi, 25 avqust 1924, №11, ss.19-23), ***"Lənkəran isti suları"*** (*"Maarif işçisi"* jurnalı, 1925, №1, ss.59-62), ***"Şura Azərbaycan qəzaları. Lənkəran qəzası"*** (*"Maarif işçisi"* jurnalı, 1925, №6-7, ss.105-112), ***"Şura Azərbaycan qəzaları. I. Lənkəran qəzası"*** (*"Maarif işçisi"* jurnalı, 1926, fevral, №2, ss.89-92; mart, №3, ss.35-39), ***"Coğrafi təshih"*** (*"Maarif işçisi"* jurnalı, 1926, fevral, №2, s.93), ***"Zaqatala qəzasının iqtisadi vəziyyəti"*** (*"İqtisadi xəbərlər"* jurnalı, 1926, №3, ss.49-53), ***"Azərbaycan qəzaları. II. Zaqatala qəzası"*** (*"Maarif işçisi"* jurnalı, 1926, nisan/aprel, №4 , ss.54-58; mayıs, №5, ss.57-66), ***"Azərbaycan qəzaları. III. Şəki qəzası"*** (*"Maarif işçisi"* jurnalı, 1926, təşrini-əvvəl/oktyabr, №10, ss.69-77; təşrini-sani/noyabr, №11, ss.59-68), ***"Bakı kəndləri haqqında coğrafi, etnoqrafi, iqtisadi və tarixi məlumat. Biləcəri kəndi. Coğrafi və topoqrafi vəziyyət)"*** (*"Maarif işçisi"* jurnalı, 1929, №1, ss.121-131)... adlı yüksək elmi dəyərli məqalələri məhz bu yerlərin coğrafi təhlilinə həsr edilib.

**Sənətşünas.** Fars (çöx güman ki, həm də ərəb) dilini gözəl bilən, olduqca zəngin şəxsi kitabxanasındakı ən nadir qaynaqlardan dəyərli bilgilər toplayan Mirabbas ağa, görünür, musiqini təcrübi və nəzəri baxımdan əla bilib. Onun ***"Əski türklərdə mədəniyyət əsərləri. İslamiyyətdən əvvəl"*** (*"Maarif və mədəniyyət"*

jurnalı, 1923, №6, ss.13-16; №8-9, ss.28-30; №12, ss.49-52), **"Qədim musiqi və nəğmələr. I. İrani-qədimdə"** (*"Maarif və mədəniyyət"* jurnalı, 1923, №8-9, ss.24-28), **"Krım türklərində musiqi"** (*"Maarif işçisi"* jurnalı, 1926, təşrini-sani/noyabr, №11, ss.56-58), **"Tarixdə musiqi. Avropada musiqinin başlanması"** [*"Əmələ darülfünunu"* qəzeti (türkcə *"Kommunist"* qəzetinə əlavə), 29 iyun 1923, №19, ss.2-3], **"Şərq musiqisində yeni ixtiralar"** (*"Yeni yol"* qəzeti, 4 ağustos/avqust 1924, №22)... kimi yazıları bu deyiləni bir daha təsdiqləyir.

**Ədəbiyyatşünas.** M.Mirbağırzadə həm də türk ədəbiyyatının dərin bilicisidir. Onun *"Yeni yol"* və *"Kommunist"* qəzetlərindəki yazılarında türk/Azərbaycan ədəbiyyatı haqqında bir çox yeni bilgilər ilk dəfə verilib. **"El ədəbiyyatı ana dilinin köküdür"** (*"Yeni yol"* qəzeti, 23 may 1923, №16), **"Əski türk ədəbiyyatı nümunələrindən. I. Ulu Tenqriyə sığınma"** (*"Kommunist"* qəzeti, *"Xalq ədəbiyyatı həyatdan doğar"* səhifəsi. 26 təşrini-əvvəl/oktyabr 1923, №242), **"Türk ədibə və şairələri. Ağabəyim ağa"** (*"Kommunist"* qəzeti, *"Xalq ədəbiyyatı həyatdan doğar"* səhifəsi. 16 təşrini-sani/noyabr 1923, №259), **"Türk ədibə və şairələri. Cahan xanım"** (*"Kommunist"* qəzeti, *"Xalq ədəbiyyatı həyatdan doğar"* səhifəsi. 30 təşrini-sani (noyabr) 1923, №271), **"Türk ədibə və şairələri. 3. Fitnət xanım"**[1] (*"Kommunist"* qəzeti, *"Xalq ədəbiyyatı həyatdan doğar"* səhifəsi. 7 kanuni-əvvəl/dekabr 1923, №277), **"Türk ədibə və şairələrimiz. 4. Zibeydə xanım"**[2] (*"Kommunist"* qəzeti, *"Xalq ədəbiyyatı həyatdan doğar"* səhifəsi. 14 kanuni-əvvəl (dekabr) 1923, №283), **"Xalq ədəbiyyatı"** (*"Yeni yol"* qəzeti, 15 fevral 1925, №37, s.5; 6 mart 1925, №54)[3]... yazıları çağdaş ədəbiyyatşünaslığımızçün də mühüm elmi önəm daşıyır.

---

[1] Fitnət xanım İstanbul şeyxülislamı, şair *Məhəmməd Əsəd əfəndi*'-nin qızıdır.

[2] *Fətəli şah Qacar*'ın qızıdır.

[3] İkinci yazısında müəllif 1924-də *Salyan qəzasının Qaradonlu nahiyəsində* yerli sovet hakimiyyəti nümayəndələrinin əhaliyə necə vəhşicəsinə divan tutduğundan, ev-eşikləri yandırıb xaraba qoyduğundan, günahsız insanları yurddan didərgin saldığından və bu müsibətlərin xalq ədəbiyyatında əksini necə tapdığından danışır.



**Dilçi.** Hələ sovet çağından çox-çox qabaq təmiz dildə yazmağı təbliğ edən və bu dili öz kitablarında sərgiləyən M.Mirbağırzadə 1923-dən sonra dilçilik sahəsində də qələmini sınadı. Onun xüsusən yazının tarixi, əlifba, imla problemlərinə aid araşdırmaları indi də ciddi maraq doğurur. **"Yeni türk əlifbasının həyata tətbiqi"** (*"Maarif işçisi"* jurnalı, 1925, №6-7, ss.103-104), **"Dilimizin düzəlişməsi"** (*"Dilimizin islahı"* qəzeti. *"Kommunist"* qəzetinin xüsusi əlavəsi, [1923], №4), **"Danışıq dilimiz, yazı dilimiz"** (*"Dilimizin islahı"* qəzeti. *"Kommunist"* qəzetinin xüsusi əlavəsi, [1923], №6), fevral 1923, №7), **"Yazının tarixi"** (*"Əmələ darülfünunu"* qəzeti. Türkcə *"Kommunist"* qəzetinə əlavə, 1923: 22 mayıs, №14; 1 iyun, №15; 23 iyun, №18; 9 iyul, №20; 15 avqust, №24; 26 avqust, №25), **«Tənqid və biblioqrafiya. Fərhad Ağazadənin yeni kitabı: "Nə üçün ərəb hərfləri türk dilinə yaramır?"»** (*"Yeni yol"* qəzeti, 18 iyul 1923, №22), **"Yeni əlifba və savad məktəbi"** (*"Yeni yol"* qəzeti, 10 yanvar 1924, №1), **"Lənkəran talışlarına yeni türk əlifbası lazımdır"** (*"Yeni yol"* qəzeti, 9 aprel 1924, №8) və b. məqalələri yüksək peşəkarlıqla yazılıb.

**Pedaqoq.** Doğrudur, Mirabbas ağanın hansı məktəbdəsə dərs deməsi, müəllimlik etməsi haqqında alimizdə heç bir tutarqa yoxdur, ancaq **"M.A."** imzasıyla buraxdırdığı **"Azərbaycan məktəblərində yeni dərs proqramları"** (*"Maarif işçisi"* jurnalı, 1926, nisan/aprel, №4, ss.59-60) və **"Çocuqların təbii hüququ"** (*"Əmələ darülfünunu"* qəzeti. Türkcə *"Kommunist"* qəzetinə əlavə, 8 avqust 1923, №23) məqalələri onun pedaqogikaya da yetərincə bələdliyini göstərir.

**Tarixçi.** Başqa elm sahələrində nə qədər uğurları olsa da M.Mirbağırzadəni biz daha çox iqtisadçı və tarixçi kimi tanıyırıq. Hələ 1913-14-də çox ciddi tarix kitabları və məqalələr nəşr etdirməyi bacarmış Mirabbas ağa 1912-14 tarixləri arasında **"Tarixi fəqərələr. I. Bulğarların mazisi**[1]**"** (*"İqbal"* qəzeti, 20 dekabr 1912, №241), **"Tarixi fəqərələr. II. Serblər və mazisi"** (*"İqbal"* qəzeti, 23 dekabr 1912, №243), **"Tarixi fəqərələr. III. Qaradağlılar və əhvali-hazirələri**[2]**. Trakya"** (*"İqbal"* qəzeti, 26 dekabr 1912, №246), **"Əhval və qəraib. Qədim misirlilərdə ibadət"**

---

[1] Keçmişi.

[2] İndiki durumları.

(*"Sədayi-həqq"* qəzeti, 28 dekabr 1912, №236), ***"Tarixi məqalə. İslamiyyətin zühurundan qabaq ərəb arvadları"***[1] (*"Sədayi-həqq"* qəzeti, 1914, 14 fevral, №35; 16 fevral, №37; 17 fevral, №38) və b. tarixi məqalələrinə də həyat vermişdi. Yeri gəlmişkən, "tarixdə qadın" mövzusunda araşdırmalarını o, Cümhuriyyət və sovet çağında da sürdürərək ***"Analarımız nə tövr olmalıdırlar?"*** (*"Azərbaycan"* qəzeti, 10 kanuni-əvvəl/dekabr 1918, №61) və ***"Əski türklərdə qadın hüququ"*** (*"Yeni yol"* qəzeti, 19 haziran/iyun 1924, №15) kimi sanballı yazılarını da ortaya qoymuşdu. İstər Cümhuriyyət, istər sovet dönəmində heç bir tarix kitabı buraxdırmamış (kommunistlər bu sahəni xüsusi nəzarətdə saxlayır, oraya "yad" adamların yaxınlaşmasına imkan vermirdilər), ancaq ***"Azərbaycanda elmi cəmiyyətlər və türk ziyalıları"*** (*"Qızıl qələm"* məcmuəsi, 1924, №1, ss.27-28), ***"Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat"*** (*"Maarif işçisi"* jurnalı, 1927: №1, ss.63-67; №2, ss.105-108; №9, ss.77-86; 1928: №1-2, ss.98-107; №5-6, ss.115-122), ***"Şəkidə xanlıq zamanında məmləkət idarəsi"*** (*"Maarif işçisi"* jurnalı, 1928, №7-8, ss.153-157)... kimi elmi baxımdan yüksək dəyərli məqalələrini oxuculara təqdim etmişdi.

## Sonu da bilinməyən ömür

***"Kilvar ermənilәri"*** adlı etnoqrafiya üzrə məqaləsi[2] Mirabbas Mirbağırzadənin Azərbaycanda olduğunu göstərən ən son sənəddir. Bundan sonra onun adıyla heç bir yerdə üzləşmirik - bir yerdən başqa...

"Proletar yazıçısı" ***Əjdər Süleymanzadə***'nin *"İstiqraz vərəqəsi №01, seriya 101121"* adlı hekayəsinin[3] baş qəhrəmanı *"Yeni yol"* qəzetinin müxbiri - xronika şöbəsinin əməkdaşı ***Mirabbas***'dır. Mirabbas ermənicə *"Kommunist"* qəzetini oxuyan (İrəvandan olmasına işarədir), "Amerika sistemli gözlük" taxan, "axmaz su kibi sakit, yazıq, lakin yeri gəldiyi vaxt həqiqəti söyləməkdən özünü alamayan, qara dəniz dalğaları kibi əsəbi" bir şəxsdir. Müəllif onu hədsiz pulpərəst təsvir edərək sonda ondan "qisas alır" - əlinə düşmüş cəmi bircə istiqraz vərəqəsinə 100 min manat udmaq eşqiylə alışıb-yanan Mirabbasın arzusunu puça çıxarır.

Bu əsərdəki Mirabbasın məhz M.Mirbağırzadə olduğuna heç bir şübhəmiz yoxdur. Ancaq onun məhz ***1930-da*** tənqid hədəfinə çevrilməsi (bu vaxt belə tənqidlər yalnız xüsusi icazə, yaxud göstərişlə olurdu), şübhəsiz, Mirabbas ağaya hakimiyyətin mənfi münasibətinin nəticəsidir. Bizcə, o, **1930-un başlanğıcında özünün (və qardaşlarının?) ailəsini də götürərək Türkiyəyə köçüb/qaçıb.** Bu üzdən də: 1) hakimiyyət ondan incik düşüb; 2) Azərbaycanda qalan qohumları bir daha onun adını hətta öz uşaqlarının yanında çəkməyə ürək etməyiblər və bununla da onu yerli-dibli unutdurublar (hətta bu gün 60-80 yaşı olan yaxın qohumları belə onun adını eşitməyiblər!); 3) Azərbaycan mətbuatında və rəsmi sənədlərdə adı görünməz olub.

Bütün bunlarla yanaşı, fikrimizcə, *Mircəfər Bağırov*'la yaxşı münasibətdə bulunması səbəbindən (sözsüz ki, başqa səbəblər də ola bilər) M.Mirbağırzadənin bu hərəkəti mətbuatda və ictimaiyyət arasında o çağlara məxsus gurultulu "nifrətbildirmə" kampaniyasına çevrilməyib və yalnız bir hekayənin tənqidiylə də sona çatıb.

Mirabbas Mirbağırzadənin yaşam və yaradıcılığından bugünədək öyrəndiklərimizi burada qısaca verdik, ancaq onun haqqında araşdırmalarımız hələ də davam edir. Xüsusən mətbuatı daramaqla hər gün yeni nəsə tapırıq. İnanırıq ki, onun hələ bir çox yazıları da üzə çıxacaq və ömür yoluyla bağlı sənədlər əldə ediləcək...

***

Bu kitabda verilən ***"Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat"*** məqaləsini *"Maarif işçisi"* jurnalının bu saylarından götürmüşük: **1927:** №1 (ss.63-67), №2 (ss.105-108), №9 (ss.77-86); **1928:** №1-2 (ss.98-107); №5-6 (ss.115-122), №7-8 (ss.153-157).

Şəki haqqında indiyədək yazılmış əsərlərin heç birində bu məqaləyə söykənilməməsi ərəb qrafikasındakı bu çox dəyərli qaynaqdan çağdaş alimlərimizin yararlana bilmədiyini göstərir. Bu üzdən də məqaləni yenidən nəşr etməyi faydalı saydıq.

---

[1] Məqalənin başlığından qabaq bu ithaf yazılıb: *"İstudent Yusif bəy Vəzirov qardaşıma".*

[2] Bax: *"Maarif işçisi"* jurnalı, 1929, №2-3(43-44), ss.121-122.

[3] Bax: *«Aprel alavları. "Gənc işçi" qəzetəsinin X illiyinə ithaf olunur. (Proletar yazıçılarından nümunələr)».* Bakı: Azərnəşr, 1930, ss.29-33.

Görünür, M.Mirbağırzadə bu geniş yazısını kitab kimi nəşrə hazırlayıb, ancaq öncə jurnalda verərək oxucuların tənqidi qeydlərini öyrənmək istəyib. Bizcə, bu zaman o, redaksiyanın tələbiylə məqalədə xeyli qısaltmalar aparıb; bu açıq-aydın duyulur. Məsələn, 1(21)-inci saydakı material 1266-cı il hadisələriylə (Buğa xanla) bitdiyi halda onun 2(22)-ci saydakı ardı 120 il sonrakı - 1382-dəki hadisələrlə (Əmir Teymurla) başlayır. Müəllifin əsərdə bu boyda tarixi boşluq yaratması bizə inandırıcı görünmür. Ancaq Şəki tarixlərinə aid sonrakı qaynaqlarda adı çəkilməməsi əsərin kitab kimi çıxmadığını göstərir.

Bu dəyərli tarixi yazarkən M.Mirbağırzadə şəxsi kitabxanasındakı bir çox nadir əlyazmalardan yararlanıb. Özü bildirir: *"**Əlimizdəki əl yazılı Şəki tarixi** Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyətinin rusca tərcüməsiylə təb etdirdiyi Qazi Əbdüllətif əfəndi risaləsindən daha müfəssəl yazılmışdır"*.

Bizcə, bu sözləri deyərkən alim daha çox **Mirzə Heydər Dərbəndi**'nin ***"Höccətüt-təvarix"*** əsərinin əlyazmasını göz önündə tutur. Yada salım ki, bu gün əlimizdə bulunmayan həmin qaynağı hətta A.A.Bakıxanov da görməyib (görsəydi *"Gülüstani-İrəm"*də mütləq ondan yararlanardı). Bu əlyazmanın faktlarla daha zəngin olduğunu M.Mirbağırzadənin yazısından asanlıqla duymaq mümkündür. Bircə örnək göstərək. Bu məqalədə oxuyuruq: *"Hacı Çələbi də bu fürsətdən istifadə edib məmləkətini mümkün olduğu qədər genişlətməyə çalışdı. Bu çalışma sayəsində İran Azərbaycanına qədər nüfuz yetirib **Təbriz vilayətini də öz hökuməti altına aldı və Sədrəddin adında birisini öz tərəfindən Təbriz şəhərinə naib qoydu**"*. Halbuki "Sədrəddin adlı birisi"ni Çələbi xanın Təbriz vilayətinə naib təyin etməsi faktıyla başqa heç bir qaynaqda üzləşmirik.

Mirabbas ağanın niyə məhz Şəki tarixiylə maraqlanması, onun tarixini qələmə alması səbəbi də qaranlıq içindədir. Gümanımızca, onun Şəkiylə sıx ticarət ilişkiləri olub. Şəkidə ipəkçiliyin tarixini, ipək ticarətinin xəritəsini çox incəliklə təsvir etməsi onun şəxsən Şəkidə bulunduğunu, hər şeyi öz gözləriylə gördüyünü təsdiqləyir. Bu üzdən də onu Şəkiyə daha çox ipək ticarətinin bağladığını söyləsək, bizcə, yanılmarıq. Daha da irəli gedərək deyə bilərik ki, M.Mirbağırzadənin İstanbula səfərlərinə Şəki ipəyinin Türkiyə bazarına çıxarılması məsələsi də təsir göstərə bilərdi.



M.Mirbağırzadəni Şəkiyə qohumluq münasibətlərinin bağladığını da (arvadı oradan ola bilərdi) düşünmək mümkündür.

Bu gümanların düz olub-olmamasını sübuta yetirmək çox çətindir, ancaq bir gerçəyə inanmaq çox asandır - o gerçək də budur ki, M.Mirbağırzadə Şəkinin tarixi haqqında, həqiqətən, olduqca dəyərli bir əsər yazmağı bacarıb!

## MİRABBAS MİRBAĞIRZADƏ. ŞƏKİ QƏZASI.

Bu məqalə M.Mirbağırzadənin ***"Azərbaycan qəzaları"*** silsilə yazılarından üçüncüsüdür. *"Maarif işçisi"* jurnalının 1926-cı il oktyabr və noyabr saylarından (№№10, 11) götürmüşük.

Bu məqalə müəllifin Şəki tarixi haqqında verdiyi bilgini tamamlayır. Həm də indiyədək elmi ictimaiyyətin diqqətindən yayınmış bu dəyərli qaynaqdan heç olmasa bundan sonra istifadə edilsin deyə onu təkrar nəşr etməyi məqsədəuyğun saydıq.

## ƏLƏŞRƏF KƏRİMOV/İSMAYILOV. ŞƏKİ KEÇMİŞDƏ VƏ İMDİ.

1928-də Şəkidə *"Ə.İsmayılov"* imzasıyla nəşr olunmuş bu əsəri Əlyazmalar İnstitutunda şöbə müdiri işlədiyimiz zaman - 14 oktyabr 1987-də Qəbələ rayonunun Vəndam kəndində bir evin damından tapmışıq.

İndiyədək Şəki tarixiylə bağlı yazılmış kitabların heç birində bu əsərə söykənilməyib; bu, onun nüsxələrinin əldə qalmadığını göstərir.

Bunu da bildirim ki, həmin əsər bir il öncə (1927-də) Şəkidə eyni adla, ancaq *"Ə.Kərimov"* imzasıyla nəşr edilib, belə ki, *"Ə.Kərimov"*un *"Şəki keçmişdə və imdi"* kitabını Sabir Əfəndiyevin şəxsi kitabxanasından götürərək yararlanan şəkili araşdırıcı ***Həbibulla Manaflı*** özünün dəyərli ***"Şəki üsyanı"*** kitabında (Bakı: Zaman, 2000) yazır: *«Azərbaycanda Bakıdan sonra ikinci mətbəə Şəkidə fəaliyyətə başlamışdır. Həmin mətbəənin yaradıcısı şəkili sahibkar Həsən Mustafayev idi. 1911-ci ildə işə başlamış bu mətbəədə həmçinin Rəşid bəy Əfəndiyevin "Saqqalın kəraməti", Rəcəb Əfəndizadənin "Türk qiraəti",*

*"Əsgəri marşlar"* *və digər əsərlər nəşr olunmuşdur»*[1]. Ancaq bu göstərilən faktlar kitabın 1928-inci il nəşrində yoxdur; deməli, müəllif öz əsəri üzərində yenidən əl gəzdirərək bir il sonra ikinci dəfə nəşr etdirib.

Biz 1987-də əsəri ərəb qrafikasından çevirərək nəşrə hazırladıq, kitabın özünüsə bir sıra başqa əsərlərlə birgə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasına bağışladıq, çünki orada onun heç bir nüsxəsi yoxuydu.

Əsərin müəllifi haqqında uzun zaman tutarlı bilgi əldə edə bilmədik. Təkcə Qulam Məmmədlinin *"İmzalar"* kitabından (Bakı: Azərnəşr, 1977, s.45) öyrəndik ki, Ələşrəf İsmayılov 1925-1926-da *"Şəki fəhləsi"* qəzetində yazılarla çıxış edib. Ancaq onun kimliyini aydınlaşdıracaq yarım cümləlik belə işarəyə rast gəlmədik. Son vaxtlaradək əlimizdəki yeganə bəlgə 1922-də ərəb qrafikasında çap edilmiş və təsadüfən tapdığımız bu *"Müraciətnamə"*ydi:

*"Nuxa qəzasında ərzaq vergisinə mübaşir üçlər heyəti*[2] *tərəfindən Azərbaycan İctimai Şura Cümhuriyyəti Komissarlar Şurasının kənd təsərrüfatından hökumət nəfinə alınacaq vergi haqqında qoyduğu qanuna görə, 1922 sənə məhsulatından Nuxu qəzasından bir desyatin yerdən ələ gələn taxıla üç putdan əskik olmamaq şərtiylə hökumət nəfinə vergi alınmalıdır.*

*Həmin vergi bostan, dirrik, bağ, çəltük, qoruq yerlərindən dəxi olacaqdır. Azərbaycan üçün bu ildə lazımi qədər taxıl olmalıdır ki, böyük hökumət fabrikalarında, zavodlarda işləyən fəhlələri, qırmızı ordu əsgərlərini, milisyaları, priyutlarda olan yetim balaları və acizləri və başqa idarədə qulluq edən məmurları təmin etmək. Hərgah ərzaq vergisi tamam yığılarsa fəhlə, əsgər və başqa qulluqçuların dolanması üçün hökumət də kağız pulu az miqdarda buraxacaqdır. Bunilə də fabrik şeyləri çoqalaraq, yəni təsərrüfat yüksəlməsiylə manatın da qiyməti yüksələcəkdir. Hərgah manatın qiyməti yüksələrsə vergidən və özünə lazım olan miqdarından artıq taxılı kəndli və mal sahibi bazarda öylə qiymətə sata bilər ki, əlinə gələn pula da istədigi təsərrüfat ehtiyacını alar. Əgər ərzaq vergisinə layiqincə əməl olunmasa və hökumətin ərzaq varlığı*

[1] Həbibulla Manaflı. Şəki üsyanı. Bakı: Zaman, 2000, s.18; Bakı: Zaman, 2004, s.12.

[2] Sovet hakimiyyəti illərində *üçlər heyəti* daha çox rusca adıyla - ***"troyka"*** kimi məşhurdu.



*düzəlməsə o vaqt öz qulluqçularını dolandırmaq üçün hökumət çoq-çoq kağız pullar buraqub taxıl almalıdır. Bunilə də manatın qiyməti düşər, hər şeyin də qiyməti yüksələr. O vaqt kəndlilər satdıqları taxılın ələ gələn puluna bir şey ala bilməyəcəklər.*

*Nuxa qəzası kəndlilərinin vergi işini yüngülləşdirməkdən ötrü üçlər heyəti tərəfindən mərkəzi Azərbaycan Ərzaq Komissarlığına kəndlilərimizin fəqirliyini çəkdikləri ağırlığı yetişən zərərləri məlumat verib başqa yerlərə nisbətən verginin az alınmasına artıq dərəcə səy edilmişdir".*

Sənədi Nuxa qəza Kommunist Firqəsinin məsul katibi ***Qulam Axundov***, Xalq Ərzaq Komissarlığı vəkili ***Həsən Əbdürrəhmanov*** və ərzaq vergisi heyəti katibi: ***Kumanets***'lə yanaşı ***Nuxa İcraiyyə Komitəsinin sədr vəkili* Ələşrəf İsmayılov** da imzalayıb. Bu sənəd Ə.İsmayılovun Şəkidə yeni qurulmuş hakimiyyətin fəallarından olmasından, şəhərin (rayonun) hakimiyyət nərdivanının yüksək pilləsində dayanmasından soraq verir.

Tanınmış Şəki ziyalılarından ***Hikmət Əbdülhəlimov***'la[1] bu yaxınlarda söhbət etdiyimiz zaman bu fakt təsdiqləndi. Müəllifin adını eşidən kimi Hikmət müəllim Şəkidə hamının *"İspalkom Ələşrəf"* kimi tanıdığı bu şəxsin uzun müddət Şəki İcraiyyə Komitəsinin sədri işlədiyini dedi. Ağsaqqal professorumuz ***Şirməmməd Hüseynov*** da İspalkom Ələşrəfin Şəki camaatının xatirəsində özünəməxsus unudulmaz iz buraxdığını bildirdi. Ancaq istər H.Əbdülhəlimov, istərsə də prof. Ş.Hüseynov onunla bağlı tərcümeyi-hal səciyyəli heç nə deyə bilmədilər. Bundan sonra Azərbaycan MEA Şəki Regional Elm Mərkəzinin direktoru, professor ***Zəkəriyyə Əlizadə***'yə müraciət etdik və bir neçə

[1] ***Hikmət Əbdülhəlimov*** 1936-da Şəkidə doğulub. O, müxtəlif rəhbər vəzifələrdə işləyib: Şəki İpək Kombinatı komsomol komitəsinin katibi (1962-65), Şəki Şəhər Komsomol Komitəsinin I katibi, Şəki Şəhər Partiya Komitəsində şöbə müdiri (1969-80), Şəki Şəhər Mədəniyyət Şöbəsinin müdiri (1980-88), Şəki Şəhər Partiya Komitəsi təşkilat şöbəsinin, Şəki Şəhər İcra Hakimiyyəti ümumi şöbəsinin müdiri (1988-93). İndi Bakı Telefon Rabitəsi İstehsalat Birliyində şöbə rəisidir. Şəki folklorunun toplanması, araşdırılması və təbliği sahəsində əvəzsiz işlər görüb - ümumi tirajı 250 min nüsxəni aşan çoxsaylı topluların, o sıradan ikicildlik möhtəşəm "Şəki folkloru"nun müəllifidir.

gündən sonra o, Ə.İsmayılovun əsl familiyasını (Kərimov), doğum və ölüm illərini (1888-1963) dəqiqləşdirdi və fotosunu Şəki muzeyindən götürərək bizə çatdırdı. (Bu yardımlarına görə hər üç alimimizə dərin təşəkkürümüzü bildiririk).

Artıq ipucu ələ keçirəndən sonra AR Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivinə üz tutduq və *Ələşrəf Kərimov/İsmayılov*'un 2 şəxsi işini tapdıq[1]. Buradakı sənədlər (təbii ki, hamısı ruscadır) onun həyat və fəaliyyətini incəliyinədək izləməyə imkan verir.

Müxtəlif illərdə yazılmış tərcümeyi-hallardan aydın olur ki, **Kərimov** (eyni zamanda: **İsmayılov**; *"İsmayılov"* daha çox partiya fəaliyyətiylə bağlı sənədlərdə görünməkdədir) **Ələşrəf İsmayıl oğlu** 12 iyul 1888-də (bəzi sənədlərdə: 1892) Şəkinin *Çay qırağı* hissəsinin *Gümburlar* məhəlləsində doğulub. Atası *İsmayıl Kərim oğlu*, anası *Səltənət Əli qızı*'dır.

35 yaşındaykən - 1923-də yazılmış aşağıdakı sənəd onun ömür yolunu işıqlandıran ilk rəsmi qaynaqdır. Onu oxuyanda istər-istəməz bu nəticəyə gəlirsən: Ələşrəf İsmayılovun qılıncının dalı da, qabağı da kəsib və o kəsən başa sorğu-sual olmayıb. Gəlin sənədlə tanış olaq:

*"ATTESTAT*

*Bu, Azəripək zavod idarəsinin müvəkkili, Nuxa şəhər vətəndaşı, 1888-də doğulmuş yol. Ələşrəf İsmayılova ondan ötrü verilib ki, Azərbaycanın sovetləşməsi günündən indiyədək yol. İsmayılov bu vəzifələrdə olub:* **Nuxa İnqilab Komitəsinin üzvü, İnqilab Komitəsi sədrinin müavini, Siyasi Büronun müdiri, [Nuxa] Qəza Milis İdarəsinin rəisi, Qəza İcraiyyə Komitəsi Daxili İşlər Şöbəsinin müdiri,** *Qəza İcraiyyə Komitəsi sədrinin müavini; həm də bu işlərlə yanaşı qəza partiya komitəsinin müxtəlif tapşırıqlarını yerinə yetirib,* ***müxtəlif İstintaq Üçlüklərində və Fövqəladə Üçlüklərdə, eləcə də müxtəlif təsərrüfat komissiyalarında, kampaniyalarda və s.-də sədr kimi iştirak edib.***

*Onun - yol. İsmayılovun xidməti inqilabın coşğun çağında* **Nuxa qəzasında əksinqilabi ünsürlərlə və banditizmlə mübarizəyə yönəlib və bu işdə o, parlaq uğurlar qazanıb...**

[1] SPİHMDA, fond 1, siyahı 8, iş 2655 (31 vərəq) (İsmayılov Ələşrəfin adına); fond 6, siyahı 10, iş 415 (64 vərəq) (Kərimov Ələşrəfin adına).



*Deyilənləri AK(b)P Nuxa Qəza Komitəsi və Nuxa Qəza İcraiyyə Komitəsi imzalarla və möhür basmaqla təsdiqləyir.*

*Qəza [partiya] komitəsinin məsul katibi* ***Rüstəmbəyli***

*Qəza [partiya] komitəsi təşkilat şöbəsinin müdiri* ***İ.Tağıyev***

*Qəza İcraiyyə Komitəsinin sədri* ***A.İsgəndərov***

*Qəza Həmkarlar bürosunun sədri* ***Ömər Nəcməddin***

*Qəza İcraiyyə Komitəsinin katibi* ***Abdullayev***

***28 iyul 1923, Nuxa şəh."[1].***

1933-də artıq Nuxa MTS-inin[2] direktoru *Ələşrəf İsmayılov* haqqında yazılmış başqa bir qısa partiya arayışından[3] aydınlaşır ki, onun qılıncı son on ildə də "korşalmayıb". Sənəddə deyilir:

*"Türkdür. İctimai mənşəyi - fəhlə. 1920-ci ildən AK(b)P üzvü. Təhsili - aşağı - özü öyrənən. Qabaqlar bu vəzifələrdə işləyib: Nuxada Qəza İnqilab Komitəsi sədrinin müavini (21-22-ci illər), Siyasi Büro müavini (22-23), Qəza İcraiyyə Komitəsi sədrinin müavini və orada şöbə müdiri (23-24), Nuxada ipək üzrə zavod idarəsinin direktoru (24-25), Qəza İcraiyyə Komitəsinin sədri (25-28), Zaqatalada Qəza İcraiyyə Komitəsinin sədri (28-29), Lənkəranda Mahal İcraiyyə Komitəsinin sədri (29-30), Nuxada Mahal İcraiyyə Komitəsinin sədri (30-31), Nuxada Şəhər Sovetinin sədri (31-32),* ***Azərbaycan İpəkçilik Trestinin direktoru*** *(32-33), Nuxada rayon zavod idarəsinin direktoru (-33). Partiya cəzaları yoxdur. MTS direktoru 1933-ün noyabrında təsdiq edilib".*

Bu iki sənəd arasındakı uyğunsuzluqların səbəbini aydınlaşdırmaq kimi cəncəl işdən yayınaraq xatırladım ki, Ə.Kərimov/İsmayılov 1922-nin dekabrında Moskvadakı Ümumfederasiya Sovetlər qurultayına nümayəndə göndərilmişdi.

Heç bir təhsil görməmiş savadsız şəxsi belə məsul vəzifələrə yüksəldən bir partiyaya Ələşrəf Kərimov/İsmayılov borclu qalmadı - o, Kommunist Partiyası və Sovet hökumətinin istisnasız olaraq bütün göstərişlərini xüsusi ehtirasla və canfəşanlıqla yerinə yetirdi. 22 noyabr 1955-də "Sov.İKP birinci katibi"[4] N.S.Xruşşova yazdığı şikayət ərizəsində özünün xidmətlərini

[1] SPİHMDA, fond 6, siyahı 10, iş 415, vərəq 1.

[2] Həmin illərdə MTS (Maşın-Traktor Stansiyası) qəzalarda ən nüfuzlu siyasi-təsərrüfat orqanı sayılırdı.

[3] SPİHMDA, fond 1, siyahı 8, iş 2655, vərəq 2.

[4] *"Sov.İKP MK Baş katibi"* olmalıydı.

sayaraq göstərir: **"17 aprel 1930-da partiya və hökumət tərəfindən qolçomaq üsyanını yatırmaq və onun nəticələriylə mübarizə aparmaqçün təcili olaraq Nuxa qəzasına göndərildim. Üsyan bütünlüklə yatırıldı, nəticələri ləğv edildi və həyat normal axarına düşdü.** *Bundan sonra mən Bakı şəhərinə dəyişdirilərək Azərbaycan İpəkçilik Trestinin direktoru vəzifəsinə təyin edildim"*[1]. Həmin ərizənin sonunda o, Xruşşova bir daha xatırladır: **"Nuxa qəzasında 1930-uncu ildəki qolçomaq üsyanının yatırılması və ləğv edilməsində mənim xüsusi rolum olub. Mən həyatımı əsirgəməmişəm".**

Sözügedən arxivdəki bir çox sənədlər də *Ələşrəf Kərimov/İsmayılov*'un yazdığını təsdiqləyərəq onun "çekist", "xalq düşmənlərinə qarşı barışmaz", Şəkidə "banditlərin məhv edilməsində mübariz"... olduğunu göstərir. Bu yazılanların sadəcə açımı belədir ki, Şəkidə bütöv nəsillər və ailələr Ələşrəf Kərimov/İsmayılovun sadalanan keyfiyyətləri sayəsində amansızlıqla məhv edilib. Bu üzdən Şəki camaatı, yumşaq desək, onu sevməyib.

Şəki üsyanının tarixi, mahiyyəti haqqında danışmaqdan yan keçərək (Həbibulla Manaflının çox dəyərli *"Şəki üsyanı"* əsərində bu haqda yetərincə bilgi verilir) təkcə bunu göstərim ki, Azərbaycanın 8 rayonunu əhatə edən, mərkəzi *Baş Göynük* kəndi və başçısı Baş Şabalıdlı böyük ruhani **Molla Mustafa Şeyxzadə** olan, 1930-un 12 aprel gecəsi alovlanan və böyük hərbi qüvvə yeridilməklə mayın 12-sində yatırılan (ancaq qaçaq hərəkatı şəklində 1947-yədək davam edən) Şəki üsyanında bir ayda ən azı 180 nəfər məhv edilib, 150 nəfər yaralanıb. *"Kütləvi həbslər zamanı ağına-bozuna baxmadan 865 nəfər tutulub saxlanılmış, onlardan 226 nəfərinə üsyan iştirakçısı kimi ittiham irəli sürülmüşdür"*[2]. Üsyanı yatıran - kommunistlərin diliylə desək, "banditlərə qarşı mübarizə aparan" hökumət adamlarının *"törətdiyi cinayətlərin sayı-hesabı olmamışdır. Məhz onların göstərişi ilə hətta üsyanda iştirakı şübhə doğuran, haqsız təqiblərdən qorxaraq gizlənən insanların evləri yandırılır, ailə üzvləri həbs edilərək zindanlara atılırdı. Bu cəlladlar adamlara qəbirə bənzər çalalar qazdırır, sonra isə onları elə oradaca güllələtdirirdilər"*[1]. "Qaçağa yardım etmək" adıyla həbs edilənlər içərisində xalq şairimiz ***Bəxtiyar Vahabzadənin atası Mahmud ağa*** da vardı[2]. 17 apreldən *"qolçomaq üsyanını yatırmaq"*da fəal iştirak edən Ələşrəf Kərimovun Xruşşova məktubda dönə-dönə xatırlatdığı ***"xüsusi rol"***, bax, bu cinayətlərdə iştirakdan ibarətdir.

[1] SPİHMDA, fond 6, siyahı 10, iş 415, vərəq 26-27.

[2] Həbibulla Manaflı. Şəki üsyanı. Bakı: Zaman, 2000, s.85.



Şəki ağsaqqallarından biri bu yaxınlarda bizə belə bir əhvalat danışdı. Bir dəfə məclisdə İspalkom Ələşrəf özünün düz işlədiyini söyləyir, indiki raykom və "ispalkom"lardan şikayətlənərək deyirdi ki, onlar bir-iki il işləməmiş özlərinə ev, imarət tikirlər, ancaq mən neçə illər iri vəzifələrdə oldumsa da ev tikmədim. Bu vaxt məclisdəki ***Baxşəli əfəndi*** (Şəki muzeyinin direktoru işləyib; İspalkom Ələşrəfin əliylə repressiyaya uğrayanlardan biri də o olub) dözməyərək yerindən dedi ki, ay Ələşrəf, sənin ev yıxmaqdan heç vaxtın qalıb ki, ev də tikəydin?!.

Bəllidir ki, Kommunist Partiyası və Sovet hakimiyyəti öncə düşmənlərini çekistlərin və "mübariz kommunistlər"in əliylə məhv etdi, sonra da məhv edənlərin özünü aradan götürdü. Bu "ənənə" Ələşrəf Kərimovdan da yan ötmədi. Onu **3 avqust 1937-də** "xalq düşməni" kimi həbs edərək partiyadan da qovdular. İndiyədək başqalarına etdiyini indi onun öz başına gətirdilər - zindanda 2 il yarım sürən istintaqda çoxlu işgəncələr çəkdi. Ancaq hansı möcüzə sayəsindəsə sağ qaldı - 9 fevral 1940-da cəmisi 3 il iş alaraq **3 avqust 1940-da** həbsdən buraxıldı.

Bundan sonra partiyaya bərpa olunmaq və görünür, yenə mühüm vəzifələr tutmaqçün uzun illər boyu inadlı mübarizə aparan Ələşrəf Kərimov Şəkidə kommunal təsərrüfat idarəsində təmir kontorunun direktorundan böyük vəzifəyə yüksələ bilmədi.

Düzünə qalsa, bu tərcümeyi-halı çox da geniş verməyə həvəsimiz yoxdu, ancaq düşündük ki, bunun özü də həm Şəkinin, həm də ümumən xalqımızın tarixinin ağrılı-acılı bir parçasıdır və bu ömürdən də ibrət götürməliyik.

*"Ə.İsmayılov"* imzasıyla buraxılmış *"Şəki keçmişdə və indi"* kitabının özünə gəlincə, tarixçilik prinsipləri gözlənilməyən (hadisələrin hamısı mücərrəd "keçmiş"də və "indi" baş verir) bu əsəri kommunistlərin tarix kitablarını məhz kimlərə yazdıraraq tarix elmini necə siyasiləşdirdiklərini, bolşevik müəlliflərin milli tarixi nihilistcəsinə necə saxtalaşdırdıqlarını, kommunst təbliğatının 70 il boyunca öz siyasi düşmən və rəqiblərinə qarşı necə amansız və qəddar yalan-böhtan sistemindən yararlandığını əyani şəkildə göstərmək baxımından bu nəşrə salmağı faydalı saydıqı.

[1] Yenə orada, s.86.

[2] Yenə orada, s.89.

## MADDEYİ-TARİXLƏR.

Bu maddeyi-tarixləri **4 noyabr 1979-da** tərtib etmişik.

Öncə Kərim ağa Fatehin *"Şəki xanlarının ixtisar üzrə tarixi"*nə qoşmaqçün hazırladığımız həmin maddeyi-tarixlərin əlinizdə tutduğunuz bu kitabdakı bütün qaynaqlarla da bağlılığını görərək onları kitabın sonunda verməyi faydalı saydıq. Maddeyi-tarixlər qaynaqlardakı bir çox adamlar, hadisələr haqqında daha dolğun təsəvvür yaradır, Şəkinin və Şəki qəzasının keçmişi haqqında geniş bilgi verir.

Əlyazmalar İnstitutunda saxlanan beş ***farsca*** qaynaqdan götürdüyümüz bu 95 maddeyi-tarixin heç birinin yazarı, yazılma tarixi göstərilməyib.

Maddeyi-tarixlərin qaynaqları bunlardır:

**1.** Fr.1294/7379 şifrəli bir vərəqlik əlyazmadır. Adı *"Tarixnamə"* göstərilib. Çox səliqəli xətlə, savadlı yazılıb. Kağızının köhnəliyinə görə, qalan 4 qaynaqdan qədim olduğu bilinir. 38 maddeyi-tarix var.

**2.** Fr.1318/7464 şifrəli bir vərəqlik əlyazmadır. Üstündə *"maddeyi-tarixlər"* sözü yazılıb (bizcə, bu sözləri *Böyük Salman Mümtaz* yazıb, xətt onunkuna bənzəyir). 54 maddeyi-tarix var.

**3.** Yenə həmin şifrəli bir vərəqli əlyazmadır. Üstündə heç bir qeyd yoxdur. Xətti səliqəsizdir. 50 maddeyi-tarix var.

Bu vərəqdəki məlumatlarla 1 və 2-ci qaynaqlarda da üzləşirik, buna görə də müəllifin onlardan yararlandığını düşünürük. Ancaq buradakı bəzi tarixlər ay və gününədək göstərildiyindən onları daha doğru sayırıq.

**4.** Yenə həmin şifrəli, 1242 (1826/27)-ci ildə verilmiş şəhadətnamənin boş qalan 4-üncü səhifəsində səliqəsiz şəkildə yazılmış çoxlu maddeyi-tarixdən ibarəydir. Bu maddeyi-tarixlərdən bir çoxu ciddi önəm daşımadığından onlardan yalnız ən gərəklilərini götürdük. Tarixləri *Hacı Çələbi əfəndi*'nin yaxın adamı yazıb.

Fr.1318/7464 şifrəli bu üç əlyazmanı (2, 3, 4-üncü qaynaqlar) Respublika Əlyazmalar Fonduna (indiki Əlyazmalar İnstitutuna) kimsə vaxtilə ***bir yerdə*** verib. Bu üzdən onların müəllifinin ya eyni adam, ya da yaxın qohumlar olduğunu düşünürük.



**5.** *Həbib Səmədzadə*'nin arxivində olmuş Şəki və Şirvan tarixinə aid B-589/10505 şifrəli əlyazmanın 47-49-uncu vərəqlərində yazılmış 60 maddeyi-tarixdən ibarətdir. Burada bəzi tarixlərin qarşısında türkcəmizdə şerlər də verilib. ***Bu qaynaq ilk dördündən daha inandırıcıdır.***

Maddeyi-tarixləri, *orijinallardan fərqli olaraq, burada tarixi ardıcıllıqla düzərək nömrələmişik.* Cümlələri, demək olar ki, qısaltmamışıq. Mətnə artırdığımız sözləri düz mötərizə [] içərisində vermişik.

Hər maddeyi-tarixdən sonra onun qaynaqlar üzrə tarixi göstərilib, çünki qaynaqlarda göstərilən tarixlər bəzən bir-birinə düz gəlmir. ***1,2,3,4,5 rəqəmləri qaynağın nömrəsini, onların altındakı (indeksdəki) rəqəmlərsə maddeyi-tarixin göstərilən qaynaqda neçənci olduğunu bildirir. Məsələn, $3_{42}$ göstərir ki, bu maddeyi-tarix 3-üncü qaynaqda 42-ci yerdədir.*** (4-üncü qaynaqdakı maddeyi-tarixlər çox dağınıq olduğundan onlarda sıra nömrəsi göstərməmişik).

Hicri ay (qəməri) tarixlərin mötərizədə miladi tarixlə qarşılığını biz müəyyənləşdirmişik (ərəblərin yaratdığı elektron proqramla). Bəllidir ki, hər bir miladi il hicri qəmərinin iki ilinə düşür. Bu illərdən birini düzgün tapmaqçün hicri qəməri ilinin ayını (bəzən də gününü) bilmək gərəkdir. Ay bəlli olmadıqda miladinin iki ilini göstərmişik (bəzi bəlli tarixləri çıxmaqla).

Maddeyi-tarixlərin hamısını farscadan türkcəmizə çevirmişik.

Çıxarışlar, bütün ətək yazıları, qeydlər bizimdir.

## ARTIRMALAR

Bu kitaba artırdığımız şerlər də Şəki tarixinin ədəbiyyatımızdakı bədii salnaməsidir, buna görə də onları tarixi-bədii qaynaqlar kimi dəyərləndirərək burada verməyi gərəkli bildik. Bizcə, onlar tarixi mənbələri daha incəliklə mənimsəyə yardımçı olacaq. Götürüldüyü yer hər şerin sonunda göstərilib.

İndiyədək nəşr olunmuş şerlərdə yol verilən yanlışlıqları orijinallara dayanaraq düzəltməyə çalışmışıq.

***

Bu kitabın işıq üzü görməsinin səbəbkarlarına - Şəki Regional Elm Mərkəzinin direktoru, professor ***Zəkəriyyə Əlizadə***'yə, naşir, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı ***Nazim İbrahimov***'a, əlyazmaların nəşrə hazırlanması prosesində bizə əlindən gələn yardımda bulunmuş ***Hikmət Əbdülhəlimov***, ***Oğuztoğrul Tahirli***, ***Məzahir Cəmilli*** və ***İsmayıl Calallı***'ya, "Master" nəşriyyatının Baş direktoru ***Əziz Qasımov***'a, kitabın bilgisayar tərtibçisi ***Emil Sadıqov***'a, eləcə də araşdırmalar zamanı işləməyimizə hər cür şərait yaratmış *AR Dövlət Arxivi, AR Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi, AR Milli Təhlükəsizlik Nazirliyi Arxivi, AR Milli Elmlər Akademiyası Mərkəzi Elmi Arxivi, AR MEA Əlyazmalar İnstitutu, AR Milli Kitabxanası* müdir və əməkdaşlarına sonsuz minnətdarlığımızı bildiririk. Uca Tanrı hamısını Öz pənahında saxlasın! Amin!

**21 mart 2005.**





*Mustafa ağa ŞUXİ*



## Kərim ağa Fatehin tərcümeyi-halı

(Seçmə parçalar)[1]

Fi mahi-... **səneyi-islamiyyə 1274 tarixdə**[2] bəndeyi-fərzəndi-məhcuru[3] azimi-dərgahi-gərduni-bargahi-Rusiyyə olduqda[4] ... [atam] həddən ziyadə məhzun və qəmi-ələmi-fəraq ilə şikəst və məğmun olub zəbani-gövhərnisar ilə neçə nəsayehi-axirəvi və dünyəvi bəndələrinə[5] təkidən əmr edib buyurdular ki, mən səni dübarə görməyəcəyəm və səndən sonra heç bir karbar ilə məşğul ola bilməyəcəyəm...

Nəhayət, tarixi-zükurda şəhri-Nuxudan azim olub... ol gündə ictimai-kəsrəti-əhli-əyan və xanani-vilayət hüzurunda cəm ikən xah-naxah izniylə vidalaşıb azimi-sövbi-məqsəd oldum. Mənim əzmimdən sonra gələn məktublardan məfhum olunurdu ki, dərdi-fəraqdan... qayətdə pərişan və təlxtər olub...

Nəhayət, bəndənin əzmi-səfərindən sonra **tarixi-islamiyyə 1275-[də]**[6] dübarə çərxi-vajgun bu fərağilə bərtəsəlli olmayıb fəraqi-əzim və hicrani-pursovlətü bim ki külli-nəfsə çeşidə etdirəcək, araya salıb mütəbəqqeyi-mütəzaid naxoşluqdan vəfati-vilayəti-məmatları vaqe təğyiri-ruhi-pürfütuhları sarayi-fənadan pərvazi-darül-mülki-bəqayi-rövzeyi-rizvanə məqam etdikləri...

---

[1] Əlyazmalar İnstitutunda saxlanılan, Böyük Salman Mümtazın xəttiylə yazıldığını düşündüyümüz *B-1890/13639* şifrəli 21 səhifəlik əlyazmadan götürülərək verilir. Geniş mətndən yalnız konkret hadisə və tarixlərdən danışılan hissələr seçilib.

[2] Miladi 1857/58-də.

[3] Mustafa ağa özünü nəzərdə tutur.

[4] Ruslar onu atasından - Kərim ağa Fatehdən götürüb Peterburqa girov kimi aparmışdılar.

[5] Oxu: *mənə*.

[6] Miladi 1858/59-da.



əsərin cənabi-***qazi Əbdürrəhman ağa həzrətlərinin*** məktubundan... məzmunu məfhum olduqda... hicran didəni tarmar və dideyi- intizari-həsrətkeşi giryanü zar-zar etməyin təqrirü təhriri mümkün deyil.

Əl-mühərrirətül-həqir Şuxi. Qəzəli-türki dər vəfati-pədər. Qofte dər Peterburq[1].

*Alışdı atəşə çün tur gördügün Şuxi,*
*Tutuşdu qəmlərə məsrur gördügün Şuxi.*

*Xumarlandı baxunabə, çəkər çeşmi*
*Şərabi-zövqilə məxmur gördügün Şuxi.*

*Yetirdi guşinə gərdun nəvayi-suzü güdaz,*
*Sürurri-eyş ilə pürşur gördügün Şuxi.*

*Söküldü xaneyi-cismi həvayi-firqətdən,*
*Binayi-şövq ilə məmur gördügün Şuxi.*

*Fəna da vermədi fürsət fələk vüsalə yetə,*
*Bəqayə qaldı çü məhcur gördügün Şuxi.*

*Bu bari-ğəmlərə tab etməyib giryan gözləri,*
*Yıxıldı nər kimi pürzur gördügün Şuxi.*

*Sərvəri-şəmi sönüpdür diyari-qürbətdə,*
*Düşüpdü zülmətə binur gördügün Şuxi.*

(Bundan sonra Mustafa ağa bildirir ki, atası vəfat edəndə qürbətdən heç bir əl yetirə bilmədiyinə görə özünə təskinlik üçün, atasının borcundan çıxmaqdan ötrü onun tərcümeyi-halını başdan-ayağa yazmağı özünə vəzifə bilib).

...İzhar və bəyan ola ki, pədəri-valagövhər **Kərim ağa ibn Fətəli xan** rizvanməkanü talibullah[ın] dürüst tarixi müəyyən deyil. Bir.parə əhvalat-əxbaratdan məlum və məfhum olur ki, kətmi-ədəmdən səhrayi-vücudə təşrif gətirib təvəllüd etmələri olub **səneyi-islamiyyə 1202 tarixdə**[2] **Şəki ölkəsində.** Silsileyi-bərgüzideyi-xəvanini-əzamdan[3] olub, pədəri-valaməqamları[4] mərhum **Fətəli xan ibn Hüseyn xan *bəylərbəyiyi-Şəki və Şirvan***

---

[1] Farscadır: *"Müəllif həqir Şuxidir. Atasının vəfatı haqqında türkcə qəzəl. Peterburqda deyib".*

[2] Miladi 13 oktyabr 1787-1 oktyabr 1788 arasında.

[3] Böyük xanların seçmələrinin soyağacından.

[4] Ucaməqam atası.

**ibn Həsən ağa ibn Hacı Çələbi xan** mərhum, madəri-mehribanları[1] **Xurşid xanım** əsl-əl-Qübbə[2] ***əvvəl Hacı Əbdülqadir xan ibn Hacı Çələbi xana təzvic olub[3], bəd[4] Fətəli xan mərhuma.*** Nəhayətdə aqilə və kamilə olmağı məşhur və mübərhəndir.

Pərvəriş tapıb qələdə hərəmi-xəvanində. Pədəri-valaməqamlarının hüzurunda təlimi-məktəb olub, xirdəsalə vəqtində qələdə məktəbi-xəvanində[5] **Molla Veyis** nam molladan və bədha xəvanin mirzələrindən məşqi-xətt edib...

Özündən başqa heç bir bəradər-həmşirəsi[6] olmayıb.

***On yeddi sinninə qədər***[7] olub atasının hüzurunda təlim-tərbiyət ilə məşğul. Atası Fətəli xanın əvaili-xanlıq hökumətində[8] **Şirvan xanı Mustafa xan** xahiş etməyə binaən (oğlun göndərsin mənim yanıma, ***övladım yoxdur***, bir qədər vəqt yanımda qalmağa), o halda Mustafa xan xanlar mabeynində yuxarı əlli olmağa görə, Fətəli xanın da əvaili-hökuməti və ***iki qardaşları: Məhəmmədhəsən xan və Səlim xan Mustafa xanın indində[9] olmağa binaən,*** dostluqları istehkamı üçün göndərib Mustafa xanın yanına. **Səneyi-islamiyyə 1219 tarixdə fi ibtidayi-mahi-zilqədə[10]** azimi-şəhri-Şəmaxı olub[11]. Xani-məzkur Mustafa xan nəhayətdə ehtiram ilə qəbul və məhəbbət edib və ziyadə izzətlə öz nəzərində tərbiyət ilə saxlayıb.

...Vilayəti-Şirvan mabeynində və mərhum Mustafa xanın axiri-ömrünə qədər bir-birinə irsal-mərsulu və əkabiri-şəhri-Şəmaxı ilə bədəsturi-irsal... olub, nəhayət mərtəbə sevgili olub əhaliyi-Şirvan arasında.

Bu münval ilə **yeddi il qalıb Şirvanda,** sonra mərhum atasının xahişinə görə Mustafa xan təzim ilə azim edib atası hüzuruna.

---

[1] Mehriban anası.
[2] Qubalı Xurşid xanım.
[3] Ərə gedib.
[4] Sonra.
[5] Xanlar məktəbində.
[6] Qardaş-bacısı.
[7] Miladi 1804/05-ədək.
[8] Fətəli xan Möhnəti ilk dəfə 1805-də bir neçə ay xanlıq edib.
[9] Yanında.
[10] Miladi 1 fevral 1805-də.
[11] Şamaxı şəhərinə gedib.



Şəkiyə gəlib, Şəki ölkəsi dövləti-Rusiyyə təhti-itaətinə daxil olub və Xoylu Cəfərqulu xan Şəkidə rus tərəfindən hökumətdə olan əsnada **tarixi-islamiyyə 1226 tarixdə[1] igirmi dört sinnində olub Şəkidə atasının hüzurunda.** Ol əsnalar öz nəsillərində hökumət olmayıb. Olub Şəkidə öz atasının hüzurunda qələdən kənar, *Yuxarıbaş* məhəlləsində...

Atasının vəfatından sonra... təzvic edib ***bizim validəmizi*** ki, ***mollazadələrdən*** bir səbiyyə olub, nəhayətdə ədəb-həyada məşhur olmağa binaən öz xidmətkarlığı üçün. Bundan övladi-zükur təvəllüd edib ünasdan maəda[2] yeddi nəfər: **Abbasqulu, Məhəmməd, Əbdülhəmid, Mustafa[3], Əhməd, İsmayıl və Cəfər.** Və bəd... təzvici-tənkih edib ***öz əmizadəsi Tutu ağa Məhəmmədhəsən xan səbiyyəsini*** ki, əqdəm *Xoylu İsmayıl xanın* hərəmi olmuş ola. Az vəqtdə mabeynlərində nifaq ittifaq olmağa binaən vaqeyi-təlaq olub. Bədə əvaxiri-ömri-şərifində öz ***qarabaşlarından*** birini təzvic edib, bundan övladi-zükur təvəllüd edib üç nəfər: **Əbdüləziz, Əbdüssəməd** və **Məhəmməd** ki, cümlə övladi-zükuru olub on nəfər. Bunlardan beş nəfərləri öz əyyami-həyati-babərəkatında[4] vəfat ediblər; namları: ***Abbasqulu, Məhəmməd, Əhməd, Əbdüləziz, Əbdüssəməd...***

(Bundan sonra ***İbrahim bəy Talış***'ın və ***Puri-Pələng***'in[5] qəzəlləri verilib).

Bədha məlum ola ki, ***səneyi-islamiyyə 1258 tarixdə***[6] Nuxu bazarı sərapa yanıp və böyük Cümə məscidi və minarə və ətrafda olan cümlə evlər müstəğrəqi-atəşsuzan olup üç saətin ərzi-tulunda bir vaqiəyi-öylə ki, vəsfi mümkün olmaya. Bu suzişdən[7] sonra həzrəti-xüldi-aşiyan təmirata iqdam edip, bazarda suzan olan[8] özünə məxsus dükanlardan otuz baba qədər dükan daş-kirəclə və böyük Cümə məscidini təmirə iqdam edip öz babası mər-

---

[1] Miladi 1812-də.
[2] Qızlardan başqa, oğlan uşağı doğulub.
[3] Bu yazının müəllifi *Mustafa ağa Şuxi Şəkixanov* (?-1895).
[4] Fətəli xanın öz sağlığında.
[5] Puri-Pələngin qəzəli 1256 (1840)-da yazılıb.
[6] Miladi 1842-də.
[7] Yanğından.
[8] Yanan.

hum Hüseyn xani-büzürgün[1] binası olmağa görə və minarənin başın və pilləkanların və əlavə təxrib olan yerlərin və məscidin dəruni yerini bir parənin. İtmam etməyə qüvveyi-ömri-şərifi vəfa etməyip.

(Bundan sonra *qazi Abdulla əfəndi Ərəşi*'nin bu hadisəyə həsr etdiyi şeri və mərhum *Hacı [Mücrüm] Kərim əfəndi Vardani*'nin biri türkcə, biri farsca olmaqla iki qəzəli verilib.

Daha sonra bildirilir ki, Kərim ağanın yaxşı əl işləri olub, ağacda oymalar açaraq nəqqaşkarlıq edib, ağacdan bıçaqla qaşıq oyub).

Xəlq əhlindən bir kəsin haqqında sərasər əyyami-ömri-şərifində bica yerə bir zülmü xəyanət, dilazarlıq qövlən və felən sadir olmayıb.

(Bundan sonra göstərir ki, namazını heç vaxt keçirməyib. Hətta imperator *Nikolay Romanov* Tiflisə gələndə[2] qarşılayanlar içərisində Kərim ağa da olub və onun bu vaxt namaz qılmağı el içində məşhur bir əhvalata çevrilib).

...Əhaliyi-şəhri-məzburun[3] cənabi-şahənşahə ziyafəti halında ol məclisdə cümlə ətraf-əknafdan xəvanin və üləmayi-əzam[4] cəm ikən axşam namazının vəqti gəldikdə ***üləmadan da bir kəs rəfaqət edəməyib, tənha ol məclisdən çıxıb bir kənarda namazı əda edip.***

(Bundan sonra: Kərim ağanın şairlərə münasibəti yaxşı olduğundan onu da şairlər tərif edib. Haqqında ***Mustafa ağa Qazaqi***'nin türkcə bir, ***Göynüklü Şikəst Əhməd əfəndi***'ninsə farsca iki qəzəli verilib.

Əlyazmanın 19-20-ci səhifələrində Kərim ağanın şəxsi keyfiyyətlərindən danışılır).

Qafqaziyyə sərdarlarının[5] hansıyla mülaqatı ittifaq olup isə[6] nəhayətdə ehtiramın gözləyip və... hər çi ki təvəqqe ittifaq düşüp isə dərhal [sərdarların] hüzurlarında məqbul olub.

(Bildirilir ki, "ministr" *Çernixov* Şəkiyə gələndə onunla yaxınlıq edib).

---

[1] Böyük Hüseyn xanın.

[2] Söhbət I Nikolaydan (1825-1855) gedir. O, Tiflisdə 1837-nin payızında olub, II Nikolaysa (1894-1917) Tiflisə 26 noyabr 1914-də gəlib (geniş bilgiyçün bax: Кавказский календарь на 1915 год. Тифлис, 1914, ss.I-XV).

[3] Tiflisin.

[4] Xanlar və böyük (din) alimləri.

[5] Tiflisdəki çar canişinləri (Qafqaz ordusu komandanları) düşünülür.

[6] Görüşüb ünsiyyətdə bulunubsa.





**Mustafa ağa Şuxi (sağda) kiçik qardaşı Cəfər bəylə.**

...Ələlxüsus sərdari-valatəbar ğenaral *Yarmolof*[1] hüzurunda nəhayətdə sevgili olması məşhur[dur]. Və bədə ğenaral felt-marşal qnyaz *Pasqeviç*[2] hüzurunda neçə işləri ittifaq düşüp isə qayətdə ehtiram ilə məqbul buyurub. Və ğenaral felt-marşal nametniq[3] qnyaz *Varonsov*[4] ğayətdə ehtiram ilə neçə təvəqqe ittifaq olup isə bilatəxir əncamına əmr buyurup...

Qubernatorlar cümləsi dostluğunu bərgüzidə edip, hər biri həmişə şəhərə[5] gəldikləri əsnada vizitlə qulluğuna gəliplər. Əlǝlxüsus ki, nəhayət sevgili olup ğenaral baron *Varangel*[6] indində. Və uyezdni naçarliklər ğayətdə ehtiramını bərdaşt etmək ilə özlərinə havadar hesab ediplər...

---

[1] General A.P.Yermolov (1777-1861). 1816-27-də Qafqaz canişini.

[2] İ.F.Paskeviç (1782-1856). 1827-1856-da Qafqaz canişini.

[3] *"Namestnik"* ("canişin") yazmaq istəyib.

[4] İ.İ.Voronsov-Daşkov (1837-1916). 1905-dən Qafqaz canişini olan Voronsov 1859-da vəfat etmiş Kərim ağayla tanış ola bilməzdi.

[5] Şəkiyə.

[6] P.N.Vrangel (1878-1928). Nəinki Kərim ağanın Vrangellə tanışlığı, hətta onun oğlu Mustafa ağanın bu baronun adını çəkməsi mümkün deyil. Görünür, Mustafa ağanın yazısına qohumlarından kimsə sonradan "əl gəzdirib".

*Kərim ağa FATEH*



## Şəki xanlarının ixtisar üzrə tarixi[1]

Buyurmuşdunuz ki, *Şəki vilayəti*'ndə olan bir para xan və xanzadələrin əslü nəcabətin və bir para vaqeat böyük əhvallardan teyişib, həqiqət edib, doğruluq ilə yazıb hüzurunuza izhar edək. Mən də böyük, köhnə adamlardan teyişib və həqiqət edib, bir para xan və xanzadələrin əslü nəcabətin və bir para da böyük vaqeatlardan doğruluq ilə yazıb zeyldə[2] yazılan qərar üzrə hüzurunuza izhar elədim.

Belə dedilər ki, *Nuxu*'da bir keşiş var imiş, amma nə tarixdə olmağı məlum degildir, adını ***Qara keşiş***[3] deyərlərmiş; Nuxuda böyük imiş. Və bir keşiş də *Kiş* qəryəsində böyük imiş[4].

[1] Əlyazmalar İnstitutundakı *B-5184/26540* şifrəli əlyazmadan ("Əbdülcabbar Əliyev nüsxəsi"ndən) götürülərək verilir. Çıxarışlarda Dornun nəşriylə bu əlyazma arasındakı nüsxə ayrılıqları göstərilir. Əlyazmanın dili, demək olar ki, dəyişmədən saxlanılıb. Başlıq Dornun nəşrindən götürülüb.

Düz mötərizə [ ] içərisindəki sözləri mətnə biz artırmışıq. Əyri mötərizə () içərisindəki hərf, söz və cümlələr Dornun nəşrindən götürülüb.

[2] Aşağıda.

[3] Bizcə, *"Qara keşiş"* ad bildirmir, *"böyük keşiş, yepiskop"* mənası verir.

[4] Qafqazda ilk xristian kilsəsi Kiş kəndində tikilib. Həm Şəkidə, həm də Kişdə olan keşişlər hələ islamı qəbul etməmiş türk soydaşlarımızın (onlar özlərini *"ərmən"* adlandırırdı) ruhaniləriydi. (Sonralar *haylar* - indiki təcavüzkar *ermənilər* türk *ərmənlər*'in adını və tarixini mənimsədilər. Geniş bilgiyçün bax: *Firidun Ağasıoğlu. Haylar Ərmənistanı necə oğurladılar, yaxud N.Gəncəvinin Şirini erməni qızıdırmı.* Bakı: "Kür" nəşriyyatı, 2000).



Qara keşiş Kişdəki keşişin qızını [oğluna] istər ki, ala. Kişdəki keşiş deyər ki, mənim qızım ağ su ilə pərvəriş tapıbdır, qara su olan yerə qızımı verməərəm.

Sonra Qara keşiş deyər ki, Kiş çayından bir arx mən də evimin yanına gətirərəm. Kişdəki keşiş deyər ki, suyu gətir, sonra qızımı oğluna verim. Qara keşiş ağ sudan bir arx gətirir. Sonra [Kişdəki keşiş] qızını bunun oğluna verir.

Və Qara keşişin oğlunun adı ***Candar***'dır. Və Candar bir neçə vaxtdan sonra müsəlman olub, adına ***Əlican*** deyibdirlər.

Və Əlicanın oğlu ***Qutul xan***'dır. Qutul xanı İran padşahının biri Şəkidə xan edibdir.

Qutul xanın oğlunun adı ***Şəki xan***'dır.

Və Şəki xanın oğlunun adı ***Həsən sultan***'dır. Nəhayət[1], Həsən sultanın qəziyyəsini *"Aləmara"*[2] adlı bir tarix kitabı var, o kitabda böylə yazıbdır ki, Həsən sultan *Səfəviyyə* şahı *Şah İsmayıl*'a qulluq elərdi. Gürcüstan valisinin gücü və qüdrəti çoq idi, amma şaha qulluq eləmək səbəbiylə (Həsən sultana) [gücü] çatmaz idi.

Şah İsmayıl ölən ildə[3] Gürcüstan valisi *Əlvənd xan*[4] qoşun götürüb gəlib. Və Həsən sultan da qoşun ilə onun qabağına gedib, dava elədilər. Davada Həsən sultan öldü.

Sonra Şəki vilayətinin böyükləri Həsən sultanın oğlu ***Dərviş Məhəmməd xan***'ı özlərinə hakim elədilər.

Və Şah İsmayıl öləndən sonra oğlu *Şah Təhmasib* İranda[5] şah oldu. Dərviş Məhəmməd xan, atası kibi, şaha qulluq eləmədi. *Şirvan* vilayətinə şahın qoşunu gəlib dava edəndə Dərviş Məhəmməd xan da qoşun götürüb (gedib), Şirvanda qızılbaş qoşununa şəbxun edibdirmiş. Bu qəziyyəni də Şah Təhmasibə Şirvandakı qoşunun böyükləri məlum elədi. Şah Təhmasib tarixi-islamiyyə 958-də olanda[6] qoşun ilə gəlib *Ərəş mahalı*'na düşdü. Şah Ərəşə gələndə o ətrafda olan hakimlər ehtiyat elədilər.

[1] Dornda: *"amma"*.

[2] İsgəndər bəy Münşinin I Şah Abbas Səfəvidən danışan *"Tarixi-aləmarayi-Abbasi"* kitabı düşünülür.

[3] Şah İsmayıl 19 rəcəb 930-da (23 may 1524-də) vəfat edib.

[4] Dornda hər yerdə: *"Ləvənd xan"*.

[5] Fikir yanlışdır; *"Səfəvilər dövlətində"* olmalıdır.

[6] Miladi 1551-də.

Əlvənd xan - valiyi-Gürcüstan Ərəşdə şahın hüzuruna[1] gəlib itaət elədi (və) şah da ona xələt verdi və nəvaziş elədi. Şah Dərviş Məhəmməd xana da adam və fərman göndərdi ki, gəl, sən də qulluq elə, özünü xarab eləmə, padşahın sənə şəfqəti çox olur. Dərviş Məhəmməd xan və Şəkinin böyükləri yerlərinin möhkəmliginə məğrur olub qəbul eləmədilər.

Və Şəki vilayətinin sərkərdələri bəzisi *Kiş* qalasını bərkidib onda durdular. Və Dərviş Məhəmməd xan özü bir para böyüklər ilə *Gələsən və görəsən* qalasına getdilər. Gələsən və görəsən qalası çox hündür və bərk olmağına görə heç kim onu ala bilməmişdi. Və bir para adamlar da *Alburz*[2] dağı - ki, Qafqazdır - [gedib] onun ətəklərində sığnaq elədilər.

*Şah Təhmasib* bu işdən çox acıqlanıb qızılbaş xanlarının bir parasın Kiş qalasını almağa müqərrər buyurdu və bir para xanları *Əlvənd xan* ilə belə[3] *Gələsən və görəsən* qalasının üstə[4] göndərdi və bir para xanları Alburz[5] ətəgində olan sığnaq üstə göndərdi.

*Kiş qalası*'na gedən xanlar qalaya top və tüfəng urdular. Qala əhli gördülər ki, qala xarab olur, qalanın açarın[6] özləriylə gətirib padşahın hüzuruna gəldilər. Padşahın bunlara[7] şəfqəti oldu və xələt verdi. Sonra padşah buyurdu, Kiş qalasını söküb xarab elədilər (və) padşah özü də qoşun ilə belə sığnaq tərəfinə hərəkət elədi. Sığnaq əhli padşahın gəlməgini və Kiş qalasının xarab olmağını görüb dəstə-dəstə, föve-föve[8] padşahın hüzuruna gəlib əczi-izhar elədilər.

Və *Dərviş Məhəmməd xan* bu adamların getməgin və özləri yalquz qalmağın görüb peşiman olub, bir gecə dört yüz adam götürüb *Gələsən və görəsən*'dən çıxdı ki, qaça gedə. Bir para

[1] Dornda: *"qulluğuna"*.

[2] Dornda: *"Abruz"*. Şalbuz dağıdır.

[3] *"İlə"* mənalı qədim *"bilə(n)"* qoşmasının Şəki şivələrində işlənən şəklidir.

[4] Dornda hər yerdə *"üstə"* yerinə *"üstünə"* gedib.

[5] Dornda: *"Abruz"*.

[6] Dornda: *"yaharın (acarın)"*.

[7] Dornda hər yerdə *"bunlar"* yerinə *"bular"*, *"onlar"* yerinə *"olar"* gedib.

[8] Dəstə-dəstə.



xanlar - ki, Əlvənd xan ilə belə o həvalədə durmuşdular - Dərviş Məhəmməd xanın getməgin qoşun əhli bilib bunları qovupdurlar[1]. Bir az yol getməmiş bulara çatıb dava elədilər.

Dərviş Məhəmməd xanın çox adamları ölüb. Dərviş Məhəmməd xan özü *Şamlı Çərandab sultan*'ın nökəri *Kosa Pirqulu* adlı adam ilə bərabər gəlib dava elədilər. Kosa Pirqulu buna artuq gəlib, başın kəsib padşahın hüzuruna gətirdi. Padşah buna çoxlu pul və xələt verdi və Şəki vilayətini zəbt elədi.

**Bu yerədək[2] "*Aləmara*" kitabında yazıbdır[3].**

Dərviş Məhəmməd xanın oğlu *Bağı bəg* uşaq qalıpdır.

Dərviş Məhəmməd xan öləndən sonra Şəki vilayətindən bir Hüseyncan adlı bir rəşid kimsə şaha qulluq edərmiş. Şah Təhmasib onu Şəki mahalında fərman verib məlik edib, ***Məlik Hüseyncan*** deyibdirlər.

(Və) [şahlar] dəxi Şəki vilayətində xan qayırmayıb.

Və Məlik Hüseyncanın oğlu ***Məlik Ziyaəddin yüzbaşı***, onun oğlu ***Məlik Qaim[4] yüzbaşı***, onun oğlu ***Məlik Əhməd xan***'dır. Bir neçə arxa Şəki vilayətində[5] bunlar məliklik edibdirlər. Bulara ***Əkis Məlikli*** deyərlər.

Məlik Əhməd xan öləndən sonra uşaqları qalıb. Səfəviyyə padşahının biri adam göndəribdir ki, Şəki vilayətinin[6] neçə ilinin dəxlin[7] onun övladından alun. Mühəssil[8] gəlib bunların özlərin və övrətlərin dögüb, təmamən malların alıb və məlikliklərin[9] kəsib, bir özgə nəsildən bir məlik Şəki vilayətinə[10] fərman verib məlik edibdir. Onun adı ***Məlik Hüseynqulu***'dur[11]. Bunlar

[1] Dornda yanlış olaraq: *"yolların qurubdurlar"*.

[2] Dornda: *"bu yerəcən"*.

[3] Görünür, A.A.Bakıxanov da *"Gülüstani-İrəm"*də elə bu qaynaqdan yararlanıb (ss.115-116).

[4] Dornda: *"Qasım"*.

[5] Dornda: *"mahalında"*.

[6] Dornda: *"mahalının"*.

[7] Dornda: *"neçə əşya (sənəlik) şahın dəxlin"*.

[8] Vergi yığan məmur.

[9] Dornda: *"məliklik adın"*.

[10] Dornda: *"mahalına"*.

[11] Dornda: *"Hüseynsaqidir"*.

da iki-üç arxa məliklik eləyibdir[1]. Biri ***Məlik Əlimərdan***'dır[2] və biri də ***Məlik Nəcəf***'dir[3] (ki), Nadir şah əyyamı[4] məlikdir.

Və *Bağı bəg* ki, Dərviş Məhəmməd xanın oğluydu[5], onda bəglik olmayıb və onun oğlu *Əlican*'dır, onun oğlu *Əsgər*'dir və Əsgərin oğlu *Allahverdi* və onun oğlu *Əlican* və Əlicanın iki oğlu olub: biri *Qurban* və biri *Əhməd*. Qurbanın oğlu **Hacı Çələbi** və Əhmədin oğlu *Hacı Şıxəli*.

***Hacı Çələbi***(nin) *Məlik Nəcəf* məlik olanda Şəkidə el arasında abrusu və dövləti[6] var imiş. Hacı Şıxəlinin[7] də dövləti var imiş. Nəhayət[8], Hacı Çələbinin sikkəsi və rəşadəti ondan artuq

[1] 1043/1633-də ***Məlik Əli sultan***'ın, 1058/1648-də ***Abbasqulu sultan***'ın adları Şəki vilayətinin hakimi olaraq çəkilir. (*Дж.В.Каграманов. Описание археографических документов.* Баку:Элм, 1969, ss.9, 10). II Şah Abbas 1061/1651-də fərman verərək Şəki-Şirvan bəylərbəyi Xosrov xana tapşırmışdı ki, vergi yığmaqda Şəki məliki ***Məlik Səfiqulu***'ya kömək etsin. (*Дж.В.Каграманов*, ss.11). Şah Süleyman Səfəvi 1102/1690-da ***Məlik Həsən***'in yerinə ***Məlik Səfiqulu***'nu [yenidən] Şəkiyə məlik təyin edib. Bu təyinat Şəki hakimi ***Allahqulu xan***, vilayətin kələntəri *Mürşüdqulu xan* və Şirvan bəylərbəyi və şeyxülislamının şah divanına təqdimatından sonra gerçəkləşib və Məlik Həsən öz yerindən 100 tümənə əl çəkib. (Bax: *Дж.В.Каграманов*, ss.12-13). 1113/1701-də Şah Sultan Hüseyn ***Məhəmmədxan bəy Səfiqulu xan oğlu***'nu Şəki məliki qoyub. (*Дж.В.Каграманов*, s.13).

[2] ***Əlimərdan bəy Məhəmmədxan bəy oğlu***'nu Nadir şah 1147/1734-də Şəki məliki təyin edib. Səfiqulu xanın nəslindən olduğuna görə şah II Təhmasib onu 1145/1732-də hər cür vergidən azad etmişdi. (*Дж.В.Каграманов*, ss.15, 16).

[3] Əsl adı ***Nəcəfqulu***'dur. Nadir şah vəfat etmiş Məlik Əlimərdan bəyin yerinə onun qardaşı ***Nəcəfqulu***'nu məhərrəm 1150/may1737-də Şəki məliki təyin edib. (Bax: *Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri.* Bakı: ADETİ nəşriyyatı, 1930, s.22). Nadir şah Məlik Nəcəfqulunun qardaşı oğlu ***Məlik Cəfər***'i hicri 1159-da pələng ilinin başlanğıcında (1746-nın mart-aprelində) Şəki məliki təyin edib. (Bax: *Hacı Seyid Əbdülhəmid. Şəki xanları...*, s.24).

[4] Dornda: *"padşah (Nadir şah?) əyyamı"*.

[5] Dornda: *"oğlu idi"*.

[6] Dornda: *"abru-dövləti"*.

[7] Dornda yanlış olaraq: *"Hacı Şıxqulunun"*.

[8] Dornda: *"amma"*.



imiş. Məlik Nəcəf padşahdan və özündən qulluq olanda sünni əhlinə çox həvalə elərmiş və sünni əhlini çox incidərmiş. Sünni (əhli) onun əlindən[1] təngə gəlib Nadir şaha ərz eləyərlər ki, məlik qızılbaş olmaq səbəbiylə bizi çox incidər. Qulluq və biyar[2] olanda qızılbaş əhliynən bizə çox təvafüt[3] qoyur, bizləri xarab eləyibdir. Padşahın rəiyyəti varuq; Allah xatirinə, bizə bir çarə elə.

*Nadir şah*[4] bunlara buyurubdur ki, siz sünni əhlindən bir yaxşı adam özünüz qəbul eləyin, qayırın sünni əhlindən *vəkil*, mənim yanıma gəlsin. Ona fərman verib mən də *vəkil* elərəm ki, məlik onsuz bir iş duta bilməsin. Sünni əhli şahın əmrinə görə məşvərət edərlər ki, ***Hacı Çələbi***'nin ata və babalarında böyüklük var (və) özü də rəşid və işbilən adamdır, bunu vəkil eləyək. O vaxt Hacı Çələbi də həccə getməmiş imiş, adına *Çələbi* deyərlərmiş. ***Xalq bunu vəkil edib Nadir şahın hüzuruna göndərərlər. Şah buna fərman verib Şəki vilayətinə***[5] ***vəkil elər*** ki, Məlik Nəcəf bunsuz rəiyyətə qulluq həvalə eləməsin.

Fərman alıb Şəkiyə gəlib, adına *Vəkil Çələbi* deyibdirlər. Məlik Nəcəfi qoymaz imiş ki, sünni əhlini bica[6] yerə incitsin. Məlik Nəcəf bundan[7] yürəgində ədavətli olub bəhanə axtarırmış ki, bunu şahın yanında sahibi-təqsir eləsin. Neçə vaxt bundan keçəndən sonra məlik şah hüzuruna[8] gedər (şah da İrani-xarabda* imiş), şaha ərz elər ki, Çələbi məni qoymayır ki, şahın qulluğunu rəiyyətə buyuram. Şahın qulluğu dutulmayır[9], nə özü qulaq asır, nə xalqı qoyur.

Şah qəzəbnak olub Çələbini[10] istər. Çələbi şahın qulluğuna gedər. Şaha bunun gəlməkligi[11] məlum olur, hüzura istər. Məlik

[1] Dornda: *"işindən"*.

[2] Dornda yanlış olaraq: *"qulluq dərkar"*.

[3] Dornda: *"artıq"*.

[4] Dornda: *"padşah"*.

[5] Dornda: *"mahalına"*.

[6] Dornda: *"bihəqq"*.

[7] Dornda: *"mundan"*.

[8] Dornda: *"yanına"*.

* Şimali Qafqazdaydı.

[9] Dornda: *"qulluğunu dutmurlar"*.

[10] Dornda: *"Çələbiyi"*.

[11] Dornda: *"gəlməgi"*.

də hüzurda var imiş. Şah Çələbiyə acıqlanıb ki, mənim qulluğumu nə üçün qoymayırsan əmələ gələ? Bunu öldürün! Çələbinin boğazına kəndir salın![1]

Bu halda [Çələbi] kəndir boğazında ərz elər ki, başına dönüm, mənim təqsirim nədir? Bica[2] yerə məni öldürürsünüz[3].

Şah buyurur ki, məlik deyər: "Çələbi qoymayır ki, şahın qulluğu əmələ gələ".

Çələbi ərz elər ki, sənə fəda olum, məsələn, şahdan bir qulluq gəlsə məlik dörd-beş qulluq da onun üstə qoyub rəiyyətə həvalə edər. Mən deyərəm ki, şah məni vəkil edibdir, razı olmanam ki, şahın rəiyyətini əbəs yerə xarab eləyəsən. Məlik bu səbəbdən xilaf yerə ərz elər. Rəiyyət padşahın ixtiyarındadır.

Məlik bu sözdən çoq qorqub. Şah məlikə çoq qəzəbnak olub, Çələbini[4] mürəxxəs eləyib ***əvvəlkindən[5] artuq hökm verib.*** Çələbi şahın hüzurundan çıxıb, fərmanın alıb Şəkiyə gəlir. Və [Nadir şah] məliki də çox söğüb Şəkiyə göndərir.

Şah gecə fikir eləyib öz ümərəlarına[6] buyurur ki, mənim hüzurumda bir kəsin həddi yoqdur ki, nəfəs çəkə. Şəkili Çələbi nə cürət sahibi var imiş ki, boğazında kəndir cürət eləyib bu ərzləri bənə elədi, heç sözün yanılmadı? Əlbəttə, bundan bir xəta əmələ gələcək, mənim zənnim xəta olmaz.

Bir neçə vaxtdan sonra məlik Hacı Çələbidən genə pis sözlər şaha ərz elər. Şah mühəssil göndərər ki, Hacı Çələbidən yüz tuman cərimə alın. Mühəssil gəlib Hacı Çələbidən pul istər. [Hacı Çələbi] deyər: "Mənim[7] təqsirim[8] nədir ki, cərimə verim? Verməném!".

Bir neçə gün keçər, (sonra) mühəssil deyər ki, pulu ver, yoxsa güc ilən, dögərəm, allam. *Hacı Şıxəli* (ki, Hacı Çələbinin əmisi oğludur)[9] deyər: *"Ey Çələbi, şahın nökəriylə yüzləşmə, pulu ver".* Hacı Çələbi verməz. Hacı Şıxəli çoq dövlətli imiş. Oğluna

[1] Dornda: *"salırlar".*
[2] Dornda: *"bihəqq".*
[3] Dornda: *"öldürürsən".*
[4] Dornda: *"Çələbiyi".*
[5] Dornda: *"irəlikindən".*
[6] Dornda: *"əmirlərinə".*
[7] Dornda yanlış olaraq: *"verməném".*
[8] Dornda yanlış olaraq: *"təcrim (cürmüm)".*
[9] Dornda yanlış olaraq: *"əmisidir".*



deyər ki, get evdən[1] pul(u) gətir, cəriməni verək. Hacı Çələbi deyər: *"Sən də vermə".*

Hacı Şıxəli onun sözünə baxmaz, gətirir, pulu verir. Mühəssil cəriməni alır, gedər. Şaha burda olan[2] işləri ərz edər ki, Hacı Çələbi pulu verməyirdi, əmisi oğlu[3] verdi. Onu da qoymayırdı, sözünə baxmadı, verdi.

Bir neçə vaxtdan sonra *Məlik Nəcəf* şaha[4] Hacı Çələbidən yenə təqsir ərz elər. Şah bu vaxtda[5] Hacı Çələbini istər ki, hüzura gəlsin. Adam gəlir, Hacı Çələbiyə deyər. Hacı Çələbi bilir ki, bu dəfə getsə[6] şah buna tənbeh[7] edəcəkdir. Hacı Çələbi hər nə ki sünni əhlinin böyüklərini və yüzbaşılarını var, yığıb cəm elər, xəlvət[8] deyər ki, şah məni istəyibdir, amma bu dəfə getsəm bilirəm ki, gəlməyəcəgəm. Nə deyərsiniz?

Bunlar təmamən deyərlər ki, sən getsən biz qızılbaşın qulluğuna tabü taqət gətirə bilməzik[9]. Səni getməgə qoymanuq.

Deyər: "(Pəs) imdi mən nə desəm öylə elərsiniz?".

Deyərlər: "Elərük".

Sabahdan Hacı Çələbi sünni əhlinin böyüklərini və rəşidlərini götürüb gedib Məlik Nəcəfi[10] bir para övladıyla belə[11] qırıb öldürərlər[12]. Təmamən cəm olub <u>tarixi-islamyyə min yüz əlli altıda olanda</u>[13] ***Hacı Çələbini özlərinə hakim edib,*** Gələsən-görəsən(d)ə[14] gedib sığnaq elərlər.

[1] Dornda: *"evimdən".*
[2] Dornda: *"keçən".*
[3] Dornda: *"əmisi".*
[4] Dornda: *"padşaha".*
[5] Dornda: *"dəfə".*
[6] Dornda yanlış olaraq: *"genə".*
[7] Dornda yanlış olaraq: *"şübhə".*
[8] Bu söz Dornda *"yığıb"*dan qabaqdır.
[9] Dornda: *"gətirmənük".*
[10] Dornda: *"Məlik Nəcəfin".*
[11] Dornda: *"övladlar belə".*
[12] Xatırladaq ki, bu vaxt Şəki məliki artıq *Məlik Nəcəfqulu* yox, ***Məlik Cəfər***'di.
[13] Miladi 1743-də.
[14] Çələbi xanın qurduğu müstəqil Şəki xanlığının ilk mərkəzi *Gələsən-görəsən qalası* olub. Çələbi xan paytaxtı yalnız 1746-da Şəki şəhərinə köçürüb. Şəki Xan sarayısa 1762-də (Məhəmmədhüseyn xan çağında) tikilib.

Bu əhvalatı Nadir şaha[1] ərz elərlər. Şah qoşun götürüb, gəlib *Daşbulaq* kəndinin yanında *Kotan düzü*[2] deyərlər, orada ordunu qoyub, bir para zübdə[3] qoşun götürüb *Gələsən (və) görəsən* tərəfinə gedər. Çoq dava edərlər, (hər) iki tərəfdən çoq adam ölür. Hətta şahın qabağında pişxidmətin ururlar. Şahın üməraları ərz elərlər ki, sənə fəda olaq, bir para ac, bimənfəət adamlardan ötrü qoşunu nə hacət qırdırırsan?[4] Sonra şah qəbul edib, qayıdıb ordusunda bir neçə[5] vaxt əgləşib[6].

Sonra gedib, o bir[i] ildə yenə gəldi. Xülaseyi-kəlam, ***üç il Hacı Çələbi Şəki əhli ilə Gələsən (və) görəsəndə oturub,*** çoq aclıq və tənglik çəkibdirlər. Sonra şah çıxıb gedib, bunlar da Nuxuya düşübdürlər. Şah gedib, Xorasanda şahı öldürübdürlər[7]. İranda məğşuşluq çoq olubdur.

Hacı Çələbi çoq böyük olub. Təbriz[8] vilayətinə kibi[9] buna qulluq edibdirlər.

Nadir şah öləndən sonra İranda bir *Əmiraslan sərdar* olub. O da Şəki vilayətinə qoşun çəkib gəlib[10]. Hacı Çələbinin böyük oğlu *Həsən ağa* bir para qoşun ilə gedib, dava edibdirlər. ***Həsən ağa o davada ölüb.*** Əmiraslan sərdar Şəki vilayətin ala bilməyib, qayıdıb gedibdir.

Bir neçə vaxtdan sonra xoylu *Əhməd xan* və qaradağlı *Kazım xan* və qarabağlı[11] *Pənah xan* və gəncəli *Şahverdi xan* həsəd elərlər ki, Hacı Çələbi neçün bir belə böyük olmaq gərək? Bunlar dördü Gürcüstan valisinə[12] adam və kağız göndərirlər ki, biz və sən də qoşun götürüb gedib Hacı Çələbiyə tənbeh[13] eləyək.

---

1 Dornda: *"padşaha"*.

2 Başqa əlyazmalarda bu yer *"Gavan"* kimi də göstərilir.

3 Seçmə.

4 Dornda: *"qırdırasan?"*.

5 Dornda: *"bir para"*.

6 Dornda: *"dikləşib"*.

7 1747-də.

8 Bu əlyazmada hər yerdə öncə *"Təbriz"* yazılıb, sonra pozularaq *"Tərtər"* edilib. Dornda hər yerdə: *"Təbriz"*.

9 Dornda: *"vilayətinəcən"*.

10 1748-də.

11 Dornda: *"bağlı"*.

12 II İrakli (1720-1798) düşünülür.

13 Dornda: *"şəhibə(?)"*.



(Və) vali çoq qoşun götürüb[1] gəlir; o dörd xanlara adam göndərir, onlar da gəlirlər. Vali onların dördünü də dutub öz qoşunu ilə Çələbinin üstə gəlir. ***Xanları da öz yanında dusdaq gətirir.***

Hacı Çələbi bunu eşidib, bu da qoşun götürüb, gedib *Şəmkir* tərəfində vali ilə dava eləyib. Vali çoq pis basılıb, çoq adamları ölüb, qayıdıb gedibdir[2]. ***Hacı Çələbi o dört xanları da valinin əlindən alıb mürəxxəs eləyib,*** [onlar] öz ölkələrinə gedibdirlər[3].

Sonra bir kərə yenə valiyi-Gürcüstan qoşun ilə[4] gəlib, *Qanıq* kənarında Hacı Çələbi xan ilə dava edib, yenə basılıb gedibdir.

Hacı Çələbi xan ***on iki il hakimlik edib, tarixi-islamiyyə***[5] ***min yüz altmış səkkizdə olanda***[6] ***mərhum olubdur***[7]***.***

Oğlu ***Ağakişi bəg***[8] yerində hakim olub. *Surxay xan*'ın atası *Məhəmməd xan*'ın[9] qızını da alıb, ***beş il Şəkidə xanlıq edib.***

Ağakişi bəg qızını alan Məhəmməd xan Qumuq xanı qoşun ilə Ərəş mahalına gəlib Ağakişi bəgə adam göndərib[10] ki, qızımın əri gəlsin, görüşək. Ağakişi bəg də bir para adam götürüb gedər.

---

1 Dornda: *"yığıb"*.

2 1751-52-də Hacı Çələbi xanla II İrakli arasında Gəncə, Qazax, Şamxor və Borçalı uğrunda şiddətli çarpışmalar gedib. 1751-də Gəncə yaxınlığındakı döyüşdə Hacı Çələbi gürcülərin birləşmiş qüvvələrini darmadağın edərək Qazax və Borçalı mahallarını öz itaətinə keçirdi (oğlu *Ağakişi bəyi* bu mahallara hakim qoydu). İraklinin Gəncəyə yolunu kəsdi. Ancaq onun ölümündən sonra durum gürcülərin xeyrinə dəyişməyə başladı. (Geniş bilgiyçün bax: *Rəşid bəy İsmayılov. Azərbaycan tarixi.* Bakı: Azərnəşr, 1993, ss.78-79; *Ş.P.Həmidova. XVIII əsrin ikinci yarasında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən.* Bakı: Elm, 1985, ss.38-45).

3 Bu hadisə 1751-də olub.

4 Dornda: *"Gürcüstan qoşunu ilə vali"*.

5 Əlyazmada: *"islamiyyənin"*.

6 Miladi 1755-də. 1755-də ***"Hacı Çələbi Şirvanı təsərrüf etmək qəsdiylə Ağsunu mühasirə etdi, vəli məğlub olub çəkildi. Kəsrəti-qeyrətdən bu dərdə dəvam edəməyib Hacı Çələbi iki aydan sonra öldü"***. (*Rəşid bəy İsmayılov. Azərbaycan tarixi.* Bakı: Azərnəşr, 1993, s.79).

7 Dornda: *"olub ölübdür"*.

8 Dornda hər yerdə: *"Ağakiş bəg"*.

9 ***Qazıqumuqlu Məhəmməd xan*** (1748-1789) *Çolaq Surxay xan*'ın (1727-1734) oğlu, *II Surxay xan*'ın (1789-1827) atasıdır.

10 Dornda: *"göndərir"*.

Ərəş sultanı *Məlik Əli* Məhəmməd xan ilə sözübir olub, Məhəmməd xan tarixi-islamiyyə min yüz yetmiş ikidə olanda[1] Ağakişi bəgi öldürür, qoşunun götürüb[2] Nuxuya gəlir.

***[Məhəmməd]hüseyn xan*** (ki, *Hacı Çələbinin oğlu Həsən ağa*'nın oğludur) o vaxtda cahıl oğlan imiş. Şəki bəglərinin bir parası onu götürüb Şirvan vilayətinə qaçıbdırlar.

Məhəmməd xan Nuxuya gəlib. Hacı Çələbinin çoq pulunun və xəzinəsinin yerini [ona] deyibdirlər, yerdən çıqarıb. Nuxuda çoq zülmlər edib. Qırq gün Nuxuda qalıb, qırq gündən sonra Şəki[3] əhli dönüb, Hüseyn xanı Şirvandan götürüb, Məhəmməd xanı Şəkidən qovub[4] ***[Məhəmməd]hüseyn xanı Şəkidə xan edibdirlər.*** Ərəş sultanı *Məlik Əli* Hüseyn xana qulluq etməyib[5] iki il Hüseyn xan xan olandan sonra.

İranda bir *Əfşar Fətəli xan*[6] var imiş, sərdar imiş, Qarabağa gəlir. *Məlik Əli* Fətəli xan yanına gedər ki, Şəkidə onu xan eləyə. *Hüseyn xan* bunu eşidib bu da çoq peşkəş ilə sərdarın yanına gedər. Sərdar Fətəli xan bir para kəslərdən və böyüklərdən xəbər alıb ki, Şəki vilayətinin əsl bəgzadəsi Məlik Əlidir, yoxsa Hüseyn xandır? Ərz edərlər[7] ki, Hüseyn xandır; onların[8] övladı bunların nökərləridir, həmişə bunlara qulluq edibdirlər.

---

[1] Miladi 1759-da.

[2] Dornda: *"götürər"*.

[3] Bu və başqa müəlliflər *"Şəki"* dedikdə Şəki vilayətini (xanlığını), *"Nuxu"* dedikdə Şəki şəhərini düşünür. *"1772-ci ildə dağ çayı Kiş güclü yağışlar nəticəsində öz məcrasından çıxıb Şəki şəhərini büsbütün dağıtdı. [...] Şəkililər seldən qorunmaq üçün dağ yamacındakı Nuxa kəndində toplaşdılar. Yeni şəhər də məhz burada yarandı. Onun adı iki əsr ərzində rəsmən* ***Nuxa*** *adlandı. Yalnız 1968-ci ildə bu ad Azərbaycan SSR Ali Sovetinin qərarı ilə dəyişib yenidən* ***Şəki*** *oldu". (Azərbaycan folkloru antologiyası. VI kitab. Şəki folkloru. II cild.* Toplayan və tərtib edən: Hikmət Əbdülhəlimov. Bakı: Səda, 2002, s.157).

[4] Dornda: *"qoğub"*.

[5] Dornda: *"qulağ asmayıb"*.

[6] Urmiya xanı ***Fətəli xan Əfşar*** (?-1759) Nadir şahın sərdarı olmuşdu. 1759-da Gəncə və Qarabağa hücum etmişdi. (Geniş bilgiyçün bax: *H.Ə.Dəlili. Azərbaycanın Cənub xanlıqları.* Bakı: Elm, 1979, ss.117-119).

[7] Dornda: *"elərlər"*.

[8] Məlik Əli nəslinin.



Sonra (sərdar) Fətəli xan Məlik Əliyə naxoş olub ki, ağanın yüzünə niyə[1] durursan deyib və dutub [onu] Hüseyn xana verib. Hüseyn xana xələt verir[2] ki, ***mən də səni xan elədim.*** Hüseyn xan Məlik Əlini alıb Şəkiyə gəlir və Məlik Əlini öldürür[3] (və) ***Şəkidə hakim olur.***

Hacı Çələbinin dört oğlu var: *Həsən ağa, Ağakişi bəg, Cəfər ağa*[4] və *Hacı Əbdülqadir xan*[5].

Hüseyn xanın xanlığından bir neçə il keçəndən sonra bir para kəslər *Cəfər ağa*'ya təhərrük[6] verirlər ki, sən Hacı Çələbinin oğlusan, Hüseyn xan nəvəsidir; neçün sən xan olmayasan[7], o, xan ola? Cəfər ağa da bundan ötrü Hüseyn xandan ədavət elər (ki), gündən-günə ədavət aralarında ziyadə olur.

Hüseyn xan nə qədər hərəkət elər ki, bunu islah eləyə, çarə olmaz. Axırı, iş çoq bərk[8] olur. Hüseyn xan çarə tapmaz, Cəfər ağanı öldürür. Və *Hacı Əbdülqadir* bəg (ki, Cəfər ağanın qardaşıdır) bu işdən küdurət edib, bir neçə ildən sonra *Şəki* (bəglərindən) və *Ərəş*[9] bəglərindən üstünə cəm edib, qaçıb Ərəşdə Kür kənarında *Dardoqqaz*[10] adlı bir ada var, orada bərk səngər qayırıb və *Qarabağlı İbrahim xan* da əl atıb, o da bunlara kömək olub, orada durlar. Hüseyn xan ilə onun arasında (bir) neçə davaları olub. Ağakişi bəgin oğlu *Balahacı xan* o davaların birində ölübdür.

***Hüseyn xan igirmi iki il Şəki vilayətində xanlıq edib.*** Axırı, bir neçə vaxtdan sonra Hacı Əbdülqadir bəg fürsət tapıb, Şəki və Ərəş bəgləriylə gəlib, Hüseyn xanı Nuxu qalasında dutub. Tarixi-islamiyyə min yüz doqsan dörtdə olanda[11] Hüseyn xanı öldürüb, Şəki vilayətində xan olubdur, ***Hacı Əbdülqadir xan*** deyilibdir. Bir neçə vaxtdan sonra Hüseyn xanın *Əhməd ağa* adlı bir oğlu var imiş, onu da öldürür.

---

[1] Dornda: *"neçün"*.

[2] Dornda: *"verib"*.

[3] 1759-da.

[4] R.B.İsmayılov onu *"Cəfərqulu xan"* adlandırır (*Rəşid bəy İsmayılov. Azərbaycan tarixi.* Bakı, 1993, s.82).

[5] Bu əlyazmada hər yerdə *"Əbdülqədir xan"*dır.

[6] Dornda: *"təhrik"*.

[7] Dornda: *"olmursan"*.

[8] Dornda hər yerdə: *"bərki"*.

[9] Dornda: *"Ərmiş (Ərəş)"*.

[10] Dornda: *"Dardoqqar"*.

[11] Miladi 1780-də.

*Məhəmmədhəsən Hüseyn xan oğlu* Qarabağda imiş. Oradan Cara gəlir. Cardan qoşun götürüb gəlir, Hacı Əbdülqadir xan ilə dava elər, basılar, gedər. ***Hacı Əbdülqadir xan üç il yarım Şəkidə xanlıq edib.***

Məhəmmədhəsən xan sonra bir də Cardan qoşun cəm edib gəlib Hacı Əbdülqadir xan ilə dava elər. Bu dəfə Hacı Əbdülqadir xan basılar, qaçar, Şirvan vilayətində *Mustafa xan*'ın[1] atası *Ağası xan*'ın yanına gedər. Ağası xan onu dutub Məhəmmədhəsən xana verər. Tarixi-islamiyyə [26 məhərrəm] min yüz doqsan səkkizdə olanda[2] ***Məhəmmədhəsən xan onu öldürüb Şəki vilayətində xan oldu.***

Və Məhəmmədhəsən xan ***Hacı Əbdülqadir xanın yeddi xırda oğlun öldürübdür.*** Onun oğul övladı qalmadı Məhəmmədhəsən xan bir-iki il xanlıq edəndən sonra.

***Mənim atam Fətəli xan*** Məhəmmədhəsən xanın [ögey] qardaşıdır. Onun[3] anası Ərəş sultanının[4] qızıdır[5]. Ərəş sultanı Məlik Əlinin oğlanları o vaxtda Ərəşdə böyük və sikkəli və güclü bəglər imiş ki, Fətəli xanın anasının qardaşlarıdır. Məhəmmədhəsən xan *Fətəli xan*'ın qövmləri böyük və çoq olmaq və özü də Hüseyn xanın istəkli[6] oğlu olmaq səbəbindən, ***ehtiyat elər ki, bəlkə [Məhəmmədhəsən xanı] xarab eləyə, dutub Fətəli xanın gözlərini çıqarıb özünü də evdə[7] dusdaq elər.***

Bir neçə ildən sonra ***Səlim xan*** (ki, Hüseyn xanın kiçik oğludur) Məhəmmədhəsən xan buna abru[8] və rütbə verməz, birütbə saxlar və bəlkə xarab eləmək qəsdində olur. Səlim xan Məhəmmədhəsən xanın yamanlıq qəsdindən qorqub, bir para Şəki vilayətinin bəglərindən özünə yoldaş eləyib, tarixi-islamiyyə min iki yüz doqquzda olanda[9] Şəkidən qaçıb Car vilayətinə gedər.

[1] Mustafa xan (?-1844) - Şirvan xanı (1792-1820; 1826-28). Mustafa xan *Xançobanı* tayfasından olan böyük sərkər Allahverdi bəyin nəticəsi, Əsgər bəyin nəvəsi və onun oğlu Şirvan xanı *Ağası xan*'ın (1731-1786) oğludur.

[2] Miladi 21 dekabr 1783-də.

[3] Fətəli xanın.

[4] Məlik Əlinin.

[5] Məhəmmədhəsən xanın anası isə Ərəş mahalının Xaldan kəndindən olan Məhəmmədsaleh bəyin qızı *Qızxanım*'dır (bax: Əl.İ, fr.471).

[6] Dornda: *"istəki(?)"*.

[7] Dornda: *"evində"*.

[8] Dornda yanlış olaraq: *"ayru"*.

[9] Miladi 1794/95-də. Dornda yanlış olaraq: *"min yüz doqsan olanda"*.



Haman o ildə İran[1] şahı *Ağaməhəmməd şah* qoşun ilə Qarabağ vilayətinin üstə gəlib orda əgləşdi. Məhəmmədhəsən xan şaha qulluq eləmək və ixlas göstərməkdən ötrü *Hacı Seyid* adlı bir böyük və külli-ixtiyar nökəri var idi, bunu şahin qulluğuna göndərdi.

Nəhayət[2], Hacı Seyid yürəgində Məhəmmədhəsən xandan çox incik imiş (və) şaha ərz elər ki, hərgah istəsən Şəki vilayəti sənə qulluq eləyə, gərəkdir Məhəmmədhəsən xanı öldürəsən, ya gözlərin çıxardasan.

Şah öz xanlarından birisini (ki, adı *Dəvəli*[3] *Hacı Mustafa xan* ola) sərdar elər və on iki min qoşun verib göndərir ki, get *Şirvan* və *Şəki* vilayətlərin zəbt elə və Məhəmmədhəsən xanı dutub gözlərini çıxardıb, Təbriz[4] vilayətinə göndər[5] getsin.

Dəvəli Mustafa xan qoşun ilə Kürdən keçib, Şirvan vilayətinə gəlib[6], Şirvan xanı *Mustafa xan Fit dağı* adlı bir bərk yer var imiş, qaçıb orda sığnaq elər. Qızılbaş qoşunu Şirvanın çöllərindən ələ gələni çapar, aparar.

***Məhəmmədhəsən xan on iki il xanlıq eləyib o eldə.***

Tarixi-islamiyyə min iki yüz onda idi[7], Səlim ağa *Car*'dan və *Avar*'dan bir para qoşun cəm edib, gəlib, Məhəmmədhəsən xan da Şəki qoşununu cəm edib, gedib *Göynük*[8] kəndinin yanında dava elədilər. Məhəmmədhəsən xan basılıb gəlib Nuxuya. *Səlim xan* Car və Avar qoşunu ilə dalısınca gəlib[9] daxil olubdur.

Və Dəvəli Mustafa xan qoşun(u) ilə *Şirvan*'dan *Ağdaş*'a gəlib, bir neçə gün *Ağdaş*'da qalıb, sonra *Xaçmaz* mahalında[10] *Tərkəş* adlı kəndin ayağında düşüb əgləşdi.

Məhəmmədhəsən xan Ağaməhəmməd şaha qulluq elədiginə

[1] Qacar.

[2] Dornda: *"ağa"* (*"amma"* yerinə).

[3] *Dəvəli* Qacar tayfalarındandır. İrəvan xanlığındakı *Dəvəli* şəhəri də onların adını daşıyırdı (ermənilər onun adını dəyişdirərək *Ararat* edib).

[4] Əlyazmada : *"Tərtər"*.

[5] Dornda yanlış olaraq: *"götür"*.

[6] Dornda: *"gəlir"*.

[7] Miladi 1795/96-da.

[8] Dornda: *"Gönük"*.

[9] Dornda bu sözdən sonra *"girincə Nuxuya gəlib"* sözləri də var.

[10] Təxminən indiki Oğuz rayonunun ərazisi düşünülür. Xaçmaz kəndi burada ən böyük kəndlərdəndir.

və adamı şahın yanında olmağına arxeyin[1] olub, nəhayət[2], Dəvəli Mustafa xan nədən[3] ötrü gəlir və nə fikirdə olmağından xəbəri olmayıb, gəlib Nuxudan çıqar, gedər ki, gedib Dəvəli Mustafa xandan qoşun alıb Səlim xanı Şəkidən çıqarsın[4]. Gedib *Tərkəş* ayağında Dəvəli Mustafa xanın qoşununa daxil olan kimi Mustafa xan Məhəmmədhəsən xanı dutdurub, təmamən nökərlərini soyundurub və özünün gözlərini çıqarıb, bir neçə qızılbaş adamına[5] verib Təbriz[6] vilayətinə göndərdi.

***Səlim xan Şəkidə xan olub əgləşdi***[7]. Bir neçə vaxtdan sonra ***Məhəmmədhəsən xanın*** ***yeddi xırda oğlun öldürübdür.*** Səlim xan da şaha qulluq eləməyib, qızılbaş qoşunundan ehtiyat edib, şəhəri köçürüb *Gələsən-görəsənə* aparıb, orada sığnaq elədi.

Ağaməhəmməd şah o il[8] Qarabağı ala bilməyib, qoşunların götürüb, gerü qayıdıb getdi. Və ***Dəvəli Mustafa xanı da qayıdıb gedəndə Şirvanda öldürübdürlər***. Obiri ildə şah genə gəlib, Məhəmmədhəsən xanı da götürüb və binə (və) ağırlığı və bir para qoşunu da və Məhəmmədhəsən xanı da Muğanda qoyub, özü qalan qoşunu götürüb Qarabağ üstə gəldi. Şir(v)anlı *Mustafa xan*'ı və gəncəli *Cavad xan*'ı şah istəyib, yanına aparmışdı.

O il çoq aclıq olub, Qarabağ tab gətirməyib, *İbrahim xan* övlad(lar)ıyla *Car* vilayətinə qaçdı. Şah Qarabağı alıb, özü gedib *Şuşa*[9] qalasında əgləşdi. Haman o ildə (ki, tarixi-islamiyyə min iki yüz on birdə idi)[10] Şuşa[11] qalasında şahın öz pişxidməti ki, şah ona naxoş olmuşdu, o da öz qorxusundan (ki, bəlkə şah məni öldürə) bir gecə şahı öldürür[12]. Sabahdan qoşun əhli bu

[1] Dornda: *"arxamin (?)"*.
[2] Dornda: *"ağa"* (*"amma"* yerinə).
[3] Dornda yanlış ilaraq: *"xandan"*.
[4] Əlyazmada *"çıqarıb"*. Dornda: *"çıqarıb (çıqara)"*.
[5] Dornda yanlış olaraq: *"adına"*.
[6] Əlyazmasında: *"Tərtər"*.
[7] Cəmadiyül-əvvəl 1210-da (dekabr 1795-də).
[8] Miladi 1795-də.
[9] Dornda yanlış olaraq: *"Şiş"*.
[10] Miladi 1797-də.
[11] Dornda: *"Şişə"*.
[12] 21 zilhiccə 1211-də (17 iyun 1797-də).



qəziyyəni bilib, tamam qoşun bir-birinə dəgib, çox-çox məğşuşluq olub, qızılbaş qoşunu təmamən çəkildi[1], getdi.

Və *Şirvanlı Mustafa xan* oradan gəlib, Muğandan Məhəmmədhəsən xanı da götürüb Şirvana gəldi. Bir neçə gün saxlayıb, sonra *Məhəmmədhəsən xan*'ı götürüb, Şəkiyə gəldi ki, bunu genə xan eləyə. Səlim xan eşidib, qaçıb getdi. Məhəmmədhəsən xanı Mustafa xan gətirib bir də xan elədi[2]. Mustafa xan və Məhəmmədhəsən xan ikisi dost olub dolandılar.

***Səkkiz il Məhəmmədhəsən xan genə xanlıq elədi.***

Sonra Mustafa xan ilə araları yaman olub düşmən oldular. Mustafa xan *Səlim xan*'ı Qarabağdan gətirdi ki, gələ, Məhəmmədhəsən xanı çıxarıb Səlim xanı xan eləyə. (Və) Məhəmmədhəsən xan da qoşun götürüb [Mustafa xanla Səlim xanın] qabağına[3] gedəndə yoldaşının[4] yüzünə baxıb bildi ki, ola ki[5], munu[6] istəməyən kəslər çoqdur, Mustafa xanla dava eləyə bilməz. Naçar qoşunu dağıdıb bir para adam ilə Mustafa xanın yanına gedər ki, bəlkə genə mənim ilə dost ola, xanlıq munda qalıb, qayıdıb yenə Şəkiyə gələ. Gedən kibi Mustafa xan bunu dutdurub *Şirvan*'a göndərir və Səlim xanı da saxlar; bu fikirdə olur ki, öz bəglərindən birini Şəkiyə naib göndərə.

Şəki əhli böyük-kiçik yığılıb, *mənim atam* ***Fətəli xan***'ın üstünə cəm olub, andlar içib, bərk ittifaq edib tarixi-islamiyyə min iki yüz on doqquzda olanda[7] xan elərlər. ***İki-üç ay xanlıq elər.***

(Və) Mustafa xan görər ki, elədigi fikri əmələ gətirə bilməz (və) *Fətəli xanın* yanına adam göndərər və dostluq elər ki, oğlun da göndərsin, bir neçə vaxt yanında qalsın dostluq möhkəm olmaqdan ötrü. O zamanda[8] mən (də) kiçik idim, ***atam məni Şirvana göndərdi.***

Mən gedən vaxt Səlim xanı Mustafa xan *Ağdaş* mahalına göndərdi. Ağdaşda bir neçə gün qalandan sonra Şəki bəglərin-

[1] Dornda: *"əkildi"*.
[2] 1797-nin yayında.
[3] Dornda yanlış olaraq: *"Qarabağına"*.
[4] Dornda yanlış olaraq: *"yolda işin"*.
[5] Dornda: *"ölkədə"*.
[6] Məhəmmədhəsən xanı.
[7] Miladi 1805-də.
[8] Dornda yanlış olaraq: *"öz yanında qalsın"*.

dən iki-üç adam Səlim xana dil verir, Səlim xan da xəbərsiz, bir gecə atlanıb gəlir. Fətəli xan xəbərsiz, [Şəki əhli] and içibdirlər, [xan] nə bilsin ki, bir neçə bəg xəyanət elərmiş? Səlim xana dil verən bəgin birinə qalanın qapusunu tapşırır. Qapuda duran bəg Səlim xan gələn kibi qapunu açıb [onu] qalaya salır.

Yuqarıda yazılan tarixdə ***Səlim xan yenə də Şəkidə xan olur, bir il yarım xanlıq elər*** (və) sonra padşahi-aləmpənah imperatori-əzimə[1] qulluq elər[2].

Vəqti ki, *Qarabağlı İbrahim xan*[3] dönüb, Rusiyyə qoşunu onunla dava eləyib, İbrahim xan öləndə[4] Səlim xanın bacısı da orada olur[5], Səlim xan bu işdən küdurət eləyib yanındakı Rusiyyə qoşunundan bir neçə adam öldürür[6]. Səlim xanın bu xəyanətindən o zamanda[7] olan sərdari-valatəbar[8] qəzəbnak olub, Nebo(l)sin yanaralı[9] bir para Rusiyyə qoşunuyla Səlim xanın üstünə göndərir.

---

[1] Rus çarı I Aleksandra.

[2] 21 may 1805-də (Kürəkçay müqaviləsindən sonra).

[3] İbrahimxəlil xan Pənahəli xan oğlu - 1760-1806-cı illərdə Qarabağ xanı.

[4] Bu cümlədə üç tarixi yanlışlıq var: 1) İbrahimxəlil xan Rusiyadan üz döndərməyib - ruslar 10 iyun 1806-da onu ailəsiylə birgə məhv edəndə xanın Rusiya hakimiyyətini qəbul etməsi haqqında Kürəkçay müqaviləsini imzalamasından (14 may 1805) cəmi bir il keçmişdi; 2) onunla Rusiya qoşunu dava eləməmişdi - rus mayoru *D.T.Lisaneviç* 200 əsgərlə gələrək Qarabağ xanını gecə yatdığı yerdə 17 ailə üzvüylə birgə qılıncdan keçirib məhv etmişdi; 3) İbrahimxəlil xan öz əcəliylə ölməmişdi - onu ruslar görünməmiş xəyanətlə vəhşicəsinə qətlə yetirmişdilər.

[5] İbrahimxəlil xanın qızı *Tutu bəyim*'lə evlənmiş Səlim xan onun həm kürəkəni, həm də qaynıydı - Səlim xanın bacısı *Tubu bəyim* də Qarabağ xanında ərdəydi və 10 iyun 1806-da öldürülənlər arasında *Tubu bəyim* də vardı.

Səlim xanın digər bacısı *Bəyim xanım* Gəncəli Cavad xanın arvadıydı və cənnətməkan xan şəhid olandan (3.1.1804) sonra ruslar onun başqa ailə üzvləriylə birgə Bəyim xanımı da əsir götürdülər.

[6] Səlim xan Şəkidəki 500 nəfərlik rus qarnizonunun zabitlərini qırdı, əsgərlərinisə bəylərə nökər verdi.

[7] Dornda yanlış olaraq: *"öz yanında"*.

[8] Qraf *İ.V.Qudoviç* düşünülür.

[9] Qəddar general *P.F.Nebolsin* Şəkiyə gələrək buranı rus qoşununa talan etdirdi və şəkililərin qanını su yerinə axıtdı.



Səlim xan bir az dava elər, bacarmaz, çıqıb qızılbaş tərəfinə[1] qaçar[2].

Nebo(l)sin yanaral ***bu vilayətin ixtiyarını yenə mənim atam Fətəli xana verir.*** Amma *Xoylu Cəfərqulu xan* Şəki vilayətini padşahi-aləmpənahdan istəyib, padşah da ona verdiribdirmiş[3].

Sonra tarixi-islamiyyə min iki yüz igirmi birdə olanda[4] ***Cəfərqulu xan padşahın əmriylə Şəki vilayətində xan oldu***[5].

Mən də Cəfərqulu xan əyyamı Şəkiyə gəldim.

**Təhrirən fi 20 [mahi-z]ilqədətül-həram 1244 (=miladi 24 may 1829).**

---

[1] Güney Azərbaycana.

[2] Səlim xan *"ruslar ilə Şəki ətrafında iki böyük müharibə etdi və hər dəfəsində rusları məğlub və pərişan etdisə də ləzgilər dağıldıqlarından, Səlim xan yalnız qaldı və artıq müqavimət faydasız görərək Ərdəbil təriqilə İrana çəkildi. Ruslar da Şəki xanlığının mərkəzi olan Nuxaya girdilər və xanlığı zəbt və Rusiyaya ilhaq etdilər".* (Cahangir Zeynaloğlu. Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, s.97). *"Müharibə zamanı ləzgilər ruslardan para alıb vuruşma meydanından xaric olmuşdular. Səlim xan naçar qalaraq qaçıb İrana getmişdir".* (Rəşid bəy İsmayılov. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1993, s.115).

[3] *"...Xoy vilayətinin hakimi Cəfərqulu xan dövləti-mətbuəsindən çönüb, on mindən artıq türk və ermənidən ibarət olan məiyyətilə... Şəki vilayətinə köçmüşdür. [...] gələn ermənilər Şəkidə bu kəndləri bina etmişlər:* ***Cəfərabadxoy, Aydınbulaq, Göybəyli, Ağpilləkənd****".* (*Rəşid bəy İsmayılov. Azərbaycan tarixi.* Bakı: Azərnəşr, 1993, s.31).

*"Azərbaycan Demokratik Respublikasının ilk Baş naziri olmuş Fətəli xan Xoyskinin ikinci babası Cəfərqulu xan Dünbüli... Fətəli şah rejimi ilə çəkişdiyinə görə qohum-əqrəbası və qoşunu - cəmi 12 min nəfər, o cümlədən 2 min erməni ilə Şimali Azərbaycana gəlir. O, ...Şəki xanı təyin edilmiş və ona general-leytenant rütbəsi verilmişdir. Xan Xoyski soyadını Cəfərqulu xana Sisianov vermişdi. Cəfərqulu xan indiki* ***Cəfərabad*** *(bu kənd onun şərəfinə Cəfərabad adlandı - H.Ə.) kəndini binə edir, erməniləri isə yaxınlıqdakı* ***Göybulaq, Daşbulaq, Şirinbulaq, Aydınbulaq*** *adlanan yerlərdə məskunlaşdırır. [...] Rəvayətə görə, Cəfərqulu xan öz bağında atına ağacdan dərdiyi xurmanı yedirtdiyi vaxt öldürülmüşdür".* (*Azərbaycan folkloru antologiyası. VI kitab. Şəki folkloru. II cild.* Toplayan və tərtib edən: *Hikmət Əbdülhəlimov.* Bakı: Səda, 2002, s.141).

[4] Bu kitabdakı 34-üncü maddeyi-tarixdə (s.218) Cəfərqulu xanın Şəkiyə xan kimi gəlməsinin tarixi daha dəqiq göstərilib: ***15 zilqədə 1221 (24 yanvar 1807)*** günorta vaxtı.

[5] Ruslar Cəfərqulu xanı Şəkiyə hakim qoymaqla onun əliylə Xoy ermənilərini Şəkiyə köçürərək ən yaxşı kəndləri ermənilərə verdilər.

# HACI ÇƏLƏBİ XANIN NƏSLİ BU TƏRZ İLƏDİR[1]




[1] Başlıq Dornun nəşrindən götürülüb. Soykötüyündə (şəcərədə), Şərq ənənəsinə görə, yalnız oğullar göstərilib.

[2] Ulduzla işarələnən adlar Dornda yoxdur.

[3] Dornda yanlış olaraq: *"Kərim xan"*. Bəllidir ki, Kərim ağa xan olmayıb.

[4] Bu, Şəkinin sonuncu xanıdır.

[5] Dornda: *"Salman xan"*.

[6] Düz mötərizə içərisindəki adlar həm Dornun nəşrində, həm də bizim əlyazmada yoxdur. Onları bu kitabda verilmiş başqa qaynaqlardan götürmüşük.





## *Mustafa ağa ŞUXİ*

## Nuxu xanlarının keçmiş əhvalatının hekayəti (Hekayəti-əhvalati-sabiğeyi-xəvanini-Nuxu)[1]

Nuxuda xanzadeyi-qədimidən və əşxasi-köhnələrdən eşitdiyim Nuxu əhlimizin köhnə xanların əhvalatın bəyan edirik ki, səneyi-islamiyyə 848 ildən müqəddəm[2] Nuxuda xan və hakim olmadığı dürüst-müsərrəh məlum edər. Haman tarixdə Nuxuda ***Qara keşiş oğlu Candar*** adlı hakim olubdur. Hakim olandan sonra müsəlman olubdur. Adını ***Əlican*** qoyubdurlar. Bir neçə il hökumət edib vəfat edibdir.

Onun oğlu ***Qutul*** Nuxuda xan olubdur, İran şahına tabe olubdur. İran şahının ona xanlıq fərmanı verilibdir. Neçə il xanlıq və hökumət edib vəfat edibdir.

Qutul xan vəfat etdikdən sonra oğlu ***Şəki xan*** Nuxuda xan olubdur. Bir neçə zaman xanlıq edib vəfat edibdir. Şəki xanın oğlu ***Həsən sultan*** Nuxuda xan olub. İran şahı *Şah İsmayıl*'a tabe olub xidmət edibdir.

Tiflis valisi *Əlvənd xan* ilə Həsən sultanın mabeynlərinə[3] ədavət və küdurət düşüb, neçə kərə cəngləri və davaları olubdur. Şah İsmayıl Həsən sultana kömək olubdur. Əlvənd xan Həsən sultana nə qalib, [nə] faiq ola bilibdir.

Şah İsmayıl vəfat etdikdən sonra məzkur Əlvənd xan külli qoşunlar ilə Həsən sultan ilə cəngə gəlib, *Daşyüz*'də cəng vaqe olub. Əlvənd xan qalib və Həsən sultan məqtul olubdur[4]. [Həsən sultan] Daşyüzdə *Göybulağ* qəryəsinin[5] qabağında *Cəfərabad*'dan

[1] Əlyazmalar İnstitutundakı *B-3159/13840* şifrəli 8 vərəqlik, 14 səhifəlik türkcə əlyazmadan götürülərək verilir.

[2] Miladi 1444/45-dən qabaq.

[3] Aralarına.

[4] Öldürülüb.

[5] Kəndinin.

qərbi tərəfdə dəfn olunubdur. İran şahı Həsən sultanın qəbrini təmir etdirib, üstündə bişmiş kərpic ilə və gəc ilə tağlı və rəvaqlı bir məscid təmir etdirmişdi. Qəməndatlar vaxtınadəkin[1] dururdu. Sonradan ətrafındakı qəryələrin adamları kərpicləri söküb-dağıdıbdırlar, asarı qalmayıbdır.

Həsən sultan məqtul olandan sonra Əlvənd xan qayıdıb Tiflisə gedibdir. Həsən sultanın oğlu ***Dərviş Məhəmməd xan*** Nuxuda xan olubdur. İranda da Şah İsmayıl oğlu Təhmasib Mirzə şah olubdur. Dərviş Məhəmməd xan İran şahına itaət və xidmət etməyibdir. Şah Təhmasibin Şirvana qoşunları gəlibdir. Dərviş Məhəmməd xan *Şirvana* gedib şahın qoşunlarına şəbxun aparıbdır[2] və qarətgərlik edibdir. Şah Dərviş Məhəmməd xanın o hərəkatların və işlərin eşidib qəhrü qəzəbi cuşa gəlib, külli qoşun götürüb Dərviş Məhəmməd xana tənbeh etməyə əzmü hərəkət edib, gəlib *Kür*'dən keçib, Ərəş mahalına varid olubdur. Oradan Dərviş Məhəmməd xana fərman göndəribdir bu məzmun ilə ki, şaha itaətə gəlib tabe olsa şah o təqsiratların əfv və vagüzar elər və illa tabe olmasa şahın qəhrü qəzəbinə məruz olur.

Dərviş Məhəmməd xan şahın əmrini qəbul etməyib, Nuxunun qüdrətli adamlarını *Kiş* qəryəsindən yuxarı dağlar üstdə *Gələsən və görəsən* dərəsinə göndəribdir və özü də oraya gedibdir. Nuxunun qüdrətsiz, zəif adamlarının bir paraları *Kiş* qalasına və bir paraları dağlara və dərələrə köçüb, qaçıbdırlar və gedibdirlər.

Şah Tiflis valisi *Əlvənd xan*'ı bir para İran xanlarıyla Gələsən və görəsən üstə və bir para xanları Kiş qalası üstə göndəribdir ki, Gələsən və görəsən dərəsin və Kiş qalasın fəth edib qarət və tabe edələr və bir para İran xanlarına buyruq veribdir ki, dağlara və dərələrə qaçan Nuxu adamların dəstgir edib gətirələr. Kiş qalasında olan adamlar şahın zorun və şanü şövkətlərin və qoşunlarının kəsrətin görüb cəngü niza vaqe olmamış Kiş qalasındakı adamlar qaladan çıxıb, şahın dərgahına gəlib, əczi-izhar edib, şahdan aman tələb edibdirlər. Şah onların təqsiratların əfv edib, malların və özlərin azad buyurub. Kiş qalasın yıxdırıb və dağıtdırıbdır ki, asarı və əlaməti qalmayıbdır və tərg olubdur.

[1] Ruslar Şəki xanlığını ləğv edib komendant idarəçiliyi quranadək, yəni 1819-adək.

[2] Gecə basqınları edib.



Bədə[1] şah xanları və qoşunları cəm etdirib əzm edibdir ki, *Gələsən və görəsən* dərəsinə Dərviş Məhəmməd xanın üstə hərəkət edə. Gələsən və görəsəndəki əşxaslar və adamlar qalanın o əhvalatların və şahın özünün Gələsən və görəsən dərəsinə əzmihərəkatların eşidib, qətlü qarət olunmaqlıqlarından qorxub, şah hüzuruna gəlib məzərətxah olubdurlar[2].

*Dərviş Məhəmməd xan* bir para öz adamlarıyla Gələsən və görəsəndən çıxıb qaçıbdırlar. Tiflis valisi *Əlvənd xan* qoşun götürüb Dərviş Məhəmməd xanın dalınca gedib, yetişib. Cəng olub, Dərviş Məhəmməd xanın adamları məğlub və bərşikəst olubdur. Dərviş Məhəmməd xanın özü o mərəkədən çıxıb, gedib şahın adamı *Şamlı Çərandab sultan* mülazimi *Pirqulu* adlının əlinə düşübdür. Dərviş Məhəmməd xanın başın kəsib şah hüzuruna gətiribdir. Şahın o Pirqulu adlıya ənam və mərhəmətləri olubdur.

Bədə şah əmr edibdir, Nuxunun Gələsən və görəsəndə və Kiş qalasındakı və dağlarda olan adamları köçüb Nuxuya gəlib, evlərində və yerlərində fərağat və sakit olubdurlar. ***Nuxu vilayəti şahın ziri-hökumətinə razı olubdur.***

Və Dərviş Məhəmməd xanın ***Bağı*** adlı bir oğlu qalıbdır. Şah Dərviş Məhəmməd xanın oğluna Nuxunun xanlığın verməyibdir.

Nuxudan ***Hüseyncan*** adlı bir şəxs şaha qulluq edirmiş, şah Nuxunun *məliklik* ixtiyarın Hüseyncana verib. Şah Təhmasibin özü intiqal edib İrana gedibdir. ***Məlik Hüseyncan neçə il Nuxuda məliklik edib vəfat edibdir.***

Məlik Hüseyncanın oğlu ***Ziyaəddin*** Nuxuda məlik olubdur. Ziyaəddin də Nuxuda bir neçə müddət məliklik edib vəfat edibdir.

Məlik Ziyaəddin oğlu ***Qasım yüzbaşı*** Nuxuda məlik olubdur. Bir neçə zaman Məlik Qasım məliklik edib vəfat edibdir.

Məlik Qasımın oğlu ***Məlik Əhməd*** Nuxuda məlik olubdur.

Fövqdə adları məzkur məliklər neçə illərlə Nuxuda məliklik edibdirlər. Nuxunun xərcü tövcülərin özləri zəbtü təsərrüf edib İran şahlarına verməyibdir. O vaxta *Səfəviyyə* şahlarından biri mühəssil və adam göndərib, neçə illər ki məliklik edibdirlər, o illərin tövcü və xərclərin o məliklərin övladlarından və varislərindən aldırıb, Nuxunun məliklik ixtiyarın da o məliklərin övladlarından aldırıb, Nuxu şəhər sakini *Hüseynqulu* adlını Nuxuda

[1] Sonra.

[2] Üzr istəyiblər.

məlik edibdirlər. Şah fərman veribdir. Neçə müddət məliklik edib vəfat edibdir.

*Məlik Hüseynqulu*'nun nəslin[dən] və əqrəbalarından *Əlimərdan* adlı bir şəxsi Nuxuda məlik edibdirlər. Məlik Əlimərdan da bir neçə il məliklik edibdir, bədə vəfat edibdir. Oğlu qalmayıbdır.

Məlik Əlimərdanın nəslindən və əqrəbalarından ***Məlik Nəcəf*** adlı Nuxuda məlik olubdur. O halda qədim şahlar[1] İrandan tərk olub ***Nadir şah*** İrana şah olubdur. Məlik Nəcəf şahdan bir əmr və qulluq gələndə Nuxunun fəqir və füqəralarına zülm edirmiş. Nuxunun fəqirləri Məlik Nəcəfdən şaha şikayət ərizəsi yazıb göndəribdir.

Şah nuxululara əmr edibdir ki, nuxulular *Dərviş Məhəmməd xanın nəslindən qalan* rəşid və kardan bir ***Çələbi*** adlı şəxsi özlərinə vəkil edə. Edibdirlər. Şah da fərman veribdir, Çələbi Nuxuda vəkil olubdur, adına ***Vəkil Çələbi*** deyibdirlər.

Bir neçə müddət *Məlik Nəcəf* məlik olubdur. Çələbi də vəkil olmaq səbəbiylə o məliki fəqir və füqəraya və xəlayiqə zülm etməyə mane olurmuş. O məliki-məzbur Çələbidən şaha ərizə yazıb şikayət edibdir ki, şahın qulluqlarını və əmrlərini əməl edib yerinə yetirə bilmirik, Çələbi mane olur. Şah Çələbini öz hüzuruna istəyib, buyurubdur Çələbini öldürələr. Çələbi məliki-məzkurun xəlayiqə və Nuxunun füqəralarına etdiyi zülmlərin və bəd və bihesabi işlərin yekan-yekan şah qulluğuna ərz edib, məlum edibdir. Şah Çələbi məzkuru öldürtməyib, vəkillik fərmanı verib mürəxxəs edibdir.

Çələbi gəlib, Məkkəyə gedib hacı olubdur, adına ***Hacı Çələbi*** deyibdirlər. Məliki-məzkura çox gözdarlıq verirmiş. Məliki-məzkur genə Hacı Çələbidən şaha şikayət ərizəsi göndərib, bəd və bihesabiliyin göstəribdir. Şah Hacı Çələbini öz hüzuruna istəyibdir. Hacı Çələbi şah hüzuruna getməyib, Nuxunun adamların cəm edib, özüylə bir neçə ad[am]lar götürüb, gedib məliki-məzburu evində qətl edib, övladların həlak edibdir. ***Səneyi-islamiyyə 1156[-cı] ildə***[2] ***Hacı Çələbi Nuxuda xan olubdur.***

Hacı Çələbi şahın qəhrü qəzəbindən ehtiyat edib, xəlayiqi köçürüb *Gələsən və görəsən* dərəsinə aparıbdır. Orda sükunət edibdirlər.

[1] Səfəviləri düşünür.

[2] Miladi 1743-də.



Şah Hacı Çələbinin bu bəd hərəkətlərin və əhvalatın eşidib qəzəbi gəlib, ordu və ləşkəri-əzim götürüb hərəkət edib, gəlib *Kiş* qəryəsinin üstündə *Gavan*[1] ilə mövsüm[2] ziraətgah yerlərində nüzul edibdir. Hacı Çələbi qoçaq və rəşid adam[ları] cəm edib şahın ordusuna şəbxun aparıb, şahın pişgahında pişxidmətin tüfəng ilə atıb urubdurlar.

O yerin ətrafı meşə və cəngəlistan imiş. Şah oradan köçüb, *Daşbulağ* qəryəsinin qərbində bir dağ yerdə düşüb sükunət edibdir. Gah-gahi Hacı Çələbinin üstə Gələsən və görəsən dərəsinə qoşun göndərib cəng etdiribdir. Hacı Çələbi təngə gəlib ***şahdan aman tələb edibdir.***

Şah qoşun və orduları götürüb İrana gedibdir. Hacı Çələbi və Nuxunun adamları da oradan köçüb Nuxuya gəlib, öz yerlərində sakit və fərağət olubdur. Şahın adamları gəlib qəflət ilə bir gecə Nuxunun ətrafından qarət edib çox mal və əsirlər aparıbdırlar. Hacı Çələbi xan o əsirləri xilas etmək üçün öz oğlu *Həsən ağa*'nı şah hüzuruna göndərib, ol əsirləri təvəqqe edibdir. Şah Həsən ağaya rəhm edib Nuxudan gedən əsir[lər]i Həsən ağaya verdiribdir, Həsən ağa gətiribdir.

Haman il şah *Xorasan*'a gedibdir. Orada öz xanları Nadir şahı qətlə yetiribdirlər. İran şahsız və sahibsiz qalıb. İranda çox məğşuşluq olubdur. Hətta **Hacı Çələbi Nuxudan qoşun götürüb Təbriz vilayətinədəkin gedibdir.**

Sonra ***Əmiraslan sərdar*** İranda şahlıq iddiasına düşüb. Hacı Çələbiyə tənbeh etməyə Nuxu üstə əzmü hərəkət edibdir. Hacı Çələbi oğlu *Həsən ağa*'nı o sərdar ilə cəng etməyə qabağına göndəribdir. ***Həsən ağa cəng edib, məğlub və məqtul olubdur.*** O sərdar qayıdıb İrana gedibdir, Nuxuya gəlməyibdir və Nuxunu ala bilməyibdir.

*Tiflis* xanı və ətrafdakı vilayətlərin xanları cəmiyyət edib istəyibdirlər ki, cəng edib Nuxunu alalar, Hacı Çələbini xarab edələr. Hacı Çələbiyə qalib ola bilməyiblər. Hacı Çələbi öz əcəliylə, azarlayıb Nuxuda vəfat edibdir səneyi-islamiyyə 1168 sənədə[3].

Oğlu ***Ağakişi bəy*** Nuxuda xan olubdur və qumuq xanı *Ağa-*

[1] Əslində: *Kotan düzü.*

[2] Adlanan.

[3] Miladi 1755-də.

*məhəmməd xan*'ın[1] qızın alıbdır. Bir neçə vaxtdan sonra qumuq xanı Ağaməhəmməd xan *Ərəş* mahalına gəlib Ağakişi xan məzkuru öz yanına istəyibdir. Ağakişi xan qohum olmağına görə arxayın və fərağat olub Ağaməhəmməd xanın yanına Ərəşə gedibdir. Ərəş məliki *Məlik Əli* bir fitnə və hiylə edib, Ağaməhəmməd xan Ağakişi xanı qətl etdiribdir.

Ağaməhəmməd xan Nuxunu zəbt etməyə gələndə ***Hacı Çələbi xanın oğlu Həsən ağa oğlu [Məhəmməd]hüseyn xan*** Nuxudan qaçıb Şirvana gedibdir. Ağaməhəmməd xan məzkur bir neçə vaxt Nuxuda hökumət edib, Nuxuda xanların dəfn olunan pullarını çıxartdırıb, nuxululara çox zülmlər edibdir. Nuxu adamları Ağaməhəmməd xanın zülmünə və cəbrlərinə tab gətirməyib, adam göndərib Şirvandan Həsən ağanın oğlu ***[Məhəmməd]hüseyn xanı*** Nuxuda xan tikməyə gətiribdirlər. Ağaməhəmməd xan qaçıb Qumuğa gedibdir. ***Hüseyn xan xan olubdur.***

O vaxtlarda İrandan şah tərəfindən ***Əfşar Fətəli xan sərdar*** çox qoşun ilə *Qarabağa* gəlibdir. Ərəş məliki *Məlik Əli* o sərdarın hüzuruna Qarabağa gedib, istəyibdir Nuxunun xanlığın o sərdardan özü üçün ala. *Hüseyn xan* Məlik Əli bəyin o hərəkərlərin və işlərin eşidib, yaxşı peşkəşlər ilə və tədarükatlar ilə Qarabağa o sərdarın yanına gedibdir. O sərdar Hüseyn xan məzkurun hüsni-adabların və nəcabətlərin görüb Nuxunun xanlığın Hüseyn xana verib, fərman verdiribdir. Məlik Əli məzkuru da dutdurub Hüseyn xana verdiribdir. Hüseyn xan gəlib Məlik Əlini qətl etdirib, xanlıq hökumətinə məşğul olubdur.

Hacı Çələbi xanın *Həsən ağa* ilə *Ağakişi xan*'dan qeyri *Cəfər ağa* və *Hacı Əbdülqad[ir] bəy* adlı iki oğlanları da var imiş. ***Cəfər ağa*** iddia edibdir ki, mən Hacı Çələbinin oğluyam, Hüseyn xan Hacı Çələbinin oğlu Həsən ağanın oğlu və Hacı Çələbinin nəvvadəsidir; layiq deyildir ki, mən Hacı Çələbinin oğlu olam, nəvvadəsi Nuxuda xan ola. Hüseyn xan Cəfər ağanı dutdurub qətl etdiribdir.

Hacı Çələbinin oğlu ***Hacı Əbdülqadir bəy*** Nuxuda bir para bəy və əşxaslar götürüb, qaçıb gedib *Kür* kənarında *Dardoqqaz* ilə mövsüm olan bir bərk yerdə sakin olub, *Qarabağ xanı İbrahim xan* ilə ülfət və dostluq edibdir.

[1] Qaynaqların çoxu həmin xanı *"Məhəmməd xan"* adlandırır.



Hüseyn xan öz hökumətinə və işlərinə məşğul olubdur. Bir para müddətdən sonra Hüseyn xan Əbdülqadirin yanına Dardoqqaza adam göndərib, istəyibdir ki, Hacı Əbdülqadir bəy ilə barışıq eləyə. Hacı Əbdülqadir bəy deyibdir ki, Hüseyn xan, oğlu *Məhəmmədhəsən xan*'ı göndərsə onunla Hüseyn xan yanına gedib barışaram. Hüseyn xan, oğlu Məhəmmədhəsən xanı Hacı Əbdülqadirin yanına göndəribdir. Hacı Əbdülqadir bəy Məhəmmədhəsən xanı dutdurub Qarabağ xanı *İbrahim xan*'a göndəribdir ki, Məhəmmədhəsən xanı orada qətl etdirsin. *İbrahim xan Məhəmmədhəsən xanı qətl etdirməyib bir məxfi yerdə saxlayıb, Məhəmmədhəsən xanın köynəyin qana batırdıb Hacı Əbdülqadir bəyə göndəribdir ki, Məhəmmədhəsən xanı qətl etdirdim.*

Hacı Əbdülqadir bəy orada bir neçə müddət qalıb, üstünə külli adam cəm edib yanında olan bəylərdən nuxulu *Hacı Rəsul bəy*'i bir dəstə adamlar ilə məxfi meşə və dağlar ilə göndəribdir. Hacı Rəsul bəy pünhani gəlib Nuxunun üstündəki dağda, dərə arasında adamlar ilə gizlənibdir.

Bir günü Hüseyn xanın əmələcatı və mülazimləri günorta vaxtı divandan mürəxxəs olubdurlar və[1] evlərinə gedibdirlər. Hüseyn xan da öz evinə gedib sakit və fərağat olubdur. O halda Hacı Rəsul bəy adamlar ilə dağdan enib qalaya daxil olub, Hüseyn xanı tüfəngi ilə məcruh edib[2], qalanı zəbt edib, Hacı Əbdülqadir bəyə adam göndərib, bu əhvalatı Hacı Əbdülqadir bəyə məlum etdiribdir.

Hacı Əbdülqadir bəy dərhal *Dardoqqaz*'dan hərəkət edib, gəlib Nuxuya varid olub, qalanı və **Nuxunu zəbt edib xan olubdur.** Adını ***Hacı xan*** qoyubdurlar. Hüseyn xan da o yaradan həlak olubdur.

Hacı xan Nuxuda müstəqillən hökumət edibdir. Bir neçə vaxtdan sonra qarabağlı İbrahim xan *Hüseyn xan oğlu Məhəmmədhəsən xan*'ı zühura çıxartdırıb mürəxxəs edibdir. Məhəmmədhəsən xan *Car*'a gəlibdir. Carın adamları cəm olub, Məhəmmədhəsən xanı götürüb Nuxuda xan seçməyə gətiribdirlər.

Hacı xan buradan, yəni Nuxudan qaçıb Şirvana - *Ağası xan* yanına gedibdir. **Məhəmmədhəsən xan da Nuxuda xan olubdur** və carlılara xələt və peşkəşlər verdirib, Cara göndərib fərağat olubdur.

[1] Əlyazmada: *"ki"*.

[2] Yaralayıb.

Bədə Məhəmmədhəsən xan Nuxudan və vilayətdən[1] külli qoşun cəm edib, Şirvana gedib *Hacı xan*'ı Şirvan xanı *Ağası xan*'dan istəyibdir. Ağası xan Hacı xanı dutdurub Məhəmmədhəsən xana verdiribdir. *Məhəmmədhəsən xan Hacı xanı orda qətlə yetiribdir.* Özü gəlib Nuxuda neçə illər hökumət edib. Qala və qaladakı otağı və məscid təmir etdiribdir[2].

*Məhəmmədhəsən xanın özündən qeyri Fətəli xan və Səlim xan adlı iki nəfər qardaşları var imiş.* Məhəmmədhəsən xan o qardaşlarından ehtiyat edibdir ki, olar mənim yerimdə Nuxuda xan olalar. Məhəmmədhəsən xan Fətəli xan üstə bir təqsir qoyub, hiylə ilə Fətəli xanın gözlərin çıxartdırıb həbs etdiribdir. Qardaşı Səlim xan bu əhvalatı görüb qaçıb *Car*'a gedib, orada sakin olubdur. Bir neçə vaxtdan sonra Cardan qoşun cəm etmək tədarükünə düşübdür ki, qoşun ilə gəlib Nuxuda xan ola.

Məhəmmədhəsən xan öz nökərlərindən bir neçə böyük bəylər İran[3] şahı *Ağaməhəmməd şah*'ın hüzuruna göndəribdir ki, şaha kömək verə[4]. Məhəmmədhəsən xan göndərən bəylər Məhəmmədhəsən xandan qəlblərində azürdə və incik imişlər. Məhəmmədhəsən xandan pis hərəkətlər və yalan fellər göstəribdirlər şaha. O halda şah Qarabağa gəlib *Dəvəli Sərdar Mustafa xan*'a qoşun və buyruq veribdir ki, gedib Nuxuya Məhəmmədhəsən xanın gözlərin çıxartdırıb şah hüzuruna göndərə. O sərdar Nuxuya varid olmamış *Səlim xan* Cardan qoşun gətirdib Məhəmmədhəsən xan üstə gəlib, *Göynük* qəryəsiylə *Şahpalut*[5] qəryələrinin aralarında Məhəmmədhəsən xan ilə cəngləri vaqe olub, Məhəmmədhəsən xan məğlub və bərşikəst olub qayıdıbdır.

Dəvəli Sərdar Mustafa xan da gəlib *Xaçmaz* mahalında[6] *Padar* qəryəsi həvaləsində *Hacı Pirəhməd çəməni*'ylə mövsüm olan yerdə nüzul edibdir. Məhəmmədhəsən xan o sərdardan kömək tələb etmək niyyətinə o sərdarın hüzuruna gedibdir. Məhəmmədhəsən xan o sərdarın hüzuruna varid olan kibi o sərdar Məhəm-

[1] Müəllif *"Nuxu"* dedikdə Şəki şəhərini, *"vilayət"* dedikdə Şəki xanlığını düşünür.

[2] Tikdiribdir.

[3] Qacar.

[4] Bu zaman Ağaməhəmməd şah Qarabağı mühasirədə saxlayırdı.

[5] İndiki *Şabalıd.*

[6] Təxminən indiki Oğuz rayonunun ərazisi düşünülür.



mədhəsən xanı dutdurub, adamların qarət etdirib, gözlərin çıxartdırıb özün də şah hüzuruna göndəribdir. ***Səlim xan da Nuxuda xan olubdur.***

*Mustafa xan sərdar* da oradan qayıdıb gedibdir, şah da Məhəmmədhəsən xanı Təbrizə göndəribdir. Şah o ili Qarabağda Şişə qalasın ala bilməyib, hərəkət edib İrana gedibdir. Səneyi-atiyədə[1] şah Məhəmmədhəsən xanı götürüb Qarabağa gəlibdir. Qarabağda gecə yatanda öz pişxidməti Ağaməhəmməd xanın başın kəsibdir. İran xanlarının aralarına cəng düşübdür. *Şirvanlı Mustafa xan* da orada şah yanına gəlmiş imiş. Şirvanlı Mustafa xan *Məhəmmədhəsən xan*'ı oradan götürüb Şirvana aparıbdır.

Mustafa xan külli qoşun cəm edib Məhəmmədhəsən xanı Nuxuya xan tikməyə gətiribdir. Səlim xan qaçıb Nuxudan Qarabağa gedibdir. ***Məhəmmədhəsən xan gəlib Nuxuda xan olubdur.*** Mustafa xan qayıdıb Şirvana gedibdir. Məhəmmədhəsən xan neçə il Nuxuda xanlıq edib hökumət edibdir.

Bədə Mustafa xan ilə Məhəmmədhəsən xanın aralarında ədavət və küdurət düşübdür. Mustafa xan Şirvandan adamlar göndərib Qarabağdan Məhəmmədhəsən xanın qardaşı *Səlim xan*'ı Şirvana gətiribdir. Şirvanın qoşunların götürüb Səlim xanı Nuxuda xan tikməyə əzm edəndə Məhəmmədhəsən xan Nuxudan çıxıb yolda Mustafa xanın yanına gedibdir. Mustafa xan Məhəmmədhəsən xanı dutub, Səlim xanı da götürüb Şirvana aparıbdır.

Mustafa xan öz qohumu *Şıxəli bəy*'i Nuxuya göndəribdir ki, zəbt və təsərrüf eləsin. Nuxulu[2] bu əhvalatları və Şıxəli bəyin o[ra] gəlməyi əhvalatın eşidib, cəm olub Məhəmmədhəsən xanın qardaşı ***Fətəli xanı xan tikibdirlər.***

Şıxəli bəy məzkur Nuxuya varid olmamış yolda Fətəli xanın Nuxuda xan olmağın eşidib yoldan qayıdıb. Şirvana gedib, Fətəli xanın Nuxuda xan olmağı əhvalatın Mustafa xana məlum edibdir. Mustafa xan Məhəmmədhəsən xanı Şirvanda saxlayıb, Səlim xanı *Ərəş* və *Ağtaş* mahalına[3] göndəribdir.

[Səlim xan] bir neçə müddət oralarda sakin olub, oraların qoşunların cəm edib götürüb Nuxuya gəlib. Gecə qalaya daxil

[1] Ertəsi il.

[2] Şəki əhalisi.

[3] Ağdaş Ərəş mahalının mərkəziydi.

olub, **qala və Nuxunu zəbt edib xan olubdur.** *Fətəli xan* xanlıqdan kənar olubdur.

Məhəmmədhəsən xanı Mustafa xan Şirvandan mürəxxəs edib, [Məhəmmədhəsən xan] Qübbəyə[1] *Şıxəli xan* yanına gedibdir. Şıxəli xandan Məhəmmədhəsən xana bir ianət və kömək olmayıbdır. Məhəmmədhəsən xan Qübbədən çıxıb Qumuq xanı *Surxay xan* yanına gedibdir. Surxay xan Dağıstanın qoşunların cəm edib, Məhəmmədhəsən xanı götürüb Nuxuya xan tikməyə gətiribdir.

Səlim xan Nuxunun qoşunların tədarük edib. *Şahpalut* qəryəsinin qərbi tərəfində Səlim xan *Surxay xan* ilə cəng edib. *Surxay xanın özü və oğlu məcruh və qoşunları məğlub olub, Məhəmmədhəsən xanı da götürüb qaçıbdır.* Səlim xanın qoşunları ləzgiləri[2] qarət edib, çox talan malı gətiribdirlər.

Bədə Səlim xan adam göndərib və vasitələr salıb, Rusiyyə dövlətinə tabe olub xidmət edibdir. *Rusiyyə dövləti Səlim xana xanlıq fərmanı verib, saldat və qoşun veribdir.* Səlim xan da Rusiyyə dövlətinə xərc veribdir, neçə müddət ixlas ilə qulluq edibdir.

Səlim xanın arvadı [Tutu bəyim] Qarabağlı İbrahim xanın qızıydı. İbrahim xanı rus qoşunu Qarabağda həlak edibdirlər. Səlim xan Rusiyyə dövlətindən rugərdan olub, Nuxuda olan rus qoşunlarının çinovniklərin[3] həlak etdirib, **saldatları bəylərə nökər veribdir.**

Rusiyyə dövləti Səlim xanın bu hərəkətlərin və işlərin eşidib Səlim xana tənbeh etməkdən ötrü qoşun və yanaral [Nebolsini] göndəribdir. Rus qoşunu Nuxunun ətrafına, *Oryat* qəryəsinin yanına gəlib, nüzul edib.

Rus qoşununun sərkərdəsi yanaral [Nebolsin] Səlim xana yazıbdır ki, etdiyi o pis işlərdən[4] peşman olub, Rusiyyə padşahına itaəti və xidməti qəbul etsin. Rusiyyə padşahı rəhmdildir, onun təqsirin əfv edib güzəşt elər.

Səlim xan da *Nuxunun ayağında* çəpər və səngər qayırıb, qoşun cəm edib o səngərdə oturub, itaəti və yanaralın təklifin qəbul etməyibdir.

O yanaral rus qoşunu götürüb, o səngər və şəhər tərəfə hərəkət edib və yürüş götürüb toplar və tüfəng atdırıbdır.

---

[1] Qubaya.

[2] *"Ləzgi"* sözü altında ümumən dağıstanlılar düşünülür.

[3] Zabitlər düşünülür.

[4] Əlyazmada: *"pis işlər və"*.



Nuxunun və Səlim xanın külfətləri və əhibbası *Gələsən və görəsən*'ə getmişdi. Səlim xan Rusiyyə qoşununun kuhşikaf olan[1] top və tüfənglərinə tab gətirməyib və müqabil dura bilməyib, səngərdən çıxıb Gələsən və görəsənə qaçıbdır. Nuxu adamları da oraya gedibdir. ***Səlim xan Gələsən və görəsəndən də qaçıb İrana gedibdir.*** Nuxu adamları da köçüb Nuxuya gəlibdir.

Nuxunu alan yanaral [Nebolsin] Səlim xanın qardaşı ***Fətəli xanı Nuxuda xan tikibdir.***

O əsnada İran şahından *Xoylu Cəfərqulu xan* rugərdan olub, Rusiyyə dövlətinə pənah gətiribdir. ***Rusiyyə padşahı Nuxunun xanlığın Cəfərqulu xana veribdir.*** Cəfərqulu xan neçə il Nuxuda xanlıq edib vəfat edibdir.

Cəfərqulu xan oğlu ***İsmayıl xan*** Rusiyyə padşahının hökmüylə xan olub, bir neçə vaxt xanlıq edib vəfat edib. Oğlu qalmayıb, bir nəfər qızı qalıbdır. İsmayıl xandan sonra Nuxuda xan olmayıb, qəməndatlar olubdur.

*Səlim xan* məzkur İrandan da Rum[2] vilayətlərinə gedib, orada vəfat edibdir. *Süleyman xan* adlı bir oğlu Rusiyyə dövlətinə xidmət edirdi; Qarabağda vəfat edibdir. Bir qızı da Nuxudadır. Mabəqi[3] övladları İrandadır.

*Məhəmmədhəsən xan* da İrandan Rum vilayətinə gedib, orda qərar duta bilməyib, qayıdıb *Tiflis*'ə gəlibdir. Bir neçə müddət Tiflisdə sakin olub, Rusiyyə xəzinəsindən ona donluq verilirdi.

Bir neçə müddətdən sonra Məhəmmədhəsən xanı *Hacı Tarxan*[4] vilayətinə apardılar[5], orada vəfat edibdir.

[Məhəmmədhəsən xanın] öyük qızı *Tutu ağa*'nı İsmayıl xan almışdı, onun arvadıdır.

Məhəmmədhəsən xanın *Abdulla ağa, Əbdürrəhim ağa* və *Haşım ağa* adlılar üç oğlanları özündən sonra Nuxuda vəfat edibdir.

*Fətəli xan* da Nuxuda vəfat edibdir və *Kərim ağa* adlı bir oğlu var idi, o da Nuxuda vəfat edibdir[6].

**Fi şəhri-cəmadiyüs-sani səneyi-islamiyyə 1283 (=oktyabr 1866).**

---

[1] Dağı parçalayan.

[2] Türkiyə.

[3] Qalan.

[4] Həştərxan.

[5] Ruslar onu həmin şəhərə sürgün etmişdilər.

[6] 13 yanvar 1859-da.

# *Hacı Seyid ƏBDÜLHƏMİD*



## Şəki xanları və onların nəsilləri

## (Dər bəyani-əhvalat və silsileyi-xəvanini-sələfi-Şəki)[1]

### Bir neçə söz

*1909-uncu ildə Şəkidə şəkili* ***Hacı Yaqub əfəndi Əfəndizadə*** *kütübxanəsindən əldə etdiyim bu tarixçə gələcəkdə yazılacaq* ***"Azərbaycan tarixi"*** *nin Şəki qismi üçün mühüm bir vəsiqə və dəyərli bir material ola biləcəkdir. Müsənnifi haqqında isə istər Hacı Yaqub əfəndinin, istər calutlu*[2] ***Molla Abbas*** *'ın verdikləri məlumat bir-birlərinə uyğun və mütabiqdir. Onlarca, bu tarixçənin müsənnifi* ***Seyid Əhməd Çələbi oğlu Seyid Hacı Əbdülhəmid əfəndi*** *dir ki, hicri 1210-da*[3] *Şəki şəhərində anadan olaraq, imam* ***Hacı Məhəmməd əfəndi*** *ilə müdərris* ***Hacı Abdulla əfəndi*** *lərdən də zəmanının elmini təhsil etmişdir. Təhsilini bitirdikdən bir az sonra bir ara səyahətə çıkmış, Məkkə, Mədinə, Misir, Qahirə, İsgəndəriyyə, Şam, Beyrut, İstanbul, Trabzon şəhərlərini gəzərək Tiflisə gəlmişdir. Nəhayət, bir müddət Qazax, Gəncə şəhərlərində oturduğu kimi, iki il də Şamaxı şəhərində sakin olmuşdur.*

***Seyidlərin nəcabətləri təhqiq olunan komisyonda da birinci calis*** *təyin olunmaqla bərabər,* ***qırx ildən də artıq şəriət məhkəməsində yenə birinci calislik vəzifəsini ifa ilə o məhkəməni idarə etmişdir.*** *Bu xidmətlərinə mükafat olaraq çar hökumətindən üç qızıl saat, bir qızıl ənfiyədan*[1] *və bir cavahirli qızıl yüzük və ildə də iki yüz manat məvacib ilə təltif edilmişdir. Seyid Hacı Əbdülhəmid əfəndinin tərcümeyi-halı ilə yazdığı tarixçəsi də bir-birləri ilə rabitəli və əlaqədardır.*

*Müsənnif adi bir əfəndi və məruf bir ruhani olmaqdan həzz almamış və ona görə də səyahətləri ilə özünü narahat edərək istirahətini də pozmağa cürət etmiş və mövzuyi-bəhsimiz olan bu tarixçəni də yaman-yaxşı yaza bilmişdir. Bununla Şəkiyə aid tariximizin bəzi nöqtələri də aydınlaşmağa başlayacaqdır. Hələ* ***"Əbdüllətif qazi tarixi"***[2] *adı ilə məhşur olan kitabça da bu tarixçə ilə yoklanıb sınana biləcəkdir. Təəssüf olsun ki, bu gün əlimizdə vur-dut yalnız bircə nüsxə vardır*[3]*. Başqa nüsxələr ilə müqabilə edilmədən*[4]*, olduğu kimi təb və nəşr etməyə məcburuq. Gələcəkdə tarixçənin ikinci nüsxəsi ələ keçərsə daha da işlənilmiş və elmi bir surətdə təb və təmsil ediləcəkdir. Tarixçəyə mənim çox az xeyrim tokuna bildi ki, o da qaraladığım bəzi qeydlər, əlavə etdiyim Nadir şahın üç fərmanından ibarətdir*[5]*.*

**Salman MÜMTAZ**

Pirani-kühənsal[6] sələflərin rəvayət və əxbaratlarından mənqul olunubdur[7] ki, 848 səneyi-islamiyyədən müqəddəmdə[8] Şəki vilayətində müstəqillən hakim və xan olmayıb, ancaq kəntxuda və rişi-səfid[9] səlah və tədbirləriylə ümuratların[10] dolandırıblar.

---

[1] Mətn buradan götürülərək verilir: ***Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri. - Azərbaycan tarixinə dair materiallar. 3-üncü buraxılış.*** Bakı: Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu nəşriyyatı, 1930. Əsər çağdaş *imlamıza* uyğunlaşdırılıb. Düz mötərizə [ ] içərisindəki sözləri mətnə biz artırmışıq.

[2] *Calut* kəndi indi Oğuz rayonundadır.

[3] Miladi 1795/96-da.



---

[1] Burunotu qabı.

[2] S.Mümtaz bu əsəri Kərim ağa Fatehin yazdığını sübut edib.

[3] Bu nüsxə, çox güman ki, Salman Mümtazın məhv edilmiş kitabxanasında ("Kitabxaneyi-Mümtaziyyə"də) olduğundan bu gün əldə yoxdur.

[4] Qarşılaşdırılmadan, tutuşdurulmadan.

[5] Fotosurətləri verilmiş həmin fərmanları bu nəşrə salmadıq.

[6] Qocaman.

[7] Danışıq və xəbərlərindən nəql edilibdir.

[8] Miladi 1444/45-dən qabaq.

[9] **Ağsaqqal.** (Bu nəşrin özündə olan qeydlər qara rəngdə verilir).

[10] İşlərini.

Haman tarixdə ***Candar Qara keşiş***[1] ***oğlu*** müsəlman olub[2], adını ***Əlican*** qoyubdur. O vaktlarda İran vilayətlərinin əmirlərinin əsgərləri, Şəkidə xan və hakim olmadığından, şəbxun gətirib[3] qarət və çok əsir aparırlarmış. Əlican çok aqil, kardan, şəci[4] şəxs imiş. Nuxunun[5] və Şəkinin camaatları[6] ittifaq edib, İran qarətgərlərinin şərlərindən əmin olmaqdan ötrü *Əlicanı Nuxuda hakimi-zübdə*[7] *edib xan təyin edibdirlər* ki, Şəki vilayətini mühafizət edib ümuratlarını dolandırsın. Bu da əhsən surətlə dolandırıb. 861-inci sənədə[8] vəfat edib.

Oğlu ***Qutul*** nam[9] onun məqamında[10] xan olub, vasitələrlə İran şahından xanlıq fərmanın da alıb, Şəki vilayətində xanlıq edibdir. [...] sənədə[11] vəfat edib. Oğlu ***Şəki xan*** adlı, xan olubdur. Bu da [...] sənədə vəfat edib, oğlu ***Həsən sultan*** onun məqamında xan olubdur.

Sonra *Tiflis* valisi *Əlvənd xan* ilə Həsən sultanın mabeynlərində[12] ədavət peyda olub. Neçə illər Əlvənd xan qoşun gətirib,

---

[1] Bizcə, *"Qara keşiş"* ad bildirmir, *"böyük keşiş, yepiskop"* mənası verir.

[2] Şəki Azərbaycanda xristianlığın yayıldığı ilk mərkəzlərdəndir. Təsadüfi deyil ki, Qafqazda ilk kilsə IV yüzildə məhz Şəkinin Kiş kəndində tikilib. Hələ orta əsrlərdən özünü *"ərmən"* adlandıran dincə xristian, ancaq milliyyətcə türk soydaşlarımız Şəkidə də göstərilən tarixədək müsəlmanlaşmamışdı. (Sonralar *haylar* - indiki təcavüzkar *ermənilər* türk *ərmənlərin* adını və tarixini mənimsədilər. Geniş məlumat üçün bax: ***Firidun Ağasıoğlu. Haylar Ərmənistanı necə oğurladılar, yaxud N.Gəncəvinin Şirini erməni qızıdırmı.*** Bakı, "Kür" nəşriyyatı, 2000).

[3] Gecə basqını edib.

[4] Şücaətli.

[5] Bu qaynaqda hər yerdə *"Noxu"* verilib, biz *"Nuxu"* etmişik.

[6] H.S.Əbdülhəmid də *"Nuxu"* dedikdə Şəki şəhərini, *"Şəki"* dedikdə Şəki vilayətini (xanlığını) düşünür.

[7] Seçilmiş ağa.

[8] Miladi 1456/57-də.

[9] Adlı [birisi].

[10] Yerində.

[11] Burada və bir çox başqa cümlələrdə tarix yeri boş buraxılıb.

[12] Aralarında.



Həsən sultan ilə cəngə gəlib; İran şahı[1] *Şah İsmayıl* Həsən sultana ianə edib[2]. Əlvənd xan Həsən sultana qalib ola bilməyib, müraciət edib[3].

Şah İsmayılın vəfatından[4] sonra Əlvənd xan külli qoşun götürüb Həsən sultan üstə cəngə gələn vaktda Həsən sultan da Şəki vilayətinin qoşunlarını cəm edib Əlvənd xanın qarşısına gedib. *Car* vilayətindən *Padar* kəndinin pişgahında[5] cəngləri vaqe olub, Həsən sultan məqtul olub[6], qoşunları da məğlub olubdur[7]. Əlvənd xan da muraciət edib Tiflisə gedibdir. Həsən sultanın nəşin gətirib *Daşüz*'lə mövsüm[8] yerdə dəfn edibdirlər.

Oğlu ***Dərviş Məhəmməd xan*** atasının məqamında 914-üncü sənədə[9] xan olub[10], İran şahı *Şah Təhmasib Şah İsmayıl oğlu*'na itaət etməyib, təmərrüd edibdir[11]. Şah Təhmasib Dərviş Məhəmməd xanın bu hərəkatından qəzəbnak olub. İrandan qoşun gətirib, Dərviş Məhəmməd xana tənbeh[12] etməyə Şəkiyə gəlibdir[13]. Dərviş Məhəmməd xan qaçıb miyani-kuhda[14] *Gələsən-görəsən* ilə mövsüm olan vadidə təhəssün edibdir[15].

*Nuxu* və *Şəki* adamlarının bəzisi Gələsən-görəsənə və bəzisi Nuxudan yukarıda *Kiş* qalasına gedibdirlər. Şah Təhmasib hər

---

[1] Müəllifin Şah İsmayıl, Nadir şah, Ağaməhəmməd şah və başqalarını *"İran şahı"* adlandırması yanlışdır. Onlar ***Azərbaycan dövlətləri olan*** nəhəng *Səfəvilər, Əfşarlar* və *Qacarlar* imperiyalarını qurmuş ***Azərbaycan imperatorlarıdır.*** Həm də *"İran"* dövlət adı olaraq yalnız 1934-də rəsmən qəbul edilib.

[2] Hadisə miladi 1521-də olub.

[3] Qayıdıb, dönüb.

[4] Şah İsmayıl 19 rəcəb 930-da (23 may 1524-də) dünyasını dəyişib.

[5] **Qabağında.**

[6] Öldürülüb.

[7] Bu döyüş 1524-də olub.

[8] Daşüz adlanan.

[9] Miladi 1508/09-da.

[10] Bu tarix doğru deyil; 930 (1524) olmalıdır.

[11] Baş qaldırıb, itaət etməyib.

[12] Kitabda: *"tənbiyə"*.

[13] 958 (1551)-də.

[14] Dağlar arasında.

[15] Sığınıbdır.

gün o qalanın üstə qoşun göndərib, axirüləmr Kiş qalasını fəth etdirib, qalanı dağıtdırıbdır.

Dərviş Məhəmməd xan bu haləti görüb Gələsən-görəsəndən fərar edəndə şahın adamlarının əlinə giriftar olub; ***başın kəsib şahın hüzuruna gətiriblər***. Şəki xəlayiqi də istiman edib[1]; şah əfv eləyib, buyruq veribdir, hər kəsə gəlib məqamında sakin olublar. Dərviş Məhəmməd xanın oğlu *Bağı bəy* də şah hüzuruna gəlib, şah öldürtməyibsə də xanlıq hökumətini də Bağı bəyə verməyib.

Nuxu adamlarından ***Hüseyncan*** adlı bir şəxsi müntəxib edib *məliklik* fərmanı veribdir ki, Şəkinin ümuratlarını dolandıra. Məlik Hüseyncan da [...] sənədə vəfat edib, oğlu ***Qayım yüzbaşı*** şahın əmriylə məliklik edibdir. [...] sənədə Məlik Qayım vəfat edib. Oğlu ***Məlik Əhməd*** adlı Nuxuda məlik olub Şəki vilayətinin hökumətin dolandırıbdır.

Şahın fərmanı ilə məzkurül-əsami[2] məliklər neçə il ki məliklik ediblər, Şəki vilayətinin xarc və tövcülərin şaha verməyiblər. Şah o illərin daxodunu[3] məzkur məlik Əhməddən istədibdir, verməyə qüdrəti olmayıb.

Şah, Məlik Əhmədin ixtiyarın qət etdirib[4], Nuxu əşxaslarından ***Hüseynqulu*** adlını məlik təyin edib fərman veribdir. [...] sənədə Məlik Hüseynqulu vəfat edib.

Əvvəlki məliklərin nəslindən ***Əlimərdan*** adlı şah fərmanıyla məlik olub, Şəki vilayətinin hökumətini dolandırıbdır. [...] sənədə Məlik Əlimərdan vəfat edib. Onların nəslindən ***Məlik Nəcəf*** şah fərmanıyla Nuxuda məlik olub. Rəiyyətlərə çox zülm və təəddilər[5] edibdir. Rəiyyətlər bunun zülmündən şaha şikayət ərizəsi göndəriblər.

Şah əmriylə Nuxu əşxasları fövqdə[6] məzkur Dərviş Məhəmməd xanın nəsli və nəsəbindən ***Çələbi*** adlını özlərinə vəkili-zübdə[7] edib. Şah da Çələbiyə vəkillik fərmanı veribdir ki, Məlik Nəcəf üstə bakıcı ola.

---

[1] Aman istəyib.
[2] Adları çəkilən.
[3] Mədaxilini.
[4] Burada: əlindən alıb.
[5] Zülm, əzab.
[6] Yuxarıda.
[7] Seçilmiş vəkil.



Məlik Nəcəf onun mərifətiylə ümuratları dolandırıb, bir neçə müddət o hal üzrə güzəranları olub; axırda Məlik Nəcəf Çələbinin kəlamına guş verməyib[1], xəlayiqə zülm və sitəmə şüru edibdir[2]. Çələbi də xəlayiqi üstünə[3] cəm edib Məlik Nəcəfi qətlə yetiribdir[4]. Bədə[5] xəlayiq ***Çələbini xan nəsb edibdirlər***[6].

Çələbi xanın nəsli belədir ki: **Çələbi xan bin kətxuda Qurban bin Əlican bin Əsgər bəy bin Əlican bəy bin Bağı bəy bin Dərviş Məhəmməd xan...**

İran şahı *Nadir şah* Hacı Çələbi xanın o hərəkətlərin və əməllərin eşidib, qoşun götürüb Hacı Çələbi xana tənbeh əzminə Şəki vilayətinə gəlibdir[7]. Hacı Çələbi xan da Nuxunun adamlarını götürüb *Gələsən-görəsən*'ə gedibdir. Nadir şah da Gələsən-görəsən dağının damənində[8] *Gavan*'la mövsüm yerdə[9] nüzul edibdir[10]. Hacı Çələbi xanın adamları gecələr gəlib, miyani-meşələrdən[11] tüfəng atıb şahın ordusuna xəsarət veribdirlər.

Nadir şah oradan intiqal edib[12], ***Nuxunu yandırıb***[13]. Bir sahəti-vəsiədə mütəməkkin olub[14]. Bir neçə kərə Gələsən-görəsənə qoşun göndərib, qalib ola bilməyib, müraciət edib, İran tərəfinə gedib, *Muğan* [adı] ilə məşhur yerdə nazil olub, sakin olubdur.

Hacı Çələbi xan da adamları ilə Gələsən-görəsəndən gəlib Nuxuya. Nadir şah Muğandan qoşun göndəribdir ki, Nuxunu qarət edib Hacı Çələbi xanı dutub aparalar. Gəlib gecə Nuxu-

---

[1] Qulaq asmayıb.
[2] Başlayıb, girişib.
[3] Başına.
[4] **Öldürülən Məlik Cəfərdir. Məlik Cəfər Şəkinin son məliki olaraq həm də Məlik Nəcəfqulunun qardaşı oğludur. Təfsilat üçün fərmanlara müraciət oluna. *[Mümtaz]*.**
[5] Sonra.
[6] Tikiblər, qoyublar.
[7] 1744-də.
[8] Ətəyində.
[9] *Gavan* adlanan yerdə. Buranın əsl adı *Kotan düzü*'dür.
[10] Düşüb.
[11] Meşələrin arasından.
[12] Yerini dəyişib.
[13] 1745-in fevralında.
[14] Geniş bir sahədə yerləşib.

nun bir tərəfin qarət edib, Hacı Çələbi xanı duta bilməyib qayı-
dıb gediblər.

Bədə Hacı Çələbi xan, oğlu *Həsən ağa*'nı şah hüzuruna gön-
dəribdir ki, qarət mallarını və əsirlərini təvəqqe edə. Şah da tənə
və sərzənişlə əmvali-mənhubələrini[1] verdirib və əsirlərini mü-
rəxxəs edibdir.

Bədə Nadir şah Xorasana gedib, orada məqtul olub[2]. İran[3]
sahibsiz qalıb. *Hacı Çələbi xan da qoşun götürüb İrana - Təbri-
zədəkin gedibdir və qarət edib qayıdıb gəlibdir.*

İranda *Əmiraslan sərdar* şahlıq ümuratların dolandıran
olub. Qoşun götürüb Şəki üstə gəlibdir ki, Hacı Çələbi xana
tənbeh edə. Hacı Çələbi xan, oğlu *Həsən ağa*'nı qoşunla o sər-
darın qabağına cəngə göndərib. ***Həsən ağa cəngdə məqtul olub***,
o sərdar qayıdıb İrana gedibdir.

Ondan bir müddət sonra Hacı Çələbi xan azarlayıb, vəfat
edibdir 1168-inci sənə[4]. Sonra üç nəfər oğlu: ***Ağakişi xan, Hacı
Əbdülqadir xan, Cəfər ağa*** və bir nəvəsi - ***[Məhəmməd]hüseyn
xan*** (davada məqtul olan Həsən ağanın oğlu) qalıbdır.

Hacı Çələbi xandan sonra oğlu ***Ağakişi xan*** Nuxuda xan olub,
Qumuq xanı *Məhəmməd xan*'ın qızın alıbdır. Məhəmməd xanla
Hacı Çələbi xanın arasında bir cüzi ədavət varmış. Məhəmməd
xan o müqəddəmədən[5] bir neçə il sonra *Ərəş* mahalına gəlib, Ağa-
kişi xanı öz hüzuruna təklif edib və qətlə yetirib[6]. Gəlib Nuxunu
zəbt edib və Hacı Çələbi xanın mədfunat[7] pulların çıkardır.

Bu halda *Hacı Əbdülqadir xan* həccə getmiş imiş və *Cəfər
ağa* da mütəvari[8] olub gizlənib imiş və *Hüseyn xan* da Məhəm-
məd xanın sitəmindən fərar edib Şamaxı xanı *Ağası xan*'dan is-
timdad edibmiş[9]. Ağası xanın Hüseyn xana qoşun verməyin
Məhəmməd xan eşidib, Nuxudan fərar edib Qumuğa gedibdir.

---

[1] Qarət olunmuş mallarını.
[2] Öldürülüb (11 cəmadiyül-axir 1160/20 iyun 1747-də).
[3] Əslində: *Əfşarlar imperiyası.*
[4] Miladi 1755-də.
[5] Hadisədən.
[6] 1759-da.
[7] Basdırılmış.
[8] Qaçaq.
[9] Kömək istəyibmiş.



***[Məhəmməd]hüseyn xan*** da gəlib əmisinin məsnədində[1] xan
olubdur 1184-üncü sənədə[2]. *Cəfər ağa* da zaviyədən çıkıb, xan-
lıq iddiasına düşübdür. Hüseyn xan Cəfər ağanı qətlə yetiribdir.

*Hacı Əbdülqadir xan* Məkkədən gəlib bu haləti görəndə üç nə-
fər bəylərlə Nuxudan fərar edib, gedib *Kür* kənarında *Dardoqqaz-
lar* mövsüm olan məqamda sakin olubdur. Ətraf və əknaf[dan]
üstünə külli adam cəm olub, adını ***Hacı xan*** təsmiyə ediblər[3].

Hüseyn xan, oğlu *Məhəmmədhəsən xan*'ı barışıq üçün əmisi
Hacı xanın yanına göndəribdir. Bu da Məhəmmədhəsən xanı
dutdurub Qarabağ xanı *İbrahim xan*'a göndərib ki, həlak etdirə.
**İbrahim xan Məhəmmədhəsən xanı məxfidə gizlədib, köynəyin
qana bulayıb Hacı xana göndəribdir ki, qətl etdirmişəm.**

Hacı xan neçə müddət orada qalıb, axırda nuxulu *Hacı Rəsul
bəy*'i bir dəstə adamla gizlin Nuxuya göndəribdir. [Hacı Rəsul
bəy] bəğtətən[4] Nuxu qalasına daxil olub, Hüseyn xanla cəng
edib, Hüseyn xanı məcruh eləyib[5], qalanı zəbt edibdir. Hacı xa-
na adam göndərib. Bu da gəlib ***Hüseyn xanı boğdurub öldürüb***
1198-inci sənədə[6], Nuxuda xan olubdur. Bir müddət xanlıq edib.

Məzkur İbrahim xan *Məhəmmədhəsən xan*'ı zühura çıkarıb
*Car* vilayətinə göndərib. Car vilayətinin əşxasları qoşun götürüb
Məhəmmədhəsən xanı Nuxuya gətiribdilər. Hacı xan fərar edib
*Şirvan*'a gedibdir. Məhəmmədhəsən xan Nuxuda xan olub, qoşun
götürüb Hacı xanı dutmağa Şirvana gedib və ***Hacı xanı dutub
qətlə yetirib,*** qayıdıb Nuxuya gəlib hökumətə məşğul olubdur.

[...] sənədə ***Məhəmmədhəsən xan*** Nuxuda müstəqillən xan olan-
dan sonra qardaşı *Fətəli xan*'ın gözlərin çıkartdırıb kor eləyibdir.

Axır[ıncı] qardaşı ***Səlim xan*** Fətəliyə olan siyasəti görüb,
mütəvəhhiş olub fərar edib[7]. Müddəti-mütəmad[8] *Car*'da qalıb.
Cardan və Avardan qoşun cəm edib götürüb, Nuxuda xan
olmağa Məhəmmədhəsən xanla cəngə gəlib. *Göynük* qəryəsi-

---

[1] Taxtında.
[2] Miladi 1770/71-də. Bu tarix yanlışdır: 1172 (1759) olmalıdır.
[3] Adlandırıblar, deyiblər.
[4] Qəflətən, gözlənilmədən.
[5] Yaralayıb.
[6] 1783/84-də. Tarix yanlışdır: 1194 (1780) olmalıdır.
[7] Qorxuya düşərək qaçıb.
[8] Uzun müddət.

nin[1] şərqi canibində[2] davaları vaqe olub. Məhəmmədhəsən xan məğlub olub, fərar edibdir.

Bu halda da İran sərdarı *Dəvəli Mustafa xan* külli qoşunla Şəkiyə gəlib, *Xaçmaz* mahalında *Hacı Pirəhməd çəmənı*'ylə mövsüm yerdə nüzul edib mütəməkkin olubdur. Məhəmmədhəsən xan o sərdarın yanına istimdada gedibdir. O sərdar Məhəmmədhəsən xanı dutdurub, gözlərin çıkartdırıb Qarabağa Ağaməhəmməd xan hüzuruna göndəribdir[3]. O sərdarın özü də qayıdıb İrana gedibdir.

***Səlim xan*** da 1210-uncu sənədə[4] gəlib Nuxuda xan olubdur. Ağaməhəmməd şah haman sənədə *Şişə* qalasını fəth edə bilməyib, Məhəmmədhəsən xanı da götürüb İrana aparıbdır. Ağaməhəmməd şah bir neçə müddət qalıb, Məhəmmədhəsən xanı da məhbus götürüb, Şişə qalası üstə külli qoşunla hərəkət edibdir. Qarabağda Ağaməhəmməd şah qətl olunub, Məhəmmədhəsən xan bisahib qalıb.

Şirvanlı *Mustafa xan* Məhəmmədhəsən xanı Şirvana aparıb, külli qoşunla ***Məhəmmədhəsən xan***'ı gətirib, Nuxuda xan nəsb edib gedibdir. Səlim xan da tab gətirməyib, qaçıb Qarabağa qayınatası *İbrahim xan* yanına gedibdir.

Bir neçə il müddəti-mədid[5] Məhəmmədhəsən xan Nuxuda xanlıq edib, axırda *Mustafa xani-Şirvan* ilə Məhəmmədhəsən xanın aralarında ədavət peyda olub, Şirvanlı Mustafa xan Məhəmmədhəsən xanın kinəsinə[6] Qarabağdan *Səlim xan*'ı apardıb, götürüb Məhəmmədhəsən xanla cəngə gəlib. Məhəmmədhəsən xanın tabü tavanı olmayıb, əczlə Şirvanlı Mustafa xanın yanına gedibdir. Mustafa xan Məhəmmədhəsən xanı və Səlim xanı götürüb Şirvana aparıb.

[Mustafa xan] Şirvan bəylərindən ***Şeyxəli bəy***'i göndəribdir ki, gedib Nuxuda *naib* olub xanlıq ümuratların dolandıra. Nuxu adamları Şeyxəli bəyin gəlməyi müqqədəməsin eşidib o işə razı olmayıb. Məhəmmədhəsən xan[ın] qardaşı ***Fətəli xan***'ı Nuxuda xan təyin edibdirlər.

Məzkur *Şeyxəli bəy* Fətəli xanın Nuxuda xan olmağın eşidib,

[1] Kəndinin.
[2] Gündoğan tərəfində.
[3] Bu zaman (1795-də) Ağaməhəmməd şah Şuşanı mühasirəyə almışdı.
[4] Miladi 1795-də.
[5] Uzun müddət.
[6] Acığına.



yoldan qayıdıb Şamaxıya gedib, o əhvalatı Mustafa xana məlum edibdir. Mustafa xan Məhəmmədhəsən xanı Şamaxıda saxlayıb, qardaşı *Səlim xan*'ı mürəxxəs edibdir.

***Səlim xan*** da Ərəş mahalına gəlib, ətraf və əknaf vilayətdən külli cəmiyyət üstünə cəm edib, gecə Nuxuya hərəkət edib, gecə bəğtətən ***Nuxu qalasına bilacəng[1] daxil olub***, Fətəli xanı əzl edib[2], xan olubdur. Bir neçə müddət xanlıq edib.

Və Rusya dövlətinə *Səlim xan* tabe olub, Rusyanın imperatoru ona xanlıq fərmanı veribdir. O da ixlasla itaət edirmiş. Bir neçə müddətin mürurundan sonra Rusya qoşunu *Qarabağlı İbrahim xan*'ı Qarabağda qətlə yetiribdir. Səlim xan İbrahim xanın o vaqiəsindən mütəvəhhiş olub Rusya dövlətindən rugərdan olubdur[3]. Rusya qoşunu Səlim xana tənbeh etməyə gəlibdir. Səlim xan fərar edib İrana gedibdir[4].

Rusya qoşununun generalı [Nebolsin] Nuxunu zəbt edib, ***Fətəli xan***'ı xan nəsb edibdir.

O əsnada İran xanı ***Xoylu Cəfərqulu xan*** İran şahından rugərdan olub *Tiflisə* gəlib. Rusya imperatoru Nuxunun xanlığın Cəfərquluya verdi. 7-8 il xanlıq edib vəfat etdi. Oğlu ***İsmayıl xan*** Nuxuda xan olub 3 (üç) ildən sonra vəfat etdi[5]. Oğlu, övladı qalmadı.

Bundan sonra Nuxuda *komendant* təyin olundu, xan olmadı[6].

***Səlim xan***'ın övladları İrandadır. Bir oğlu *Süleyman xan* Qarabağda vəfat edib, övladları oradadır; adları naməlumdur. Və bir qızı da Nuxuda *Mahmud ağa*'da idi (*Fəxrənnisa xanım* adlı).

***Məhəmmədhəsən xan*** *Hacı Tahirxan*'da (*Həştərxan*'da) vəfat edibdir 1246 rəbiül-əvvəl[7]. Nuxuda 3 nəfər oğlu: *Abdulla ağa, Əbdürrəhim ağa* və *Haşım ağa* namlar olub[8].

[1] Döyüşsüz.
[2] Devirib.
[3] Üz çevirib.
[4] 1806-da.
[5] Yanlışdır. İsmayıl xan 5 il (1814-1819) xanlıq edib.
[6] Müəllif yanılır. İsmayıl xandan sonra komendantlıq tətbiq edilsə də ***Səlim xanın oğlu Hüseyn xan*** 1826-nın avqust-oktyabrında Şəkidə xan olmuşdu.
[7] Avqust 1830-da.
[8] Quba xanı *Fətəli xan*'ın (1758-1789) arvadı *Bəyim xanım* Məhəmmədhəsən xanın bacısı, Məhəmmədhəsən xanın arvadı *Huripeykər (Hürü) xanım*'sa Fətəli xanın bacısıydı. Huripeykər xanım adı çəkilənlərdən Abdulla ağanın anasıdır.

Abdulla ağanın iki nəfər oğlu olub: *Hüseyn ağa, Cəfər ağa* namlar.

Və Haşım ağanın da iki nəfər oğlu olub: *Sadıq ağa, Əbdülhəmid ağa* namlar və 3 nəfər qız övladı olub.

Əbdürrəhim ağanın bir qız övladı var imiş. O da *Haşım ağa oğlu Əbdülhəmid ağa*'nın övrəti olub.

***Fətəli xanın*** *Kərim ağa*[1] adlı bir oğlu var idi, vəfat edib[2]. 4 nəfər oğlu və iki nəfər qızı qalıbdır: *Əbdülhəmid ağa, Mustafa ağa*[3], *İsmayıl ağa, Cəfər ağa* namlılar.

Və ***Hacı xan (Hacı Əbdülqadir xan) Hacı Çələbi xan oğlu***'nun oğlu qalmayıbdır. Bir nəfər qız (*Balaxanım xanım* adında) *İlisulu Danyal bəy*'də idi. Onu tərk edib Ruma[4] gedibdir.

Və *Hacı Çələbi xanın oğlu* ***Ağakişi xanın oğlu Balahacı xan***'dır. Bunun oğlu da *Mahmud ağa*'dır. Mahmud ağadan iki oğlan qalıb: *Ağakişi bəy, Mirzə bəy* adlı və iki nəfər də qız qalıbdır.

Məhəmmədhəsən xanın qızı ***Tutu ağa*** *İsmayıl xan*'ın arvadı idi; İsmayıl xandan bir qızı var idi *İsgəndər xan*'da və bir qızı *Səkinə xanım*, o da *Zaman bəy*'də.

Məhəmmədhəsən xan rəiyyətzadə çox arvad alıb.

*Xeyrənnisa xanım* Tutu ağanın anasıdır.

*Hürü (Huripeykər) xanım* Abdulla ağanın anasıdır.

*Cavahir xanım* Əbdürrəhim ağanın anasıdır.

Haşım ağanın anası çoxdan vəfat edibdir, adı bilinmədi.

Fətəli xanın arvadı *Xurşid xanım* Kərim ağanın anasıdır.

Və Səlim xanın arvadı Qarabağlı İbrahim xanın qızıdır; İranda vəfat edib, adı məlum deyildir[5].

---

[1] **Kərim ağa ədib və şair bir şəxs olub təxəllüsü *"Fateh"*dir. Əbdüllətif qaziyə Dorn və Xanıkovun isnad verdikləri *Şəki xanlarının tarixi* Əbdüllətif qazinin olmayıb Kərim ağanındır. Təfsilat üçün "Maarif işçisi" məcmuəsinin 2-3 (43-44) nömrəsindəki məqaləmə müraciət oluna. *[Mümtaz].***

[2] 13 yanvar 1859-da.

[3] **Mustafa ağa Kərim ağa "Fateh"in oğlu olub, şair və təxəllüsü də "Şuxi"dir. Türkcə divanı qeyri-mətbudur. *[Mümtaz].***

[4] Türkiyəyə.

[5] **Səlim xanın arvadının adı *Tutu bəyim*'dir ki, İbrahim xan Cavanşirin qızıdır. Kütübxanəmdə olan bəzi vəsiqələrlə bərabər "Kafkasiya Arxeoqrafiya Komisyonu aktları" da bunu təsbit edir (III cild, səh. 333-ə müraciət oluna). *[Mümtaz].***





## *Mirabbas MİRBAĞIRZADƏ*

# Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat[1]

Tarixlərdən alınan məlumata görə, miladdan əvvəlki dövrlərdə Şəki qəzasında *"Alban"* və sonrakı ilk dövrlərdə isə *"Ağvan"* padşahları hökmranlıq etmişdirlər.

***Miladın 532-nci*** yılında İranın Sasani hökmdarlarından olub adil ləqəbiylə məşhur ***Xosrov Ənuşirvan*** Dərbənd, Azərbaycan[2] və Ermənistan[3] ölkələrini ***xəzərlərin*** hücumuna qarşı müdafiə etmək məqsədiylə məzkur ölkələrdən yerli bir müdafiə qüvvəti yaratmaq planını tərtib edir. Bunun üçün Azərbaycanda *"Şirvanşah"* adı altında yeni bir hökumət təşkil edir və Ermənistan-

---

[1] Mətn ***"Maarif işçisi"*** jurnalının bu saylarından götürülüb: **1927:** №1/21 (ss.63-67), №2/22 (ss.105-108), №9/29 (ss.77-86); **1928:** №1-2/33-34 (98-107), №5-6/37-38 (ss.115-122), №7-8/39-40 (ss.153-157). Əsəri qısaltmadan və dilinə toxunmadan veririk. Açıq-aydın mətbəə yanlışlıqlarını (məsələn, *Çar* < Car, *əl yazılı* < əl yazısı, *şəpə* < təpə, *Lisateviç* < Lisaneviç... kimi) düzəltmişik. Düz mötərizə [ ] içərisindəki artırmalar bizimdir.

[2] Ənuşirvan dövrünün qaynaqlarında *"Azərbaycan"* adı altında başlıca olaraq indiki Cənubi Azərbaycan ərazisi düşünülürdü.

[3] Sovet tarixçiləri "Ermənistan" adı altında qəsdən indiki Ermənistanı nəzərdə tuturdular. Bu, tarixi gerçəkliklə daban-dabana zidd olan kökündən yanlış fikirdir, çünki orta çağ tarixçiləri (xüsusən ərəblər) paytaxtı öncə Qəbələ, sonra Bərdə olan, **özünü *ərmən* adlandıran *türk*, ancaq xristain soydaşlarımızın yaşadığı** Albaniya'ya *"Ərməniyyə", "Ərmənistan"* deyirdilər və sonradan indiki ***haylar ərmən*** adını oğurlamaqla "Ərməniyyə" ("Ermənistan") tarixini də mənimsədilər. (Geniş məlumat üçün bax: ***Firidun Ağasıoğlu. Haylar Ərmənistanı necə oğurladılar, yaxud N.Gəncəvinin Şirini erməni qızıdırmı.*** Bakı, "Kür" nəşriyyatı, 2000).

dan[1] Dərbəndə qədər olan ölkələrin xarici düşmən ***xəzərlər***'dən müdafiə vəzifəsini Şirvanşah hökumətinə tapşırır[2].

Bu vəchlə təsis edilmiş yeni hökumət məmləkətinə Azərbaycanın bütün şimal hissəsi daxil olduğu kibi, təbii olaraq, *Şəki* qəzası da daxil edilmiş olur və bütün bu sahələr *"Şirvan ölkəsi"* adlanır.

***Xəzər xaqanı*** ilə Roma imperatoru ***Herakliyus***[3] müttəfiq olaraq ***miladın 622-29-ncu*** yıllarında İran şahı ***İkinci Keyxosrov*** əleyhinə müharibə açıb *Tiflis*'i mühasirə etdikləri zaman *xəzər* ordusunun bir hissəsi də Dərbənddən keçərək Şəki-Şirvan sahələrini talayırlar və İran təbəəsi olmaq münasibətilə camaatı qırıb-dağıdırlar. Yerli əhalidən böyük dəstələr təşkil edərək külliyyətli[4] əsir aparırlar.

***642-nci miladidə*** *ərəb* ordusu Azərbaycana gəlir və müvəqqəti olaraq bu sahələri işğal edir. ***653-ncü*** yılda ərəb xəlifəliyi tərəfindən ***Səlman ibn Rəbiə***'nin komandası altında olaraq Şirvan ölkəsinə ərəb ordusu göndərilir. Burada *xəzərlər* ilə vaqe olan müharibədə Səlmanın qoşunu tələf və özü də həlak olur. ***708-nci*** yılda ərəb xəlifəsi ***Müslim*** tərəfindən göndərilən[5] *ərəb* ordusu yenidən Şirvan ölkəsini işğal edir. ***714*** və ***728-nci*** yıllarda *xəzərlər* Şirvan ölkəsinə hücum edirlər və burada bir çoq qətl-qarət yaparaq geri qayıdırlar. ***797-nci*** yılda Azərbaycan əhalisi (Şəki-Şirvan sahələri və Ermənistan camaatı) İran hökumətinin

[1] Müəllif bu cümlədə "Ermənistan" terminini indiki anlamda işlətsə də yerdə qalan hallarda məhz ərəblərin "Ərməniyyə"sini nəzərdə tutur.

[2] Müəllif sovet elmindəki yanlış nəzəriyyələri təkrarlayır. Xəzərlər Azərbaycanda heç də "xarici düşmən" olmayıb, buranın ən qədim yerli sakinlərindəndi. Farsdilli əhalini bölgədə süni şəkildə aparıcı qüvvəyə çevirmək istəyən Xosrov Ənuşirvan türkləri buradan təmizləmək kimi mürtəce siyasət yürüdür və Dərbənddən gələn yeni türk axınlarının qarşısını kəsməyə də əbəs yerə çalışırdı.

[3] Şərqi Roma (Bizans) imperatoru *İrakli* düşünülür.

[4] Çoxlu.

[5] Fakt yanlışdır. Əməvi xəlifəsi *Vəlid ibn Əbdülməlik* (705-715) taxta əyləşəndə öz qardaşı *Məsləmə ibn Əbdülməliki* (Azərbaycan və Ərməniyyə valisi: 710-720, 725-732) 40 min əsgərlə Azərbaycana göndərmişdi.



təhriki ilə ərəblərin əleyhinə qiyam edirlər. ***Roma***[1] və ***Xəzər*** hökumətləri bu haldan istifadəyə çalışırlar. Romalıların təşviqi ilə xəzərlər Azərbaycana və Dərbəndə hücum edirlər. Xəzərlər bu dəfə Dərbənd və Şirvan ölkəsi camaatından yüz binə qədər əsir aparırlar.

***831-nci*** yılda ərəb xəlifəsi[2] tərəfindən ***Haşim ibn Mərvan***'ın komandası altında Şirvan ölkəsinə ərəb ordusu göndərilir və bu sahədə bir neçə bin ərəb mühacirləri sakin etdirilir.

Hüdud[3] mühafizəsi məqsədiylə ümum cahangirlər tərəfindən yapılan tədbirlər kibi ərəblərin də cahangirlik məqsədiylə Azərbaycanda yerləşdirdikləri məzkur ərəb mühacirlərinin övladı hələ də Azərbaycanın Şirvan və Muğan sahələrində bəlli olaraq yaşamaqdadırlar.

***843 miladi*** yılında Şirvan şahı ***Şəhriyar*** ərəb xəlifəliyi ilə əhdnamə bağlayır. Şirvan şahı bu əhdnamə ilə sabiqdə İran hökuməti üçün yapdığı kibi bu dəfə də ərəb hökuməti üçün Şirvan və Dərbənd ölkələrinin xəzərlərə qarşı müdafiə vəzifəsini öhdəsinə götürmüş olur.

***Ümeyyə xəlifələri*** zamanında[4] Şirvan ölkəsi şahları daxili işlərində müstəqil olaraq məmləkəti idarə etməkdə idilər. Yalnız qoşun komandanlığı ərəblərin əlində idi.

***Abbas xəlifələri*** zamanında[5] isə bu istiqlal sıfır dərəcəsinə endirilmişdi. Şirvan şahları bu zaman daxili ərəb hakimlərinə tabe idilər. Yalnız məmləkət sahibi görünmək üçün quru adları var idi. O vaxtlarda Şirvan ölkəsini bəzi vaxt Ermənistan və bəzi vaxt Azərbaycanda bulunan ərəb hakimləri idarə etməkdə idilər.

***1041 miladi*** yılında ***Səlcuq türkləri***'ndən ***Mikayıl (bəy) oğlu Toğrul bəy***[6] Qəznə hökmdarı *Sultan Məsud* əleyhinə qiyam ilə onu məğlub edərək İranın Xorasan, Fars, Əraq, Kürdüstan və ***Azərbaycan*** hissələrində *Səlcuq hökmdarlığı* təsis edir.

[1] Bizans düşünülür.

[2] Bu tarixdə Abbasilərdən *Məmun bin Rəşid* xəlifəydi (813-833).

[3] Sərhəd.

[4] 661-750-ci illər.

[5] 750-1516-cı illər. Abbasilərdən sonra *Osmanlılar* xəlifə oldu (1520-1924).

[6] Qaynaqda: طوغرال بيك . Məhəmməd Toğrul bəy (23.5.1040-4.9.1063).

Toğrul bəyin vəfatıyla qohumlarından yerinə keçən ***Alp Arslan***'dan[1] sonra 1062-nci yılda məşhur ***Məlikşah Səlcuqi***[2] məzkur ölkələri idarə edir. İran sahələrindən başqa Kiçik Asiya (imdiki Anadolu), Gürcüstan və Şirvan ölkələri də Məlikşahın hökmranlıq təsərrüfünə keçir. Məlikşah şair və alim bir hökmdar idi. Alimləri, elmi himayə edirdi. Tarixdə məşhur ***Nizamülmülk***[3] Məlikşahın vəziri idi. Məmləkət onun tədbiriylə idarə olunurdu.

Nizamülmülkün siyasət məntiqi ilə Məlikşah qızını Abbas xəlifələrindən *Müqtədibillah*'a[4] əyallığa verməklə islam Şərqində böyük nüfuzlu bir hökmdar olmağa müvəffəq olmuşdu.

Məlikşah qızını Nizamülmülkün nəzarəti və rəfaqəti altında olaraq Bağdada xəlifə evinə göndərdiyi zaman qızının yanınca qızıl, gümüş və müxtəlif qumaşlar kibi cehiz şeyləriylə yüklü ***910 dəvə*** yürüməkdə idi. Seçilmiş ***altı ata*** yüklənmiş və içəriləri qiymətli cəvahirat ilə dolu ***12 sandıq*** aparılmaqda idi. ***33 baş*** bəyənilmiş at daha aparılırdı ki, bunların üstündə olan yəhərlər almas, yaqut və başqa cəvahirat ilə zinətlənmişdi. Əlavə olaraq ***üç dəvə*** üstündə də müzəyyən məhfil-kəcavələr aparılmaqda idi.

Məlikşahın məzkur qızının toyunda ***4.000 batman*** miqdarında qənd sərf edildiyi qeyd edilmişdir.

Bu təntənəli cehizlərin arasında ***Şəki, Şirvan və Xaçmaz*** (Quba deyil, Şəki Xaçmazıdır) ***ipək məmulatı*** da böyük mövqe dutmaqda idi.

1089-ncu yılda Məlikşah vəfat etdiyi zaman[5] küçük oğlu ***Məhəmməd***[6] Ermənistan və Azərbaycan fərmanfərmalığında[7] bulunurdu və idarə mərkəzi *Gəncə* şəhəri idi. Böyük qardaşı ***Börküyarıq***[8] atasının yerinə şahlıq taxtına əyləşdiyi üçün iki

---

[1] Məhəmməd Alp Arslan (4.9.1063-25.10.1072).

[2] Cəlaləddin I Məlikşah (25.10.1072-20.11.1092).

[3] Xacə Qəvaməddin əbu Əliyyil-Həsən Nizamülmülk (10.4.1018-15.10.1092). Alp Arslanın və Məlikşahın vəziri olub.

[4] Əbülqasim Abdullah Übəddətid-dini-l-Müqtədi bi-Əmrillah (1056-1094).

[5] Tarix yanlışdır. Məlikşah 6.8.1055-də doğulub, 20.11.1092-də zəhərlənərək öldürülüb.

[6] I Məhəmməd Tapar (1105-18.4.1118).

[7] Fərmanfərma *"baş hakim, vali, canişin"* deməkdir.

[8] Rüknəddin Börküyarıq (1.1093-23.12.1104).



qardaş arasında çəkəməməzlik yüzündən bir çoq şiddətli müharibələr başlandı.

İki istibdad heykəlinin zövqü xatirinə bir çoq əhalinin qanı akıdıldıqdan sonra məmləkəti iki hissəyə bölmək vasitəsiylə iki qardaş barışıb davadan əl çəkdilər. Bu vasitə ilə Suriya, Diyarbəkir, Azərbaycan, Muğan, Ermənistan və Şirvan ölkələri ***müstəqil olaraq Sultan Məhəmməd şah Səlcuqi***'nin ixtiyarında qaldı.

Sultan Məhəmməd Abbas xəlifəsi *Müstəzhir*'in[1] şəxsən yanına gedib *Nasiri-əmirəl-mömininin*[2] ləqəbin aldı. 1109-da Sultan Məhəmməd vəfat etdikdən sonra[3] kiçik qardaşı ***[Sultan] Səncər***[4] onun yerinə keçir və xəlifədən *Bürhanəddin* ləqəbini alır. Bundan sonra başqa ölkələr kibi *Şəki-Şirvan* ölkəsi də sıra ilə Səlcuq hökmdarlarından ***Sultan Mahmud, [Sultan Davud], Sultan Toğrul, Sultan Məsud, Sultan Məlikşah, Sultan Məhəmməd İkinci***[5], ***Sultan Süleyman*** və ***Sultan Arslan***'ın[6] hökmdarlıqları altında idarə edilmişdirlər. Bu *Sultan Arslan* Sultan Mahmud bin Sultan Toğrulun oğlu idi, miladın *1176-ncı* yılında vəfat etmişdir. Bunun vaxtında İran və Azərbaycanın ***Nizami, Zəhiri, Ənvəri***[7] kibi ən məşhur və qüvvətli şairləri onunla müasir idilər.

Sultan Arslandan sonra ***Sultan Toğrul 3-ncü*** və sonra ***Sultan Qızıl Şah Arslan***[8] kibi Səlcuq hökmdarları bu sahələrin hökm-

---

[1] Müstəzhir bin Müqtədi (1094-1118).

[2] Əmirəl-mömininin (xəlifənin) yardımçısı.

[3] Tarix yanlışdır. Məhəmməd Tapar 20.1.1082-də doğulub, 18.4.1118-də vəfat edib.

[4] Əhməd Səncər (18.4.1118-29.4.1157).

[5] Mətndə yanlış olaraq: *Sultan Mahmud İkinci.*

[6] Sultan II Mahmud (18.4.1118-11.9.1131), Sultan Davud (11.9.1131-26.5.1132), Sultan Toğrul bəy (26.5.1132-24.10.1134), Sultan Məsud (24.10.1143-14.10.1151), Sultan Məlikşah (14.10.1151-1.1153), Sultan II Məhəmməd (1.1153-12.1159), Sultan Süleyman (12.1159-10.4.1161), Sultan Arslan (10.4.1161-7.1177) ***İraq Səlcuqlu sultanları***'dır. Bu sülalə Sultan III Toğrulla (7.1177-25.3.1194) bitir.

[7] Nizami Gəncəvi (1141-1209), Zəhir Faryabi (1156-1201), Əli Əvhədəddin Əbivərdi Ənvəri (təx.1126-1187).

[8] Şəmsəddin Eldənizin (1146-1175) oğlu Osman Müzəfərəddin Qızıl Arslan (2.1186-9.1191) *İraq Səlcuqlu sultanları*'ndan deyil, ***Azərbaycan Atabəyləri***'ndən (***Eldənizlilər***'dən) 3-üncü hökmdardır.

ranlığında bulunmuşdurlar. ***Çingiz*** hücumu zamanında[1], ***Cəlaləddin Xarəzmşah***[2] da Şirvan ölkəsində özünü bir müddət göstərmişdir[3].

*[10 fevral]* ***1258 miladi*** yılında Çingiz xanın nəvəsi ***Hülakü xan***[4] tərəfindən *Bağdad* şəhəri fəth və Abbas xəlifələrinin sonuncusu ***Müstəsim***[5] qətl edilməklə, xəlifəlik hökuməti ixtiyarında olan məmləkətlər Hülakü xan tərəfindən işğal edildikdən sonra Hülakü xan idarəsi altında olan məmləkət bir tərəfdən Ərəbistandan başlayıb *Ceyhun* çayına qədər, obir tərəfdən isə *Cənubi Ümman* dənizindən başlayıb Dərbəndə qədər uzanmaqda idi.

***1265-nci yılda*** Hülakü xan vəfat etdikdən sonra onun yerinə keçən ***Abaqa xan***[6] Azərbaycanın, Ermənistanın və Şirvan ölkəsinin fərmanfərmalığını öz qardaşı ***Eşmet***'ə verdi[7]. Bu əsnada ***Qıpçaq*** padşahı ***Cağatay xan***'ın oğlu ***Bərgə xan***[8] Azərbaycanı istila məqsədiylə öz qardaşı ***Buğa xan***'ı Dağıstan yolu ilə Azərbaycana göndərir. Eşmet ***1266-ncı*** yılda Buğa xanı Dərbənd yolunda qabaqlayır və imdi yerli camaat arasında *"Eşmə"* deniilən çöldə Buğa xanı məğlub və qoşununu tar-mar edir.

---

[1] Böyük monqol imperatoru *Çingiz xan* (1206-1227) 1221-in martında Azərbaycana hücum edib.

[2] *İraq Səlcuqluları* xanədanına *Xarəzmşahlar* son qoydular. Xarəzmşah *Cəlaləddin Mənkburni* (1220-1231) onların sonuncu (6-cı) hökmdarıdır. 1225-də Azərbaycanı tutub. 1231-də Gəncədə ona qarşı güclü üsyan qalxıb. Cəlaləddin Şirvan, Şəki və Qəbələ şəhərlərinə öncə Səfiəddin Məhəmməd Tuğraini, sonra Tacəddin Məhəmməd Bəlxini vəzir təyin etmişdi. (Bax: *З.М.Буниятов. Государство Хорезмшахов-Анущтегинидов.* М., 1986, s.98).

[3] Cümlə mətndə belə dolaşıqdır; görünür, mətbəə yanlışlığı var.

[4] Hülakü xan (1256-1265) - *Hülakülər (Elxanlılar)* xanədanının banisi.

[5] Müstəsim bin Müstənsirdən (1242-10.2.1258) sonra Abbasi xəlifələri Misirdə oturdular.

[6] Abaqa xan (1265-1282).

[7] Hülakü xanın ikinci oğlu *Yaşmut (Eşmet)* 1263-dən Şirvan və Dağıstan valisiydi. (Bax: *Yılmaz Öztuna. İslam devletleri. Devletler ve Hanedanlar. Cilt:1.* Ankara, 1989, s.560).

[8] Qızıl Orda xaqanı *Bərgə (Bərkay) xan* (1257-1266) Çingiz xanın ikinci oğlu *Cağatay xan*'ın (1227-1241) yox, birinci oğlu *Cuci*'nin (1123-1227) oğludur.



***1382-dən 86-ncıya qədər*** olan yıllarda ***Əmir Teymur***[1] Təbriz əhalisinə cəza verdikdən sonra Qars, Naxçıvan qalalarını fəth edib Gürcüstana gəlir və burada Gürcüstan knyazı ***Baqrat***'ı məğlub etdikdə Şirvan ölkəsi hökmdarı ***Əmir İbrahim***[2] məmləkətini Teymurun təxribatından xilas etmək üçün tədbirlərə başlayır. Əmir İbrahim Teymura tabe olmaq üçün hazır olduğunu göstərmək məqsədiylə ətrafında bulunan saxlı[3] qoşunlarının hamısını azad edib evlərinə burakır. Sonra layiqli hədiyyələr götürüb Teymurun hüzuruna və istiqbalına gəlir. Türk adət və ənənəsi mucibincə Əmir İbrahimin Teymura gətirib təqdim etdiyi şahanə hədiyyələrin hamısının sayı 9-9 idi. Fəqət ***qulam***'ların sayı 8 idi. Teymur bunun səbəbini soruşduqda Əmir İbrahim: *"9-ncu qulamınız bənəm"* deyə özünü Teymura təqdim edir[4]. Əmir İbrahimin tədbirlərindən xoşlanan Teymur ona Şirvan şahlığını verməklə bərabər, məmləkətini də özünə bağışlayır.

***1399-ncu miladi*** yılında Teymur ikinci dəfə olaraq Zaqafqasiyaya gəlib Gürcüstanı cəzalandırır. Teymur bu dəfə Zaqafqasiyaya gəldikdə **Seyidəli xan adında birisi Şəkidə hökmranlıq edirdi.** Seyidəli xan ***Əmir Teymur***'a tabe olmaq istəmədi və məmləkəti taleyə burakaraq öz ətrafıyla çəkilib dağlara getdi. ***Əmir Teymur gəlib Şəki ölkəsini özünə tabe elədi*** və qış vaxtını Kür çayının iki qolu arasında vaqe olub ***Mahmud Qazan xan***[5] tərəfindən bina edilmiş ***Mahmudabad*** şəhərində keçirdi (A.A.Bakıxanov).

***1396-ncı*** yılda Əmir Teymur Dağıstan iğtişaşını yatırdıqdan sonra Dərbəndə gəlir və buradan Ermənistana[6] keçmək üçün Kür çayı qırağına səfər eləyir. Teymurun bu səfərində *Şirvan şahı Əmir İbrahim* Teymuru *Kür* çayı qırağına qədər müşayiət edir və bu neçə günlər müddətində ona şahanə ziyafətlər verir. Teymur *Qarabağ* ölkəsində *Ağdam* şəhərinə çatdıqda[7] Dərbənddən

---

[1] *Atatürk*'ün türklərin tarix boyunca yetişdirdiyi ən böyük şəxsiyyət saydığı ***Böyük Əmir Teymur Gürgan*** (10.4.1370-18.2.1405).

[2] Şeyx İbrahim ibn Məhəmməd ibn Keyqubad (1382-1418).

[3] Gizli, xəlvət; keşikçi.

[4] Bu hadisə 1386-da Bərdə yaxınlığında olub.

[5] Qazan Mahmud Elxan (1295-1304).

[6] Ərməniyyəyə.

[7] 27 mart 1404-də Ağdamdan çıxan Əmir Teymur Ərdəbil-Sultaniyyə-Həmədan yoluyla Səmərqəndə qayıdıb.

Bağdada qədər və Həmədandan Orta Asiya hüduduna qədər olan ölkələrin fərmanfərmalığını oğlu ***Miranşah***'a[1] verir və özü *Sultaniyyə*'dən qayıdıb paytaxtı *Səmərqənd* şəhərinə gedir.

Hazırda Azərbaycan şura hökuməti tərəfindən ***Mil*** səhrasında təmir edilib yenidən ehyasına başlanan ən qədim və məşhur ***Gavur arxı*** məzkur yıllarda Əmir Teymur tərəfindən də ehya edilərək[2] və adı ***Bərlas arxı*** deyə Teymurun atasının adıyla[3] adlandırılmışdı.

Əmir Teymur tərəfindən Qafqasiya fərmanfərmalığına keçmiş olan oğlu Miranşah camaat ilə yaxşı rəftar etmədiyi üçün yerli əhalinin qiyamına səbəb olmuşdu. Buna görə Əmir Teymur *Qıpçaq* xanı ***Toqtamış xan*** hadisəsini qurtardıqdan[4] sonra Dağıstandan keçib *Dərbəndə, Şirvana* və *Qarabağ*'a gəlir. Bir çoq tədbirlərlə Gürcüstan və *Azərbaycan* qiyamlarını yatırdır.

***Miladi 1405-nci*** yılda Əmir Teymur *Otrar* şəhərində vəfat etdikdən sonra onun Qafqasiyaya təyin etdiyi hakimlər də yavaş-yavaş Qafqasiyadan yoq olmağa başlayırlar.

Teymur övladının *Şəki-Şirvan* ölkəsi hökmranlığında sonuncuları bulunan ***Cahanşah***[5] ***1468 miladi*** yılında Ağqoyunlulardan ***Həsən bəy***[6] tərəfindən öldürüldükdən sonra məzkur məmləkətlər ***Ağqoyunlu*** və sonra ***Qaraqoyunlu*** hökumətlərinə tabe halda idarə olunur. Bu əsnalarda Şəki-Şirvan ölkələri bəzən də öz yerli hakimləri vasitəsiylə müstəqil və yarımmüstəqil halda idarə edilirlər. Sonra ***Səfəvi*** nəsli İran taxtında qüvvət tapdıqda *Şəki xanı* İran hökumətinə tabe olur.

---

1 Cəlaləddin Miranşah (1366-21.4.1408). Əmir Teymurun üçüncü oğlu. 1393-dən ömrünün sonunadək paytaxtı Təbriz olmaqla Azərbaycan, Ərməniyyə, Dağıstan... valisiydi.

2 Həyata qaytarılaraq.

3 Əmir Teymurun atasının adı *Turaqay*'dır. *Bərlas* onun tayfasının adıdır.

4 18.6.1391-də Qunduzca zəfərində.

5 Müzəffərəddin Sultan Cahanşah Həqiqi (1.4.1437-11.11.1467) Qaraqoyunluların ən böyük imperatoruydu. Uzun Həsən Doğu Anadoluda qəflətən hücum edib onu otaqda öldürdü.

6 Ağqoyunlu imperatoru Uzun Həsən bəy (1453-6.1.1478).



***1564 miladidə*** Şirvan ölkəsi ***Osmanlı*** hökuməti tərəfindən işğal edilir. Şirvan ölkəsinə Osmanlı hökuməti tərəfindən vali təyin edilən ***Osman paşa*** *Ərəş qalasını* yenidən təmir edir və möhkəmləndirir. Osmanlıların Azərbaycanda hökmranlıq etdikləri zaman Şəki, Şirvan ölkələrində şiddətli bir aclıq başlayır. Osmanlı hökuməti bu xüsusda tədbir etməkdən aciz qalır, bu məsələ Osmanlı hökuməti nüfuzunun Azərbaycanda azalmasına səbəb olur. Bu haldan istifadə edərək İran hökuməti[1] Şəki və Şirvan ölkəsini sahiblənir.

***1578 miladi*** yılında Osmanlı padşahı ***Sultan Murad***[2] ***Lələ Mustafa paşa***'nın komandası altında Şəki, Şirvan ölkələrinə 100.000 nəfərlik bir ordu göndərir. Osmanlı ordusu İrəvanı, Qarabağı, Tiflisi təsxir edib Şirvan ölkəsinə yönəldiyi zaman *Şəki xanlığını* Kaxetiya knyazı *Levan xan*'ın oğlu *İsa xan* idarə edirdi. ***İsa xan*** Osmanlı ordusunun qorxusundan məmləkətini buraqıb dağlara qaçdı. Mustafa paşa Osmanlı hökumətinə öz tabeliyini izhar edir[3]. Məmləkəti istila və ***Qaytas paşa***'nı *Ərəş* sahələrinə vali təyin elədi.

***1580 miladidə*** İran[4] hökuməti tərəfindən ordu göndərilib Şirvan ölkəsi camaatı İrana guya xəyanət etdikləri üçün tənbeh və qətl-qarət edilir.

*Bu sayaq ilə Şəki-Şirvan ölkəsi İran və Osmanlı cahangirliyi altında tapdalanmış bir zəmi halına dönür.* Daxildə müstəqil və davamlı bir hökumət təşkil edilmədiyi kibi, xaricdən gələn istilaçı hökumətlər də sağlam ruhlu və əsaslı bir hökumət olamıyor. Böylecə yerli xanlar və məmləkət idarəçiləri xaricdən gələn istilaçı cahangirlərin əlində oyuncaq bir alət olub oynadılırlar.

***1606 miladidə*** İran[5] hökmdarı ***Birinci Şah Abbas***'ın[6] nəfinə

---

1 **1934-ədək İran dövləti (hökuməti) olmayıb.** Müəllif *"Səfəvilər"* demək istəyir.

2 XV Osmanlı imperatoru Sultan III Murad (15.12.1574-16.1.1595).

3 Bu cümlədə mətbəə yanlışlığı var, çünki sultanın göndərdiyi sərkərdənin hökumətə öz tabeliyini bildirməsinə ehtiyac yoxdu. Görünür, söhbət ya İsa xandan, ya da Qaytas paşadan gedir.

4 Oxu: *Səfəvilər.*

5 Oxu: *Səfəvi.*

6 I Şah Abbas (30.5.1587-19.1.1629) - 5-inci Səfəvi imperatoru.

olaraq *Şəki xanı* ***Şahəmir xan***[1] da gürcü knyazı[2] və sair xanlar ilə birlikdə olaraq Şirvanı təsxir edib İran hökumətinə tabe etmək üçün Şirvan üstünə hücum edirlər. Şəki xanı *Şahəmir xan* bu müharibədə ordunun birinci səf komandanlığında bulunur və Osmanlı hökuməti tərəfindən ***Qəbələ*** ətrafına vali təyin edilən ***Məhəmmədəli paşa****'nı*[3] məğlub və qətl edir.

Bu müharibə nəticəsində Osmanlılar Şəki, Şirvan ölkələrindən çəkilir və bu sahələr Şah Abbas tərəfindən istila olunur.

Birinci Şah Abbasın ***1629 miladidə*** vəfatından sonra İran[4] hökumətinin zəifliyindən istifadə edən rus və Osmanlı hökumətləri Zaqafqasiyanın başqa hissələriylə birlikdə Şəki, Şirvan ölkələrini də istila edirlər.

Nəhayət, İran türklərindən olub müqtədir bir sərkərdə halıyla ortaya çıqan və sonra İran şahı olan **Nadir *1733 miladi*** yılında Osmanlı ordusunu Bağdad yanında məğlub edir. *Bu vasitə ilə Osmanlı hakimliyi bu sahələrdən götürülür.*

***1735-də*** *Rusiya* hökuməti ilə bağlanan sülh müqaviləsi mucibincə, rus ordusu Zaqafqasiyada işğal etdikləri yerləri buraqıb çəkilirlər. Bu vasitə ilə Zaqafqasiyanın başqa hissələriylə Şəki-Şirvan ölkəsi də tamamilə İran hökumətinin təsərrüfünə keçmiş olur. Fəqət ***miladın 1747-nci*** yılında ***Nadir şah****'ın* vəfat etməsiylə İran[5] hökumətində yenə süstlük və zəiflik başladığı kibi, ortalığı bir hərc-mərclik halı qaplayır. Hər tərəfdə feodal (dərəbəylik) üsulu başlayır. Bu haldan istifadə edərək Zaqafqasiya ölkəsində də ***Şəki, Şirvan, Dərbənd, Quba, Bakı xanlıqları*** olmaq üzrə beş yeni xanlıq hökuməti təşkil edilir.

---

1 (1593-də) "Şəki xanlarının nəslindən olan ***Şahmir xanı dəxi Şah Abbas Şəkiyə hakim təyin edib****, ...*Qafqaza rəvanə etdi" (*Rəşid bəy İsmayılov. Azərbaycan tarixi.* Bakı: Azərnəşr, 1993, s.63).

2 Şah Abbas Gürcüstan valisinin oğlu Konstantin Mirzəni Şirvan hakimi təyin edərək başqa xanlarla birgə oranı tutmağa göndərmişdi. (Geniş bilgi üçün bax: *А.А.Бакиханов. Гюлистан-и Ирам.* Баку: Элм, 1991, s.111)

3 Onun adı *"Məhəmmədəmin paşa"* kimi də verilib (bax: *А.А.Бакиханов. Гюлистан-и Ирам,* s.111).

4 Oxu: *Səfəvi.*

5 Oxu: *Əfşar.*



İran məmləkəti ilə birlikdə *Dağıstan* və *Cənubi Qafqas* ölkələrini də qüvvətli pəncələri altında sıkışdıran ***Nadir şah****'ın* 1161 hicri və 1747 miladi tarixində ***Xorasan****'da* öldürüldüyü xəbəri istila edilmiş məmləkətlərə çatdı. Məzkur yerlərdə mühafizə ordusu halında bulunan İran qoşununun bir çoq qismi dərhal olduqları yerlərdən çıxıb getdilər. Gedəməyib qalan hissələri də, Dərbənddə və sairədə olduğu kibi, yerli qüvvətlər tərəfindən təpələnib əzildilər.

Nadirin qurduğu hökumət əsaslı bir təşkilata istinad etmədiyi və şəxsi bir hökumət olduğu üçün özünün ölümü ilə bərabər, hökuməti də tez ölməyə məhkum oldu, pozulub getdi. Feodal üsuluyla əsaslanmış Nadir hökumətinin ənqazı[1] üstündə də dərhal bir çoq feodal hökumətləri təşkilə başladı. Bu hökumətlərdən ən çoğu ***Azərbaycan****'da* təşəkkül etdi. Bunun bir çoq səbəbləri vardır. O cümlədən Şimali Azərbaycan qitəsinin ***Bakı-Şamaxı-Dərbənd*** ətrafı əvvəldən bəri özlərinə məxsus müstəqil və yarımmüstəqil hökumətlərə malik olmuşdular. ***Nuxa, Gəncə, İrəvan, Naxçıvan*** tərəfləri də İran tərəfindən təyin edilmiş və əksərən yerli xanlardan ibarət valilər vasitəsiylə idarə edilməkdə idilər. Buna görə qalib və istilaçı hökumətlər zəifliyə başlar-başlamaz bu yerlərdə bulunan valilər dərhal istiqlal elan edib hökumətlərini təqviyəyə[2] başlayırdılar. Bəzən bu xanları yerli əhali özləri də seçib qoyurdular. *Nuxa*'da, *Dərbənd*'də və *Şamaxı*'da olduğu kibi, Nadir şahın öldürülməsi də böylə bir halın təkrar törəməsinə səbəb oldu. ***Şimali Azərbaycan*** vilayətlərində o zaman aşağıdakı cədvəldə qeyd edilən[3] feodal hökumətləri təşəkkül etdi.

1 - ***Əhməd xan oğlu Hüseynəli xan***[4] Quba mahallarını işğal etdi. Özünün əvvəlcə olduğu qərargahını ***Xudat*** qalasından köçürüb ***Qudyal****'a* (Qubaya) gətirdi. ***Gülxan***[5] və ***Şabran*** ilə sair nahiyələri də öz xanlığına yapışdırdı.

2 - Rus çarlığı istilası vaxtında general-mayor ləqəbini

---

1 Uçuqları, xarabası.

2 Gücləndirməyə.

3 Cədvəlin tərtibində müəllif *"Gülüstani-İrəm"* dən geniş yararlanıb.

4 *Sultan Əhməd xan*'ın (?-1721) oğlu *Hüseynəli xan* (1721-1758), onun oğlu da *Fətəli xan*'dır (1758-22.3.1789).

5 *Gülxan* hazırda Quba qəzası ilə Dağıstanın *Axtı* nahiyəsi sərhədində *Həfrə* (Həzrə? - Ə.T.) kəndinin əski adıdır. - ***M.M.***

alan və Nadir zamanında qorçu[1] bulunan ***İmamqulu xan oğlu Məhəmmədhüseyn xan***'ı[2] da *Dərbənd* əhalisi özlərinə xan seçib Dərbəndi möhkəmlətdilər.

3 - Nadir şah zamanında Nadirin istəkli sərkərdələrindən birisi olan bakılı ***Dərgah xanın oğlu Mirzəməhəmməd xan***[3] fürsətdən istifadə edərək Bakı qalasını işğal etdi və xanlığa başladı.

4 - *Şamaxı* əhalisi də ***Sofi Nəbinin oğlu Hacı Məhəmmədəli***'ni[4] özlərinə xan seçdilər. Bu Hacı Məhəmmədəli Nadir şah zamanında Şirvanın zəxirə[5] müdiri idi.

5 - *Xançobanı* nəslindən sərkar ***Abdullah bəy***[6] ***oğlu Əsgər bəy***'in oğlanları da *Şamaxı* mahalının köçəri halda yaşayan camaatını özlərinə tabe edib *Ali-sərkar*[7] adlanmaqla xanlığa başladılar.

6 - Nadir şah zamanında *Şəki* mahalının vergi müvəkkili bulunan ***Hacı Çələbi Qurban oğlu*** Nadir şahın təqibatı səbəbinə üç yıldan bəri qaçıb *Gələsən-görəsən* qalasında daldalanmaqda idi. Nadirin ölməsindən istifadə edərək qaladan çıxıb *Şəki, Ərəş, Qəbələ* mahallarını işğal elədi və əhalinin rəğbətiylə özünü məzkur sahənin müstəqil xanı elan elədi.

7 - Nadir şahın ordu sərkərdələrindən biri olduğu halda Nadirin qorqusundan qaçıb *Şəki-Şirvan*[8], *Qarabağ* dağlarında qaçaq bir surətdə yaşayan ***İbrahim xan Cavanşirin oğlu Pənah bəy***[9] də gizləndiyi yerlərdən çıxıb *Bayat, Tərnəut, Tərtər, Ağdam* ətrafını yiyələndi və özünü *Qarabağ xanı* adlandırdı.

---

[1] Xüsusi qoruma döyüşçüsü, saray qvardiyaçısı.

[2] Məhəmmədhüseyn xan 1759-da devrildi, 1768-də Bakıda öldü.

[3] I Mirzəməhəmməd xan (1747-1768).

[4] *Hacı Məhəmmədəli xan*'ın (1748-1763) atası *Sofi Nəbi* indiki İsmayıllının Zərnava kəndindəndi (bax: *Бакиханов*, s.155).

[5] Azuqə ehtiyatı.

[6] Ad yanlışdır; *Allahverdi bəy* olmalıdır. Onun oğlu *Əsgər bəy*, onun oğlu Şirvan xanı *Ağası xan* (1731-1786), onun oğlu *Mustafa xan*'dır (1792-1820; 1826-28).

[7] Sərkar ocağı, nəsli.

[8] *"Pənah xan... vaxtını... gah Qarabağın dağlarında, gah da Şəki vilayətinin Qəbələ mahalında keçirirdi"* (*Mirzə Camal Cavanşir. Qarabağnamə.* - Qarabağnamələr. Birinci kitab. Bakı: Yazıçı, 1989, s.111).

[9] Yanlışlıq var; *Pənahəli xan* (1747-1760) *İbrahimxəlil xan*'ın (1760-1806) oğlu yox, atasıdır. Bakıxanov onun atasını sadəcə *"İbrahimxəlil Cavanşir"* deyə göstərir (bax: *Бакиханов*, s.155).



9 - *Gəncə* camaatı isə ***Ziyadoğlu Şahverdi xan***'ı[1] öz üstlərinə xan deyib təsdiq etdilər.

*İrəvan*'da ***Hüseynəli xan***, *Naxçıvan*'da ***Heydərqulu xan***, *Qaradağ*'da isə ***Kazım xan*** xanlıq məsnədinə keçib hökumət etməyə başladılar.

*Xaçın, Hadrut, Talış, Çanaqçı, Tuğ* kibi Dağlıq Qarabağ hissələrində də bir neçə erməni *məlikliyi* mövcud olduğu kibi, *Car*'da *Avar* icması hökuməti, *İlisu, Şəmsəddinli, Ərəş* tərəflərində də ayrı-ayrı sultanlıq hökumətləri təşəkkül etmişdi. Bunlardan başqa, *Borcalı, Baydar* və sairə kibi yerlərdə də *ağa*'lar və *kələntər*'lərdən ibarət kiçik dərəbəylər vardı.

Nadir şah zamanında Gürcüstan valisi adlanan *Herakli*[2] də *Gürcüstan* qitəsində istiqlal bayrağını ucaltdı. *Dağıstan* qitəsinin bir çoq hissələrində isə cürbəcür feodal hökumətlər təşəkkül etdi.

## HACI ÇƏLƏBİNİN XANLIĞI

Nadir şahın vəfat etməsiylə yenidən təşəkkül edən Şəki xanlığı yuqarıda qeyd edilən xanlıq, məliklik və sairə kibi bir çoq küçük feodal hökumətlər ilə qonşu və müasir idi[3].

Bu dəfə Şəki xanlığını ehya edən ***Hacı Çələbi*** əhali arasında böyük hörmət və nüfuz sahibi idi. Ədalətli və iş bacaran olduğu üçün Nadir şah zamanında yerli camaatın ricasına görə vergi kontrolu vəzifəsinə intixab edilmişdi[4]. O vaxt bir çoq yararlığı görülən Hacı Çələbinin budəfəki xanlıq məsnədinə keçməsi də camaat tərəfindən hüsn-rəğbətlə qəbul edilmişdi. Hacı Çələbi ***Nuxa*** şəhərini paytaxt qərar verib xanlığı idarəyə başladı[5].

Qafqaz silsilə dağlarından birinin ətəyində vaqe olan Nuxa şəhəri ***18-nci əsrin*** ortalarında (yəni Hacı Çələbinin xanlığa başladığı yıllarda) hələ adi bir kənd halında idi[6].

---

[1] *Şahverdi xan Ziyadoğlu Qacar* (1747-1761) *Cavad xan*'ın (1785-4.1.1804) atasıdır.

[2] İrakli.

[3] *"Höccətüt-təvarix"*, c.1, farsca əl yazısı, Mirzə Heydər Dərbəndi; *"Gülüstani-İrəm"* rusca, A.A.Bakıxanov; *"Qarabağ tarixi"* türkcə, Mirzə Camal və Mirzə Adıgözəl. - M.M.

[4] Seçilmişdi.

[5] *"Qamusül-əlam"*; *Брокгауз-Ефрон*, cild 77. - ***M.M.***

[6] Elize-Reqlo, *"Bütün dünya coğrafiyası"*, s.209. - ***M.M.***

Hacı Çələbi dövründən etibarən *Nuxa* şəhəri bir çoq yeni inşaat vasitəsiylə olduqca inkişaf və tərəqqi etməyə başlamışdır[1].

Şəki qəzasında yaşayan ***udi*** milləti haqqında etnoğrafi təhqiqat aparmış və bu xüsusda lazımi məlumat vermiş olan *A.A.Arutinov*'un dediyinə görə[2], Hacı Çələbi *Kiş* kəlisası keşişlərindən birinin nəvəsi imiş. Nadir şah zamanında əmniyyətli[3] bir vəzifədə bulunurdu. Hacı Çələbi islam dinini qəbul edib *Məkkə* ziyarətinə getmiş və Nuxaya qayıtdıqdan sonra *Hacı Çələbi* adlanmışdır[4]. Fəqət ***kütübxanəmizdə mövcud olub və müəllifi qeyd edilməyən Şəki tarixinə aid əl yazılı bir kitabda*** yazıldığına görə, Hacı Çələbinin nəsli, onun ənkə[5] babası ***Qara keşiş***'in oğlu *Candar*'ın islam dinini qəbul edib adını ***Əlican*** qoyduqdan etibarən müsəlman olaraq gəlmişdirlər[6].

Hicrətin 10-ncu əsri ibtidalarından başlayıb **Hacı Çələbinin xanlığa başladığı 1160-ncı yıla qədər aralıqda keçən 244 yıl müddətində Şəki əyalətində ancaq *dört xan* və *yeddi məlik* müstəqil və yarımmüstəqil halda olaraq idareyi-hökumət etmişdirlər.**

Nuxa şəhəri dəniz bərabərliyindən 2.454 fut yüksəklikdə vaqedir. Şəhərin şimal-şərq tərəfindəki dərədən, Qafqaz dağlarından aqıb gəlməkdə olan *Kiş çayı* adında böyük bir çay axır. ***Miladın 1819-ncu*** yılında Nuxa şəhəri ***25.000 nüfusa*** malik idi. Bunun 81 faizi *türk* və 18 faizi *udi* və *erməni* milləti idi.

Nuxa camaatının ən başlıca məşğuliyyəti ipəkçilik təsərrüfatından ibarət idi[7].

Hacı Çələbi Nadir şahın zamanında Şəkinin son məliki bulunan ***Məlik Nəcəf***'i çoluq-çocuqlarıyla birlikdə öldürüb dağlara qaçmışdı.

---

[1] A.A.Qaspari, *"İstila edilmiş Qafqaz"*. - ***M.M.***

[2] *А.А.Арутинов. Удины.* - *"Русский антропологический журнал"*, 1905, №№1, 2.

[3] Burada: inzibati.

[4] A.A.Arutinov. Udilər. - ***M.M.***

[5] *Ənkə* əski türkcədə nəslin ən birinci babalarına denilir. İmdi də türk elləri *"ənkə babalarımız"* deyə sözlər işlətməkdədir. Ailənin ən yaşı çoq olan kişisi haqqında denilən *ulu* sözü bundan başqadır. - ***M.M.***

[6] Əlimizdəki əl yazılı Şəki tarixi Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin rusca tərcüməsiylə təb etdirdiyi *Qazi Əbdüllətif əfəndi* risaləsindən daha müfəssəl yazılmışdır. - ***M.M.***

[7] A.A.Qaspari, *"İstila edilmiş Qafqaz"*. - ***M.M.***



Nadir öldürüldükdən sonra Hacı Çələbi *üç yıldan bəri* daldalandığı *Gələsən-görəsən* qalasından çıxıb ***Nuxa***'ya gəlmiş və xanlıq məsnədinə əyləşərək ölkə hökumətini ixtiyarına almışdı.

Nadirin öldürülməsiylə İranda başlanan hərc-mərclik əsnasında hər tərəfdə bir çoq dərəbəylər[1] törəmiş və hər kəs özünü *padşah* adlandırmağa başlamışdı. Hacı Çələbi də bu fürsətdən istifadə edib məmləkətini mümkün olduğu qədər genişlətməyə çalışdı.

Bu çalışma sayəsində İran Azərbaycanına qədər nüfuz yetirib ***Təbriz*** vilayətini də öz hökuməti altına aldı və ***Sədrəddin*** **adında birisini öz tərəfindən *Təbriz şəhərinə naib qoydu.***

Bu əsnalarda İranda özünü şah adlandıran sərkərdələrdən ***Əmiraslan xan*** adında birisi qoşun götürüb Hacı Çələbini məğlub etmək üçün Şəki üstünə gəldi.

Hacı Çələbinin oğlu ***Həsən ağa*** dava meydanında öldürülsə də fəqət Əmiraslan xan Şəki vilayətini alamayıb geri qayıtmağa məcbur oldu.

Bu hadisə Şəki xanlığının nüfuzunu, sətvətini[2] daha da artırdı.

Hacı Çələbinin böylecə Təbrizə qədər hökmfərma olub getgedə nüfuzu artmasından qonşu xanlıqlar vahiməyə düşdülər. Ən çoq *Xoy* xanı ***Əhməd xan***, *Qaradağ* xanı ***Kazım xan***, *Qarabağ* xanı ***Pənah xan*** və *Gəncə* xanı ***Şahverdi xan*** daha artıq çəkəməməzliyə başladılar[3].

İranda şahlıq iddiasına düşənlərdən ***Qacar Məhəmmədhəsən xan***[4] gəlib Qarabağ davasına məşğul olduğu *Kərim xan Zənd*'in Şirazda şahlıq iddiasına qalqdığını eşitdi. Bunun üçün çəkilib

---

[1] Müəllif *"dərəbəy"* sözünü *"feodal"* anlamında işlədir.

[2] Qüdrətini.

[3] *Şəki tarixi,* əlyazısı nüsxəsi. - ***M.M.***

[4] *Ağaməhəmməd şah Qacar*'ın (2.3.1779-17.6.1797) atası *Məhəmmədhəsən xan Qacar* (?-1759) 1748-dən Əstərabad hakimiydi. Tədricən Gilan, Qəzvin və İsfahanı, şimali və cənubi Azərbaycanı da əlinə keçirdi, böyük oğlu *Ağaməhəmməd xan*'ı Azərbaycana vali və bəylərbəyi qoydu (1755). Kərim xanla savaşda öldürüldükdə yerinə ikinci oğlu *Hüseynqulu xan* (1770-1777) keçdi.

Məhəmmədhəsən xan Qacar Qarabağa 1757-də hücum edib, bir ay Şuşanı mühasirədə saxlayıb, ancaq Gilan və Mazandaranda üsyan qalxdığını eşidərək geri dönüb. (Geniş bilgiyçün bax: *H.Ə.Dəlili. Azərbaycanın Cənub xanlıqları.* Bakı: Elm, 1979, ss.114-117).

İrana qayıtdı. Bu vasitə ilə böyük xaricə təhlükəsindən ayılmış Azərbaycanın müstəqil xanları yenə daxildə boğuşmaq işlərinə başladılar.

Şəki və Şirvan tərəflərində böyük qüvvət və nüfuz sahibi bir hakim sifətində görünən və *ipəkçilik mərkəzi bulunan sahələri də ələ almış olan Hacı Çələbini ortadan qaldırmaq məqsədiylə Qarabağ* xanı ***Pənah xan***, *Qaradağ* hakimi ***Kazım xan***, *Naxçıvan* hakimi ***Heydərqulu xan*** və *Gəncə* hakimi ***Şahverdi xan*** bir yerə yığışıb məsləhətləşdilər, lazımi tədbirləri düşündülər[1]. Gürcü knyazı *Herakli*'yə də adam göndərib ondan bu barədə kömək vədəsi aldılar. Gəncə müqaviləsinə söz verən xanların hamısı gəlib Gəncə şəhərindən yuxarı ***Qızıl qaya*** denilən yerdə birləşdilər. Herakli də kafi qədər qoşun götürüb məzkur yerə gəldi[2].

Azərbaycan xanlarının bir-biri haqqında bəslədikləri xəyanət gürcü knyazının da başında özgə bir fikir oyandırdı. Herakli məzkur xanları dutub əsir etməklə qalib olacağı və sonra da Hacı Çələbini məğlub edə biləcəyini düşündü[3].

Gürcüstan knyazı Herakli İrəvan hakimi ***Hüseynəli xan***'ı da məzkur xanlar ilə Hacı Çələbi əleyhinə ittifaqa dəvət etdi və özü gəlib *Qızıl qaya* yerinə çatdı. Azərbaycan xanları da öz qüvvələrini götürərək müttəfiqləri bulunan Heraklinin yanına gəldikləri zaman heç güman edilmədiyi halda Heraklinin pusquda qoyduğu atlılar tərəfindən əhatə edilib əsirliyə alındılar[4].

Bu əsnalarda Şəki hakimi Hacı Çələbi də ***Kür çayı*** qırağında ***Mingəçövür***[5] denilən yerdə ordunu qurub əylənmişdi və Azərbaycan xanlarının hiyləsini duyub nəticəsinə müntəzir idi. Bu halda Kürün o tayından bir atlını qaçan gördü və gəmi vasitəsiylə

[1] Bu ittifaqın mütəşəbbüsü *Pənah xan* olmuşdur. Çünki o, ilk xanlığa başlayıb *Bayat qalası*'nı bina etdiyi zaman Hacı Çələbi Şəki-Şirvan qoşunlarını götürüb Bayat qalasında Pənah xana hücum etmişdi. Pənah xan güc-bəla ilə Hacı Çələbinin hücumunu dəf edib geri qaytara bilmişdi. - ***M.M.***

[2] *Qarabağ tarixi*, əlyazısı, Mirzə Camal və Mirzə Adıgözəl. - ***M.M.***

[3] *Şəki tarixi*, əlyazısı nüsxəsi. - ***M.M.***

[4] *"Gülüstani-İrəm"*, A.A.Bakıxanov. - ***M.M.***

[5] Mingəçövür Gəncə ilə Ərəş (Ağdaş) qəzaları sərhədində Kür çayı üstündədir. - ***M.M.***



onu keçirdib yanına gətirtdi. Atlı əsir edilən xanlardan birisinin adamı idi, haraya qaçırdı[1]. Hacı Çələbi Heraklinin məqsədini atlıdan anladı. Dərhal ordu böyüklərini və sərkərdələrini çağırıb ***hərbi şura*** qurdu və *«nə cür məsləhət görsəniz içində "Kürü keçmək" sözü olmalıdır»* dedi. Hərbi şura Herakli ilə müharibəyə qərar verib, ordunu Kürdən Gəncə tərəfə keçirtdilər. Hacı Çələbinin ordusu şair ***Şeyx Nizami***'nin məqbərəsi yaqınlığında Heraklinin ordusuna çatdı. Vaqe olan müharibədə Heraklinin qoşunu sınıb qaçmağa məcbur oldular. Herakli özü də ancaq canını qurtarıb qaça bildi. Hacı Çələbi qalib bir surətdə dallarıyca gedib, qaçan gürcü qoşunlarının ***Şəmsəddin***'də ***Şəmkir***'də qabaqlarını kəsdi, onlara böyük tələfat verdi. ***Baydar*** denilən yerdə möhkəm bir səngər qayırdı[2].

**Hacı Çələbi bu vasitə ilə *Qazaq* və *Borçalı* mahallarını da işğal etdi və oğlu *Ağakişi bəy*'i kafi miqdarda qüvvə ilə orada buraqdı.** Ağakişi bəy *iki yıl* orada qalıb sərhədə yaqın Gürcüstan yerlərində hücum və talanlar icrasına başladı.

Şiddətli təqibata düçar olan Gürcüstan valisi ***Herakli***, nəhayət, Dağıstana qaçıb *çərkəs*'lərin və başqa Dağıstan xalqlarının imdadına sığındı. Buna görə Ağakişi bəy Gürcüstan təhlükəsindən arxayın olub Şəkiyə atasının yanına qayıtdı.

**Hacı Çələbi Heraklinin əsir etdiyi Azərbaycan xanlarını məhzən[3] bir mehribanlıq sifətiylə azad edib məmləkətlərinə buraqdı.**

Aradan *iki yıla* yaqın bir müddət keçəndən sonra vali *Herakli* böyük bir qüvvə ilə ***Car*** icması hökumətinin üstünə gəldi, vaxtıyla Kaxetiya padşahlığına tabe olan ***yengilo[y]*** camaatını Car hökuməti tabeliyindən qurtarmaq və öz ixtiyarına almaq istədi. Fəqət yerli əhali və Car hökuməti Hacı Çələbidən kömək istədilər. Hacı Çələbi ordusunu götürüb ***Qanıq***[4] çayının sağ kənarında *Herakliyə çatdı və ikinci dəfə olaraq onu şiddətli surətdə məğlub edib qaçırtdı.*

[1] *Haray* əski türkcədə *istimdad, kömək çağırmaq* mənasınadır. - ***M.M.***

[2] *Qarabağ tarixi.* - O zaman Baydarda bina edilən səngərin xərabəsi imdiyə qədər durur. Tiflis şəhərindən 12 mil (1 fərsəx) cənuba tərəfdir. *A.A.Bakıxanov.* - ***M.M.***

[3] Ancaq, yalnız.

[4] İmdi *"Alazan"* denilir. *Qanıq* əski türkcə adıdır. - ***M.M.***

Dəfələrlə qalib olduğuna güvənən (məğrur olan) Hacı Çələbi ***hicrətin 1168-nci ilında***[1] böyük qüvvə toplayıb ***Şamaxı xanlığı*** üstünə yürüdü. O zaman ***Ağsu*** şəhərində iqamət edən *Şamaxı* xanı ***Hacı Məhəmmədəli xan*** *Quba* xanı ***Hüseynəli xan***'dan kömək istədi. Hüseynqulu xan, yanında bulunan Dağıstan sərkərdələrini də götürüb 3.000 piyada və 500 atlıdan ibarət bir qüvvə ilə köməyə gəldi və iki düşmən xanı barışdırmağı qəsd elədi. Fəqət Hacı Çələbinin elçi sifətiylə göndərdiyi ***Hacı Piri*** sərt danışdığına görə dava başladı. Hacı Çələbi budəfəki Şirvan müharibəsində fəna halda məğlub olaraq geri qayıtdı və hicrətin həman ***1168-nci*** ilında vəfat elədi[2].

***Hacı Çələbinin Şəki ölkəsində xanlıq etməsi Gələsən-görəsən qalasında daldalandığı illarla birlikdə 12 il çəkmişdi.*** Hacı Çələbi böyük hadisələr və müharibələr zamanında *hərbi şura* çağırıb məsləhət edərdi və şuranın qərarıyla iş aparardı.

**Hacı Çələbi çoq tədbirli və əhali ilə gözəl rəftar edən bir hakim idi.** Olduqca hüsni-əxlaq sahibi idi. Düşmənləriylə mehribanlıq etməyi özünə vəzifə bilirdi. Hacı Çələbi ən çoq vaxtını fütuhat ilə[3] keçirmiş və məmləkətini genişlətməklə məşğul olmuşdu. Hacı Çələbinin adilanə rəftarları, gözəl xasiyyətləri səbəbinə və özünün də bir keşiş nəslindən bulunmasına görə onun xanlığı zamanında yerli xristianlardan bir çoqu islam dinini qəbul edib müsəlman oldular və Hacı Çələbi hökumətinə tabe olub, ona vergi verməyə başladılar[4]. ***Car*** (imdiki ***Zaqatala***) ölkəsində yerli gürcü xristian *yengiloylar*'ın *Car icması* hökumətinə və *İlisu sultanlığı*'na qarşı etdikləri kibi, Şəki ölkəsi əhalisinin başlıca məşğuliyyəti iqtisadca ən dəyərli bir təsərrüfat bulunan ***ipəkçilik*** olduğuna görə Şəki xanlığının əhalidən aldığı ümdə vergi də *ipək* vergisi idi. Xristian kəndlilərdən alınan bu vergiyə ***din ipəyi*** denilərdi. ***Vartaşın, Nic***[5] udiləri də bu vergini verməkdə idilər[6].

[1] Miladi 1755-də.

[2] A.A.Bakıxanov, *"Gülüstani-İrəm"*. - ***M.M.***

[3] Fatehliklə, torpaqlar tutmaqla.

[4] A.A.Arutinov, *"Udilər"*. - ***M.M.***

[5] Mətndə: *Nij*.

[6] *"Udilər"*, A.A.Arutinov. - ***M.M.***



## AĞAKİŞİ BƏYİN XANLIĞI

Hacı Çələbidən sonra oğlu ***Ağakişi bəy*** Şəki xanlığına keçdi. Ağakişi bəy ***Qumuq xanı Məhəmməd xan***'ın[1] qızını almışdı. Fəqət Məhəmməd xanın nədən isə Hacı Çələbi ilə arası dəymişdi, amma Hacı Çələbinin sağlığında səs çıqaramırdı. Hacı Çələbi ölüb Ağakişi bəy xanlığa keçəndən sonra Məhəmməd xan [Qazı]qumuq ordusunu götürüb *Ərəş*'ə gəldi. *Ərəş sultanı* ***Əli bəy*** ilə dilbir oldular. Məhəmməd xan Ağakişi bəyə adam göndərdi və "kürəkənimi görmək istəyirəm" deyə Ağakişi bəyin Ərəşə gəlməsini arzu etdi. Məqsəddən xəbərsiz Ağakişi bəy qayınatası Məhəmməd xanın sözünə inandı. Şəkidən qalqıb Ərəşə gəldi. ***Məhəmməd xan Əli bəy ilə birlikdə olaraq hicrətin 1172 və miladın 1759 tarixində Ağakişi bəyi Ərəşdə öldürdülər.***

Ağakişi bəyin Şəki xanlığını idarə etməsi ***beş ila qədər*** olmuşdu.

Qumuq xanı Məhəmməd xan Ağakişi bəyi Ərəşdə öldürəndən sonra qoşununu götürüb *Nuxa*'ya gəldi. Hacı Çələbidən qalan xəzinələri götürüb yiyələndi. Cürbəcür zülmlər ilə Şəki əhalisini soyub-talamağa başladı[2].

## HÜSEYN XANIN XANLIĞI

Bu əsnalarda *Dərbənd*'ə *Quba* xanı ***Fətəli xan***'ın yanına qaçmış olan Hacı Çələbinin nəvəsi ***[Məhəmməd]hüseyn xan*** Şəki əhalisinin Məhəmməd xandan narazı olduqları haqqında xəbərlər aldı. Fətəli xandan yardım olaraq aldığı Quba qoşunuyla Şəkiyə gəldi. Yerli əhalinin də müavinət etməsiylə Məhəmməd xanı qovub özü Şəki xanlığı məsnədinə əyləşdi.

Vaxtilə Nadir şahın ümdə sərkərdələrindən biri bulunan ***Əfşar Fətəli xan*** sərdar ***1175 (h.)*** və ***1762 (m.)-də*** şahlıq iddiasıyla Cənubi Azərbaycanı işğala başladı və Şimali Azərbaycanı da istila etmək üçün külli qüvvə götürüb *Qarabağ*'a gəldi.

İttifaqsızlıqdan və xırda-xırda dərəbəyliklərə bölündüklərindən hər böyük qüvvənin qabağında boyun əyməyə məcbur olan Azərbaycan xanları bu dəfə də özlərindən bir az qüvvəli İran[3]

[1] *Qazıqumuqlu Məhəmməd xan* (1748-1789) *Çolaq Surxay xan*'ın (1727-1734) oğlu, *II Surxay xan*'ın (1789-1827) atasıdır.

[2] *Şəki tarixi*. Əlyazısı. - ***M.M.***

[3] Oxu: *Əfşar*.

dərəbəyisi Əfşar Fətəli xana yaltaqlıq etməyə başladılar və öz müqəddəratı hələ bəlli olmayan bir İran dərəbəyisindən gəlib xanlıq və müavinət diləməyə qədər alçaqlandılar.

Böylə ki, Fətəli xan Şuşa qalası üstünə gəlib Qarabağ xanı ***Pənah xan***'ı özünə tabe etməyə məşğul bulunduğu zaman *Ərəş sultanı* ***Məlik Əli bəy*** də cürbəcür hədiyyə və vədlərlə Fətəli xanın yanına gəldi. Bu tərəfdən də Şəki xanı *Hüseyn xan* ***Qutqaşınlı Kəlbəli sultan*** və sair Şəki böyükləriylə hədiyyələr götürüb Fətəli xanın hüzuruna gələrək əczi-izhar edib mərhəmət və kömək dilədilər. Bu vasitə ilə ***Fətəli xan Şəki xanlığına Hüseyn xanı qoydu***[1] və Məlik Əli bəyi də onun əlinə təslim elədi. Hüseyn xan Şəkiyə qayıdandan sonra Məlik Əlini öldürdü[2].

Fəqət rəqibsiz qaldığını güman edən Hüseyn xan bu dəfə də əmisi ***Cəfər ağa***'nın xanlıq iddiası qarşısında bulundu. İslah edilmədiyi üçün Cəfər ağa öldürüldü. Bu münasibətlə Cəfər ağanın obiri qardaşı ***Hacı Əbdülqadir*** Hüseyn xan ilə ədavətli oldu və qaçıb *Kür* çayı qırağında səngər qayırıb *Şəki, Ərəş* bəylərindən başına qüvvə topladı. Qarabağ xanı ***İbrahim xan***'dan da kömək alıb Hüseyn xanın üstünə gəldi. Böyləliklə, qardaşoğlu və əmi arasında ***Şəki xanlığı üstündə bir neçə yıl müharibə davam etdi.*** İki xanın şəxsiyyəti xatirinə binlərcə əhalinin canı, malı tələf oldu. Nəhayət, Hacı Əbdülqadir qalib gəldi və ***hicrətin 1194-ncü*** yılında[3] başqa bəylərin kıməkliyiylə qəflətən Hüseyn xanı Şəki qalasında dutub öldürdü. Hüseyn xanın kiçik oğlu ***Əhməd ağa***'nı da sağ buraqmadı.

**Hüseyn xanın Şəkidə hökmranlığı *22 yıl qədər* olmuşdur.**

Hüseyn xan ***miladi 1765-nci*** yılda Şəki şəhərinin yuqarı hissəsində yapdırdığı qalada İran üslubunda da gözəl bir saray bina etmişdi[4].

---

[1] Tarixçi Əbdürrəzzaq Dünbüli yazır: *"Padşahlıq iddiasında olan, Azərbaycandan başqa İrəvan, Qarabağ və Şəkini istila edən Urmiyə hökmdarı Fətəli xan Hacı Çələbinin nəvəsi Həsən ağanın oğlu Hüseyn bəyi xanlıq titulu ilə təltif etdi"* (*H.Ə.Dəlili. Azərbaycanın Cənub xanlıqları.* Bakı: Elm, 1979, s.118).

[2] *"Gülüstani-İrəm"*, A.A.Bakıxanov; *Qarabağ tarixi*, əlyazısı, Mirzə Camal və Mirzə Adıgözəl; *Şəki tarixi*, əlyazısı. - ***M.M.***

[3] Miladi 1780-də.

[4] Elize-Reqlo, *"Bütün dünya coğrafiyası"*, s.209. - ***M.M.***



***Hüseyn xan*** şəxsən yigit, əqlli, tədbirli və istiqamət məzaclı idi. Eyni zamanda hiyləgər və mərhəmətsiz idi. Bu nöqsanları səbəbinə yalnız kütlə arasında deyil, kütlənin başı üstündə odlu bir toqmaq bulunan bəylər arasında da lazımi qədər məhəbbət qazanamamışdı.

## HACI ƏBDÜLQADİR XANIN HÖKUMƏTİ

***Hacı Əbdülqadir xan 1194 hicridə*** Şəki xanlığını ələ keçirdiyi əsnalarda *Hüseyn xan*'ın böyük oğlu ***Məhəmmədhəsən xan*** qaçıb *Qarabağ*'da *İbrahim xan*'ın yanına getmişdi.

Qarabağ xanı İbrahim xan *Şirvan* ölkəsini sahiblənmək xüsusunda *Dərbənd* və *Quba* xanı ***Fətəli xan***'ın rəqibi bulunan ***Ağası xan***'ın tərəfini saqladığına görə Fətəli xan ***hicrətin 1198-nci*** yılında[1] qoşun götürüb Qarabağa hücum elədi. Ağdamı və Qarabağın aran hissələrini çapıb-taladı. Bu əsnada Şəki xanlığına keçən ***Hacı Əbdülqadir xan*** da rəqibi bulunan Məhəmmədhəsən xanı ələ keçirmək umuduyla öz qüvvəsini götürüb Fətəli xana kömək etməklə Qarabağ müharibəsinə iştirak etmişdi. Buna görə İbrahim xan bir qədər atlı verib Məhəmmədhəsən xanı başına buraqdı.

Məhəmmədhəsən xan ***Car*** icması hökuməti yanına gəldi və oranın ləzgilərindən kafi qədər qüvvə topladı, Qarabağ müharibəsindən yenicə qayıtmış Hacı Əbdülqadir xanın üstünə *Şəki*'yə hücum elədi. Fəqət müharibə Məhəmmədhəsən xan üçün əlverişli olmadı. O basılıb geri qayıtmağa məcbur oldu. Amma yenə tez *Car*'a gedib qoşun topladı və ikinci dəfə olaraq *Şəki* üstünə hücum etdi. Bu dəfə Hacı Əbdülqadir xan fəna halda basıldı, Şəki ölkəsində dayanamayıb *Şirvan* məmləkətində *Əlvənd*[2] deyilən yerdə *Ağası xan*'ın yanına qaçdı. Məhəmmədhəsən xan onun dalısıyca yetişdi və təslimini Ağası xandan tələb elədi. Ağası xan [Məhəmmədhəsən xanın] Quba xanı Fətəli xana qarşı müttəfiq olması şərtiylə Hacı Əbdülqadir xanı [ona] təslim elədi. Məhəmmədhəsən xan rəqibini öldürdükdən sonra Şəkiyə qayıdıb ***hicri 1198-də*** xanlığa başladı. Hacı Əbdülqadirin özündən sonra 7 nəfər də kiçik oğlu qalmışdı, ***Məhəmmədhəsən xan dutub onların da hamısını öldürdü.***

---

[1] Miladi 1784-də.

[2] İndi Zərdab rayonundadır.

**Hacı Əbdülqadir xan Şəkidə *üç yıl* xanlıq etmişdir**[1].

O, şücaətli və qəlbi saf adam idi. Hiyləgər deyildi. Amma çoq xırda şeylərə fikir verib böyük məsələləri nəzərdən qaçıran idi[2].

## MƏHƏMMƏDHƏSƏN XANIN XANLIĞI

Məhəmmədhəsən xan Şəki xanlığına keçəndən sonra məmləkət sərhədlərini bərkitməyə başladı və qonşu xanlar ilə dostluq, qohumluq əlaqəsi düzəltməyə fikir verdi. O cümlədən öz bacısını[3] ən qüvvətli qonşu olan *Quba* xanı ***Fətəli xan***'a əyallığa təklif elədi. Fətəli xan təklifi qəbul etdi və eyni niyyətlə o da öz bacısını (***Huripeykər xanım***'ı) Məhəmmədhəsən xana əyallığa verdi[4].

Ozamankı Azərbaycan xanları, dərəbəyləri hökumət adına layiq bir surətdə bir-biriylə ittifaq bağlamaq əvəzinə hüquqsuz qadınlar vasitəsiylə (alım-satım tərzində) əlaqə düzəltməyə çalışırdılar. Qadınlar ozamankı xanların siyasət oyuncağından ibarət idi. Bu hal *Quba, Şəki, Şamaxı, Qarabağ, Gəncə, Bakı* xanlarının hamısında adi bir hal şəklini almışdı. İşləri bərkə düşəndə bir-birinə qız, bacı verib qohum olurdular, fürsət düşdükdə isə qohumluğa baqmayıb bir-birinin boynunu qırırdılar.

Məhəmmədhəsən xan qüvvətini artırıncaya və fürsət vaxtı çatıncayadək dostluq və qohumluq əlaqəsini möhkəm saqlamaq niyyətiylə Quba xanı Fətəli xana hər yıl layiqli peşkəşlər və ixlaslıq[5] hədiyyələri göndərirdi[6]. Məhəmmədhəsən xan xaricdə böylə politika aparmaqla məmləkətini xarici düşməndən mühafizəyə çalışdığı kibi, daxildə də inzibati və mülki qaydalar, qanunlar qoymaqla məşğul idi. ***Xanlığına rəqib çıqar qorqusuyla kiçik qardaşı Fətəli xanı dutub gözlərini çıqartdı və dustaq elədi.*** Məhəmmədhəsən xan ***Səlim xan*** adındakı qardaşını da bu məqsədlə öldürmək istəyirdi. Fəqət Səlim xan onun məqsədini anladı, tezcə Şəkidən çıxıb Car vilayətinə qaçdı[7].

---

[1] *Şəki tarixi,* əlyazısı. - ***M.M.***

[2] *"Gülüstani-İrəm",* A.A.Bakıxanov. - ***M.M.***

[3] Məhəmmədhəsən xanın *Fətəli xan*'da olan bacısının adı *Bəyim xanım*'dır.

[4] *"Gülüstani-İrəm",* A.A.Bakıxanov. - ***M.M.***

[5] Sadiqlik.

[6] *"Höccətüt-təvarix",* Mirzə Heydər Dərbəndi. - ***M.M.***

[7] *Şəki tarixi.* Əlyazısı. - ***M.M.***



***Məhəmmədhəsən xan məmləkət əhalisini xüsusi siniflərə ayırdı. Hər sinif üçün müəyyən vergi təyin etdi.*** Əsgəri hissələri məişət cəhətindən təmin etmək məqsədiylə *məaf* adında *topraq hissələri* təşkil elədi. Məmləkət əhalisini *artırmaq* niyyətiylə başqa yerlərdən mühacirlər cəlb etmək üçün vasitələr düzəltdi. Boş qalmış yerləri əkdirməyə çalışdı. Bu vasitə ilə onun xanlığı zamanında ətrafdan bir çoq erməni mühacirləri gəlib Şəki vilayətində yerləşdilər[1].

*Şamaxı* xanlığı ölkədə mövcud ipək toquculuğu kibi sənaye təsərrüfatının iqtisadi əhəmiyyətinə görə hər zaman daxili və ***xarici hökumətlərin istila iştəhasını özünə tərəf cəlb etdiyi kibi, Azərbaycanda təşəkkül edən xanlıqlar arasında böyük müharibələrə və rəqabətlərə səbəb olmaqdan geri qalmamışdır.***

Bu əsnalarda Şamaxı xanlığını istila üçün başlanan ən böyük rəqabət *Şəki* xanlığı ilə *Quba* xanlığı arasında idi. *Quba* və *Dərbənd* xanı *Fətəli xan*'ın atlı qüvvəti başqalarına nisbətən daha artıq olduğuna görə fürsət tapdıqca *Şamaxı* xanlığını istila edib məmləkətinə ilhaq etməkdə idi. Bu hal isə bir tərəfdən iqtisad, obiri tərəfdən də qonşuluq cəhətindən *Şəki* xanlığını rahat buraqamazdı. ***Miladi 1756-da*** Şamaxı hakimi ***Hacı Məhəmmədəli***'ni öldürüb Şamaxı xanlığını sahiblənmiş olan ***Ağası xan 1760-ncı*** yılda Quba xanı ***Fətəli xan*** vasitəsiylə müharibədə məğlub və əsir edilərək gözləri çıqarıldı. Onun bu cəzasıyla Şamaxı hakimi bulunan ***Məhəmmədsəid xan***[2] da Fətəli xanın qorqusundan xanlığını buraqıb Şəki xanlığında ***Qəbələ***'yə qaçdı. Bu münasibətlə Fətəli xan gəlib Şamaxı xanlığını yiyələnmiş və ***Ağsu*** şəhərini (qalasını) də özünə qərargah eləmişdi.

Məhəmmədsəid xanın oğlanları qaçıb *Dağıstan*'a ***Ümmə xan***'ın yanına getmişdilər. Ümmə xan qoşun götürüb qafil surətdə olaraq ***Ağsu*** qalasında Fətələi xanın üstünə hücum elədi. Ağsu qalası doqquz ay Ümmə xanın mühasirəsi altında qaldı. Qafil halda olaraq Fətəli xan öz qızı ***Pəricahan xanım***'ı və ***Salyan ölkəsi***'ni Ümmə xana verib barışıq elədi. Bu vasitə ilə Ümmə xan mühasirədən əl çəkib Dağıstana qayıtdı.

Fətəli xanın böyləcə məğlub görünməsini Şəki xanı Məhəmmədhəsən xan özü üçün fürsət bildi, bu da Dağıstan və ətrafdan bir neçə bəyləri, hakimləri özüylə kömək edib Ağsuda Fətəli

---

[1] *"Udilər",* A.A.Arutinov. - ***M.M.***

[2] Məhəmmədsəid xan (?-1786).

xanın üstünə yürüdü. Arada vaqe olan şiddətli müharibədə ilk əvvəl Şəki xanının ordusu qalib gəldi, hətta hücum edənlərdən bir qismi Ağsu qalasına girdilər. İki tərəfdə də ordu hissələrinin çoqusu ləzgi idi. Nəhayət, Fətəli xanın ordu sərkərdələrinə qarşı söylədiyi təsirli nitq üzərinə Quba alayı Şəki ordusunun mərkəzinə hücum etdi və onu yerindən qaldırıb qaçmağa məcbur etdi. Bu vasitə ilə Şəki ordusu pozularaq qaçmağa başladılar. Fətəli xanın ordusu qaçanları təqib edərək bir çoqlarını qətl və bir çoqlarını da əsir etdilər. Qalib ordu nəfərləri məğlubları dutaraq at, silah və paltarlarınadək soyub *lüt*[1] elədilər. Böyləcə məğlub ləzgiləri soyub çıplaq halda vətənlərinə getməyə yol verdilər. Fəqət əsirliyə aldıqları Şəki əhalisindən olan əsgərləri isə satmaq üçün yanlarında saqladılar. Köməyə gəlib qalib çıqan ləzgi və sərkərdələri tabe olmaları lazım gələn Fətəli xanı da dinləməz oldular. Zatən çoq vaxt köməyə gələnlər tərəfindən yerli əhaliyə və kömək çağıranlara mənfəətdən çoq irz-namus və mal zərəri vermək ümumi və təbii bir adət halını almışdır.

Əsirliyə alınan Şəki ordusu ləzgi, udi, erməni və türklərdən ibarət idi. Fətəli xan ordusunun qalib ləzgiləri Şəki ordusunda bulunan məğlub ləzgiləri soyduqdan sonra azad buraqdıqları halda erməni və türklərdən ibarət qalan hissələri soymaqla bərabər satmaq üçün də əsir saqlamışdılar. Bunların satılmayıb azad edilmələri haqqında Fətəli xan təşəbbüs etdisə də fəqət ləzgilər tərəfindən qəbul edilmədi. Nəhayət, Fətəli xan tərəfindən xristian və müsəlman əsirlərinin, sahiblərinə satılması üçün adambaşına bir tümən və beş bin dinar qiymət təyin edildi[2]. Bununla bərabər, ləzgilər müştərinin halına baqaraq əsirləri qərar qoyulan qiymətdən artığa satırdılar[3].

Şəki xanı ***Məhəmmədhəsən xan*** *Ağsu* müharibəsində fəna surətdə məğlub edilib Şəkiyə qayıtdı. Quba xanı Fətəli xan da bütün Şimali Azərbaycanı qüvvətli bir təşkilat altında saqlamaq məqsədiylə İrana[4] qarşı Gürcüstan knyazı *Herakli* ilə tədafüyi-ittifaq bağlamağa təşəbbüs elədi. Fəqət ***1203 h.*** və ***[22 mart] 1789 m.-də*** qızdırma azarına dutulub qayıdarkən ***Bakı*** şəhərində vəfat elədi.

[1] "Lüt" *üryan, çıplaq* mənasına olaraq, türkcə lüğətdir. - ***M.M.***
[2] İmdiki Rusiyyə çervon parasıyla: 4 manat 25 qəpik idi. - ***M.M.***
[3] *"Höccətüt-təvarix"*, Mirzə Heydər Dərbəndi, əlyazısı. - ***M.M.***
[4] Oxu: *Qacarlara.*



Yerinə [keçən] kiçik oğlu ***Əhməd xan***[1] cavan və şiddətli surətdə şəhvətkar olduğu, həm də hökumət idarəsi cəhətindən zəif bulunduğu üçün Şəki xanı *Məhəmmədhəsən xan* yenidən fürsət tapdı, Sərkar xanədanından[2] olan xanzadələri və başqa Şamaxı xanlarını da özüylə bir edib *Ağsu* qalasında oturan *Əhməd xan*'ın üstünə hücum elədi. Əhməd xan müdafiədə bulunmayıb *Quba*'ya qaçdı. ***Məhəmmədhəsən xan Sərkar övladını***[3] ***Şamaxı ölkəsinə xan təyini elədi*** və Şamaxı şəhərinin idarəsini də ***Hacı Məhəmmədəli xan***'ın oğlu ***Təkgöz Manaf xan***'a tapşırdı.

Məhəmmədhəsən xan üç həftə qədər Şamaxı ölkəsində qalaraq cürbəcür vasitələrlə yerli əhalidən külliyyətli surətdə vergi və pul alıb Şəkiyə qayıtdı. Bu haldan bir qədər sonra Sərkar övladı Manaf xanı öldürüb *Şamaxı* xanlığını büsbütün sahibləşdilər və *Şəki* xanına boyun əyməz oldular. Məhəmmədhəsən xan Sərkar övladına tənbihə etmək üçün *Quba* xanı ***Əhməd xan*** ilə barışdı və ikisi də qoşun götürüb *Ağsu* qalasının üstünə gəldilər. Mühasirə uzandı. Yay istiləri başlandı.

Şamaxı xanı ***Əsgər xan*** bu haldan istifadə edib Şəki ordusu içində köməkçi halında bulunan, dağlarda sakin olan ləzgi qoşunları sərkərdələrinə 5.000 tümən miqdarında pul və başqa şeylər göndərdi və onların ordudan ayrılıb qayıtmalarını təklif elədi. Talan məqsədiylə köməyə gələn və imdi də pul almaqla başqa xana satılan ləzgi qoşunları *Şəki* və *Quba* ordularını buraqıb geri qayıtdılar. Bu səbəbə Şəki və Quba xanları budəfəki Şamaxı müharibəsindən nəticəsiz geri dönməyə məcbur oldular[4].

Sonra *Şamaxı* xanlığına keçən ***Mustafa xan***[5] *Qazıqumuq* xanı

[1] II Əhməd xan (1789-1791).
[2] *Xançobanı* tayfası sərkarlarının xanədanı düşünülür.
[3] Əsgər xanı (1789-1792).
[4] *"Höccətüt-təvarix"*, əlyazısı. - ***M.M.***
[5] Mustafa bəyin atası (Ağası xan) və qardaşları Qubalı Fətəli xanın əmriylə öldürüldükdən (1788) sonra o və sağ qalmış qardaşları Türkiyəyə qaçmışdılar. Fətəli xan ***1789-da*** öləndən sonra Mustafa bəy və qardaşları geri döndülər. *Məhəmmədsəid xan*'ın böyük oğlu *Əsgər* Şirvan xanı elan edildi, *Mustafa bəy*'sə Əlvənddə - Katran qalasında yerləşdi. ***1792-də*** Əsgər xanın yerinə kiçik qardaşı *Qasım xan*'ı qoydular. Qasım xan Mustafa bəyi aradan götürməkçün Əlvənd üzərinə hücum etsə də basıldı və sonda *Qəbələ*'yə qaçmağa məcbur oldu və elə həmin ***1792-də*** *Mustafa bəy* onun yerinə Şirvan xanı oldu.

***Surxay xan*[1]** və *Ərəş* sultanı ***Şəhabəddin sultan*** ilə ittifaq edib
*Şəki* ölkəsinə, *Qəbələ* mahalına və sairəyə hücum etdilər. Mə-
həmmədhəsən xan məhzən özünün şəxsi yigitliyi və əql-tədbir-
liyi ilə düşmənlərini dəf edib məmləkətində sakitliyi bərpa edə
bildi. *Şəhabəddin sultan* isə yerlərinin, müdafiə cəhətindən əl-
verişli olduğuna və Qarabağ xanının köməkliyinə arqalanaraq
Şəki xanına tabe olmadı və uzun müddət vuruşmaya davam etdi.
Nəhayət, könüllü bir sifətlə öz yaqın adamlarıyla birlikdə bağış-
lanmasını və *Məkkə* ziyarətinə buraqılmasını Məhəmmədhəsən
xandan rica etdi və adamlarını götürüb onun yanına gəldi. *Mə-
həmmədhəsən xan* ***söz verdiyi halda, hiyləgər bir surətlə dutub Şə-
habəddin sultanı bütün qohumlarıyla və yaqın adamlarıyla bir-
likdə öldürtdü***[2].

Hicrinin 13-üncü əsri ibtidalarında və ***miladın 18-nci əsri axır-
larında*** Şimali Azərbaycan xanları böylə didişmələrlə bir-biriylə
məşğul olduqları zaman İranda ***Qacar xanədanı*** möhkəmləş-
məkdə və ***Ağaməhəmməd xan Qacar***[3] İranın şahlıq taxtına əy-
ləşməkdə idi. Qafil xanlar bir-birlərini boğmağa və şəxsi mən-
fəətləri uğrunda binlərcə yoqsulların qanlarını aqıtmağa məşğul
olub xaricdən gələcək təhlükələri anlamır və görmürdülər.

Ağaməhəmməd şah İranda artıq qüvvətlənib bir çoq ölkələri
zəbt etdi və ***1209 hicri /1795 miladidə*** *Qarabağ* üstünə hücum
elədi. Oradan keçib *Gürcüstan*'da şiddətli surətdə qətl-qarət
yapdı. Qışlamaq üçün *Muğan*'a qayıtdı. ***Şamaxı, Bakı, Şəki,
Quba, Dərbənd*** **xanları Muğana şahın hüzuruna elçilər və hədiy-
yələr göndərib itaətlərini bildirdilər**[4]. Şəki xanının elçi göndərdi-
yi ***Hacı Səid bəy*** isə öz hakimi Məhəmmədhəsən xanın əleyhinə
olaraq Ağaməhəmməd şaha olmazın fənalıqlar söylədi və onun
dutulub öldürülməsini lazım gördü. Şahın əmriylə ***Dəvəli Mus-
tafa xan*** *12.000 nəfər* İran qoşunuyla Şəki və Şamaxı vilayətlə-
rini zəbt etməyə və dutub Məhəmmədhəsən xanın gözlərini çı-

[1] Söhbət *II Surxay xan*'dan (1789-1827) gedir.

[2] Hicri 1209-da (miladi 1794/95-də).

[3] Azərbaycanın tarixində ən böyük şəxsiyyətlərdən biri olan *Ağamə-
həmməd şah Məhəmmədhəsən xan oğlu Qacar* (14.3.1742, Əstəra-
bad-17.6.1797, Şuşa; Nəcəfdə basdırılıb) - Qacar imperiyasının qu-
rucusu və ilk hökmdarı (2.3.1779-17.6.1797).

[4] *"Gülüstani-İrəm"*, A.A.Bakıxanov. - ***M.M.***



qarıb Təbrizə göndərməyə məmur edildi. Şəki xanı Məhəmməd-
həsən xan[ın] isə Hacı Səid bəyin şaha dediyi sözlərdən və şahın
verdiyi əmrlərdən xəbəri yoq idi. Buna görə elçisi şah yanında
olmasına arqalanaraq özü də şaha daha artıq yaranmaq üçün
öz qüvvəsini götürüb gəldi və Dəvəli Mustafa xanın Şamaxı
(Şirvan) vilayətində başladığı qətl-qarətə iştirak etdi.

Bu əsnada Şəkidən gələn atlı çaparı Məhəmmədhəsən xanın
*Car* vilayətinə qaçmış qardaşı ***Səlim xan***'ın güclü qoşun ilə *Şəki*
üstünə gəldiyi xəbəri verdilər. Məhəmmədhəsən xan dərhal Şə-
kiyə dönüb ordusunu toplamağa və qardaşının müharibəsinə
çıqmağa başladı. İki tərəfdən başlanan şiddətli müharibədə Şəki
ordusu basıldı. Məhəmmədhəsən xan müharibə meydanında
dayanmayıb Şəkiyə qaçdı[1].

*Səlim xan* da komandası altında bulunan *Car* və *Avar* qoşu-
nuyla onun dalısıyca gəlib Şəkiyə daxil oldu. Məhəmmədhəsən
xan isə ancaq 200 nəfər öz yaqınlarından götürüb *Dəvəli Mus-
tafa xan* tərəfinə qaçmağa fürsət tapa bildi. Dəvəli Mustafa xan
o əsnada Şamaxı ətrafındakı qətl-qarətdən qurtarmış, Şəki vila-
yətində ***Xaçmaz*** mahalına gəlmişdi. Məhəmmədhəsən xan kö-
mək alıb qardaşını məğlub etmək umuduyla Dəvəli Mustafa xa-
nın ordugahına gəldi. Mustafa xan dərhal Məhəmmədhəsən xanı
dutub gözlərini çıqartdırdı və yanındakı adamlarının silahlarını,
atlarını alıb [özlərini] Şəkiyə qaytardı. Kor olmuş Məhəmməd-
həsən xanı isə qarovullara qoşub *Təbriz*'ə yola saldı[2].

## SƏLİM XANIN XANLIĞI

Bu vasitə ilə *Səlim xan* ***Dəvəli Mustafa xanın razılığıyla*** Şəkidə
xanlığa başladı və öz xanlığını rəqiblərdən asudə saqlamaq üçün
***qardaşı Məhəmmədhəsən xanın yeddi nəfərdən ibarət qalmış ki-
çik oğlanlarını dutub öldürtdü.***

Bu əsnalarda Rusiya imperatoriçəsi ***Yekaterina***'nın sevgili
"məhbub"larından birisi bulunan ***qraf Zubov***[3] Gürcüstanı hi-
mayə adıyla Qafqasiyaya göndərilən çar ordusunun baş ko-
mandanı təyin edilərək külliyyətli rus ordusuyla Şimali Azər-

[1] *"Höccətüt-təvarix"*, əlyazısı. - ***M.M.***

[2] *Şəki tarixi*, əlyazısı. - ***M.M.***

[3] 1796-97-də Qafqazdakı rus qoşunlarının baş komandanı olan
*V.A.Zubov* (1771-1804) Azərbaycana 30 minlik orduyla gəlmişdi

baycana gəldi. Azərbaycan xanlıqları böyük təşvişə düşdülər. İlk əvvəl Rusiya ordusunun istilasına düçar olacaq *Dərbənd və Quba xanı* ***Şeyxəli xan***[1] Rusiya ordusuna qarşı müdafiədə bulunmaq məqsədiylə (qərargahını *Muğan*'da qurub, göndərdiyi qoşun dəstələriylə Şamaxı xanı *Mustafa xan*'ı ***Fit*** dağında mühasirə ilə sıxışdırmağa və Qarabağ kəndlərini çapıb-talamağa məşğul olan) *Qacar Ağaməhəmməd şah*'ın yanına elçi göndərdi və ondan 10.000 qoşun kömək verməsini rica etdi.

Bu vaxtlar şiddətli soyuq idi. Şahın ordusu böyük azuqəsizliyə düçar olduğu kibi, soyuğun da şiddətinə davam edəməməkdə idilər. *Ordunun nəqliyyat vasitəsi olduqca zəifləmiş və atqatırlardan 70.000 qədəri soyuqdan və acliqdan qırılıb tələf olmuşdu*[2]. Bu səbəbə Ağaməhəmməd şah heç bir cəhətdən imdi kömək verəməyəcəyini Şeyxəli xanın elçisi ***Xızır***[3] ***bəy***'ə bildirdi. Xızır bəy 1.000 nəfər qoşun kömək verilməsini də rica etdi. Yenə mümkün olmadı. *Şah özü də Rusiya ordusuyla [uğursuz] müharibəyə girişməmək üçün qoşununu götürüb İrana qayıtdı.*

Bu vasitə ilə *Rusiya* ordusu *Dərbənd, Quba, Şamaxı* tərəflərini istila etdi. Xanlığını təhlükədə görən Şəki xanı *Səlim xan* isə ***1805-nci*** yılda rus ordu komandanlığına müraciətlə rus hökuməti tabeliyini qəbul elədi. Vergi olmaq üzrə də hər yıl Rusiya hökumətinə ***7.000 qızıl*** verməyi öhdəsinə aldı[4]. Bu sayaq ilə Səlim xan çar ordusuna sədaqət etməyə başladı. Hətta çar siyasətinin tələbinə görə, *Gəncə* vilayətini (*Şəmsəddinli Əli sultan*'ın ixtiyarına verməklə) Gürcüstan knyazı *Herakli*'nin himayəsi altına keçirmək üçün *Herakli* və *Qarabağ* xanı *İbrahim xan* ilə birlikdə öz qoşununu götürüb *Gəncə* xanı ***Cavad xan***'ın əleyhinə başlanan düşmənlik kampaniyasına iştirak etdi[5].

Fəqət Şimali Azərbaycan qitəsinin malik olduğu iqtisadi vəziyyət qonşu (*İran, Türkiyə* və *çarlıq Rusiyası* kibi) imperialist hökumətlərinin təmə' nəzərini özündən uzaqlaşdıramırdı. Bu səbəbə məzkur hökumətlərdən hankı birisi özündə istila qüvvəsi görürdüsə dərhal *Şimali Azərbaycan*'a yürüyürdü. Rusiya çarı-

---

[1] Fətəli xanın oğlu *Şeyxəli xan* (1791-1820) sonuncu Quba xanıdır.

[2] *"Höccətüt-təvarix"*, əlyazısı. - ***M.M.***

[3] Mətndə: حضر.

[4] *"Udilər"*, A.A.Arutinov. - ***M.M.***

[5] A.A.Bakıxanov, *"Gülüstani-İrəm"*. - ***M.M.***



nın istila ordusu da eyni məqsədlə bu əsnalarda Cənubi Qafqasiyada bulunurdu. İran şahı *Qacar Ağaməhəmməd şah* yağlı tikəni yalnız rus çarına buraqmamaq üçün ertəsi yıl İrandan 100.000 qoşun toplayıb təkrar *Qarabağ* və *Şirvan* üstünə gəldi[1].

Şahın böylə güclü qüvvəylə Qarabağ üstünə yürüdüyünü eşidən ***Qarabağ xanı İbrahim xan qorxusundan əhli-əyalını və öz canını götürüb Car (imdiki Zaqatala) vilayətinə qaçdı.*** Zəhmətləri sayəsində xanlığını yaşadan ölkə xalqını isə İran[2] ordusu hücumuna məruz buraqdı.

***Qacar Ağaməhəmməd şah müharibəsiz bir surətdə gəlib Şuşa qalasında əyləşdi.*** Şahın əmriylə Qarabağ böyüklərindən bir çoğu dutulub cəzalandı. Qarabağ başçılarından və İbrahim xanın yaqın adamlarından olub şahın qəzəbinə düçar olanlardan birisi də İbrahim xanın yanında *müşir*'lik vəzifəsində bulunan ***Molla Pənah Vaqif*** idi. Ağaməhəmməd şah birinci Qarabağ səfərində Şuşa qalasını mühasirə etdiyi zaman İbrahim xanı qorxudub təslimə almaq niyyətiylə:

ز منجنق فلك سنك فتنه مى بارد
تو ابلهانه كرفتى ميان شيشه قرار [3]

farsca şerini yazıb göndərmişdi. Bunun müqabilində isə Molla Pənah Vaqif:

كر نكهبان من آنست كه مى دانم
شيشه را در بغل سنك نكه مى دارد [4]

şerini cavab olaraq yazıb[5] şaha göndərmişdi. Bu səbəbə Şuşa qalası Ağaməhəmməd şah tərəfindən işğal olunduqdan sonra sairləri kibi Molla Pənah Vaqif də öldürülmək üçün şahın əmriylə həbsə salınmışdı[6].

---

[1] *"Gülüstani-İrəm"*. - ***M.M.***

[2] Oxu: *Qacar*.

[3] Fələyin mancanağından fitnə daşı yağır / Sən isə sarsaqcasına şişə içində yerləşmişsən. - ***M.M.***

[4] Hərgah məni saqlayan O'dur ki, mən tanıyıram / Şişəni də daş arasında saqlaya bilər. *"Şişə"*dən məqsəd *"Şuşa"* qalasıdır. - ***M.M.***

[5] Böyük Salman Mümtaz həmin beyti *Vaqif*'in yox, ***Dərgi təxəllüslü şairin*** yazdığını aydınlaşdırıb.

[6] *Qarabağ tarixi*, əlyazısı. - ***M.M.***

Ağaməhəmməd şah ***hicrətin 1211-nci*** yılında yatdığı yerdə özünün saray mühafizləri tərəfindən Şuşa qalasında öldürüldü. Bu səbəbə İran ordusu dağılıb məmləkətlərinə qayıtdılar. Ortada hərcü mərclik başlandı.

Azərbaycan xanları hər vaxt olduğu kibi yenə bu haldan fürsət tapıb hər kəs özünü müstəqil xan adlandıraraq idareyi-hökumətə başladılar.

Ağaməhəmməd şah bu dəfə İrandan gəldiyi zaman Şəkinin sabiq xanı *kor Məhəmmədhəsən xan*'ı da özüylə birlikdə gətirmişdi. Çar hökumətiylə əlaqəyə girmiş Şəki xanı *Səlim xan*'a acıqlı olduğu üçün kor Məhəmmədhəsən xanı yenə Şəki xanlığına qoyacaq idi. Fəqət əvvəlcə Şuşa qalasını almağa getdiyi üçün onu Muğan çölündə ordu yanında buraqmışdı.

Şah öldürüləndən sonra, hüzura gəlmiş başqa xanlar kibi *Şamaxı* xanı ***Mustafa xan*** da Şuşadan çıxıb Şamaxıya qayıtdığı zaman Muğanda kor Məhəmmədhəsən xanı gördü. Onu da götürüb özüylə Şamaxıya apardı. Bir azdan sonra Məhəmmədhəsən xan Şamaxı xanından kömək alıb Şəki üstünə gəldi. *Səlim xan* qorxusundan məmləkəti buraqıb Qarabağa qaçdı. ***Məhəmmədhəsən xan gəlib ikinci dəfə Şəkidə xanlığa başladı.***

## KOR MƏHƏMMƏDHƏSƏN XANIN YENƏ XANLIĞA BAŞLAMASI

Ağaməhəmməd şahın Şuşa qalasında öldürülüb aralıqda hərcü mərclik başlamasından və Qarabağ xanı *İbrahim xan* məmləkətdən qaçmış olduğundan İbrahim xanın qardaşı *Mehrəli bəy*'in oglu ***Məhəmməd bəy*** vaxtı fürsət bilərək özünü *Qarabağ xanı* adlandırmışdı. Şahın öldürülməsini eşidən İbrahim xan xüsusi qüvvə ilə *Car* ölkəsindən çıxıb Qarabağa yürüdü. Məhəmməd bəy qorxusundan xanlığı buraqıb Şəkiyə qaçdı. Şəki xanı kor Məhəmmədhəsən xan Şamaxı xanı Mustafa xana yararlıq üçün, düşməni bulunan ***Məhəmməd bəyi dutub dustaq halında Şamaxı xanına göndərdi.*** Aralarında qan davası olduğu üçün Məhəmməd bəy Mustafa xan tərəfindən öldürüldü.

Aradan bir müddət keçəndən sonra Şəki xanı Məhəmmədhəsən xan ilə Şamaxı xanı Mustafa xanın arası pozuldu. Bu səbəbə Mustafa xan Qarabağa qaçmış sabiq Şəki xanı Səlim xanı yanına çağırdı və onunla birlikdə qoşun götürüb Şəki xanlığının üstünə gəldi. Kor Məhəmmədhəsən xan da bu tərəfdən qoşun



toplayıb müdafiə hazırlığına başladı. Fəqət Məhəmmədhəsən xanın budəfəki idarəsindən narazı olan Şəki əhalisi xanın uğrunda qan tökməkdən boyun qaçırtdılar. Məhəmmədhəsən xan qoşunun azlığını və əhalinin narazılığını anladı. Bu münasibətlə qoşununu buraqdı və sülh təriqiylə özü Şamaxı xanının yanına gəldi. Mustafa xan bu haldan öz mənfəəti üçün istifadə etdi. ***Məhəmmədhəsən xanı və Səlim xanı - iki qardaşı da dutub dustaq elədi.*** Şəki vilayətini isə öz məmləkətinə ilhaq edərək tərəfindən öz əmisi oğlu ***Şeyxəli bəy***'i Şəkiyə naib qoydu.

Şəki əhalisi Şamaxı xanının bu sayaq xəyanətcəsinə işğalından narazı qaldılar və kor Məhəmmədhəsən xanın qardaşı bularaq, fəqət yenə Məhəmmədhəsən xan tərəfindən əvvəlcə gözləri çıqarılmış olan ***Fətəli xan***'ı gətirib özlərinə xan seçdilər. Mustafa xanın qoyduğu naibi isə çıqarıb məmləkətlərindən qavdılar[1].

Səlim xan Şamaxıda bulunurkən kömək diləmək məqsədiylə qızını Mustafa xana verdi. Bu səbəbə Mustafa xan Şəki xanlığını yenə Səlim xana qaytarmaq təşəbbüsünə başladı. Mustafa xandan maddi və mənəvi kömək alıb *Ərəş* sultanlığına gələn Səlim xan Şəki xanı Fətəli xanın saray bəyləriylə əlaqəyə başladı və onlardan bir neçəsini öz məqsədinə tabe elədi; dilbir olduğu bəylərin köməyiylə ***Səlim xan*** bir gecə qəflətən öz müfrəzəsiylə[2] gəlib Nuxa qalasına daxil oldu və ***Fətəli xanı kənar edib hicrətin 1219-ncu yılında[3] üçüncü dəfə[4] olaraq Şəki xanlığını idarəyə başladı[5].***

Kor Məhəmmədhəsən xan Şamaxı xanı tərəfindən azad edilərək Şamaxıdan çıxıb *Quba*'ya və *Dərbənd*'ə gəldi. Bu xanlıqlardan kömək görmədiyi üçün *Car*'dakı *Avar* icma hökuməti yanına getdi. Oradan da umudsuz olduğuna görə *Tiflis*'ə yollandı. Nəhayət, Tiflisdə rus komandanlığı tərəfindən həmişəlik olaraq *Hacıtərxan*'a[6] göndərildi.

Məhəmmədhəsən xan işbacaran və igit adam idi. İntizam və qaydanı sevən idi. O, məmləkətinin hər tərəfində (kor edilmə-

---

[1] Bu kitabda verilmiş başqa qaynaqlarda Fətəli xanın taxta oturduğunu eşidən Şeyxəli bəyin özünün yoldan qayıtdığı bildirilir.

[2] Dəstəsiylə.

[3] Miladi 1805-də.

[4] İkinci dəfə.

[5] *Şəki tarixi,* əlyazısı.- ***M.M.***

[6] Həştərxana.

sindən qabaq) öz istədiyi nizam və qaydanı, əsgəri və inzibati üsulları həyata keçirmişdi. Fəqət bu qədər istedad ilə bərabər o, çoq fanatik və rəhmsiz bir hakimdi[1].

Məhəmmədhəsən xan ***Nuxa qalasını və qala içindəki Xan sarayını yenidən gözəl surətdə təmir etdi.*** Qala hasarını təzələdi.

Məhəmmədhəsən xan, sarayının ikinci mərtəbəsində özünün hökumət otağından bağçaya qarşı iki qapı açdırmışdı. Qapılardan birinin adı *"Rəhmət qapısı"*, obirisinin adı *"Qəzəb qapısı"* idi. Haqlarında xan tərəfindən hökm veriləcək müqəssirlər yasavullar vasitəsiylə gətirilib *Divan həyəti*'ndə saqlanırdı. Bütün müqəssirlərin gözü *"Rəhmət"* və *"Qəzəb"* qapılarına dikilirdi. Xan fərman vermək üçün *Rəhmət qapısı*'ndan balkona çıxardısa müqəssirlərdən bir çoğu bağışlanır və əzabları yüngüllənirdi. Fəqət *Qəzəb qapısı*'ndan çıxardısa müqəssirlər başları kəsilmək, gözləri çıxarılmaq və sairə kibi şiddətli əzablara düçar olurdu. Məhəmmədhəsən xan ən çoq, göz çıqartdırırdı.

***Məhəmmədhəsən xan kor edilməmişdən qabaq 12 yıl, kor edildikdən sonra isə 8 yıl Şəki vilayətinin xanlıq məsnədində oturmuşdu.***

Səlim xan bu dəfə xanlığını daha qüvvətli bulundurmaq niyyətiylə, Şamaxı xanının da qızının əri bulunmasına arqalanaraq, o vaxt *Quba, Dərbənd, Gəncə* xanlıqlarını istila etmiş Rusiya çar ordusuyla təkrar yaqınlıq əlaqəsinə başladı. Fəqət Şəki xanının ruslara yaqınlaşmaq siyasəti Şamaxı xanının xoşuna getmədi. Bu səbəbə bir qədər atlı göndərib Şəki vilayətinin bəzi yerlərini çapıb-talatdırdı.

***Miladi 1806 və hicrətin 1221-nci yılı iyun ayında*** Qarabağ xanı *İbrahim xan* İran ordusu baş komandanı *naibüssəltənə* ***Abbas Mirzə***[2] *ilə əlaqəyə girişmək məqsədiylə Şuşa şəhərinin iki verstliyindəki*[1] *təpəlikdə çadırlarını qurub otururkən* Şuşadakı rus atryadı[2] komandanı mayor ***Lisaneviç*** tərəfindən qəflətən yapılan bir gecə hücumu əsnasında övlad və əyalıyla qətlə yetirildi[3]. *İbrahim xan* ilə birlikdə öldürülən arvadı Şəki xanı *Səlim xan*'ın bacısı idi[4].

Səlim xan bu xəbəri eşidərək çar ordusuyla yenə düşmənliyə başladı və Nuxa şəhərində yanında bulunan rus müfrəzəsini qətlə yetirdi[5] və Azərbaycan üstünə gəlmiş ikinci istila ordusu İran komandanı ***Abbas Mirzə***[6] ilə əlaqəyə başladı, Avar, Car ləzgilərindən qoşun toplayıb çar ordusu qarşısına çıqmaq üçün Abbas Mirzədən külliyyətli surətdə para müavinəti aldı.

Səlim xana tənbeh etməkdən ötrü *Gəncə*'də bulunan rus ordusu komandanlığı tərəfindən general ***Nebolsin***'in komandası altında olaraq *Şəki* üstünə cəza dəstəsi göndərildi. Arada vaqe olan müharibədə Şəki xanının pul ilə kömək gətirdiyi ləzgi qoşunu sınıb qaçdılar. Səlim xan əhvalını təhlükədə gördüyü üçün əhli-əyalını və yaqın adamlarını götürüb İrana qaçdı.

Səlim xan xoşdimağ və xoşxasiyyət adam idi. İsrafçılıq və eyş-işrəti çoq sevərdi. Fəqət rəhmsiz, zalım bir şəxs idi[7].

Səlim xan qaçandan sonra miladın 1807-nci yılında rus ordu komandanlığı tərəfindən ***Xoylu Cəfərqulu xan*** Şəki xanlığına təyin edildi[8], 7 yıl xanlıq edəndən sonra Cəfərqulu xan öldü. Onun oğlu və vəliəhdi bulunan ***İsmayıl xan 1814-ncü*** yılda atasının yerinə keçib Şəki xanlığını idarəyə başladı.

---

1 *"Gülüstani-İrəm"*, rusca. - ***M.M.***

2 Qısa ömrünün 30 ilini (1804-1833) ruslarla savaşda keçirən naibüssəltənə (vəliəhd) və ***Azərbaycan hakimi*** (1799), bütün Qacar qoşunlarının sərkərdəsi (1803) ***Abbas Mirzə Fətəli şah oğlu Qacar*** (26.8.1789, Larican mahalının Nəva kəndi - 25.10.1833, Məşhəd) bütövlükdə Azərbaycanın və özəlliklə Qacar xanədanının tarixində ən parlaq şəxsiyyətlərdən biridir. O, ilahinin hökmü və tarixin gərdişiylə sonucda ruslara məğlub olsa da dünyanın Napoleon kimi sərkərdələrini bir neçə ilə diz çökdürməyi bacarmış Rusiya məhz onun sərkərdəlik zəkası və şəxsi qəhrəmanlığı sayəsində Azərbaycan uğrunda 24 il (1804-1828) mübarizə aparmalı, on minlərlə rus əsgərinin həyatını qurban verməli olmuşdu.

1 1 verst 1,0668 km-dir.

2 Hərbi dəstəsi ("отряд"ın təhrif olunmuşudur).

3 Azərbaycan xalqının düşməni olan rus hərbçisi *D.T.Lisaneviç* 200 əsgərlə gələrək ***10 iyun 1806-da*** Qarabağ xanını gecə yatdığı yerdə 17 ailə üzvüylə birgə qılıncdan keçirib məhv etmişdi.

4 İbrahimxəlil xanın qızı *Tutu bəyim*'lə evlənmiş Səlim xanın bacısı *Tubu bəyim* də Qarabağ xanında ərdəydi və o da öldürülmüşdü.

5 *Şəki tarixi*, əlyazısı. - ***M.M.***

6 Müəllifin rusları Azərbaycandan təmizləmək istəyən ***Azərbaycan valisi*** Abbas Mirzəni *"Azərbaycan üstünə gəlmiş ikinci istila ordusu İran komandanı"* adlandırması sovet tarixşünaslığının uydurduğu saxta tezislərdəndir.

7 *"Gülüstani-İrəm"*, rusca. - ***M.M.***

8 Cəfərqulu xandan qabaq bir neçə ay ***Fətəli xan*** ikinci dəfə xanlıq etmişdi. Bu fakt, nədənsə, müəllifin diqqətindən yayınıb.

İsmayıl xan cavan, təcrübəsiz və çoq zülmkar idi. Əhali ilə
zalım bir üsulda rəftar etməyə başladı. Əhalidən kimsəyə acığı
dutardısa öz ***mirqəzəb***'ləri vasitəsiylə onun burnunu, qulağını və
bəzən kişilik alətini kəsdirərdi. Eşitdiyi və xoşuna getdiyi arvad-
ları güc ilə saraya gətirib namuslarına təcavüz edərdi. O, bu kibi
zalimanə və şərəfsiz hərəkətləriylə əhalinin narazılığını özünə
cəlb etdi.

Şəki əhalisi İsmayıl xanın zülmündən rus ordu komandanı
***Yermolov***'a şikayətə məcbur oldular. Nəhayət, beş yıl *Şəki*
*xanlığını böylə namussuz bir üsul ilə idarə edən İsmayıl xan*
miladın 1819-ncu yılında övladsız bir halda birdən-birə ölüb
getdi[1]. Onun meyiti, övladı və qohumları İrana göndərildi[2]. Bu-
nunla da Şəki xanlığı pozulub qurtardı[3]. Ölkə tamamilə rus is-
tila ordusu idarəsinə keçdi və ***Şəki vilayəti*** adlandırıldı.

Bu haldan bir müddət keçəndən sonra İran ordusu yenə nai-
büssəltənə ***Abbas Mirzə***'nin komandası altında olaraq Şimali
Azərbaycanda göründü. Abbas Mirzə yerli Azərbaycan xanla-
rından bir neçəsini öz tərəfinə çəkməyə müvəffəq oldu. Şəki
xanlığını da ruslardan geri qaytarmaq üçün Şəki üstünə qoşun
hissələri göndərdi[4].

Fəqət Şimali Azərbaycan kibi sövqül-ceyş[5] və iqtisadi əhə-
miyyəti olan bir ölkəni sahiblənməkdən ötrü İran və çar Rusi-
yasının istila orduları arasında şiddətli və yüngül olmaq üzrə bir
çoq qanlı müharibələr oldu. Nəhayət, ***Abbas Mirzə***'nin qəsdən

---

1 İsmayıl xanın sonu, bizcə, Ələşrəf İsmayılovun bu kitabda verilmiş *"Şəki keçmişdə və imdi"* əsərində (s.195) daha düzgün təsvir edilib.

2 Sısoyev. Müxtəsər Şimali Azərbaycan tarixi. - ***M.M.***

3 Rusların 1819-da ləğv etdiyi Şəki xanlığını ***Səlim xanın oğdu Hüseyn xan*** 1826-da yenidən bərpa etsə də üç aydan sonra ruslar Şəkini artıq birdəfəlik tutdular.

4 Abbas Mirzə Şəki xanlığını məhz Səlim xanın oğlu Hüseyn xanın əliylə bərpa etmək istəyirdi. Bu məqsədlə o, Hüseyn xanı da özüylə götürərək 7 məhərrəm 1242-də (11 avqust 1826-da) Şəkiyə qəlmiş (bax: bu kitab, s.219) və onu xan təyin etmişdi. Təəssüf ki ruslarla vuruşda Abbas Mirzə yenildi və Hüseyn xanda hakimiyyətdən əl çəkərək Təbrizə getməli oldu.

5 Hərbi.



səhlənkarlığı[1] və qardaşına qarşı başladığı rəqabət nəticəsində İran ordusu tamamilə bərbad bir halda pozulub İrana qayıtmağa məcbur oldu. Buna görə hicrətin 1228 və ***miladın 1813 tarixində oktyabr ayının 12-nci günü*** İran hökumətiylə[2] rus çarlığı arasında ***"Gülüstan əhdnaməsi"*** adıyla bir müqavilə yazılıb hər iki tərəfdən imza və təsdiq edildi. Bu əhdnamə mucibincə, bütün Şimali Azərbaycanda bulunan xanlıq ölkələrinin rus çarlığı idarəsinə keçməsini İran hökuməti etiraf və təsdiq etdi[3].

Bu surətlə Şimali Azərbaycanda uzun əsrlərdən bəri davam edən feodal üsul-idarəsi axıra çatdı və rus çarlığı vasitəsiylə imperatorluq üsul-idarəsi başlandı.

## ŞƏKİDƏ XANLIQ ZAMANINDA MƏMLƏKƏT İDARƏSİ[4]

### İdarə

Məmləkətin idarəsi cürbəcür vasitələrlə olurdu. Xanlıq ***ölkə***'si ***vilayət***'lərə bölünmüşdü. Hər vilayət ***naib, darğa*** ləqəbiylə müxtəlif ***valilər*** tərəfindən idarə edilirdi.

Şəki xanlığında məmləkət bəzi vaxt genişlədiyi üçün bir ölkəni, bir vilayəti idarə etməkdən ötrü oraya xan tərəfindən bir ***canişin (naib)*** təyin olunurdu - Hacı Çələbi xanın vaxtında Təbriz vilayətinə ***Sədrəddin əfəndi***'nin naib təyin edildiyi kimi.

Vilayət darğaları və naibləri paytaxt ***darğabaşı***'sına və ***naibbaşı***'sına tabe idilər. Bu kibi valilər xanın ən inandığı adamlardan təyin olunurdu.

---

1 Biz hörmətli M.Mirbağırzadənin Abbas Mirzəyə qarşı bu ittihamıyla əsla razı deyilik.

2 İfadə yanlışdır - o zaman İran hökuməti yoxdu; *Gülüstan* və *Türkmənçay* müqavilələri rəsmən *Rusiya* və ***Qacar*** dövlətləri arasında bağlanıb.

3 *"Gülüstani-İrəm"*, A.A.Bakıxanov. - ***M.M.***

4 M.Mirbağırzadə bu başlıq altındakı materialı ***"Maarif işçisi"*** məcmuəsində *"Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat"* məqaləsindən sonra ayrıca yazı kimi buraxdırsa da (1928, №7-8, ss.38-42) hər baxımdan mövzunu tamamladığına görə onu da bu əsərinin tərkib hissəsi kimi verməyi məqsədəuyğun saydıq.

İnzibati və mülki idarə cəhətindən kəndlər də xüsusi hissələrə ayrılırdı. Hər hissə bir ***bəy***'in ixtiyarına verilirdi. Hissələr bəyin ixtiyarından asılı olaraq 5-dən 20-yə qədər kəndlərdən ibarət olurdu. Məzkur kəndlərin hökumətə qarşı olan vergi, nizam və əsgərlik məsələləri həman hakimin riyasəti və vasitəsiylə həyata keçirilirdi.

Xan öldükdə, məmləkət başqa xanın idarəsi altına keçdikdə, hökumət şəraiti dəyişdikdə əvvəlcə iş başında duran hakimlərdən çoq azı öz vəzifəsində qala bilirdi. Vəzifədən kənar olanlar isə çoqusu məmuriyyətləri zamanında əhali ilə fəna rəftar etdiklərinə və zülmkar olduqlarına görə öz qohum-əqrəbasından başqa, əhali arasında çoq vaxt hörmət qazanamırdılar.

Müəyyən kəndləri idarə edən bəy öləndən və bəzən vəzifədən kənar edildikdən sonra həman ixtiyar onun varisinə (oğluna, qardaşına) verilmək üçün məmləkət hakiminin xüsusi əmri lazım idi.

Kəndləri idarə edən *bəy* camaatın yalnız inzibati və vergi işlərini deyil, məhkəmə işlərini də idarə edirdi. Bu kibi məsələlərdə camaat arasında əvvəldən bəri mövcud olan ürf və adətlər də nəzərə alınırdı.

Vilayətlərdə əhalinin inzibati və mülki işlərini ***darğa***'lar və şəriət işlərini ***qazı***'lar idarə edirdi. Bir çoq kəndlərin idarəsinə hakim təyin olunan bəylərin yanında əmrlərini icra etmək üçün ***nazir, yüzbaşı*** və sair ləqəblə ayrı-ayrı xüsusi məmurlar bulunurdu. Kəndləri idarə edən bəylər əhalidən topraq məhsulatından, mənna cinsindən və bəzən də pul olaraq müəyyən miqdarda vergi alırdılar. Bu vergilərdən bir qismi və bəzən çoq qismi məmləkət xanının xəzinəsinə gedirdi.

İdarəsinə kəndlər verilmiş ***bəy*** məmləkət hakiminə qarşı müəyyən vəzifələr icrasıyla mükəlləf idi. Hökumət xəzinəsinə çatacaq ipək, taxıl, pul kibi vergi qisimlərini toplayıb paytaxta göndərməkdən başqa, ən başlıca vəzifələrindən birisi də məmləkətin müdafiəsi zamanında xanın tələbiylə əli altında bulunan kəndlərdən müəyyən miqdarda atlı və piyada silahlı əsgər toplayaraq xanın hüzurunda əmrə hazır bulunmalı idi. Bundan əlavə, azuqə və sairə işlərində də iştirak etməli idi.

## Əhalinin siniflərə bölünməsi

Məmləkətin yuxarı sinfi bəylərdən və hökumət xanədanından ibarət idi. Bunlar məmləkətin *aristokrasiya* qismini təşkil edirdilər.



Yuqarı sinif *üç qismə* ayrılırdı:

1) məmləkəti idarə edən xanədanın övladı və qohumları;

2) əsl-kökdən bəy olanlar (əskidən bəri İran və Osmanlı hökumətləri tərəfindən bəylik ləqəbi alanlar);

3) məmləkət hakimi tərəfindən məmuriyyət səbəbiylə bəylik ləqəbi alanlar.

Bu sonuncular bəzən bir neçə kəndin idarəsinə məmur edildikləri[1] üçün ***bəy*** və ***məlik*** ləqəbi elə də adlanır və məzkur kəndlərin idarəsinə təyin edilirdilər. Bunlardan bəziləri heç bir kənd idarəsinə məmur edilmədikləri halda yalnız xanın əmrini yerinə yetirmək üçün qeyd edilən ləqəbləri alan *saray bəyləri*'ndən ibarət olurdu.

Məmləkətin idarə işlərinə ancaq yuqarı sinifdən olanlar təyin edilirdi. Qoşun komandanlığı və sərkərdəliyi də xana mənsub adamlara verilirdi.

Yuqarı sinfə mənsub şəxslər vəzifələrinin artıqlığı ilə və xanədanlarının əsilliyi ilə bir-birinə ehtiram etməyə məcbur idilər. Yuqarı sinif hökumətə məxsus hər qisim vergilərdən azad idi.

Məmləkətin bütün vergiləri və əsgərlik vəzifələri yalnız ***rəiyyət, rənçbər*** və sair adlanan aşağı sinifdən ibarət əhalinin öhdəsində idi[2].

## Hökumət şurası

Məmləkətin ümumi siyasi, ictimai, hərbi və iqtisadi işlərini idarə etmək üçün məmləkət hakimi *xan*'ın yanında təcrübəli kişilərdən, ağsaqqallardan, ordu sərkərdələrindən, nüfuz sahibi adamlardan mütəşəkkil bir ***şura heyəti*** mövcud idi. ***Xan şuranın qərarı və izni olmamış heç bir böyük işi özbaşına icra etməzdi.*** Az əhəmiyyətli olan işləri xan özü qərardad edib icrasına əmr verərdi.

***Dövlət şurası***'nın ən nüfuzlu və ehtiramlı zamanı ***Hacı Çələbi***'nin xanlıq vaxtı idi. **Hacı Çələbi tamamilə *dövlət şurası*'nın qərarıyla hərəkət edərdi.** Başqa xanlar isə ən çoq müstəbid və diktator sifətiylə icrayi-hökumətə çalışmışdırlar.

[1] Mətndə: *"elədikləri"*.

[2] Qafqaz kalendarı, 1917. - ***M.M.***

## Vergi mükəlləfiyyəti

Şəki xanlığında hökumətin ən görkəmli vergisi ipək təsərrüfatından ən müxtəlif surətlərlə alınan vergilərdən ibarət idi. Demək olar ki, bu vergi Şəki şəhəri əhalisindən alındığı kibi, bütün kənd əhalisindən də alınırdı. Xristian əhalidən alınan ipək vergisinə *"din ipəyi"* denilirdi. Bu isə ərəblərin xristian təbəədən aldıqları *"cizyə"*[nin] müqabili idi.

***İpək təsərrüfatı Şəki xanlığında hökumət mədaxilinin ən başlıca mənbələrindən biri idi.*** Hətta hökumətin özü barama qurdu bəslədir və ipək təsərrüfatıyla məşğul olurdu.

İpək təsərrüfatıyla məşğul olan əhalidən ***məhsulun 5-də birisi*** miqdarında vergi alınırdı. Buna ***"malcəhət"*** denilirdi.

Xanın özünə məxsus ***"xalisə"*** denilən topraqlar və mülklər var idi[1]. Burada ***"rəiyyət"*** adıyla kəndlilər çalışırdılar. Rəiyyətlərin ən başlıca işi ***xan***'ın baramalarını bəsləmək idi. Bunların hüsula gətirdikləri ipəyin ***beşdə üç payı*** xanın nəfinə alınırdı. Barama toxumu, bəsləmə yerləri, tut bağları da xanın hesabına idi.

İpək vergisinin ən çoqu ipək alverçilərindən alınırdı. Bu kibi vergilər cürbəcür idi. Bunlar ipək bir əldən başqa ələ satılarkən tərəzidə çəkildikdə ***"mizan haqqı"***, məmləkətin bir yerindən başqa yer[in]ə aparıldığı zaman ***"rəhdar haqqı"***, Kür, Aras, Qanıq kibi çaylardan keçirildikdə ***"bərə haqqı"*** və sairə kibi alınan vergilər idi.

İpək vergisindən başqa, hökumət vergisi olaraq bu kibi vergi qisimləri də var idi. Əhalidən evbaşıvna ***yılda üç manat*** miqdarında ***"tüstü pulu"*** alınırdı. Xristian təbəələrdən: arvadlı olanlar ***bir manat***, subay olan və 15 yaşından yuqarı bulunanlar ***55 qəpik*** miqdarında ***"baş xərci"*** verirdilər.

---

[1] Rusların 1826-da tərtib etdiyi yarımçıq siyahıya görə, Şəki xanı ***Məhəmmədhəsən xan***'ın 264 dükanı, 27 kənddə 222 tut bağı (çəkilliyi), 135,5 tağarlıq çəltik əkini, 13 kənddə 591 tağarlıq buğda və arpa əkini (Şəkidə 1 *buğda tağarı* 1/3 pud, 1 *düyü tağarı* 10 pud, 1 *arpa tağarı* 15 puddu), 11 dəyirmanı, 28 qoyun yatağı, 11 üzümlüyü vardı. (Bax: Колониальная политика российского царизма в Азербайджане в 20-60-х гг. XIX в., ч.I. Баку, 1936, таблица I, ss.410-433).



Qoyunçulardan payız və yaz vaxtı ***hər yüz qoyundan bir qoyun*** vergi alınırdı. Qaramal saqlayanlar yılda 4 girvənkə[1] miqdarında inək yağı verirdilər. Bostan və sairə kibi göyərti məhsullarından da ***10-da bir***, taxıl əkinlərindən isə ***4 put yarıma***[2] ***qədər*** hökumət xəzinəsinə verilirdi.

Yerli hökumət məmurlarının maaşı hesabına olaraq ***bəzi vilayətlərdən xəzinə nəfinə vergi alınmırdı.***

Kənd və rəiyyət sahibi bəylər bəzi səbəbli vaxtlarda xanın tələb etdiyi miqdarda öz mədaxilləri hesabından xəzinə nəfinə istənildiyi miqdarda taxıl verməyə məcbur idilər. Tacir və sənətkarlardan sərmayələrinə görə yılda ***100-də bir*** miqdarında ***"maliyat"*** alınırdı. Dəyirmanı olanlardan yılda ***16 manat***, parça toquyan fabrikası olanlardan hər əmələ[3] hesabına yılda ***dört manata qədər***, ipək zavodu olanlardan ***mancılıq***[4] üçün təkər başına yılda ***6 manat***, hər arı səbətindən yılda ***32 qəpik***, hər qoyun başına yılda ***16 qəpik***, bağ və tütün məhsullarından hər xərvara ***6 manat***, çəltik məhsulatından ***10-da üç hissə***, qaramalın hər başına ***50 qəpikdən iki manata qədər*** mütəfərriq[5] vergilər alınırdı.

Müharibə, ya başqa fövqəladə zamanlarda əhalidən *xüsusi vergilər* alınırdı.

Yerlər kənd hesabına, topraqlar ***icma*** hesabına bulunurdu. Yer ölçüsündə başlıca ***"ip"*** işlənirdi. Hər *ip*'in boyu 12 qulac, ya ki 6 sajen[6] uzunluğunda idi. (*İp* ilə yer ölçüsü imdi də Azərbaycan kəndlərində bəzi yerdə işlənir). Bundan başqa, yerlər ***addım, qədəm*** ilə də ölçülürdü[7].

---

[1] 1 *girvənkə* 409,5 qramdır. Deməli, yağ vergisi *1 kq 626 q* olurdu.

[2] 1 pud = 16,4 kq; 4,5 pud = 73,8 kq.

[3] İşçi.

[4] *"Mancanaq"* sözünün pozulmuşudur.

[5] Dağınıq.

[6] 1 *sajen* = 2 qulac (1 qulac = 1,0668 m) = 3 arşın (1 arşın = 711,2 mm) = 4,8 verşok (1 verşok = 44,49 mm) = 7 fut (1 fut = 12 düym = 304,74 mm; 1 düym = 25,39 mm) = 2133,5 mm = ***2,133 m.*** Deməli, ***1 ip 12,801 metrə bərabərdir.***

[7] Bəzi uzunluq ölçüləri: 1 *ovuc* = 4 *barmaq* = 0,07 m; 1 *qarış* = 3 *ovuc* = 0, 22 m.

Tərəzi çəkisində ***tağar***[1], ***xərvar***[2], ***batman***[3], ***çaryek***[4] işlənirdi. ***"God"***[5] adıyla qab ölçüsü də vardı.

Toqunmuş parça ölçülərində ***arşın***[6], ***qulac***[7], ***boy***[8], ***çaryek***[9], ***gireh***[10] kibi ölçü üsulları var idi.

### Vərəsə malı

Ailənin böyüyü, sahibi öldükdə onun övladı, ya ki qardaşı, qardaşı övladı və başqa qohumları ***vərəsə*** hesab edilirdi. Ailə sahibindən qalan mal-dövlət onun övladı arasında bölünürdü, vərəsəlik malından oğlana 8, qıza 4, anaya 1 hissə çatırdı.

Şəki xanlığı rus çarlığı məmləkətinə tamamilə ilhaq olunduğu zaman rus xəzinəsinə yılda 7.000 dənə qızıl vergi verirdi. Şəki xanlığı məsahə[t] və nüfus[11] cəhətindən o əsnalarda Şamaxı xanlığından kiçik olduğu halda iqtisadi cəhətindən Şamaxı xanlığından qüvvətli idi və mədaxili ondan artıq idi[12].

Hələ bu zamanlar Şəki xanlığının olduqca soyulmuş və zərər görmüş, tozğun[13] vaxtları idi.

---

[1] Şəkidə 1 *buğda tağarı* 1/3 pud (= 5,4 kq), 1 *düyü tağarı* 10 pud (= 164 kq), 1 *arpa tağarı* 15 pud (= 246 kq) idi.

[2] Şəkidə 1 *xərvar (xalvar)* təxminən 15 puda (= *246* kq) bərabərdi.

[3] Şəki şəhərində 1 *batman* = 20 *funt* (1 *funt* = 0,409 kq) = *8,19 kq* idi.

[4] Xalq içində *"çərək"* deyilir. Həm çəki, həm uzunluq vahididir. 1 çərək = *750 q* (bax: В.Хинц. Мусульманские меры и веса с переводом в метрическую систему. Москва: Наука, 1970, s.44).

[5] Şəki bölgəsi kəndlərində *"goduş"* da deyilir.

[6] 1 *arşın* = 711,84 mm = 71,184 sm = 0,711 m.

[7] 1 *qulac* = 1,0668 m.

[8] Yəqin ki, bir adam boyunun uzunluğu (təx. 160-190 sm) düşünülür.

[9] 1 *çərək* = 1 *əlçim* (dirsəkdən şəhadət barmağının ucunadək məsafə) = 45-50 sm.

[10] 1 *gireh* = 0,04 m.

[11] Ərazi və əhali.

[12] R.İsmayılov, *"Azərbaycan tarixi"*; M.Baharlı, *"Coğrafi-iqtisadi Azərbaycan"*; Sısoyev, *"Müxtəsər Şimali Azərbaycan tarixi"*; Qafqaz kalendarı, 1917; A.A.Qaspari, *"İstila edilmiş Qafqaz"*; Böyük qamus, Brokqauz-Yefron, cild 77. - ***M.M.***

[13] Tosqun (cah-cəlalı pozulmuş)?





## *Mirabbas MİRBAĞIRZADƏ*

## ŞƏKİ QƏZASI[1]

### Coğrafi vəziyyət

Şəki qəzası Şuralar Azərbaycanının şimal hissəsində vaqedir. Şimal-qərb tərəfdən *Zaqatala*, şərq tərəfdən *Quba*, cənub tərəfdən *Göyçay-Ağdaş* qəzalarıyla əhatələnmiş və şimal tərəfdən Dağıstan Cümhuriyyətinin *Samur* vilayəti ilə sərhədlənmişdir.

Şəki qəzası şimaldan şərqə tərəf Böyük Qafqaz dağları ətəklərinə söykənmiş və aşağıda düzənliklərə tərəf yayılmışdır. Şimal-qərbdə *"Salavat"* dağından başlayıb şərqdə *"Babadağ"* və *"Bazar düzü"* dağlarıyla nəhayətlənir. Qəzanın hazırkı quruluşu qərbdən şərqə tərəf uzanmış bir haldadır. Uzunluq cəhətindən 100 və enlik cəhətindən isə bəzi yerlərdə 40 və bəzi yerlərdə 30 verstlik[2] məsafə təşkil etməkdədir.

Şəki qəzasının şimal hissəsi başdan-başa meşəliklərdən ibarətdir. Cənub-qərbi hissədə 25.000 desyatindən[3] ibarət *"Turut"* deyilən böyük və susuz çöl mövcuddur. Duzlu, böyük bir yer səthini işğal edən *"Acı nohur"* gölü də bu hissədə vaqedir.

Qəza səthinin ümumi məsafəsi 391.605 desyatindən[4] ibarətdir. Bunun 115.000 desyatin[5] miqdarı meşəlikdir. Qalan yerlər isə bu sayaq təqsim edilə bilir:

---

[1] Mətn buradan götürülüb: ***Mirabbas Mirbağırzadə. Azərbaycan qəzaları. III. Şəki qəzası. - "Maarif işçisi"*** **jurnalı**, 1926, №10 (18), ss.69-77; №11 (19), ss.56-58. Qeydlər, aydınlatmalar və düz mötərizə [ ] içərisindəki artırmalar bizimdir. Əsərin dilinə toxunmamışıq.

[2] 1 *verst* = 1.067 m.

[3] 1 *desyatin* = 1,0925 hektar; 25.000 desyatin = 27.312 hektar.

[4] 427.828 hektar.

[5] 125.637 hektar.

- əkinə yarar, sulu və sairə yerlər - 106.605 desyatin[1];
- əkinə yaramaz, susuz və başqa yerlər - 111.489 desyatin[2];
- otlaq yerləri - 76.549 desyatin[3].

## Meşəlik hissə

Şəki qəzası daxilində ümumiyyətcə 115.000 desyatin miqdarında meşə mövcuddur. Bunun yalnız 10.000 desyatini[4] düzənlərdə olub, qalanı dağlıq meşələrdən ibarətdir.

Düzənlikdə olan meşələr yerli əhəmiyyətdədirlər. Bunlardakı ağacların 9 payı *palut*'dur. Yalnız bir payı *qaraağac* və *qovaq*'dır; bunlar ancaq odunluğa yarayandırlar.

Dağlıq meşələri şimal-qərbdə Zaqatala qəzası sərhədində *Qanlı qobu* çayının üstündəki Dağıstan yaylaqları sırtlarından başlayıb cənub-şərq tərəfdə Göyçay qəzasının *Göyçay* adlanan çayına qədər uzanır.

Şəki qəzasının dağlıq meşələri uzunluq cəhətindən 160 və enlik cəhətindən 20 verst məsafədən ibarətdir.

Məzkur meşənin ən qalınlıq yerləri *Daşağıl* çayından başlayıb Göyçay sərhədinə qədər gedir.

Şəki qəzası meşələrindəki ağacları 10 hissəyə təqsim etdikdə bunun 5 faizi *fıstıq*, 3 faizi *vələs*, 1 faizi *palut* və qalan 1 faizi isə *lapan, cökə, qaraağac*'dır. *Şahpalut, ardıc, qoz* ağacları tək-təkdir. *Qovaq ağacı* da az-az bulunur.

Yol və zavod olmadığına görə məzkur meşələrdən hələ imdiyə qədər təsərrüfat halında istifadə edilməmişdir.

Daşağıl çayından etibarən Göyçay sərhədinə qədər olan meşəliklərdə küllıyyətli surətdə[5] 20 verşok[6] qalınlığında və 40 arşın[7] ucalığında böyük ağaclar mövcuddur.

---

[1] 116.466 hektar.
[2] 121.802 hektar.
[3] 83.630 hektar.
[4] 10.925 hektar.
[5] Xeyli miqdarda.
[6] 1 *verşok* = 1,75 düym (1 düym = 25,3995 mm) = 44,49 mm. Deməli, 20 verşok = 888,98 mm = 88,898 sm = 0,8889 m.
[7] 1 arşın = 711,2 mm = 71,12 sm = 0,711 m. Deməli, ***40 arşın = 28,448 m.***



Bu meşələrdə çoq mövcud olan *fıstıq* ağacları ən başlıca olaraq yağ qoymaq üçün boçka[1] hazırlamağa yarayan ağaclardır. Sibirya qitəsindən Qafqasyaya gətirilməkdə olan yağlar üçün bu ağaclardan istifadə edilməsi mümkündür. Hətta məzkur *fıstıq* ağaclarına *kreozot* deyilən azot vurularsa bu ağaclar çürüməz və dəmir yollar üçün *işpal*[2] olmağa yarar. Bundan başqa, taxta çəkməyə də əlverişlidir.

Hazırda yerli kəndlilər həmin fıstıq ağaclarından kürək, şana[3], təknə, tabaq[4] və araba oxu qayırıb işlətməkdədirlər.

Şəki qəzası meşələrində *şam* ağacı yoqdur.

## Təsərrüfat dairəsində məhsuldar olan ağaclar

***Sarağan.*** Bu ağacın ən çoq olan yeri Şəki qəzasının *Daşyüz* deyilən çölüdür. Bu yerdən başqa, dağlarda və meşələrdə də bulunmaqdadır[5], fəqət buralarda azdır. Ancaq bunun yapraqlarından 500 put[6] qədər toplamaq mümkündür. Bu yapraqlar gön və dəri işlərinə sərf olunur[7].

***Sumaq.*** Qəzanın dağlıq meşələrində bulunur. O qədər çoq deyildir. Bunun məhsulundan 100 put qədər toplamaq olar.

***Zoğal.*** Çoqdur. Meşələrdə bulunur. ***Əzgil*** ağacı da bunun kibi. Bunlardan başqa, Şəki qəzasında ***zərix*** (rusca: *барбарис*) külliyyətli surətdə bulunmaqdadır.

**Mədaxil verici nəbatat qisminə gəldikdə**, Şəki qəzasının dağ meşələrində *"malina"*[8] çoq bulunur. 100 put qədər yığmaq mümkündür.

***Çiyələk*** (ruscası: *клубника*) qəzanın dağlıq və düzənlərində (susuz yerlərində) çoq bulunur.

***Çiriş*** qəzanın *Turut, Daşyüz* çöllərində çoq bulunur; zanbağa

---

[1] Çəllək.
[2] Şpal.
[3] Taxta yaba.
[4] Mətndə: *"qabaq"*; bizcə, mətbəə yanlışlığıdır.
[5] Vaxtilə Şəki qəzasında (indi Qəbələ rayonunda) yerləşən *Zarağan* kəndinin adı da bu bitkidən götürülüb.
[6] 1 *pud* = 16,4 kq; 500 pud = 8.200 kq = 8 ton 200 kq.
[7] Aşılama işlərində.
[8] Moruq.

bənzər yaşıl otdur. Bunun otu yeyildiyi halda, kökü yapışqan əvəzinə işlənilməkdədir.

***Biyan*** (ruscası: *солодковый корень*) qəzadakı çöllərin hamısında vardır. Bu otdan qəza daxilində 5.000 put[1] qədər toplamaq mümkündür. Bu otun kökü həm şirniyyat üçün, həm də təbabət üçün işlənilməkdədir.

## Süni meşəliklər

Şəki qəzasının *Vartaşen*[2] dairəsində Qəza Orman[3] Müdirliyi tərəfindən 1.900 mürəbbe sajendən[4] ibarət bir *süni meşə* əmələ gətirilməyə başlanılmışdır. Burada meyvəli və meyvəsiz ağaclar əkilmişdir. Meyvəli ağaclar arasında *alma, armud, qoz, şahpalut, tut* ağacları vardır.

Meşə ağacları içində isə *fıstıq, cökə, vələs, lapan, palut, yasəmən* ağacları əkilmişdir. Bu ağaclar böyüdükdən sonra meşəyə lazım olanları meşələrə və meyvəliyə lazım olanları isə calaqlanıb bağçalara paylanmaq üçündür.

Bundan başqa, yenə Qəza Orman Müdirliyi tərəfindən *Oxut* kəndi yerlərində 2 desyatin miqdarında palut və qoz ağacları əkilmişdir. Bunlar isə həmişəlik meşə olmaq üçündür.

Bunlardan əlavə, *Şəki* şəhərindən başlayıb *Turut* çölünün qurtulacağına və *Ağdaş* qəzası sərhədinə qədər olan yerlərdə şose yolu qırağı boyunca *qoz, yasəmən* ağacları əkilmək üçün plan tərtib edilmiş və bu məqsədlə 7.000 ağac əkilib hazırlanmışdır.

## Şəki qəzasının dağlıq və düzən meşələrində olan yeməli ov[5] heyvanları

***Maral.*** Qəzanın *Küngütdərə* denilən yerindən başlayıb Göyçay sərhədinə qədər düzən və meşəliklərində münasib miqdarda mövcuddur.

---

[1] 5.000 pud = 82 ton.

[2] İndi *"Oğuz"* adlanır.

[3] Meşəçilik.

[4] 1 sajen = 2 qulac (1 qulac = 1,0668 m) = 3 arşın (1 arşın = 711,2 mm) = 4,8 verşok (1 verşok = 44,49 mm) = 7 fut (1 fut = 12 düym = 304,74 mm; 1 düym = 25,39 mm) = 2133,5 mm = 2,133 m. Deməli, 1.900 kvadrat sajen = 3.667 kv. metr.

[5] Mətndə: *"ev"*.



***Köpgər*** (ruscası: *серна*; Zaqatala türklərincə: *qarapaça*, ləzgicə: *sum*). Zaqataladan başlayıb Şəki qəzasının Göyçay sərhədinə qədər olan meşəliklərin qayalıq və çətin yerlərində külliyyətli surətdə bulunur. Keçi boyda bir heyvandır.

***Cüyür.*** Meşələrin hər yerində vardır. Asan yerlərdə bulunur. Bu heyvan əvvəllərdə çoq idi, fəqət [19]20-nci yıldan[1] bəridir ki, bunların arasına *"ciyər xəstəliyi"* deyilən bir azar düşmüşdür. Buna görə çoq tələf olmaqdadırlar. Məzkur azar qəzanın yerli keçilərinə də sirayət etmişdir.

***Təkə*** (rusca: *тур*). Şəki əhli buna *dağkəli* və bir yaşında olanlarına *gəzir* deyirlər. Təkələr meşələrdən yuqarı hissələrdə, dağların ən uca və açıq yerlərində, Dağıstan ölkəsində qar tərəflərdə bulunurlar. Külliyyətli surətdə mövcud olmaqdadırlar. Təkələri 50-100 dənə bir yerdə sürü ilə görmək mümkündür. Dağların ən yuqarılarına [qar] düşdüyü zaman bunlar ot tapmaq üçün bir az aşağılara, meşə içərilərinə enərlər.

***Davşan.*** Bunlar iki cürə olur, yalnız Qafqas silsilə dağlarında bulunurlar.

***Ceyran.*** Çöldə, düzənlərdə və *Acınohur* düzənində çoq bulunurlar. Sürülərlə görmək olur.

## Dəri heyvanları

***Dələ*** (rusca: *куница*). Meşə içində və dağlarda çoq bulunurlar.

***Şələquyruq*** (rusca: *белка*). Yerlilər buna *"mişavul"* da deyirlər. Bunlar siçana bənzər, tükləri şahpalut rəngində, quyruğu bir az uzun heyvandırlar. Dəriləri bahalıdır.

Meşəliklərdə - şahpalut, qoz, fındıq ağacları olan yerlərdə bulunurlar. Ən çoq yaşadıqları yer ağaclar üstüdür. Məzkur ağacların meyvələrinə zərər verməkdədirlər.

***Ayı.*** Meşə dairələrində bulunur.

***Canavar.*** Düzəndə olan meşəliklərdə və çöllərdə çoq bulunur.

***Çöl donquzu.*** Qəzanın meşə və düzənliklərinin hər yerində vardır. Hazırda külliyyətli surətdə bulunub əkinlərə və ev heyvanlarına ziyan verməkdədirlər. Bir avcı bunlardan gündə 20 dənəsini avlaya bilər.

***Maşaq***[2] (rusca: *рысь*). Pələngdən ufaq yırtıcı bir heyvandır.

---

[1] Başqa sözlə: Sovet hakimiyyəti gələndən.

[2] Vaşaq.

Şəki qəzası meşələrinin dağlıq yerlərində olur. Çoq deyildir. Dərisi qiymətlidir; biri 15-20 manata gedir. Maşağın yuqarı dikəlmiş qulaqlarının ucunda uzun tüklər olur.

***Pələng***[1] (rusca: *барс*). Qalın meşələrin dağlarında olur. Çoq azdır. Dərisi 50-60 manata satılır.

***Çaqqal.*** Kol və meşəlik yerlərin hər tərəfində çoqdur.

***Çölpişiyi.*** Meşənin dağlıq və düzən yerlərində bulunur. Münasib miqdarda mövcuddur. Dərisinin qiyməti 1-2 manatdır.

***Suiti***[2] (rusca: *выдра*). Qəzanın hamı çaylarında, ələlxüsus *Əyri* çayında bulunur, fəqət azdır. Dərisinin biri 50 manata qədər satılır.

***Porsuq.*** Meşə və düzənlərdə yer altında bulunur. Çoqlu surətdə mövcuddurlar. Dərisinin qiyməti 1-2 manatdır. Bunların yaşayışı mədəni quruluşdadır - yer altında azuqə ehtiyat anbarları, yatmaq, yaşamaq odaları və pislik yerləri ayrı-ayrıdır.

***Kaftar*** (rusca: *гиена*). Şəki qəzasının *Acıohur, Turut, Sarıca, Ağyazı* çöllərində bulunur. Canavar boyda, ya ki böyük çoban iti böyüklükdə olur. Bunlar iki cürədir. Bir qisminin dərisi xallıdır, obiri qismininki isə cızıx-cızıxdır. Dal ayaqları uzun və qabaq ayaqları qısa olur. Dərisi satışa gedir.

## Yerli yeməli quşlar

Şəki qəzasında bu kibi yeməli quşlardan ***qırqavul, kəklik*** çoqdur. ***Turac*** azdır; yalnız *Turut* çölündə vardır. ***Çil***[3] (rusca: *куропатка*) çoq bulunur.

Bunlardan başqa, Şəki qəzasında yerli oquyan quşlardan ***qaratoyuq*** çoqdur. Bundan əlavə, yerlilər tərəfindən ***isgəndərquşu*** (rusca: *горн. индейка*) deyilən böyük və oquyan bir quş vardır. Yerli müsəlmanlar bu quşu müqəddəs bildiklərinə görə avlamazlar.

## Yırtıcı quşlar

Bu kibi quşlar qismindən Şəki qəzasında ***çalağan, qaraquş, qızılquş, quzğun*** kibi böyük və yırtıcı quşlar mövcud bulunur.

---

[1] Bəbir.

[2] Susamuru.

[3] Kəklik.



## Balıq qismi

***İşxan***[1] (rusca: *форель*). Qəzanın dağdan gəlmə aydın və şəffaf çaylarında külliyyətli surətdə bulunur. Əti ləzzətlidir. Dəri[si]nin səthi ağ və üzərində qızıl pula bənzər "pərəng"lər[2] vardır.

İşxan balığı olan yerlərdə ***qırqayaq***[3] (ruscası: *рак*) da çoq bulunur.

***Laqqa***[4] ***balığı.*** Əyri çayda çoq bulunur və avlanır.

Bunlardan başqa, Şəki qəzasında iki cürə ***çanaqlıbağa*** mövcuddur: birisi suda olur, balacadır, obiri qismi quru çöllərdə bulunur, böyükdür.

## Nüfus[5] miqdarı

Şəki qəzasında olan əhalinin miqdarı ***1905-inci yıl siyahısına görə, ümumiyyətcə 158.781 nəfərdən ibarət idi.*** O zaman Şəki şəhərində 54.678 nəfər və qəza daxilində isə 104.000 can yaşayırdı. Bütün qəzada 159 kənd mövcud idi. ***1917-nci yılda isə Şəki şəhəri də daxil olmaq üzrə bütün qəza əhalisinin miqdarı 106.364 qədərinə enmişdir. Fəqət bu yıllardan etibarən başlanan vətəndaş müharibələri***[6] ***nəticəsi olaraq Şəki qəzası kəndlərindən 39-u azaldığı kibi, ümumi nüfusun da miqdarı azalmışdır, böylə ki, hazırda*** Şəki şəhərində ancaq 22.000 nəfər və 120-dən ibarət qalmış kəndlərdə isə 70.000 nəfər olmaq üzrə ***ümumiyyətlə 92.000 can qalmışdır***[7].

Qəza İcraiyyə Komitəsindən alınmış məlumatıma görə, Şəki qəzasında arvadların miqdarı kişilərə nisbətən çoq azdır, böylə ki, məzkur qəzada qadınlar əhali miqdarının ancaq 40 faizini təşkil etməkdədirlər.

---

[1] Alabalıq.

[2] Bənəklər, xallar, ləkələr.

[3] Xərçəng.

[4] "Naqqa" adının dəyişmiş biçimidir. Ancaq naqqa balığını bildirməsi şübhəlidir, çünki bu balıq çox böyük olur.

[5] Nəfəslər, canlar (əhali).

[6] Erməni-müsəlman vuruşmaları düşünülür.

[7] Erməniləri bütün vasitələrlə müdafiə edən sovet mətbuatında M.Mirbağırzadə bundan da aydın deyə bilməzdi ki, **1905-1920-ci illər arasındakı erməni vəhşilikləri nəticəsində təkcə Şəki qəzasında 39 kənd xarabaya çevrilib və 66 min əhali yox edilib!**

## İnzibati təqsimat

Bütün qəza aşağıda qeyd edildiyi sayaq ilə dairəyə təqsim edilmişdir.

***1-inci dairə.*** Mərkəzi ***Aşağı Göynük*** kəndidir. Şəki şəhərindən oraya qədər 18 verst[1] fasilə vardır. Dairə 31 kəndi havidir[2]. Bunlardan 11 kəndin hər birində 100 evdən[3] yuqarı əhali mövcud olub, qalan kəndlərin əhalisi bundan azdırlar. Dairədə 2.994 təsərrüfat vardır. Dairə əhalisinin miqdarı 17.599 nəfərdir. Bunun 9.610 nəfəri kişi və 7.989 nəfəri arvaddır.

***2-nci dairə.*** Mərkəzi ***Cəfərabad*** kəndidir. Şəki şəhərindən oraya 22 verst[4] fasilə vardır. Dairədə 36 kənd mövcuddur. 10 kəndin hər birində 100 evdən yuqarı əhali vardır. Bütün dairədə 2.958 təsərrüfat və 16.661 nəfərdən ibarət əhali vardır. Bunun 7.863 nəfəri kişi və 6.798 nəfəri arvaddır.

***3-üncü dairə.*** Mərkəzi ***Vartaşın*** kəndidir. Şəki şəhərindən oraya 42 verst[5] fasilə vardır. Dairədə 32 kənd mövcuddur. 100 evdən yuqarı olan kəndləri 8-dir. Dairədə olan əhalinin miqdarı 16.304 nəfərdən ibarətdir. Bunun 7.296 nəfəri kişi və 6.008 nəfəri arvaddır.

***4*** və ***5-inci dairələr.*** 42 kəndi havidir. 100 evdən yuqarı 11 kənd mövcuddur. Bu dairələrin ikisində olan əhalinin miqdarı 19.661 nəfərdən ibarətdir. Bunun 10.846 nəfəri kişi və 9.115 nəfəri arvaddır.

*4-üncü dairənin* mərkəzi ***Nic*** kəndidir. Şəki şəhərindən oraya 75 verst[6] fasilə vardır.

*5-inci dairənin* mərkəzi isə ***Qutqaşın***'dır. Şəki şəhərindən buraya isə 96 verstdir[7].

Şəki qəzası uzunluq cəhətindən Zaqatala qəzası sərhədini təşkil edən *Qanlı qobu* çayından başlayıb Göyçay sərhədində

---

[1] 19,2 kilometr.
[2] Qapsayır, əhatə edir.
[3] Mətndə: "1000 ev".
[4] 23,4 kilometr.
[5] 44,8 kilometr.
[6] 80 kilometr.
[7] 102,4 kilometr.



vaqe ***Qalacıq***[1] kəndinə qədər təxmin hesab ilə 140-160 verst[2] qədər məsafə təşkil etməkdədir.

## Şəki qəzasında tarixi və maraqlı bəzi kənd adları

1-inci dairədə: *Cunut, Zunut, İnçə, Baltalı, Kiş, Qoxmux, Babaratma* (qədim asarı vardır).

2-nci dairədə: *Aydınbulaq, Oryat* (bu ad ilə iki kənd də Salyan qəzasının Xıllı dairəsində Kür qırağında mövcuddur. Bunlar *Əmir Teymur* ordusuyla gəlib bu yerlərdə qalmış *moğol* tayfası[3] bəqiyyələridir[4]), *Baş Daşağıl* (ləzgilərdir), *Baş Gəldək* (türklərdir), *Su-çi-vin* (türklər sakindir), *Bideyiz* (qədim udi kəndidir), *Bucaq, Cəyirli, Qaraqoyunlu, Vay-vay, Zəyzit* (hazırda türklər sakindir; hamısı kömürçüdürlər), *Küdürlü, Çapağan, Colağlı.*

3-üncü dairə: *Vardanlı, Qarabaldır, Taifli, Vartaşın, Calut, Utmanlı, Allavar, Bayan, Qumlax, Şirvanlı, Ağlıq, Abdallar, Dəymədərə, Yemişanlı, Padar* (bu adlı kənd, qəzaların bir çoxunda var), *Dəymədağılı* (Zaqatala qəzasında da bu ad ilə bir kənd mövcuddur. Çoq qədim kənddir. Əhalisi ya əski cığatay türkləri və ya ki moğol bəqiyyələridir), *Sincan, Tərkəş, Filfilli*[5] (ləzgidir), *Ərmənət* (türklərdir), *Xalxal, Xaçmaz* (bu adlı kənd bir də Quba qəzasında məlumdur).

4-üncü dairə: *Bum, Covurlu, Xırxatala*[6], *Sultan Nuxa*[7], *Mıx-*

---

[1] Qalacıq indi *İsmayıllı* rayonunda, *Göyçay çayı*'nın dağlar arasındakı başlanğıcındadır.
[2] 150-170 kilometr.
[3] Göydəndüşmə deyil ki, Şəki zonasındakı ləzgilər yerli türkləri çox vaxt *"muğal"* adlandırırlar.
[4] Qalıqları.
[5] Deyilənə görə, əhalisi xasiyyətcə tünd olduğuna görə bu kəndə qonşuları *"Bilbilli"* (bu şivələrdə *"bilbil"* çox acı qırmızı bibərə deyilir) adı qoyublar və sonradan o, "Filfilli"yə çevrilib.
[6] Qəbələnin, ***ana yurdumuz*** olan bu kəndi haqqında geniş bilgi almaqçün baxılsın: *Ədalət Tahirzadə. Xırxatala kəndinin tarixi və uruqlarının soyağacı.* Bakı, "Sabah" nəşriyyatı, 1996.
[7] Bu kəndin adı Mirabbas Mirbağırzadənin bir yazısında *"Sultan Şəki"* kimi göstərilib (bax: M.A. Qəzalarda. Şəki qəzasında. - *"Yeni yol"* qəzeti, 9 aprel 1924, №8, s.2).

*lıqovaq, Uludaş*[1], *Çuxur Qəbələ, Tikanlı, Tovla, Vəndamdərə* (ləzgilərdir), *Duruca, Qutqaşındərə, Laza, Mıçıx, Yüzbaşıvan* (bu son 5 kəndin əhalisi də ləzgidirlər)[2].

5-inci dairə: *Qutqaşın, Nohurqışlaq, Vəndam, Həzrə* (bu ad ilə bir kənd də Dağıstanın Axtı nahiyəsində Quba qəzasıyla sərhəd olan yerdə vaqedir), *Bunut, Cığatelli*[3], *Aydınqışlaq, Daşlıca, Zarağan, Qalacıq, Küsnət, Kor Yengicə, Tüntül*[4], *Qəmərvan* (bu son 5 kəndin də əhalisi ləzgilərdir).

## Şəki qəzası dairələrində əhali məşğuliyyəti və təsərrüfat halı

1-inci dairədə. Əhalinin başlıca məşğuliyyəti *çəltik əkmək*'dir. Yerləri aran olduğundan və çəltik əkinləri mədəni üzrə qurulmadığından, bundan başqa, ***duraq*[5] *suları axıtmadıqlarına görə camaatı qızdırma azarına mübtəladırlar.***

***Bu dairənin suyu əkinlərinə kifayət etməyir. Buna görə camaatın təsərrüfat halı müşküldür.*** Əhalinin çoxusu *türk* olub, yalnız bir neçə ufaq[6] kəndlər *ləzgi* camaatı ilə məskundur.

2-nci dairə. Bu dairədə camaatın başlıca məşğuliyyəti *taxıl əkinçiliyi*'dir. *Çəltik əkini* ikinci və *baramaçılıq* üçüncü mövqe dutmaqdadır. *Maldarlıq* ilə [də] məşğuldurlar.

Bu dairənin də yerləri qızdırmalıdır.

2-nci dairədə binlərcə desyatindən ibarət olub ən yaxşı məhsul verici əkin yerləri bulunan *Turut, Acınohur* kibi böyük çöllər vardır ki, su olmadığına görə hazırda heç bir işə yaramayırlar. ***Bu yerlərə su gətiriləcək olursa ikinci Muğan ola bilərlər. Alazan çayından bu yerlərə su çıqarmaq mümkündür.***

3-üncü dairə. Ümdə məşğuliyyətlərdən burada birinci *taxıl*,

---

[1] Mətndə: اولودار.

[2] Bu fikir yanlışdır. Keçmiş Qutqaşen (indiki Qəbələ) rayonunda heç vaxt *Vəndamdərə* və *Qutqaşındərə* adlı ayrıca kəndlər olmayıb (görünür, müvəqqəti *binələr* kənd siyahısında gedib). *Mıçıx* və *Yüzbaşovan* kəndləri də çoxdan mövcud deyil.

[3] Bu kəndin adı köhnə sənədlərdə *"Cığateyli"* (Cığataylı) göstərilib.

[4] Bu, türk kəndidir.

[5] Durğun.

[6] Balaca, xırda.



ikinci *çəltik əkinçiliyi*, üçüncü *baramaçılıq*'dır. *Maldarlıq* və *arıçılıq*'la da məşğuliyyət vardır.

Yerlərinin bir qismi dağlıq və dağ ətəkləridir, qalan qismi arandır. Bu dairədə *qoz, fındıq, alma, armud və sairə meyvə* bağları mövcuddur. Əhali *tənbaku* əkini ilə də məşğuldur.

4-üncü dairə. Bu dairə əhalisinin də birinci məşğuliyyəti *taxıl*, ikinci *çəltik əkinçiliyi* və üçüncü *baramaçılıq*'dır. *Maldarlıq* və *arıçılıq* ilə də məşğuldurlar. Burada *fındıq, qoz, şahpalut, alma, armud bağları* üçüncü dairədən artıqdır.

Yerlərinin yarı hissəsi dağlıq, yarı hissəsi arandır.

5-inci dairə. *Baramaçılıq* burada əhalinin ümdə məşğuliyyətidir. *Taxıl* və *çəltik əkinçiliyi, meyvə bağçılığı* ikinci və *maldarlıq* üçüncü mövqe dutmaqdadır. *Fındıq, qoz, şahpalut, alma, armud bağları* burada daha çoqdur.

Yerlərinin çoqusu dağ üstləri və dağ dibləridir.

Məzkur 4 və 5-inci dairələr əski tarixi ad ilə ***Qəbələ mahalı*** adlanmaqdadırlar.

Bu yerlərdə meyvəçilik təsərrüfatı çoq olduğu halda, ***dəmir yolundan çoq kənarda bulunduqlarına görə satışa yetirilə bilməməkdədirlər. Bu səbəbə dairənin böyük mərkəzi bulunan Qutqaşında meyvə qurutmaq və konserva zavodlarının təsisinə ehtiyac vardır.***

## Şəki qəzasının iqtisadi əhvalında ümumi vəziyyət

Bu xüsusda Şəki qəzasını iki hissəyə bölmək lazımdır:

1) qəzanın 1 və 2-nci dairələri,

2) 3-4 və 5-inci dairələri.

1 və 2-nci dairələrdə camaatın iqtisadi təsərrüfatı ən başlıca *taxıl* və *çəltik*'dən ibarətdir. Taxıl əkinləri burada ümumiyyətcə *dəmi*'yə olaraq əkilməkdədir. Suvarma yerləri yoqdur. Çəltik əkinləri isə ancaq çaylardan gətirilmə arxlar vasitəsilə sulanmaqdadır. Bu isə hər vaxt mümkün olmayır, çünki çəltik əkinlərinin suvarılmaq vaxtı yetişdikdə çayların suları daşır və çəltik əkinlərini suvarmağa imkan vermədikdən başqa, gələn sellər əkinlərin özləriylə birlikdə yerlərini də tamamilə yuyub aparır.

Bu dairələrdə camaatın əvvəllərdən bəri iqtisadi məşğuliyyətlərindən biri də *barama saqlamaq*'dır. Bu hal [19]14-üncü ilə qədər davam etdiyi halda, sonraları vaqe olan qarışıq[lıq]lar nə-

ticəsində[1] məzkur baramaları bəsləməkdə olan *çəkil* (tut) bağları tələf olmuş və qırılıb tükənmişdir. İmdiki halda isə bu dairələrdə barama bəsləmək işləri yenidən başlanmış və demək ola bilər ki, keçmiş baramaçılıq təsərrüfatının bir çoq faizi əldə edilməkdədir. Yerli camaatın bu üç qismdən başqa özgə iqtisadi təsərrüfatları yoqdur.

Qəzanın ikinci iqtisadi hissəsini təşkil edən 3, 4 və 5-inci dairələrinə gəldikdə, bu yerlərin camaatı ümdə olaraq *tənbaku* (maxorka) əkini, *bağçaçılıq* (fındıq, qoz, şahpalut, alma, armud) kibi, *meyvəçilik* və *baramaçılıq* işləriylə [də] məşğul olmaqdadırlar. Bu dairələrdə əkilən taxılların da yenə çoqusu *dəmiyə*'dir. Suvarılması mümkün olan yerlərdə çəltik əkinləri də mövcuddur. Əvvəlki hissəyə nisbətən bu ikinci hissənin iqtisadi vəziyyəti bir dərəcəyə qədər yaxşıdır, fəqət ikinci hissədə külliyyətli surətdə hüsula gələn meyvələri (dəmir yolundan uzaqlığı səbəbinə) satışı yetirmək imkanı mövcud deyildir. Buna görə məzkur məhsulatı yalnız *Şəki* və qonşu olan *Ağdaş* qəzası istehlak edəməyirlər. Nəticədə isə meyvələrin çoqu satılmamış qalır və tələf olur, [necə ki,] ***1925-inci yılda bir tərəfdən qışın ağırlığı, obiri tərəfdən də yaş meyvələrin kənara çıqarılmaması səbəbinə qəza daxilində 50.000 puta[2] qədər yalnız alma, armud meyvələri və bir qədər də şahpalut çürüyüb tələf olmuşdur.***

**Tütünçülük təsərrüfatı.** Şəki qəzasının bir çoq dairələrində, ələlxüsus birinci - *Göynük* dairəsində və ikinci - *Cəfərabad* dairəsində *tütünçülük* təsərrüfatı imdiki halda olduqca irəriləmişdir. [19]23-üncü yıldan bəri tütün əkinləri burada yıldan-yıla artmağa başlamış və yaxşı nəticələr verməkdədir. 1925-inci yılda məzkur yerlərdə 25 desyatin miqdarında tütün əkilmişdi.

Qəzanın *tənbaku* (maxorka) əkilən yerləri isə ümdə olaraq 3 və 4-üncü dairələrdir. Tənbakunu ən başlıca olaraq burada *yəhudilər* əkib-becərməkdədirlər. Məzkur *yəhudilər son yıllardakı qarışıqlıqlar nəticəsində Quba və Dərbənd ətrafından köçüb Şəki qəzasının bu hissələrində yerləşmişdirlər. Bunlar hazırda yalnız Vartaşın[3] kəndinin bir hissəsində yaşayırlar.* Ümumiyyətcə 400 ev (ailə)dən ibarətdirlər.

---

[1] Sonrakı qeydlərdən görəcəyimiz kimi, müəllif Birinci Dünya müharibəsini göz önündə tutur.

[2] 820 ton.

[3] İndi: *Oğuz*.



**Çəltik təsərrüfatı.** Qəzanın hər dairəsində əkildiyi kibi, ən çoq o, 2-nci dairədə əkilməkdədir. Şəki qəzasında ən yaxşı və əla düyü *Kiş* həndi (yəni çəltik zəmiləri)nin düyüləridir. Qəzada əkilən düyülərin hamısı səpmə üsulu ilə olub, sancma qaydasıyla deyildirlər.

**Barama və ipək təsərrüfatçılığı.** Şəki şəhərindən başlayıb qəzanın hər yerində baramaçılıq işləri camaat arasında ümumi bir adəti təsərrüfat halına keçmişdir. ***[19]14-üncü yıla qədər yalnız Şəki şəhərində 86 ipək zavodu və 36 davil (yəni ipək çütləyən, buran fabrika) var idi.*** Bunlardan başqa, yenə yalnız Şəki şəhərində ayaq ilə işlətmək qaydasınca 300 *"qans"*çılar mövcud idi. ***Qəzanın daxilinə keçdikdə isə Vartaşın kəndində 5, Baş Daşağıl kəndində 1, Dəhnə kəndində 1, Oxut kəndində 3, Kiş kəndində 2 olmaq üzrə 12 zavod mövcud idi.***

Şəhər ilə birlikdə qeyd edilən ***zavodların hamısı bir yıl mövsümündə 25.000 put[1] miqdarında xalis ipək hazırlayırlardı.*** Bundan başqa, 13.000 put[2] *frizon* (ipək sərtovsu), 10.000 put[3] *uydur* (barama yumurtasının üstündə olan qabığı, qurdu çıqarılandan sonra əzilib təmizlənmiş halda hüsula gətirilən ipək növü) və 8.000 put[4] da *basma* (yaramayan çürük baramalardan hazırlanan bir növ ipək; bu növdən və *uydur*'dan Avropa fabrikalarında məxmər - *barxat* hazırlayırlar) tədarük edilərək ixrac olunurdu.

## Dünya ticarətində Şəki ipəyinin iqtisadi mövqeyi

Azərbaycanın başqa ipək dairələri içində *Şamaxı* ilə *Şəki* ipəkçiliyi əski zamanlardan bəri bütün dünya miqyasında əhəmiyyət qazanmışdır. Bu yerlər hüsula gətirdikləri ipəklər vasitəsilə əsrlərdən bəri İran, ərəb və sonra da Rusiya, Avropa ölkələriylə ipək ticarətinə davam etmişdir və məzkur məmləkətlərin kapitalistlərinin iştaha nəzərini özünə çövürmüşdür. 18-inci əsrin əvvəllərində bu yerlərin ipək vergisi mətah[5] halında alınaraq 800 put[6] miqdarında ipəkdən ibarət olmuşdur. Buradakı ipəkçilik təsərrüfatı daha 18-inci əsrdə Avropanın iştahasını artıq

---

[1] 410 ton.

[2] 213,2 ton.

[3] 164 ton.

[4] 131,2 ton.

[5] Hazır ipək məhsulu.

[6] 13,12 ton.

dərəcədə qabartmış və 1818-inci yılda ***"Qafqasyada ipək sənayesi" adıyla bir italyan kompaniyası*** təşəkkül etmişdir. Məzkur kompaniya nümayəndələri gəlib Zaqafqasyanı dolaşmış və ipək yetişdirmək işlərinə ən müvafiq yer olaraq Şəki ətrafını bulmuşdur. Bu münasibətlə ***kompaniya burada 5.000 desyatin[1] yer satın almış və 400.000 tut ağacı yetişdirməklə işə başlamışdır.***

1841-inci yılda özgə bir kompaniya tərəfindən də Şəki şəhərinin aşağı hissəsində *Çarabad* adlı yeni bir ipəkçilər müstəmləkəsi[2] təşkil edilmiş və oraya ***İtaliyadan 12 italyan ailəsi gətirilərək 42 çarxlı bir ipək zavodu tərtib edilmişdir.***

1863-üncü yılda ***Fransada "Qafqasyada ipəkçilik"*** adıyla yeni bir şirkət daha təşəkkül etmiş, şirkətin nümayəndələri isə Zaqafqasyada Nuxa şəhərini ipəkçilik üçün əlverişli saymış və burada böyük bir ipək zavodu təsis etmişdirlər. ***Məzkur zavod dünyanın ən böyük ipək fabrikası olmuşdur. Bu zavodda 452 çarx mövcud olduğu kibi, 1.861 nəfər də mütəxəssis işçi çalışmaqda idi.***

**1911-inci yılda toplanan rəsmi məlumatdan anlaşıldığına görə, Nuxadan 10.000.000 qızıl [manat] qiymətində xaricə ipək çıqarılmışdır.**

Şəki şəhərində 1916-ncı yıla qədər 54-55 bin can yaşayırdı. O zaman ***Şəkidə mövcud 120 ipək fabrik və zavodlarında 8.000 fəhlə çalışdığı kibi və 60 dənədən ibarət gönçülük (dabbağlıq) sənətxanalarında da 2.000 miqdarında işçi işləməkdə idi.***

Şəki şəhəri hüsula gətirdiyi ipək ticarəti vasitəsilə *Avropa* və *Orta Asiya*'nın ticarət məntəqələriylə əlaqədə idi. ***Avropada Fransanın Marsel, İtaliyanın Roma, Türkiyənin İstanbul - Bursa, Rusiyanın Maskva şəhərləriylə ipək ticarəti etməkdə idi.*** Fransa, İtaliya və Maskvada olan hərgünkü ipək qiyməti Şəki şəhərində bilinməkdə idi. Şəki ipəkçilərinin o zaman Maskvada 17 ticarət kantorları var idi. ***Şəkidə hasil olan ipəklər Maskvaya və Maskva vasitəsilə də Avropaya, başqa ipək məhsulatı isə doğrudan-doğruya Avropaya aparılıb satılmaqda idi.***

Şəki ipəkçiliyi dünya kapitalistlərinin nəzərini o qədər cəlb etmişdi ki, hətta *Fransa*'dan bir neçə firəng tacirləri və *Yunanıstan*'dan yunan tacirləri Şəkiyə gəlib burada ticarət kantorları və ipək fabrikaları da təsis etmişdilər.

---

[1] 5.462 hektar.

[2] Yaşayış yeri, koloniyası.



**O zaman Şəki şəhərinin bütün ipək fabrikalarında müxtəlif yerlərdən gəlmək üzrə yılda orta hesab ilə 370.000 put[1] miqdarında yaş barama və bunları qurutduqdan sonra hüsula gələn 125.000 put[2] quru barama işlənirdi. Bu miqdardan isə Şəki ipək fabrikalarında çalışan 8 bin fəhlə vasitəsilə 25.000 put[3] miqdarında xalis ipək hüsula gətirilirdi.** Bu hal ilə yalnız ipək təsərrüfatından qəzanın həm bütün kənd əhalisi, həm də bir çoq fəhlə camaatı istifadə etməkdə idilər. Qəzanın təsərrüfat qüvvəti yıldan-yıla artmaqda idi.

Fəqət Rusiya çarlıq hökuməti yerli ipək sənayesinin vəziyyətinə uzaqgörücü bir nəzərlə baqamadığına və gələcəyini düşünəmədiyinə görə məmləkətin iqtisadi siyasətinə o zaman layiqi vəchlə fikir verilmirdi. Bu qədər əhəmiyyətli təsərrüfatın məhəllində olaraq həmişələndirmək çarələri düşünülmürdü. Məzkur ipəkləri hüsula gətirməyə vasitə olan toxumların hamısı xaricdən (Avropadan) gətirilirdi. *Bir müharibə vaqe olmasıyla bunların hamısı dayandırılmaq təhlükəsi altında idi.* Bunun qarşısını almaq üçün Şəkidə böyük və mükəmməl toxum mövqifi[4] təsis edilməli idi. Çarlıq hökuməti isə Şəkidə bunun təsisini lazım görmürdü. Bu hal ilə dünya müharibəsi başlanaraq yollar bağlandığına görə toxum gəlmədi. Dünya ticarəti bazarında bu qədər əhəmiyyətli mövqe qazanmış olan *Şəki ipəkçiliyi söndü və tut ağacı bağları qırılıb məhv oldular.* Bu hadisələr dolayısıyla *1920-nci yılda bütün Şəki qəzasında və Şəki şəhərində bir put da olsun barama hüsula gətirilmədi. İpək də hasil edilmədi.*

Ancaq Şura hökuməti Azərbaycanda təşkil edildikdən sonra başqa təsərrüfat işlərinə fikir verildiyi kibi, Azərbaycanın ipək təsərrüfatı işlərinə də diqqət edilməklə başqa qəzalarda olduğu kibi Şəki qəzasında da ipəkçilik işləri yenidən dirilməyə başladı. Hökumət tərəfindən kümçülərə (barama bəsləyənlərə) toxumlar paylanıb ipəkçilik işlərinə camaatın həvəs və rəğbəti cəlb edildi. Bu münasibətlə Şəki qəzası kümçülərinə [19]21-inci yılda *1.000* qutu, 22-nci yılda *8.000*, 23-üncü yılda *12.000*, 24-üncü yılda *13.000* və 25-inci yılda *15.000* qutu barama toxumu

---

[1] 6.068 ton.

[2] 2.050 ton.

[3] 410 ton.

[4] Stansiyası.

paylandı. Böyləliklə, Şəki qəzasında tamamilə ölmüş ipəkçilik təsərrüfatı yıldan-yıla artmağa yüz dutdu.

*Hazırda hökumət əlində olmaq üzrə Şəki şəhərində ancaq 5 ipək zavod və fabrikası işləməkdədir.* Bunlar isə əski zavodların ən yaxşılarıdır. 1905-inci yılda bu zavodların hamısı ancaq 1.500 put[1] miqdarında ipək hazırlaya bilmişdirlər. Fəqət imdi keçən yıllara nisbətən istehsal işlərini 100 faizə qədər artırmışdırlar.

Bunlardan başqa, *Şəki şəhərində 12-yə qədər də kustar halında ufaq zavodlar işləməkdədir.* Bir zavod da *Dəhnə kəndində* xüsusi şəxslər tərəfindən işlədilməkdədir.

Şura hökuməti tərəfindən Şəki şəhərində təsis edilmiş *toxum mövqifi* vasitəsilə imdiki halda barama toxumlarının cinsləşdirilməsinə fikir verildiyi üçün yerli toxumların gələcəkdə Avropa toxumlarıyla rəqabətə girişə biləcəyi anlaşılmışdır. Böylə ki, Avropanın bir qutu əla cins toxumundan ən yuqarı məhsul olaraq 3 put barama hasil olduğu halda, yerli toxumun bir qutusundan (mövqifin xüsusi və rəsmi təhqiqatı mucibincə) 4 put 15 girvənkə[2] barama hasil olduğu anlaşılmışdır. Bununla umud etmək olar ki, gələcəkdə yerli toxumun artırılmasıyla Avropadan gətirilmə toxumlara ehtiyac qalmayacaq və onsuz Avropaya külli miqdarda yerli ipək ixracatı mümkün olacaqdır.

***

Dünya müharibəsi zamanlarında yolların bağlanması münasibətilə Şəki şəhərində mövcud ipək zavod və fabrikaları qapandı. Bunlarda çalışmaqda olan 10 binə qədər fəhlə işsiz qalaraq şiddətli surətdə aclığa düçar oldular. 10 bin fəhlənin 10-15 bin də ailə əfradı olduğu mülahizəyə alınarsa məhzən[3] acından ölən 10 bin fəhlənin o qədər də ailə əfradı aclıqdan, tif[4] xəstəliyinə dutulub öldülər. ***Böyləliklə, şəhərin 57 bindən ibarət nüfusu, olduqca azalmağa başlayıb hazırda olduğu kibi ancaq 21 bin 500 nüfus qaldı[5].***

---

[1] 24,6 ton.

[2] 1 *girvənkə* = 409,5 qram. 4 put 15 girvənkə = 71,75 kq.

[3] Təkcə, yalnız.

[4] Yatalaq.

[5] Yazının başlanğıcında müəllif bu azalmanın ən mühüm bir səbəbini - "vətəndaş müharibəsi"ni də göstərib.



Hətta [19]17-nci yıl ilə 19-uncu yıl arasında əhval o yerə çatmışdır ki, Şəki fəhlələrindən bəziləri aclıq şiddətindən öz doğma bacılarını aparıb Zaqatalada buğda ilə dəyişdirmək vasitəsilə ərə verirdilər[1].

Fəqət hazırda iqtisad və təsərrüfat cəhətinə artıq fikir verildiyinə görə Şəkinin yenə öz əvvəlki iqtisadi və artıq nüfuslu halına çatacağı umud edilməkdədir.

***Azərbaycanda ipək təsərrüfatının ən mühüm istehsalat mərkəzi olan Şəkinin iqtisadi cəhətdən dirilməsi üçün ümdə vasitələrin başlıcası ancaq dəmir yolunun Şəki şəhərindən keçirilməsidir.*** Dəmir yolu Şəki şəhərindən keçiriləcək olursa qəzada külliyyətli surətdə mövcud meyvə bağları daha da genişlik peyda edər və yılda binlərcə put miqdarında *şahpalut, fındıq, qoz, alma, armud* məhsulatı Azərbaycan xaricindəki bazarlara çıqarılar və bunlardan başqa, qəzanın hazırda az miqdarda mövcud *maxorka, tütün* təsərrüfatı işləri də artar və tərəqqi edər. Bundan əlavə, imdidən tərəqqisi görünməkdə olan Şəki ipəkçiliyi də əskidənbəri olduğu kibi yenə Avropa bazarlarında böyük mövqe dutar.

***

Şəkidə mövcud ipək fabrikalarının külliyyətli surətdə yandırası ehtiyacları hazırda qəzanın meşələrindən kəsilmə odun vasitəsilə idarə edilməkdədir. Bu isə qəza təsərrüfatının gələcəyi üçün böyük təhlükədir, çünki bu vasitə ilə dağlardakı meşələrin miqdarı yıldan-yıla azalmağa başlayır. ***Meşələrin böylə kəsilib azalması yüzündən isə qəzada mövcud 17 böyük çaylaqların vasitəsilə hər yıl böyük sellər əmələ gəlir. Bir çoq kənd təsərrüfatı hər yıl böyləcə sellər altında qalıb tələf olur. Dağlardan axıb gələn sellər vasitəsilə yaqın yıllardan bəri qəzanın müxtəlif kəndlərindən 4-5 yüz ev aparılmış və bir çoq insan və heyvan tələf olmuşdur. Şəki şəhərinin isə 5-də bir hissəsi sellər vasitəsilə yuyulub aparılmışdır.***

Bu sayaq ilə hazırda qəzanın 12 bin desyatinə qədər əkinə yarar yerləri sel çaylaqları altında qalmışdır. Bu səbəbə Zaqatala qəzasında olduğu kibi Şəki qəzasında da kəndli özünün hüsula gətirəcəyi təsərrüfatına arxayın olamayır, çünki onun payızda əkdiyini yazda sellər gəlib aparır.

---

[1] Aclığın doğurduğu bu hala başqa bölgələrdə də təsadüf edilirdi.

Yuqarıdan bəri qeyd edilən səbəblərdən dolayı dəmir yolunun Şəki və Zaqataladan keçirilməsi ən ümdə iqtisadi bir zərurət qarşısındadır. Dəmir yolu bu qəzalardan çəkiləcək olursa həm bir çoq təsərrüfatın imdiki kibi tələf olmaq təhlükəsi azalar, həm də məzkur qəzalarda mövcud iqtisad mənbələri artar və tərəqqiyə başlar.

Bunlardan əlavə, ***Yevlax-Nuxa-Zaqatala-Ləki-Sinori Sixali dəmir yolunun birləşdirilməsi vasitəsilə iqtisadi, siyasi, həm də sövqül-ceyş[1] nöqteyi-nəzərdən bir müvəffəqiyyət daha qazanılmış olar.***

İmdiki halda Şəki qəzasının başqa təsərrüfatından əlavə, yazlıq və payızlıq olmaq üzrə 7.000 put[2] yun, 10.000[3] put çəltik və qoz, fındıq, şahpalut olmaqla da bir milyon put[4] meyvəsini kənara çıqarmaq mümkündür.

## Şəki qəzasında sağlamlıq vəziyyəti

Səhiyyə əhvalı cəhətindən Şəki qəzasını ən başlıca iki məntəqəyə ayırmaq olar: *dağlıq, düzənlik*.

Dağlıq hissədə olan başlıca xəstəliklər *soyuqdəymə, qaşınma, dəri* və *zöhrəvi* xəstəlikləridir.

Düzənlik hissədə isə ən başlıca *qızdırma* xəstəliyidir.

Ümumiyyətcə götürüldükdə xəstəliklər təxmini hesab ilə böylə faiz alırlar: *dəri xəstəliyi* 45 faiz, *qızdırma* 38 faiz, *sifilis* 5-8 faiz, *tuberkulyoz*[5] 7 faiz. Şəkidə ən başlıca olaraq ipək zavodları fəhlələri arasında tuberkulyoz azarı çoqdur. Böylə ki, ümumiyyətcə Şəki şəhəri dairəsində 30 faiz tuberkulyoz azarlısı mövcuddur. Bundan başqa, Şəkidə *qarın qurdu* xəstəliyi də çoqdur. ***Bunun səbəbi isə içməli suyun yaxşı olmamasıdır.***

Hələ bundan daha fənası budur ki, ipək qurdlarından yığın-yığın çıqarılıb dışarıya aparılmaqda olan barama qurdlarını fəhlələr və bəzi yerlilər toplayıb dən əvəzinə toyuqlarına yem eləyirlər. Bu münasibətlə Şəhi şəhəri toyuqlarından hüsula gələn yumurtalar səhhətə mənfəətli olmadığı kibi, öyləcə qurdlar ilə bəslənən toyuqları da yemək müvafiq deyildir.

---

[1] Hərbi.
[2] 114,8 ton.
[3] 164 ton.
[4] 16.400 ton.
[5] Vərəm.



Şəki şəhərini *yuqarı* və *aşağı* olmaq üzrə iqlimi təfavüt nisbətiylə iki hissəyə bölmək lazım gəlir. Şəhərin yuqarı tərəfi Böyük Qafqaz dağlarının ətəyində düşmüş və iki dağ qollarının arasına girmiş hissədir. Aşağı tərəfi isə düzəndə vaqe olub Kiş çayı hövzəsinə yayılmış hissədən ibarətdir. Şəhərin bu iki hissəsində iqlimi təfavüt o qədərdir ki, aşağı hissədə meyvə yuqarı hissədən 15 gün qabaqca yetişib hasil olmaqdadır.

Yuqarı hissə mənzərə cəhətindən olduqca gözəl olduğu halda, çoq vaxt dutğun, dumanlı bir hava daxilində bulunduğuna görə ab-havası sağlam deyildir. Hələ bir dərəcəyə qədər *vərəm* xəstəliyinə də müsaiddir[1].

Şəhərin aşağı tərəflərində, ələlxüsus *Qışlaq* adlanan tərəflərdə nə *qızdırma*, nə *qan azlığı* xəstəlikləri mövcuddur.

Şəki şəhərində səhiyyə müalicəxanasına müraciət edən azarlıların 5 faizi sifilisə mübtəladır. Qəza daxilinə keçdikdə *Baş Daşağıl, Xaçmaz, Muxas, Baş Göynük, Şin* kəndlərində sifilis azarı çoqdur. *Qutqaşın* dairəsində *keçəl, qaşınma* azarlısı artıqdır. ***Ümumiyyətcə, kəndlərdə dəri azarları çoqdur. Bunun başlıca səbəbi isə səhhət vasitələrinin olmaması, hamamsızlıq və təmizsizlikdir.*** İçməli suları pozğun olduğuna görə *Padar, Vardanlı* kəndlərində də *qarın ağrısı* azarı çoqdur.

Ümumiyyətcə, ***Şəki şəhərində və qəzasında səhiyyə işləri fənadır.*** Fəqət hökumət tərəfindən bu xüsusda bir çoq ciddi tədbirlər görülməkdədir. ***Başqa qəzalara nisbətən Şəki şəhərində və qəzasında maarif işləri münasibdir.***

---

[1] Yardımçı, əlverişli.

## *Ələşrəf*
## *KƏRİMOV / İSMAYILOV*



### Şəki keçmişdə və imdi[1]

#### Başlanğıc

*Uzun yıllar cürbəcür vasitələr ilə əsirlik zəncirinə bağlı qalıb böyük sıqıntılar çəkmiış olan Şəki proletarının keçirdiyi acı dəqiqələri xatırlamaqla bərabər, o dövri-istibdadı şimdiki dövr və hazırkı vəziyyətlə müqayisə etmək və Şuralar hökumətinin arzu etdiyi tərəqqiyyati-maddiyyə və mənəviyyəyə vüsul olduğu və getgedə olacağı nöqtələri[2] bütün vətəndaşlara açıqca bildirmək məqsədiylə* ***"Şəki fəhləsinin tarixi"*** *adlı kitab qələmə alınmışdır. Lakin məzkur kitabın quruluşu, tarixi cığırla yapıldığından, bir çoq tarixi materyalları əldə etməyə və mötəbər mənbələrə əsaslanmağa məcbur oluruq ki, buna da bir müəyyən müddət sərf olunmalıdır. Hər halda çalışır və müvəffəq olacağımıza umudvarız.*

*Ancaq bəzi təşkilatların tərğib və təşviqi üzərinə az da olsa əsas məqsədi əks etdirə biləcək işbu risaləyi qələmə aldım. Mümkün qədər sadə ana dilimizdə və hər kəsin anlaya biləcəyi açıq türkcə olaraq yazmağa səy etmişəmsə də bəzi cəhətlər də, şübhəsiz, nöqsandan xali deyildir.*

*Vüqubulan qüsurumuzun əfviylə, görüləcək xəta və nöqsanların təshih və ikmalını himmətli və maarifpərvər vətəndaşlardan rica edərəm.*

**Ələşrəf**

[1] Buradan götürülərək verilir: ***Ə.İsmayılov. Şəki keçmişdə və imdi.*** *Şəki, 1928.* AK(b)F Mərkəzi Komitəsi təbliğat şöbəsinin icazəsiylə Şəki hökumət mətbəəsində 5000 nüsxə basılmış bu kitab 28 səhifədir. Mətn qısaldılmayıb. Dil və üslub olduğu kimi saxlanılıb.

[2] Mətndə: نطقه لرى .



Şəki şəhəri və qəzasındakı əhali köhnədən bəri İran[1] şahlarının, daha sonra Şəki xanlarının və ən nəhayət, çar Rusiyyəsinin hökmranlığı altında uzun yıllar əsirlik boyunduruğu daşımağa məhkum edilmişdi. *Əsirlik* deyərkən adi təbəəlik və itaət mənaları dairəsində deyil, bəlkə tam əski köləlik dövrünü geniş mənada möhtərəm oxucuların xatirinə yetirmək istərəm. Misal üçün, Şəki xanlarından *İsmayıl xan*'ın[2] dövrünü götürəlim.

***İsmayıl xan*** şəxsən tərbiyəsiz, əxlaqsız, son dərəcədə müstəbid və zülmkarlığı sevən bir sima idi. Öz rəiyyətinin haqqında rəva gördüyü zülm və işkəncələrə qənaət etməyərək onların namusuna təcavüz etməklə coşğun ruhuna təsəlli verərdi. Kəndi arzusuna qarşı durmaz və heç bir kəslə hesablaşmadan istədiyini yapardı.

Nəhayət, ***Şəmsəddin bəy*** adlı birisinin övrətini zor ilə əlindən alıb özünü də boğazından asdırdı. Günülük hissiylə xana qarşı nifrət bəsləyən xanın övrəti-sabiqi[3] Şəmsəddin bəyin qardaşı ***Sədrəddin bəy***'ə qasid vasitəsiylə işbu əhvalatı bildirdiyi üçün xan öz övrəti-sabiqini hal-hazırda mövcud Xan sarayının "Cəza eyvanı"ndan həyətə[4] atdırır. Və üç gün meyit Xan sarayının həyətində açıq hava altında qalır. Xanın qəzəbindən qorqaraq kimsə sarayın ətrafına dolaşa bilmir. Nəhayət, camaatın təvəqqesinə görə meyitin dəfn olunmasına xan müsaidə edir.

*Sədrəddin bəy* isə qardaşı Şəmsəddin bəyin boğazlanması[5] və övrətinin zor ilə alınması xəbərini eşıtcək son dərəcədə mütəəssir olur və ruslar ilə birləşib xanın üzərinə hücum edirlər. Xan məğlub olur və dutularaq Sədrəddin bəyin əliylə boğulur və öldürülür[6].

İştə xan dövrünün bu kibi zülmkarlığından cana doyaraq çarın yaxşı bir hökumət olacağı zənni-xətasıyla öz yaxalarını

[1] Oxu: *Azərbaycan.*

[2] Sonuncu Şəki xanı olan *İsmayıl xan* (1814-1819) düşünülür.

[3] Qabaqkı qadını.

[4] Mətndə: حياطه.

[5] Boğazından asılması.

[6] İsmayıl xanın ölümü ruslara Şəkidə xanlığı aradan götürmək, özlərinin ortaqsız ağalığını (komendantlığı) yeritməkçün çox gərəkdi. Ancaq onlar bu siyasi istəklərini "namus məsələsi"ylə örtərək ilanı Seyid Əhməd əliylə tutdular.

xanların caynağından qoparıb çar cəlladlarının qarşısında diz çökən biçarə əhali daha şiddətli və zalimanə qanunlara düçar olurlar. İstibdad kökləşdikcə çar hökuməti əhalinin haqqında öz zülm və işkəncələrini artırırdı. Çarəsiz dərdlərə məhkum edilən əhalinin vücudunda açdığı sağalmaz yaraların üstünü örtüb içəridən daha da dərinləşdirmək məqsədiylə xalqı iğfal edəcək[1] yolları genişləndirməyə və buna xidmət edəcək şəxslərə saheyi-fəaliyyət yaratırdı.

Odur ki, bütün dərdlərdən daha üstün və zəlalətin anası sayılan mövhumat yayıldı və mövhumat xadimləri xalqın boynuna binərək başdan aldıqları əmrlər üzərinə məzlum xalqı gəzdirməyə başladılar.

Elm, mərifət, ürfan və maarif ocaqları "...وسلم دیننا وجعل سلطاننا"[2] təsiri altında işləməyə başladılar. Cəhənnəm qorqusu, cin və şəyatin vahimələri ilə təlim və tərbiyə olunan übənayi-vətən[3] zalım çarın acı qəhqəhələri altında səfalətə doğru sürüklənirdi.

İştə çarın lütfü mərhəməti...

Bu səbəblə mədəniyyətin düşməni sayılan mövhumat Şəki qəzasında bir dərəcə hökmfərma oldu ki, bütün şəhər və qəzada ordu kibi *müridlər* və *şeyxlər* isbati-vücud elədi. *Müridizma* bir "qurtuluş?" kibi tələqqi olunmağa[4] başladı. Gənclərdən çoq bir hissəsi saf düşüncələrini qaranlıq hücrələrdə verilən təlimə sərf edərək bahar həyatlarını mürdəşurluq[5], cəzəxanlıq, məscid və mağara dərbanlığında keçirməyə fəda etdilər.

Zəhmətkeş kütlə öz məhsulunun ən gözəl yerindən din və məscid xadimlərini[n] təmini ilə cənnət, hurü qılman sənədləri qazanmağa çalışır və bütün varlığıyla buna inanırlardı.

Bu acı həqiqətlərin əsəri[6] olaraq bugünün özündə ***Şəki şəhəri və qəzasında 450 məscid və bin nəfərdən ziyadə qoca və cavan din xadimlərinə təsadüf etmək mümkündür.***

Bunlar bəs deyilmiş kibi, yenidən xan, bəy, ağaların şallaxlarına "vur" komandası verildi. Ruslar Şəkiyə girdikdən sonra

---

[1] Qəflətdə saxlayacaq.

[2] Hədisdir: *"dinimizi düzəltdi... və onu bizə hökmran elədi..."*.

[3] Vətən oğulları.

[4] Sayılmağa.

[5] Ölüyuyanlıq.

[6] Təsiri.



xanlardan başqa *bəylər* və *mülkədarlar* mühüm bir mövqe qazanmağa və göbələk kibi hər yandan qaynayıb məzlum xalqın çar ətrafını[1] sarmağa başladılar. Təzədən əhalinin müqəddəratı xan-bəylərin ixtiyarına verildi. Əhali alın təriylə qazanar, ağalar da yeyərdi. Hələ hər gündə 2-3 dəfə döyülüb ağız-burun qanı yutmaq[2] adi şərtlərdən hesab olunardı.

***104.033 candan ibarət olan qəza əhalisi*** bir yığın cəllad əlində inləyirdi. "Rəncbərlərin qabarlı əllərindən dökülən qanların qızartısı hələ də getməmişdir" desəm səhv etməmiş oluram.

Ümumiliklə ***Şəki qəzasında 510.000 desyatin topraq var idi.***[3] Bu topraqlar öz qaydasıyla bütün mülkədarların arasında təqsim olunmuşdu[4]. Rəncbərlərin qisməti muzdurluqdan başqa bir şey deyildi. Əgər Şəki qəzasında əvvəlləri hökmranlıq edən mülkədarları adbaad yazmağa və təsvir etməyə başlarıqsa neçə yüz cild kitab tərtib etmək lazım gəlir. Yalnız bir neçəsini göstərmədən keçmək də doğru olamaz.

Məsələn, ***Mustafa bəy Rüstəmbəyov***[5]. Dördüncü və beşinci dairələrin bütün rəncbərləri bu zati-şərifin əmri altında idi. Bir tərəfdən işlədir, istismar edərək zəhmətlərinin nəticəsini yutur, digər tərəfdən şeytənətlə[6] onları biri-birilərinə qırdırardı[7]. Ailəsini idarə etmək məqsədiylə bir neçə desyatin yeri becərib zor-güclə dolanan kəndçilər Mustafa bəyi öz bəxşayişləriylə xatırlamazdı-

---

[1] Dörd yanını.

[2] Udmaq.

[3] 1 desyatin *1,0925* hektardır. Deməli, torpaqların ümumi sahəsi *466.819 ha* olub.

[4] Bölünmüşdü.

[5] Müsavat hakimiyyəti çağında (1918-1920) *"Azərbaycan"* qəzetinin rusca nəşrinin ilk baş redaktoru, Parlamanın deputatı, mətbuat haqqında qanunun müəllifi olmuş *Şəfi bəy Rüstəmbəyov*'un (1893- 1960) atasıdır. O, Cümhuriyyət dövründə öz puluna 20 min cüt çəkmə alaraq Azərbaycan Ordusuna bağışlayıb. Bolşeviklər 1920-də oğlu Hacı bəylə birlikdə güllələyib. İndiki Qəbələ rayonunun Kiçik Pirəlli kəndindəndi və oradakı evi indi də durur. Mustafa bəyin Qəbələnin Mamaylı kəndində doğulmuş *Şəfi bəy*'dən başqa, *Cəfər bəy, Hacı bəy* və *Baxış bəy* adlı oğulları da olub.

[6] Şeytanlıqla.

[7] Erməni-müsəlman davalarında müsəlmanları qorumağı kommunist müəllif belə adlandırır.

larsa onlar bəyi saymayanlar sırasında qətl və var-yoqları qarət olunardı. Bu şücaətləriylə məruf olan Mustafa bəy camaat arasında *"Böyük dədə"*, yəni *ikinci Allah* adı almışdı.

Bir tərəfdən hökumət vergiləri, o biri tərəfdən xan, bəy və mülkədara verilən *malcəhət* kəndliləri çıqılmaz çətinliyə salmışdı. Az deyil... ***Qəza dairəsində böyük-küçük kəndlərdə 135 mülkədar, xan və bəylər vardı.*** Bunların həm özlərini, həm ailə və əqrabalarını, həm də qazan dibi yalayanlarını doyuzdurmaq yazıq kəndçilərin öhdəsində idi. Hələ ruhanilər... Hər kəs "bir mollanın yeddi qarnı var" məsələni xatırlasa kafidir.

Şəhər əhalisi kəndlilərdən daha bədtər idi. ***Şəhərdə 52.403 nəfər can var idi. Bunlardan dəzgah dalında işləyən fəhlənin sayı 8.000 idi*** ki, ailə üzvlərini də hesaba götürdükdə şəhər əhalisinin üçdə iki hissəsini təşkil edərlərdi. Azacıq bir say təşkil edən qoçular, sahibkarlar, varlılar, ruhanilər başdan aldıqları təlimat üzrə şəhər əhalisinin qanını sorurdular. Kəndlərə gedib mülkədarlıq taxtına əyləşməyə iştahası artan şəhər varlıları da az deyildi.

O zamanlar xalqı biləyinə dolayıb istədiyi səmtə sürükləyən ağaların içində ***Xanbaba bəy***'in də böyük tərcümeyi-əhvalı vardır ki, söyləməklə bitiriləməz. Müxtəsərən, o zamanlar Şəki şəhəri və qəzasında müntəzəm və ədalətli (?!) bir hökmranlıq pərdəsi altında tam bir dərəbəylik hökm sürürdü.

Hər yılda ***49.576 desyatin***[1] yer əkilib ***302.822 put***[2] məhsul ələ gətirən kənd zəhmətkeşləri və hər gündə on altı saat işləyən, əlini qaynar sularda, vücudunu isti buxarlarda yandırıb hər yılda ***35.000 put***[3] ipək çıqaran şəhər fəhlələri toxmu yaşayırdılar deyəcəyiz? Xayır...

Bu vəziyyətləri, keçirilən acı halları qeyd etməklə qurtaramaz. Acından ölənlərin qəbrini istər şəhər və istərsə də kəndlərdə hər daim tapıb göstərmək mümkündür.

Hələ bu varidatla çar Rusiyyəsinə köməyi dəyən Şəki şəhərinin üzərindən şəhər adını götürüb mahal sırasına keçirmək istədiklərini yaxşı xatırlayıram. Yəqin ki, çar hökuməti şəhərin gəlirini və xərcini hesablayaraq birdən-birə bu fikrə düşübmüş?!.

[1] 45.378 ha.

[2] 1 put 2 batmandır (16 kq). Deməli, ümumi məhsul 303 tondur.

[3] 35 ton.



Bəli! Köhnə statistikalara bakılsa çarın hesabnaməsində olan doğruluq (?!) açıqca görüləcəkdir. 1913-üncü ildə yalnız şəhərin mədaxili ***59.966 manat 85 qəpik,*** məxarici isə ***31.037 manat 27 qəpik*** deyə qeyd olunmuşdur. Fərz edəlim ki, hesabat doğru göstərilmişdir. İmdi bakalım mahal yapmaq istədiyi bir şəhərdən otuz bin manata yakın saf qazanc götürən çar hökuməti xərclədiyi ***31.037 manat 27 qəpiyi*** hansı mənbələrə təxsis edirmiş:

✓ ruhanilərin saxlanması üçün *180 manat* (bu, açıq yalandır, çünki qazıların və keşişlərin aldıqları yüzlərcə manat maaşlar hər kəscə bəllidir);

✓ kəlisaların təmir və inşası üçün *981 manat*;

✓ məktəblərin təmiri, müəllimlərin maaş və başqa cür maarif xərcləri *4.927 manat*;

✓ bələdiyyə qulluqçularının maaşı *20.380 manat*;

✓ yolların təmiri üçün *180 manat*;

✓ icarəyə verilən binaların təmir və inşasına *7.096 manat*; naməlum xərclər *7.112 manat*.

Kəndlərdə bəy, xan, yüzbaşı və ruhanilərə verilən vergilərdən maəda[1] ələ gətirilən saf qazancı da şəhərdən qazandığının üzərinə yoğurmuş olsaq ***hökumət büdcəsi nəfinə Şəki qəzasından hər ildə 350.000 manat mədaxil olduğunu görəriz.***

Bu böyük miqdar məbləğin qarşısında, yukarıda göstərdiyimiz kibi, *4.297 manat* xalq maarifinə xərc edən hökumətdə insafmı var deyəcəksiniz?! Və inanırsınız ki, *52 bindən* ziyadə cana malik olan bir şəhərin maarif və mədəniyyətə olan ehtiyacı azacıq bir məbləğlə rəf edilmiş olur? Əlbəttə, xeyr!.. Əhalinin maarifə olan ehtiyacı dedikdə hankı sinfin ehtiyacı olub əvəzində kimin qazandığını hər kəs yaxşı bilir.

O vaxtlar Şəkidə ***285 nəfər tələbə*** var idi. Milliyətcə 123 nəfəri erməni, *152 nəfəri türk* və 10 nəfəri rus idi. İctimai vəziyyətcə 17 nəfəri əsli-nəsli xan, 3 nəfəri bəylər və çinovniklər, 14 nəfəri ruhani, 209 nəfəri mülkədar və sahibkarlar, 42 nəfəri də kəndlilər idi. Yəqin ki, bu qırx iki nəfər kəndlilər yüzbaşı, kulak və qoluçomaqların balaları olmuş olar (?! - Ə.T.).

*Səhiyyə işlərinə* göz yetirmiş olsaq başdan-başa bir çocuq oyuncağı; bütün qəzada Ter-Osipov adlı bir mahal həkimi və

[1] Başqa.

*Şərifov* nam[1] şəhər həkimi nəzərə çarpırdı. Bir-iki dairədə feld-
şer məntəqələri, vəssalam...

İştə bu səbəb üzündən baş qırxan dəlləklər, kisəçilər, cindar-
lar, küpəgirən qarılar xalqın həkimi, kakənc[2], həbi-zivax[3], səna-
məki və xaş-xaş qabığı xalqın dərmanı olmuşdu.

Ən maraqlısı o idi ki, adları məlum olan bir çok xəstəlikləri
tədavi üçün müəyyən yerlər var idi. O yerləri ziyarət edənlər
xəstəlikdən qurtaracağına iman edirdilər. Məsələn: revmatizma
üçün *Oxud* kəndində *"Yel baba"*, dəlilər üçün *Muxas* və *Şıx Os-
man ocaqları,* öksürmə üçün şəhərin yuxarı hissə[sində] - *Xoçik*
məhləsində *Daş piri,* daxili xəstəliklər üçün *"Babaratma"*, qu-
duz it tutanlar üçün beşinci dairədə *Həzrə ocağı*[4], qadın xəstə-
likləri üçün *Dəyirman püştələrinin* və *Dabbaxxana siləlırinin üstü*
və ilax... Bütün bu fəlakətləri eynilə təsvir etmək üçün ordu qədər
kimsəsiz, pərəstarsız qalan ailələri gözdən keçirmək lazımdır.

Şəhərin abadanlığı üçün heç bir iş görülməyirdi. Küçələr bər-
bad, yollar dərin su arxlarını əvəz edirdi. Şiddətli yağmur ol-
duqda hər tərəfdən tərəddüd[5] kəsilirdi. Yol gedən adamın hər
addımda bir dəfə yıxıldığını görən quldurlar bu vəziyyəti özləri
üçün əlverişli tapıb əllərinə düşən bir adamın qaçıb qurtarama-
yacağını yəqin ilə hər tərəfdə torlarını qurmuşdular.

İstər xüsusi, istərsə dövləti binaların bir çoku köhnə və qa-
mış damlardan, suyurma qapı və pəncərələrdən ibarət olub mə-
dəni şəhərlərə bənzəyən nişanlardan birinə təsadüf olunamazdı.

İctimai həyat tam mənasıyla sönük və yok kibi idi[6]. Əhalinin
qismi-əzəmini[7] təşkil edən qadınlar işıqlı dünyaya həsrət idilər.
Öz ərindən, qardaşından, ata və ən yakın qohumundan başqa-
sıyla söyləşən qadınların qanını ruhanilər halal buyurmuşdular.
Qız ikən ata və qardaşının, daha sonra ərinin itaətində olmağa

---

[1] Adlı.

[2] Yergiləsi. Adı mətndə yanlış olaraq "kalkənc" yazılıb.

[3] Mətndə: حب زیواخ.

[4] Qəbələ rayonundakı Həzrə kəndindədir.

[5] Gediş-gəliş.

[6] Göründüyü kimi, kommunist təbliğatının prinsiplərinə sadiq qalan çekist müəllif Azərbaycanın 28 aprel 1920-dən qabaqkı bütün tarixini yalnız qapqara rəngdə təsvir edir.

[7] Böyük qismini.



məhkum edilən qadınların yığıncaqları yalnız yas yerləri və təziyəxanalar olardı ki, burada da ağlamaqdan başqa bir iş görməzlərdi.

Bütün həyatını ağlamaqla keç[ir]ən bəşərin əhvali-ruhiyyəsi nə olacaq? Yas, ələm, qəm, dərd və işgəncə. İştə qadınların qisməti...

Kişilər də böylə - savadsız, cahil... Klub bilməz, bağa getməz, gəzməyə çıkmaz. Əyləndirici işləri günah sayaraq ondan uzaqlaşıyor və ətrafı qaranlıq görər-görməz evə koşarlardı. Zatən şəhərdə yalnız bir klub və bir də bulvar var idi ki, bu yerlərə təmiz geyimlilər[1] içmək və qumar oynamaq üçün gedərlərdi.

Bu hal üzrə keçirilən həyatın ağırlığı ara-sıra Şəki fəhlələrini sirkələyir və yerindən oynatırdı. Fəhlələr tərəfindən tez-tez tətillər baş verirdi.

Şəki fəhlələri tətil yaparkən qaliba iki tələb irəli sürərlərdi: birinci, iş saatının azalması və ikinci, zəhmətnaqqının artırılması. Lakin qeyri-mütəşəkkil bir halda yapılan bu tətillər hər daim nəticəsiz qalardı. Çarın polisləri tətilçiləri təzyiq ilə, fəhlələri yalvardıb dübarə işə girməyə məcbur edərdi.

Şəkidə birinci dəfə 1870-inci ildə *Nuru oğlu Musa* adlı bir fəhlənin təşəbbüsüylə tətil yapılmışdı. Bundan ibrət dərsi alan qoca fəhlələr sonraları hər ildə iki-üç dəfə başçılığı öhdələrinə götürüb tətil etməyə fəhlələri təşviq edərlərdi. Bu kibilərindən *Əsir-Bəşir, Analı Mehdi, Dəllək Heydər* və bir çoklarını saymaq olar.

Çok vaxtlar tətil yay aylarında baş verərdi, çünki yayda sahibkarların fəhlə qüvvəsinə olan ehtiyacı artardı. Amma qışda bir çok dəzgahlar dayanır və baramasızlıq yüzündən bəzi xırda zavodlar işləməzdi. Həm də fəhlələrin ictimai və iqtisadi vəziyyətləri yayda qışdakından çok fərqli olardı. Buna görə də fəhlələr yayda tətil yapır və bəzi xırda tələblərində qazanmağa müvəffəq olurdular. Sahibkarlar isə qışda əvəzini alır və fəhlələri bikarlıqla boğarlardı.

Yayda *55-60 qəpik* gündəlik zəhmətnaqqı alan fəhlələrə qış mövsümündə *40 qəpik* verərdilər. Bir çoklarına *40 qəpik* də verməyib "sən yaramaz və sahibkarın yüzünə ağ olan adamlardansan" deyə zavoddan qovalardılar.

---

[1] "İstismarçı siniflər" düşünülür.

1905-inci yıl Yaponya və rus müharibəsi ərəfəsində istər şəhər,
istərsə kənd zəhmətkeşlərində ayrıca və əhəmiyyəti haiz inqilabi
bir ruh oyandı. Şəhər və kənd zəhmətkeşləri bu dəfə quru çığır-ba-
ğırla deyil, bəlkə əməli işlər ilə öz inqilabçılıqlarını çar məmur-
larına açıq-açığına elan etdilər. Qəzada böyük bir nüfuza malik
olan kəndli düşməni ***Qaraxanov Sərkiz bəyi*** öldürüb qu[yu]ya
atdılar. Yüzbaşı seçkisi üçün ***Tikanlı*** kəndinə[1] getmiş olan mi-
ravoy pasrednik və pristavı, ***Səbətli*** kəndinə gedən ***Almalı*** naibi
və ***Göynük*** pristavını döyərək buğday quyularına atdılar. Hö-
kumətlə mübarizə edən kəndli qaçaqlar dəstəsi əmələ gəldi. Ey-
ni zamanda şəhərdə böyük tətil yapıldı. Və bu tətilin nəticəsi
olaraq *40-50 qəpik* maaş alan fəhlələrə sahibkarlar məmnuniy-
yətlə *90 qəpik* gündəlik zəhməthaqqı verməyə razı oldular. Bü-
tün zəhmətkeşlərin arasında yarımmütəşəkkil inqilabi hərəkət-
lər görüldü.

Yaponya-rus müharibəsində çarın məğlub olacağını və bun-
dan bilistifadə zəhmətkeşlər özlərinə məxsus bir füqərayi-kasibə
hökmranlığı yaradacaqlarına umudvar idilər. Lakin məəttəəs-
süf, müharibə cəbhəsindən fərağat olan çar dava dayanır-da-
yanmaz, geniş əl-qol atmağa zəmin hazırlayan zəhmətkeşləri
dar çərçivələr içinə alıb, yapdıqları hərəkətlərə qarşı başçılarını
cəzalandırmaqla və bununla başqalarını təhdid etməyə başladı.

Ancaq fəhlə mühiti əvvəlkilər kibi deyildi. Dəfələrlə yapılan
tətillər iki-üç nəfəri yok, bəlkə fəhlələrin çok qismini inqilabi
hərəkətlərin rəhbərliyinə hazırlamış və öyrətmişdi. Bu sırada
***İrəvanlı oğlu Bilal, Marağalı oğlu, Bico Məhəmməd, Dəyirmançı
oğlu Yunis, Vəliyullah, Məhəmmədfateh, Molla oğlu Ələkbər*** və
ilax. kibilərinin adları Şəki tarixindən silinməyəcəkdir.

1905-inci ildən sonra fəhlələr əvvəlki iki tələb üzərində təkid
ilə fəhlələrin sığorta olunmasını, müavinət kassaları təşkil etməyi,
iş paltarı verilməsini də tələbata[2] əlavə etdilər.

Bu tələblər yılbayıl dəyişilir və artırdı. Xüsusilə Şəkidə uyezd-
ni naçalnik vəzifəsinə ***Hacı xan Sultanov*** təyin edildikdən sonra
məzkur Sultanovun fəhlələrə verdiyi sərbəstlik nəticəsində tə-
tilçiləri qovalamaq üçün göndərilən qaradavoylar və pristavı
döymək kibi cəsarətlər müşahidə olunurdu. Budəfəki uyezdni

[1] İndi Qəbələ rayonundadır.

[2] Mətndə: *"tələbatını"*.



naçalnikin fəhlə tərəfdarı olmasını görən xozeyinlər əlacsızlıqdan fəhlələrin hər bir yeni tələblərini qəbul etməyə məcbur oldular. Odur ki, qazan dibi yalayan bir kaç xozeyinlərin və çara quyruq bulayan[1] bir qisim ziyalıların qərarı üzrə Sultanovun dəyişilməsi məhəl aidindən[2] rica olundu. Qərar lazımi yerinə çatan kibi Sultanov götürülüb əvəzinə ***Samuxlu Məhəmməd ağa Şahmalıyev***[3] göndərildi.

Həyatını qaçaqların məclisində keçirib qaniçən quldurların laylasıyla tərbiyələnmiş əsl çar cəlladı[4] Şahmalıyev Şəkiyə gələli bütün işlərdə bir çətinlik yaratdı. O - *Şahmalıyev* hal-hazırda istirahət evi yerləşən binada müstəqil bir hökumət sarayı yarataraq şəhərin kübarları və qəzanın mülkədar-quldurlarının məsləhətiylə ağalıq xələtini əyninə geydi və zülm şəmşirini belinə qurşadı. Bu gələndən sonra da fəhlələr neçə dəfə tətil edib ağanın hüzuruna getmişdilər. Bir dəfəsində tətilçilərin arasından Şahmalıyevə müraciətən ***Məşədi Qasım*** "əlbəttə, fəhlələrin dərdinə qalmaq lazımdır" deyərkən Şahmalıyev "səni suya basdırıb ölüncəyə qədər döydürərəm" cümləsiylə Məşədi Qasımı qarşıladı. Əlbəttə, bu cavab bütün kütləyə idi. Ona görə də fəhlələr onun cavabını özünə qaytardılar. Vəziyyəti böylə görən Şahmalıyev tətilçilərə dağılmaq əmri verdi.

[1] Mətndə: *"sayılan"*.

[2] Qəzanın aidiyyəti orqanlarından.

[3] ***Məhəmməd bəy Nəsrulla bəy oğlu Şahmalıyev.*** O, 1913-də Şəki qəzasının rəisiydi. (Bax: Кавказский календарь на 1914 год. Учреждения МВД. Тифлис, 1913, s.152). M.Şahmalıyev 1914-15-də Ərəş qəzasının rəisi işləyib. (Bax: 1915 və 1916-ya dair "Qafqaz təqvimi", DİN müəssisələri; ss.159, 175).

1905-inci il erməni-müsəlman qırğınının nəticələrini 1906-da Tiflisdə Qafqaz canişininin başçılığı altında müzakirə edən komissiyanın fəal üzvlərindən biri olub və çıxarılan qərara onun təklifiylə Azərbaycan əhalisinin xeyrinə bir çox maddələr salınıb. Buradakı çıxışları onu cəsarətli, prinsipial, yurdsevər və elsevər bir insan kimi tanıdır. (Komissiyanın *"Həyat"*, *"İrşad"* və *"Kaspi"* qəzetlərindəki geniş hesabatlarına baxılsın).

Sovet dönəmində Şahmalıyev bəylərinin çoxunu güllələnmək və siyasi təqiblərdən *N.Nərimanov* qoruyub.

[4] Həyatını qaçaqların məclislərində keçirən bir şəxs heç vaxt çar cəlladı ola bilməzdi; müəllif, nədənsə, bu məntiqi unudub.

Hər kəs məyus və mükəddər qayıdırdı. Xozeyinlər isə bəşaşətlə və istehzalı sözlər ilə fəhlələrin üzərinə gülürdülər. Çokları zavodlardan çölə atıldı. Bəziləri də ehtiyac üzündən xozeyinlərin acı qəhqəhələrini yutmağa məcbur oldular.

Bu aralıq Avropa müharibəsinin gurultusu cahanı sarsıtdı. Şəki zəhmətkeşləri 1905-inci yılda olduğu kibi 1914-üncü yılda da ürəklə işə başladılar. Şəkiyə bir nəfər zəhmət müfəttişi gətirtdilər. Müfəttiş Şəkiyə gələrkən təntənə ilə fəhlələr tərəfindən qarşılandı. Hər tərəfdə tətil alavları yenidən qızarmağa başladı. Müfəttiş nemsə[1] idi. Fabrikantların məşvərətiylə *şpiyon*[2] adlandırılan müfəttiş az müddət sonra şəhərdən çıkarılıb əvəzinə jandarma idarəsindən ***knyaz Çavçavadze*** göndərildi.

*Çavçavadze*'nin Şəkiyə gəlməsi Şəki fəhlələrinin tətilinə siyasi bir rəng verildiyini və həqiqətən get-gedə tətilin siyasiləşdiyinə əsaslı bir sübut idi. Çavçavadze bir müddət Şəkidə qalıb gizli təhqiqat və bir çok açıq istintaq apardı. Gedərkən də fəhlələrə qara-qorku gələrək fabrika-zavod sahibləri ilə vidalaşdı.

O gedəndən sonra sahibkarlar fəhlələri daha şiddətli sıkdılar, lakin fəhlələr də mübarizədən vaz keçmədilər. 1914-üncü yıldan sonra yapılan tətillərdə fəhlələr çok çətinliklərə rast gəlirdilər. Çörək tapılmırdı. Möhtəkirlər dişlərini itiləyib xalqın canına sokulmuşdular. Nə fəhlələr sahibkarlar ilə, nə də sahibkarlar fəhlələr ilə razılaşmaq istəmirdi. Nəhayət, zavod sahiblərinin müşavirəsində qəbul olunan qərar üzrə zavodlar müvəqqətən dəyandırıldı. Deməк, fəhlələr aclığa məhkum edildilər. Bu məhkumiyyət fəhlələrdəki səbr kasasını doldurdu. Məhkum yürəklərdən ac ailələrini görməmək üçün "ya ölüm, ya həyat" nidaları qopdu.

***23 günlük zavodların dəyanışı*** fəhlələrin başını bir yerə topladı. Hökumətdən imdad gözlərini yummuş olan fəhlələr zavodların bağlı qapılarını dağıtmağa başladılar. Birinci növbədə ***Hacı Rəsul oğlunun*** zavoduna hücum edərək orayı dağıtdılar, çünki zavod sahiblərinin müşavirəsi haman binada vüqubulmuşdu. Küçələrə düzülən mühafizə bölüklərini döyməklə, müzürr və yaramaz ünsürləri ayaq altına almaqla fəhlələr öz yürəklərində coşan intiqam alavlarını təskinləşdirdilər və dübarə dəzgah dalına keçib işə başladılar.

---

[1] Alman.

[2] Casus.



Cahan müharibəsi günü-gündən kəsbi-şiddət ediyor...

Fəhlələr bundan maraqlanırdılar. O zamanlar Şəki poçta kantorasının qarşısına qəzetə almaq üçün növbəyə düzülən fəhlələrin həvəsi, dükan və bazarlarda yucadan qəzetə okuyanların səsi sanki yeni bir təbəddülat olacağına işarə idi.

*Fevral inqilabı* əmələ gəldi. Bütün əhaliyə elan olundu ki, bazar-dükanı bağlayaraq *Hürriyyət meydançası*'na toplaşsınlar.

Bu toplanışın səbəbi kimsəyə məlum deyildi. Böyük-küçük hamı meydançaya toplaşdı. Adamlardan bir qismi gülür, bir qismi bu hərc-mərcliyə nifrət edirmiş kibi qaş-qabağını dökərək durur, bir qismi əllərində təsbih yüzünü dərgahi-Həqqə dikmiş və tövbələr ediyor, bir qismi də heç bir şeylə maraqlanmayaraq adi tamaşaçılar kibi davranırdı. Aradan ***Əmircanov Sultan bəy*** xitabət kürsüsünə çıkaraq böylə söylədi: *"Həzərat! Bu gün inqilabdır. Biz bu vaxta qədər insan deyildik. Bugünkü inqilabın əliylə bizə bağışlanan insaniyyət libasını biz məmnuniyyətlə qəbul edərək geyməliyiz. Çar hökuməti oxumaqdan bizi məhrum etmişdi. Bu gündən etibarən biz mədəni-maarif sarayları tikməli və onun içində tərbiyə almalıyız. Cəhalət xarabalarında yatmaq zamanı keçdi. İmdi* ***Kerenski hökuməti*** *başda durur. Bu hökumət çara bənzəmir. Bu hökumətin verdiyi qanunlar hamını razı salacaqdır. Yaşasın, yaşasın, yaşasın".*

Bu da bir növ təbəddülat idi. Raboçi-Saldatski Deputatlar Komitəsi təşkil olundu. Camaat *"saldat ilə qardaş olan filan-filanlar"* deyə fəhlələri təhqir edirdilər. Bir az da bunlar yaşadı.

Zaqafqasyada *Seym* əmələ gəldi. Fəhlə və zəhmətkeşlərin üzərinə fəhlə olmayan ünsürlər böyük dikildilər. Şəki fəhlələrinin də ozamankı ağası ***Qasım bəy*** idi. Qasım bəy kibilərinin idarəsi altında dolanan Şəki fəhlələrinə bakınız!.. Artıq yazıq fəhlələrin görmədiyi rəzalət qaldımı? Bu aralıq ***Quluyev Mustafa***[1] yoldaş da Şəkiyə gəlmişdi. Fəhlələrin nəfinə danışdığı bəzi sözlər və apardığı təbliğat nəticəsində xain əllərin ona uzanacağını duyan qohumları Quluyev yoldaş[ı] qaçırtdılar.

---

[1] ***Quluyev Mustafa Zəkəriyyə oğlu*** (1893-1938). Şəkidə doğulub. 1918-dən K(b)P üzvü, Azərb. SSR xalq maarif komissarı (1922-28), Çimkənd şəhər və Odessa vilayət partiya komitələrinin katibi. *"Maarif və mədəniyyət"* (1923-26), *"İnqilab və mədəniyyət"* (1929-31) jurnallarının redaktoru.

Bu aralıq başıbəlalı Şəki zəhmətkeşlərini noxtalamaq üçün müfti və şeyxülislamın[1] Şəkiyə gələcəyi barədə teleqraf alınır. Şəhərdən və kəndlərdən pişvaza gedənlərin sayı çok idi. Erməni vətəndaşlar da poçtanım qarşısında müsafirləri duz və çörəklə qarşıladılar.

Şeyxlər süvari, əhali isə piyada olaraq onları müşaiyət edirdilər. Camaatın arasından sənətkarlardan ***Yusif adlı bir erməni vətəndaş:*** *"Biz fəhlələr təvəqqe edirik şeyxlər zəhmət qəbul edib bizimlə bərabər piyada yerisinlər"* təklifini yuca səslə irəli sürdü. Süvarilər Yusifin təklifini qəbul ilə faytondan düşdülər. Lakin bu təklifin üstündə erməni Yusifi kəlisaya çağırıb "sənin busurmanlar ilə nə işin varmış?" deyə onu döymüşdülər.

Özlərini ümmətin nicat gəmisi adlandıran **müfti və şeyxülislam Şəki əhalisində olan sünni və şiə hissiyyatını gedirmək üçün baş örtüklərini dəyişdilər. Məscid minbərində öpüşdülər. Müfti şiələrin, şeyxülislam isə sünnilərin məscidində camaat namazı qıldılar.** Bilməm daha bir çok komediyalar çıkarmaqla[2] özlərinin saldıqları məzhəb ixtilafını zahirən götürməyə çalışırlarmış kibi göründülərsə də, digər tərəfdən, açıq-açığına milli hissiyyatın alavlanmasına səbəb oldular.

Çok keçmədi *Milli Komitə* seçildi. Milli Komitə zəhmətkeşlər arasında oyanan sinfi mübarizə hissiyyatını boğmaq və Rusiyyədə qopan böyük inqilaba qoşulmaq fikrindən onları uzaqlaşdırmaq üçün erməni-müsəlman qırğınını daha da şiddətləndirməli idi. Burjuazya sinfi bu qırğından özünü və əmlakını mühafizə etmək üçün Milli Komitənin əliylə ***milli əsgər*** yaratdı[3].

Eyni hazırlıq erməni burjuazyası tərəfindən də aparılırdı.

---

[1] Söhbət şeyxülislam *Axund Ağa Ağaəlizadə*'dən və müfti *Mustafa əfəndi Əfəndizadə*'dən gedir.

[2] Müfti və şeyxülislamın çox gərgin bir zamanda xalq arasında olduqca təqdirəlayiq işlər görməsini "komediya çıxarmaq" adlandırmaq antimilli kommunist mövqeyindən başqa bir şey deyil. Yaxşı ki, müəllif ruhanilərin bu hərəkətlərinin xalq içində milli hissiyyatın alovlanmasına səbəb olduğunu özü deyir.

[3] Millətin mənafeyini qorumaqçün yaradılmış Milli Komitəyə və hərbi qüvvəyə bu cür düşməncəsinə yanlış münasibət hətta bugünədək yaşamaqda olan nihilist kommunist təbliğatının dəyişməz prinsipidir.



***Ter-Qriqoryan*** adlı bir nəfər *daşnak* baş dikəldib ***Vartaşın***[ın] ***Qayabaşı*** və başqa erməni kəndlərində ayrı-ayrı yerli erməni hökuməti yaratmağa və başda özü durmaq şərtiylə *Milli Komitənin* əlaqəsini hər tərəfdən kəsməyə qalxışdı. Hətta şəhəri[1] ermənilərə vermək təklifini də Milli Komitəyə elan etmişdi. Bununla ***Ter-Qriqoryan Şəki şəhəri və qəzasındakı erməni-müsəlman davasının mütəşəbbüslüyünü öhdədar olub murdar fikrini həyata tətbiq etməyə başladı.***

Hər yandan fitnə alavları fışqırırdı. Özünü və ailəsini müdafiə üçün gecə sabaha qədər hər kəs silahlı gəzməyə məcbur idi. Ter-Qriqoryana arxalanan erməni daşnakları şəhərdə *xüsusi komitə* və *komissiyalar* yaratdılar. Bu aralıq ***Gürcüstan vasitəsiylə erməni qoşunlarının Şəkiyə gəlməsi*** xəbəri alındı. Bu xəbər böyük həyəcana səbəb oldu. Milli Komitənin məsləhətiylə, xəbərsiz gələn ordunun istiqbalına xüsusi bir heyət göndərildi. Bu heyətin başında erməni vətəndaşların nümayəndəsi dururdu. Komitənin qərarı üzrə, türklərdən gedəcək nümayəndələrin birisi ***Xan İlisuyski*** idi. Nə cür olursa məzkur İlisuyskinin əvəzinə ***Əmircanov Haşım bəy*** göndərilir. İlkindi çağı ***Mixak Boyaqçı oğlu, Şaşaməlik Allahverdov,*** bələdiyyə idarəsinin rəis müavini ***Məhəmməd bəy Fərzəlibəyov, Haşım bəy Əmircanov*** və iki nəfər mühafiz yola düşürlər. *Kiş çayı* bəndinin yaxınlığında heyətin qabağı kəsilib, Fərzəlibəyov və mühafizlərdən ***Məşədi Cabbar Dadanov***'dan başqa ***heyət üzvlərinin həpsi qətlə yetirilir.***

Qəsdən yapılan cinayətlər və ruhanilərin təşviqatı nəticəsində onlarca erməni-müsəlman kəndləri talan edilir və Şəki qəzası bir müharibə meydanı şəklini alır. Bu zamanlar Azərbaycan burjuazyasının nümayəndələri türkləri qarşılamaq və onları Azərbaycana dəvət etmək məqsədiylə ***Batuma*** hərəkət etmişlərdi.

**Azərbaycan burjuazyası türkləri dəvət etməkdən iki məqsəd təqib edirdi: birisi, türklərin əliylə öz mövqeyini möhkəmlətmək, ikincisi isə, şimaldan qopan inqilab selinin qabağını almaq idi.**[2]

---

[1] Şəkini.

[2] Sovet hökumətinin ilk günündən son gününədək kommunist təbliğatı Bakıda daşnak-rus hakimiyyəti ("Bakı Soveti") qurmuş Şaumyan hökumətini tərifləyərək göylərə qaldırıb, Bakını milli düşmənlərimizdən təmizləmiş qəhrəman türk-islam ordusunu isə utanmadan və usanmadan lənətləyib.

Uzun müddət ac qalmış yazıq fəhlə-kəndçiləri təzədən yığmağa
və əfəndilərin[1] kefi üçün qabıqdan çıkmağa başladılar.

Aclıq bəlasına mübtəla olan əhali ikinci bir tərəfdən *yatalaq* xəstəliyinə dutuldu. Hər gün deyil, bəlkə hər saatda 50-60 nəfər qara topraqlara gömülürdü. Bütün həyat susmuşdu. ***52.403 nəfər şəhər əhalisindən 33 bin nəfəri tələf oldu. Kəndlərdə qırılanların sayı 38 bindən ziyadə idi.***

Küçələri dolaşan pərəstarsız çocuqların iniltisi, südəmər balaların fəryadı, dul arvadların naləsi, bağlı və sahibsiz qalan evlərin qaranlıq və məhzun görünüşü kainatı ağlatırdı.

Bu fəlakəti seyr edən bir kaç cənablar *xalqın yorğun və düşkünlüyündən istifadə edərək* (??! - Ə.T.) yeni bir hökumət qurdular. Bu, ***Müsavat hökuməti*** idi. "Müsavat" kəlməsinin zahiri qabığına bürünmüş bu hökumət xan-bəylərin, qoçu və qoluçomaqların yeni kollektivi deməkdi. Bu hökumət yuxarı təbəqəyə xidmət etmək və aşağı təbəqəyi ayaqları altında əzmək üçün (??! - Ə.T.) qurulmuşdu[2].

Hənuz barıt qokusu çəkilməmişdi. Sel kibi axan qanların izləri qurumamışdı ki, *müsavatçılar* bu fəlakəti mövzuyi-bəhs götürüb ermənilər ilə müsəlmanların arasında yeni çarpışma yaratmaq məqsədiylə mitinqlər tərtib elədilər. Mitinqdə bir çok natiqlər danışır və öz fikirlərini xalqın beyninə yerləşdirməyə çalışırlardı. Burada birinciliyi ruhanilər qazanmışdı, çünki ixtilaf yaratmaq məhz bu sinfə məxsus olaraq əvvəldən götürülmüşdür. Danışılan sözlərin, yürüdülən milli siyasətin heç bir faydası olmayacağını hiss edən ***ruhanilər cihad elan edərək*** (!!! - Ə.T.) bu xüsusda "göydən səda gəlir" deyə bağırdılar.

Hətta uyezdni naçalnik ***Əyyub bəy Rəfibəyov: "Bən qubernatora söz vermişəm, bəni utandırmayınız. Şəkidən böyük bir dəstə Qarabağ müharibəsinə getməlidir***" - dedi. Kimsə cavab vermədi (??! - Ə.T.). Bununçün də kübarlar[3] istədikləri adamları siyahıya alıb çağırdılar və müharibə libasını əyinlərinə geydirdilər. Çağırılan adamlar getdilər. Elan olunan cihadın nəticəsində bir çok analar balasız, arvadlar sahibsiz qaldı. Ermənı kəndləri yağma edildi. Millət (?!) üçün can verməyə gedənlər talan malları alverinə başladılar.[1]

[1] Türkiyədən gələn qoşuna kinayə edilir.

[2] Rusiyaya tabe olmayan müstəqil Azərbaycan dövlətinin yaranmasını kommunistlər heç vaxt həzm edə bilməyiblər, bu üzdən Azərbaycan Cümhuriyyətini (1918-20) də gözdən salmaq və unutdurmaqçün əllərindən gələni əsirgəməyiblər.

[3] Oxucunun nəzərinə: müəllif ozamankı *qanuni hakimiyyəti* bu cür adlandırır.



Ruhanilərin salavatı, bəylərin acı şallaxları, qoçu və qoluçomaqların qanlı əlləri ilə haqsızcasına qırılan (?! - Ə.T.) insan cəmdəklərinin üzərində qurulmuş Müsavat hökuməti azacıq sonra Yalamadan Azərbaycana doğru parlayan inqilab süngülərinin qarşısında diz çökdü, dağıldı və Azərbaycan zəhmətkeşləri əsrlərdən bəri daşıdıqları əsrlik boyunduruğunu qırıb atmağa müvəffəq oldular.

Azərbaycanın hər tərəfində olduğu kibi Şəki şəhəri və qəzasında da qırmızı bayraqlar yüksəldi. Həmən bir zavod işə salınıb müstəhəqq fəhlələr işə alındılar. Kəndlərdə olan əkin yerləri rəncbərlərin arasında paylaşdırıldı.

İstər şəhər, istərsə kəndlərdə yüzə yüz faiz ölmüş və xarabazara döndərilmiş sənaye və təsərrüfat yavaş-yavaş canlanmağa və boy atmağa başladı. Hər tərəfdə əvvəlkilərə qəti surətdə bənzəməyən bir yenilik görüldü. Kəndlilər Nuh nəbidən qalma mayəhtacı ataraq kotan, traktor və cürbəcür mədəni kənd təsərrüfatı alətləri ilə təchiz olundular. Şəhərdə işləyən zavodların sayı yılbayıl artdı. Əvvəlləri 16 saat işləməklə bir gündə filan qədər ipək verən fəhlələr 8 saat iş müddətində ondan daha çok vüsul etməyə müvəffəq oldular.

Şəhərdə şəhər sənayesi, kəndlərdə kənd təsərrüfatı başında çalışan bütün zəhmətkeşlər idrak ilə istehsalatın tərəqqisi üçün əllərindən gələn qədər çalışır və nöqsanların qaldırılmasına səy və qeyrət göstərirlər. Onların çalışması sayəsində 4 milyon yarıma[2] bitiriləcək böyük bir ipək zavodu inşa olunur ki, bu zavod Şəki fəhlələrinin miqdarını artıracaq və təşkilatını haqqıyla genişləndirəcəkdir.

[1] Xalqımızın azadlıq uğrunda çarpışmasını, Azərbaycan Cümhuriyyəti hakimiyyətinin ("Müsavat hökuməti"nin) Qarabağı Azərbaycandan hələ o zaman qoparmağa can atan ermənilərlə savaşını "beynəlmiləlçi" kommunist təbliğatı həmişə bu cür şərəfsizcəsinə aşağılamağa çalışıb.

[2] 4,5 milyon manat düşünülür.

İnqilaba qədər Azərbaycanın ehtiyacı üçün barama qurdu toxumu - "qren" xaricdən alınardı. Başqa qəzalardan bilməm, ***yalnız Şəki qəzasında 100 ipək zavodu vardı*** ki, bunlarda ***beş yüz on bin put***[1] yaş barama işlənirdi. İşlənilən yaş baramanın çok qismi qəzanın öz kəndçiləri tərəfindən ödənilirdi. Orta hesab ilə götürdükdə Şəki qəzasından hər yılda ***on milyon manatlıq*** ipək, sərto və qeyrə ixrac edilirdi[2]. Beynəlxalq əhəmiyyəti haiz olan bu sənayenin inkişafı üçün çar zamanı bir iş görülmədiyi heç, birinci ehtiyac sayılan qren belə yerində hazırlanmayıb ənvayi-müsibətlə ***İstanbuldan*** və başqa əcnəbi dövlətlərdən alınardı. İnqilabdan sonra Azərbaycanın bir neçə qəzasında, hakəza[3] Nuxa şəhəri və qəzasında toxum stasyonları[4] açıldı.

Hal-hazırda biri şəhərdə, digəri isə ***Vartaşın***'da olmaq üzrə iki böyük toxum stasyonu vardır ki, bu stasyonlardan əhaliyə hər yılda ***15 bin qutu*** toxum paylaşdırılır.

Xalq maarifi şəhər və qəzada pək yüksəkdir. ***Maarifcə Şəki qəzası Azərbaycanda ikinci yer dutur*** desəm səhv etməmişəm. ***83 ibtidai*** və ***8 ikinci dərəcəli*** məktəb vardır. Əvvəlləri məktəb yüzünə həsrət qalan[5] bir nəfər el şairinin dediyi kimi:

*Gecələr dütdək[6] əlindən yata bilmir balalar,*
*Gecə yarı olmamış gərək zavotda olalar.*
*Nə səbirdir, nə də fatroj bundan qurtalalar,*
*Qorxuram yetim-yesir böylə zülümdə qalalar.*

Həyatını xozeynlərin kefi xatirinə bilməcburiyyə fəda edən gənc fəhlələr üçün ***Sənaye və İqtisadi Texnikum*** adıyla məktəb açılmışdır ki, bu məktəb 23-üncü yıldan bəri *Fəhlə fakültəsi* adıyla davam edir. Və dəzgah dalında işləyən fəhlələrdən ***on bir*** nəfərini darülfünuna[7] göndərməklə fəxr etmədədir.

---

1 510 ton.

2 Bu məhsulları Rusiya Azərbaycanın əlindən bütünlüklə alırdı. Kommunist müəllif, təbii ki, bu haqda susmağa üstünlük verir.

3 Eləcə də.

4 Stansiyaları.

5 Mətndə: *"qalıb"*.

6 Tütək (zavod fiti).

7 Universitetə.



Ümum məktəblərdə okuyan tələbə və talibələrin sayı ***8.200*** nəfərdən ziyadədir ki, bunlardan ***2.150*** nəfərə qədəri ünas çocuqlarıdır[1]. Əqəliyyətdə[2] qalan millətlərin çocuqları üçün də dört erməni və iki rus məktəbi xidmət ediyor.

İstər şəhər, istərsə kəndlərdə cərəyan edən ictimai həyatı seyr edənlər Şəki şəhəri və qəzasında türk, erməni, rus, yəhudi, erkək və qadın kəlmələrini nə eşitməz və nə də bir nişanə ilə bu təqsimatın varlığını isbat edəməz. Ölkənin tərəqqi və səadəti üçün hər kəs kömək çiynini can bir qəlbdə biri-birinə dikmiş və geri atılmaz div addımlarıyla ilə[rilə]yorlar.

Kəndlərdə ***18*** və şəhərdə ***4*** böyük məktəb binaları dikilmişdir. 27-28-inci tədris yılı ibtidasında mövcud məktəblərə əlavə olaraq dairələrdə ***birər*** *istinad məktəbləri* və ***2*** *kəndli-gənclər məktəbi* açılmışdır. Məktəb ləvazimatı və tədris əşyasıyla bütün məktəblər təchiz və təmin olunmuşdur. Savadsızlığı ləğv etmək üçün böyüklərə məxsus bütün kəndlərdə və şəhərdə cürbəcür kurslar və dərnəklər təşkil olunmuşdur. Hər kəs mədəniyyət namına mənən və maddətən kəndini[3] təmin və istiqbalını parlatmağa səy edir.

Yukarıda çocuq oyuncağı deməyə haqlı olduğumuz səhiyyə işləri indi tam başqa bir şəkil almışdır. Gərək şəhər, gərəksə[4] kəndlərin hər guşəsində bütün vətəndaşlara tibbi yardım əli uzatılır və mədəni üsullar ilə dərdlərinə çarə edilir. Şəhərdə biri aşağı, digəri yukarı hissədə olmaq üzrə iki ambulatorya, bir paliklinka, iki böyük əczaxana, bütün şöbələri havi[5] ***100*** karyolalıq[6] vilayət xəstəxanası, zöhrəvi xəstəliklərə məxsus mükəmməl və mücəhhəz bir dispanser və ***20*** karyolalıq bir xəstəxana, Şəkidə şiddətli hökmfərma olan vərəm xəstəliyi ilə mübarizə etmək üçün vərəmlilərə məxsus ambulatorya və xəstəxana vardır. Qəzanın birinci dairəsində bir həkim məntəqəsi və əczaxana, ikinci dairədə həkim məntəqəsi və əczaxana, üçüncü və dördüncü dairələrdə birər həkim məntəqələri, beşinci dairədə bir həkim

---

1 Qız uşaqlarıdır.

2 Azlıqda.

3 Özünü.

4 İstər(sə).

5 Burada: olan.

6 Çarpayılıq.

məntəqəsi və *10* karyolalıq xəstəxana, altıncı dairədə hakəza bir həkim məntəqəsi və *10* karyolalıq bir xəstəxana mövcuddur. Qəzanın ***Padar*** kəndində malyariya dispanseri və məhəllində kəndlilərə yardım üçün fövqəladə tibbi səyyar dəstəsi vardır.

Çar və Müsavat hökumətlərinin xarabazara döndərdikləri qəzada nə dərəcədə abadanlıq işlərinə əhəmiyyət verildiyini və çəkilən zəhmətlərin qiymətini vicdan sahiblərinin iqrarına həvalə edirəm.

Dikilən qızıl binalar, abadlaşdırılan kəndlər, qurulan körpülər, təmir olunan və təzə açılan şosse yollar göz önündədir.

1922-nci yıldan başlayaraq bugünə qədər hər ildə ***400.000*** manatdan artıq mədaxil görməyən Şəki büdcəsi yalnız xalq maarifinə hər yılda ***405.000*** [manat] xərc edir. Bəs başqa yerlərə xərclənən paralar hardan alınırmış?

Mərkəzdən ildə ***6-7 yüz bin*** manat müavinət alınır. Balaca mahal yapmaq istədiyi bir şəhərdən yüz bin manatlar ilə qazanc götürən çarın dostları və Oktyabr düşmənləri görsünlər ki, xalqı yaşatmaq və tərbiyələndirmək üçün onların qanını sormaq deyil, bəlkə bədənlərinə mədəniyyət və maarif qanı doldurmaq lazımdır. Bunu isə yalnız qabarlı əllərin, yoksul kütlə və proletarın birliyi ilə təşkil olunmuş ***Şuralar hökuməti*** yapa bilir. Əgər məhəlli büdcə ilə dövləti büdcə birləşdirilsə bir yılda Şəki zəhmətkeşlərinə ***iki milyon beş yüz bin*** manat para sərf olunduğunu görəriz.

Bunlardan əlavə, elektrikləşdirmə, vodapravod[1] dəxi şəhərin abadanlığı və camaatın ehtiyacını rəf etmək üçün mühüm vasitələrdən sayılır. Bu məsələləri çar hökuməti çok dəfələr quru sözlə götür-qoy eləyib axırda düzəlməsini lazım bilməmişdir. Şuralar hökuməti bu nöqtəyi də nəzərdən qaçırmamış. Əvvəlləri qara çırağla güzəran edən kəndçiləri sevindirmək, qaranlıq obaları işıqlandırmaq üçün elektrikləşmə məsələsinə son dərəcə əhəmiyyət verilir.

Hal-hazırda müvəqqəti stasyon[2] işləyir və şəhəri işıqlandırır. ***135 bin*** manata başa gəlmiş gidrostansiya[3] bu yaxın günlərdə işə

[1] Su kəməri.
[2] Su elektrik stansiyası düşünülür.
[3] Su elektrik stansiyası.



salınmışdır ki, ***800*** at qüvvəsiylə ***22 bin*** lampuçkalıq işıq verəcəkdir. Şəhərə yakın kəndlər də hələlik bununla işıqlandırılacaqdır.

***280 bin*** manatlıq smeta ilə vadapravod işləri də sürətlə gediyor.

İştə müstəbid hökumətlər ilə Şuralar hökumətinin fərqi. Köhnəlmiş və xan, bəy, qoçu, qoluçomaq, boynuyoğun ruhanilərin istirahət beşiyi sayılan Şəki ilə bugünkü qırmızı[1] və get-gedə sənaye mərkəzi adını qazanmağa çalışan qızıl Şəkinin vəziyyəti...

Proletar hökmranlığı öz işlərini sözlə və yaxud quru kağızlar üzərində yazmaqla deyil, hər kəsin gözü önündə duran parlaq həqiqətlər ilə bildirir. Bu bildiriş Oktyabr inqilabının sarsılmaz əsaslar üzrə qurulduğunu və sosyalizmaya doğru gedilən yolun düzgünlüyünü isbat edir ki, bu quruluşu nə xan, nə bəy, nə qoçu, nə qoluçomaq, nə mülkədar və nə də heç bir qüvvət dağıda bilməyəcəkdir[2]. Bu quruluş[un] bütün dünya proletarını öz başına toplamağa müvəffəq olacağına və başqa Şərq ölkələrini də bizim ölkəmiz kibi abadlaşdıracağına imanımız kamildir.

[1] *Qırmızı (qızıl)* kommunistlərin rəmzi rəngidir (qanı çox sevdiklərinə görə).
[2] Ancaq bu quruluşu onun antibəşəri, antimilli mahiyyəti, eləcə də bu cür yalançı təbliğat sistemi dağıtdı.




❋ **1.** Şirvan zəlzələsinin tarixi: $5_2$ - 1078 (1667/68).

*Həzar yetmiş səkkizdə hicrət,*[1]
*Şirvanda zəlzələ tapdı fürsət.*

❋ **2.** Xaçmazın[2] batmasının tarixi: $5_1$ - 1117 (1705/06)[3].

❋ **3.** [Qazıqumuqlu Çolaq] Surxay [xanın] və Hacı Davudun[4] Şamaxını almağa gəlməsi və bəylərbəyinin tutulması tarixi: $5_4$ - 1133 (1720/21)[5].

❋ **4.** Şamaxı qalasının alınması[6] tarixi: $5_3$ - 20 şəvval 1133 (14 avqust 1721).

❋ **5.** Mustafa paşanın Gəncə şəhərini alması tarixi: $5_5$ - məhərrəm 1137 (sentyabr-oktyabr 1724).

❋ **6.** Təhmasib xanın Gəncə şəhərini alması tarixi: $1_{12}$, $5_9$ - 1137 (1724/25).

❋ **7.** Nadir şahın taxta çıxmasının tarixi: $1_4$ - 1140 (1727/28)[7].

❋ **8.** Təhmasib xanın[8] Dağıstan və Gəncəyə getməsi və Nadir şahın gəlməsinin tarixi: $2_1$, $3_1$, $5_{10}$ - 1147 (1734).

---

[1] Hicrətin min yetmiş səkkizinci ilində. Beyt əlyazmada da türkcədir.

[2] Söhbət Oğuz rayonundakı Xaçmazdan gedir.

[3] Yanında əbcəd hesabıyla da tarix göstərilib: سیول اعظم.

[4] *Hacı Davud* Müşkür qəzasının Dodəli kəndindəndir. 1722-nin fevralında Osmanlı dövləti Rusiyanın etirazına baxmayaraq Hacı Davudu öz təbəəliyinə götürdü və Şamaxı xanı qoydu. O, 1727-yədək xan oldu. 1728-də Osmanlı dövləti onu həbs edib Rodos adasına sürgün etdi və o, burada öldü. 1727-də onun yerinə *Surxay xan* Şamaxı xanı təyin edildi. (Bax: Русско-дагестанские отношения в XVIII-начале XIX в. Сборник документов. Москва: Наука, 1988, s.312).

[5] Bu hadisə 7 avqust 1721-də baş verib. Şamaxını tutan Surxay xan və Hacı Davudun dəstələri yerli əhalidən başqa oradakı rus tacirlərini də talan ediblər. (Bax: Русско-дагестанские отношения..., s.310).

[6] Hacı Davud və Surxay xan almışdılar.

[7] Tarix yanlışdır. Nadir şah 17 fevral 1736-da şah seçilib. Qabaqlarsa - 7 sentyabr 1732 (17 rəbiül-əvvəl 1145)-də, özünü şahın naibi elan edərək ölkəni onun adından dolandırmağa başlayıb.

[8] Bu və sonrakı maddeyi-tarixdə söhbət Nadir xanın sərkərdəsi *Təhmasib xan Cəlayir*'dən gedir.

✻ **9.** Təhmasib xanın Şamaxı şəhərinə və Gəncəyə gəlməsi və Gürcüstan vilayətini, Car və Talanı yağmalaması və Şirvan, Şəki və Qax vilayətlərində qəhətlik düşməsinin tarixi: $5_{11}$ - 1148(1735).

✻ **10.** Nadir şahın qardaşı İbrahim xanın Car vilayətində öl-[dürül]məsi tarixi: $1_6$, $2_{17}$, $3_2$ - 1151 (1738)[1].

✻ **11.** Nadir şahın ölüm tarixi: $1_5$, $2_2$, $3_{13}$, $5_{12}$ - [11 cəmadi-yül-axir] 1160 ([20 iyun] 1747).

✻ **12.** Gəncənin və Qarabağın köçürülməsi və Nadir şahın ölüm tarixi: $1_7$, $2_4$, $3_{15}$ - 1160 (1747).

✻ **13.** Gürcünün[2] *Cəlayir kəndində Çələbi xanın əlində* məğlub olması tarixi: $1_8$, $2_6$, $3_{17}$ - 1164 (1750/51).

✻ **14.** Mərhum Hacı Çələbi xanın ölüm tarixi: $1_9$, $2_{18}$, $3_{14}$, $5_8$ - 1168 (1755).

✻ **15.** Mərhum Ağakişi bəy Hacı Çələbi xan oğlunun Məhəmməd xan Ləzginin[3] əlində ölməsi tarixi: $5_6$ - 1173 (1759)[4], $2_{20}$, $3_4$ - 1177 (1763/64).

✻ **16.** [Ərəşli] Məlik Əli bəyin ölməsi tarixi: $1_{11}$ - 1174 (1760)[5].

✻ **17.** Zəlzələnin və Biləcik kəndinin dağılmasının tarixi: $5_{14}$ - 20 rəcəb şənbə günü 1177 (24 yanvar 1764).

✻ **18.** Mərhum Cəfər ağa mərhum alicah[6] Hacı Çələbi xan oğlunun ölüm tarixi: $1_3$ - məhərrəm 1184 (aprel-may 1770), $2_3$, $3_3$ - 1184 (1770).

✻ **19.** İbrahim[xəlil] xanın Qarabağı və Gəncə şəhərini Məhəmməd xanın əlindən alması tarixi: $2_{23}$ - 1190 (1776), $1_{19}$, $3_8$, $5_{17}$ - 1193 (1779).

---

[1] İbrahim xan Zahirüddövlə 26 oktyabr 1738 (12 rəcəb 1151)-də öldürülüb.

[2] Gürcüstan valisi II İrakli (1720-1798) düşünülür.

[3] Qazıqumuqlu Çolaq Surxay xanın oğlu Məhəmməd xan (1748-1789) ləzgi yox, türk (qumuq) idi.

[4] Doğru tarix budur.

[5] Bu tarixi başqa qaynaqlar təsdiqləmir. Məlik Əli 1759-da (h. 1173-də) öldürülüb.



[6] Aliməqam.

✻ **20.** [Qəbələ sultanı] Kəlbəli sultanın[1] [Məhəmməd]hüseyn xanın əlində ölməsi tarixi: $5_{16}$ - 1193 (1779).

✻ **21.** Mərhum alicah [Məhəmməd]hüseyn xanın Hacı [Əbdülqadir] xanın əlində ölməsi tarixi: $1_{13}$, $2_5$, $3_{16}$, $5_{15}$ - 1194 (1780).

✻ **22.** Hacı [Əbdülqadir] xanın alicah Məhəmmədhəsən xan Hüseyn xan oğlunun əlində ölməsi və Şəkinin alınması və burada qəhətlik olması tarixi: $2_{19}$, $3_5$ - 1197 (1783), $1_{14}$, $5_{18}$ - [26 məhərrəm] 1198 ([21 dekabr]1783).

✻ **23.** Məhəmmədhəsən xanın şahnişin olmuş divanxanasının tikilməyə başlaması tarixi: $2_{34}$, $3_{42}$ - 1204 (1789/90).

✻ **24.** Şəhabəddin sultanın[2] öz yetişdirməsi Məhəmmədhəsən xanla vuruşması tarixi: $1_{21}$, $2_9$, $5_{20}$ - 1207 (1792).

✻ **25.** Şəhabəddin sultanın ölüm tarixi[3]: $1_{22}$, $2_{10}$, $3_{21}$, $5_{21}$ - 1209 (1794/95).

✻ **26.** Alicah Səlim xanın Şəki vilayətini Məhəmmədhəsən xanın əlindən alması tarixi: $1_{15}$, $2_{21}$, $3_6$, $5_{22}$ - [cəmadiyül-əvvəl] 1210 ([dekabr] 1795).

✻ **27.** Məhəmmədhəsən xanın Təbrizdən gəlməsi və Səlim xanın getməsi tarixi: $1_{20}$ - zilqədə 1211 (aprel-may 1797), $2_7$, $3_7$, $5_{24}$ - 1211 (1797).

✻ **28.** Ağaməhəmməd şahın Qarabağ vilayətində ölməsi tarixi: $1_{16}$, $2_{22}$, $3_{18}$ - 1211 (1797), $5_{23}$ - 15 zilhiccə 1211 (11 iyun 1797).

✻ **29.** Beş çərəkdən[4] çoq qar yağması tarixi: $1_{18}$, $2_8$, $3_{19}$, $5_{25}$ - 1213 (1798/98). Çoq güman ki, bu cür qarı Şəki vilayətində heç kəs görməyib.

---

[1] Görkəmli yazıçı *Hacı İsmayıl bəy Qutqaşınlı*'nın (1809-1861) babasıdır.

[2] Ərəş sultanıdır.

[3] Onu Məhəmmədhəsən xan bütün qohumlarıyla birgə öldürdü.

[4] 1 *çərək* 1 *əlçim*'dir (dirsəkdən şəhadət barmağının ucunadək məsafə) = 45-50 sm. Beləliklə, 5 çərək = 2,25-2,5 metr.

✵ **30.** Şəki vilayətində qəhətlik və aclığın tarixi: $1_{17}$, $2_{24}$, $3_{20}$, $5_{26}$ - 1213 (1798/99).

✵ **31.** Dağıstan hakimi Ümmə xanın[1] ölüm tarixi: $1_{23}$, $2_{25}$, $3_{10}$, $5_{27}$ - 1215 (1800/01).

✵ **32.** Kiş kəndinin yağışdan batması tarixi: $1_{34}$, $3_{39}$ - rəbiül-əvvəl 1217 (iyul 1802), $2_{30}$ - 1217 (1802), $5_{28}$ - şabanın sonu 1217 (dekabrın sonu 1802):

*Tarixi - on yeddidə oldu yağış,*
*Axiri-şabanül-müəzzəm fövtə getdi Oxud ilə Kiş.*

✵ **33.** Rusiyanın Şəki vilayətində qalib gəlməsi tarixi: $1_{25}$, $3_{11}$ - şabanın sonu 1221 (noyabr 1806), $2_{11}$, $5_{29}$ - 1221 (1806).

✵ **34.** Cəfərqulu xan Xoylunun Rusiya padşahının əmriylə Şəki vilayətinə gəlməsi tarixi: $5_{30}$ - 15 zilqədə günorta vaxtı 1221 (24 yanvar 1807), $3_{23}$ - zilqədənin ortası 1221 (yanvar 1807), $1_{26}$ - 24 zilqədə 1221 (2 fevral 1807), $2_{12}$ - 1221 (1807).

✵ **35.** Şəki vilayətinin xanı Cəfərqulu xanın ölüm tarixi: $1_{27}$ - 10 ramazan 1229 (26 avqust 1814), $5_{31}$ - 10 ramazan şənbə günü axşam 1229 (26 avqust 1814), $3_{12}$ - 18 ramazan 1229 (3 sentyabr 1814), $2_{27}$ - 1229 (1814).

✵ **36.** Şəki adamlarının (kəndxudalarının) Xoy adamlarının [İsmayıl xanın] zülmündən Tiflis şəhərinə şikayətə getməsi tarixi: $1_{28}$ - 1 zilqədə 1229 (15 oktyabr 1814), $5_{32}$ - 2 zilqədə 1229 (16 oktyabr 1814), $2_{28}$, $3_{24}$ - 1229 (1814).

✵ **37.** Alişan Hacı Şəmsəddin bəyin ölüm tarixi: $3_{25}$, $5_{33}$ - 12 rəbiül-əvvəl çərşənbə günü çeşt vaxtı 1230 (22 fevral 1815), $1_{29}$ - 12 rəbiül-əvvəl 1230 (22 fevral 1815), $2_{13}$ - 1230 (1815).

✵ **38.** Alicah Fətəli xanın ölüm tarixi: $5_{34}$ - 3 cəmadiyül- axir cümə günü günorta vaxtı 1230 (13 may 1815), $3_{38}$ - 3 cəmadiyüs-sani cümə günü 1230 (13 may 1815), $1_{30}$ - 3 cəmadiyüs-sani[2] 1230 (13 may 1815), $2_{14}$ - 1230 (1815).

[1] Ümmə (Ömər) xan Avar xanı olub (1774-1801). Döyüşdə yaralanaraq İlisuda ölüb. Qarabağ xanı İbrahimxəlil xan 1797-də ona sığınmışdı.

[2] *Cəmadiyüs-sani* və *cəmadiyül-axir* eyni aydır.



✵ **39.** Alişan Məhəmməd bəy mərhum Hacıməhəmməd oğlunun Almalı kəndində ölməsi tarixi (Şəkiyə gətirdilər): $5_{35}$ - 15 ramazan axşam üstü 1230 (21 avqust 1815), $1_{31}$ - 1230 (1815).

✵ **40.** Çələbi əfəndinin oğlu İsmayılın doğulma tarixi: 4 - şaban 1234 (may-iyun 1819).

✵ **41.** İsmayıl xan Cəfərqulu xan oğlunun ölüm tarixi: $5_{36}$ - 13 şəvval günorta vaxtı 1234 (5 avqust 1819), $1_{32}$ - 13 şaban 1234 (6 iyun 1819), $2_{29}$, $3_{26}$ - 1234 (1819).

✵ **42.** Xoy adamlarının Şəki vilayətindən Gəncə vilayətinə getməsi tarixi: $1_{33}$, $5_{37}$ - 1 məhərrəm 1235 (21 oktyabr 1819), $2_{15}$, $3_{27}$ - 1235 (1819).

✵ **43.** Məhəmmədhəsən xan divanxanasının yanma tarixi: $5_{38}$ - ramazan 1240 (aprel-may 1825).

✵ **44.** Naçənlikin Ağdaşa gəlməsi tarixi: $2_{48}$ - məhərrəm 1242 (avqust 1826).

✵ **45. Şahzadə Abbas Mirzənin Şəkiyə gəlməsi tarixi:** $2_{51}$ - 1242 (1826).

✵ **46.** Rusun Şəki vilayətindən getməsi tarixi: $5_{39}$ - 4 məhərrəm 1242 (8 avqust 1826).

✵ **47.** [Səlim xanın oğlu] Hüseyn xanın Şəki vilayətinə gəlməsi tarixi: $1_{35}$, $5_{40}$ - 7 məhərrəm 1242 (11 avqust 1826), $2_{16}$, $3_{40}$ - 1242 (1826). [Üç aydan sonra getdi[1] ($5_{40}$)].

✵ **48.** Hacı Çələbi xanın oğlu Həsən ağanın oğlu Hüseyn xanın oğlu ***Səlim xanın oğlu alicah Hüseyn xanın Şəki vilayətində hökmranlıq etməsi tarixi:*** 4 - məhərrəm 1242 (avqust 1826).

[1] Qafqazın baş hakimi olan amansız general A.P.Yermolov Hüseyn xan Səlim xan oğlunun başçılığıyla çarizmə qarşı qalxmış xalq narazılığını yatırtmaqçün 14 oktyabr 1926-da cəza ordusuyla Şəkiyə girərək əhalini qılıncdan keçirdi, bir müddət Şəkidə qalaraq Qafqazı buradan idarə etməyə başladı. Hüseyn xan Güney Azərbaycana qaçmağa məcbur oldu.

✻ **49.** Rusiyanın Azərbaycana və paytaxtı Təbrizə qalib gəlməsi və naibüssəltənə Abbas Mirzənin getməsi tarixi: 4 - 1243 (1828).

✻ **50.** Rusiyanın Qars və Axısqa vilayətləri üzərində qələbəsinin tarixi: 4 - 1244 (1828).

✻ **51.** Hüseyn xan Səlim xan oğlunun ölüm tarixi: $2_{46}$, $3_{49}$ - 1245 (1829/30).

✻ **52.** Hacı Məhəmməd əfəndi imamın ölümü: $2_{31}$, $3_{28}$ - 1245 (1829/30).

✻ **53.** Mərhum Məhəmmədhəsən xanın Hacıtahirxan[1] şəhərində[2] ölməsi tarixi: $5_{42}$ - rəbiül-əvvəl 1246 (avqust-sentyabr 1830), $1_{36}$, $2_{32}$, $3_{41}$ - 1246 (1830).

✻ **54.** [Şəkidə] birinci vəbanın tarixi: $2_{36}$, $3_{31}$ - 1246 (1830/31).

✻ **55.** Hacı Çələbi əfəndinin[3] Kəbəyə getməsinin tarixi: 4 - rəcəb 1246 (dekabr 1830 - yanvar 1831).

✻ **56.** Car qalasının tikilməyə başlanmasının tarixi: $2_{47}$, $3_{36}$ - 1246 (1831).

✻ **57.** Ağaməhəmməd Molla Tahir oğlunun ölüm tarixi: 4 - 1249 (1833/34).

✻ **58.** Məhəmməd əfəndi Hacı İsmayıl əfəndi oğlunun ölüm tarixi: 4 - şaban 1249 (dekabr 1833 - yanvar 1834).

✻ **59.** Şəki bazarının yanması tarixi: 4 - 28 şaban 1249 (9 yanvar 1834), $1_{37}$, $3_{29}$ - 1 ramazan 1249 (11 yanvar 1834), $2_{33}$, $5_{43}$ - ramazan 1249 (yanvar 1834).

---

[1] Həştərxan.

[2] Məhəmmədhəsən xanı Həştərxana sürgün etməkdə Rusiyanın başlıca məqsədi onun Şəkidəki mülklərini əlindən almaqdı.

[3] *Hacı Çələbi xan*'la *Hacı Çələbi əfəndi*'ni qarışdırmamalı. Şəki xanı Fətəli xan Hacı Çələbi əfəndiyə yazıb: *"Hörmətli cənab, yaxşı axund, xeyirxah insan,* ***atam yerinə hesab etdiyim*** *Hacı Çələbi əfəndi. ...Məktubunuzda Taxta Körpü qışlağı haqqında yazırsınız. ...Mənim bütün mülklərim Sizindir. Sizdən heç nəyi əsirgəmirəm. Siz Taxta Körpü qışlağı istəyirsiniz və mən onu Sizə əbədi olaraq bəxş edirəm və heç kəs ona toxunmağa cürət edə bilməz".* (Bax: *Rəsul Hüseynli. Azərbaycan ruhaniliyi.* Bakı: Kür, 2002, s.130).



✻ **60.** Kafiyə (doğulub: rəcəb 1243/yanvar-fevral 1828) və Mədinə (doğulub: rəcəb 1245/yanvar 1830) Hacı Çələbi əfəndi uşaqlarının və Ağaməhəmməd Molla Tahir oğlunun ölüm tarixi: 4 - cəmadiyül-axir 1250 (oktyabr 1834).

✻ **61.** Mustafa ağanın ölüm tarixi: 4 - şəvval 1250 (fevral 1835).

✻ **62.** Əbdülməbud Əbdülqafar oğlunun doğum tarixi: 4 - məhərrəm 1251 (may 1835).

✻ **63.** Hacı Çələbi əfəndinin evinin dağılması tarixi: 4 - cəmadiyül-əvvəl 1251 (avqust-sentyabr 1835).

✻ **64.** Əbdülvahab Mustafa oğlunun doğum tarixi: 4 - ramazan 1251 (dekabr 1835-yanvar 1836).

✻ **65.** Mustafa bəyin evinin yanmasının tarixi: 4 - zilhiccə 1252 (mart-aprel 1837).

✻ **66.** Balaxanımın ölüm tarixi: 4 - zilhiccə 1253 (mart 1838).

✻ **67.** Şəki vilayətinin qazısı Hacı Əbdüssalam əfəndinin ölüm tarixi: 4 - 9 məhərrəm 1254 (4 aprel 1838).

✻ **68.** Xaçmazlı Hacı Hüseyn əfəndi və Əbdürrəhman əfəndinin, padarlı[1] Hacı Əbdürrəhim bəy və Kərim bəyin, qutqaşınlı Cəfər bəy və Baxış bəyin[2], nuxalı Hacı İbrahim, Hacı Nəbi və Hacı Abdullanın dustaq olub Tiflisə getməsinin tarixi: 4 - 15 səfər 1254 (10 may 1838).

✻ **69.** Məşədi Məhəmməd ağa Rütulinin başçılığıyla ləzgi tayfasının Şəki şəhərinə gəlməsi tarixi: 4 - cəmadiyül-axir 1254 (avqust-sentyabr 1838), $2_{40}$ - rəcəb 1254 (sentyabr-oktyabr 1838), $1_2$, $3_{33}$, $5_{45}$ - 1255 (1839).

✻ **70.** Ləzgilərin, şəkililərin və başqalarının dustaqlarına rus paltarı geydirib, saldat edib Rusiyaya göndərdikləri tarix: 4 - zilqədə 1254 (yanvar-fevral 1839).

✻ **71.** Rusiya sərdarının[1] buyruğuyla Hacı Məhəmməd Hacı

---

[1] Xaçmaz və Padar indiki Oğuz rayonunun kəndləridir.

[2] *Hacı İsmayıl bəy Qutqaşınlı*'nın (1809-1861) əmisi Hacı Şəfi bəyin oğlanlarıdır.

Əbdürrəhim oğlunun, Mirzə İbrahimin və başqa iki nəfərin gülləylə öldürülməsi tarixi: 4 - 18 məhərrəm 1255 (3 aprel 1839). Başqa dörd nəfəri çubuqla döydülər.

* **72.** Hacı Çələbi əfəndinin ölüm tarixi: 4 - 25 şəvval 1257 (9 dekabr 1841).

* **73.** Hacı Yəhya bəyin[2] [dünyadan] getməsinin tarixi: $3_{48}$ - 1260 (1844).

* **74.** Sadıq ağa alicah Məhəmmədhəsən xan nəvəsinin ölüm tarixi: $1_{24}$, $2_{26}$, $3_{22}$, $5_{19}$ - 1260 (1844).

* **75.** Danyal sultan Əhməd xan oğlunun[3] Rusiyadan üz çevirib Dağıstana getməsinin tarixi: $1_{38}$, $2_{38}$, $3_{32}$, $5_{47}$ - 1260 (1844).

* **76.** Şəki şəhərində ikinci vəbanın tarixi: $2_{37}$, $3_{44}$, $5_{48}$ - 1263 (1847).

* **77.** Hacı Muradın Şəkiyə gəlməsi və rus əlində şəhid olması tarixi: $5_{49}$ - 20 cəmadiyül-axir 1268 (10 aprel 1852)[4], $2_{35}$, $3_{30}$ - 1268 (1852).

* **78.** Bazarın və Cümə məscidinin yanması tarixi: $1_{1}$ - 5 rəcəb (gecə) 1269 (14 aprel 1853), $2_{42}$, $3_{46}$, $5_{46}$ - 1258 (1842/43).

* **79.** Saleh əfəndinin Şəki vilayətinə gəlməsi, sonra Dağıstana getməsi tarixi: $3_{43}$ - 1270 (1853/54).

* **80.** Hacı Xalid əfəndinin gəlməsi və Ağası bəyin qızı ilə evlənməsi tarixi: $5_{50}$ - cəmadiyül-axir 1270 (mart 1854).

* **81.** Hacı Həsənin qaçaq əlində ölməsi tarixi: $5_{51}$ - 7 zilhiccə xas günü 1271 (20 avqust 1855), $2_{39}$, $3_{45}$ - 1271 (1855).

* **82.** Hüseyncani məscidinin banisi Hacı Əlican bəyin ölüm tarixi: $5_{52}$ - 6 məhərrəm 1273 (6 sentyabr 1856).

---

[1] Canişininin.

[2] Bizcə, söhbət *Hacı İsmayıl bəy Qutqaşınlı*'nın qardaşı Hacı Yəhya bəydən gedir.

[3] İlisunun ağasıdır.

[4] Bəzi qaynaqlar bu tarixi 5 may 1852 götürür (ASE, X, 145).



**83.** Qazi Əbdüllətif əfəndi [Hacı Əbdüssalam əfəndi oğlunun][1] ölüm tarixi: $5_{53}$ - 18 cəmadiyül-axir[2] 1274 (3 fevral 1858).

* **84.** Giləkli məhəlləsinin yanması tarixi: $5_{54}$ - 19 şaban gündüz saat 8-də 1274 (4 aprel 1858), $3_{47}$ - 1274 düşənbə günü (1858), $2_{44}$ - 1274 (1858).

* **85.** Fətəli xanın oğlu Kərim ağa [Fatehin] ölüm tarixi: $5_{55}$ - 8 cəmadiyül-axir xas günü 1275 (13 yanvar 1859), $3_{34}$ - cəmadiyül-əvvəl 1275 (yanvar 1859), $2_{43}$ - 1275 (1859).

* **86.** Dağıstanın fəthi və Şeyx Şamilin tutulması tarixi: $5_{56}$ - səfər 1276 ([26] avqust 1859), $3_{35}$ - 1276 (1859).

* **87.** İsmayıl xanın arvadı Hacı Tutu ağa Məhəmmədhəsən xan qızının[3] Maran ilə Tiflis arasında Suram çaparxanasında ölməsi tarixi: $5_{57}$ - 27 rəbiül-axir 1276 (22 noyabr 1859). Üç günə Tiflisə gətirilib, dörd gün sonra Nuxuya gətirilib, cəmadiyül-əvvəlin 5-ində xas günü 1276-cı ildə (30 noyabr 1859) Cümə məscidinin qabağında atasının yanında dəfn olunub[4].

* **88.** Hacı Rəhimin ölüm tarixi: $5_{58}$ - 3 səfər bazar günü gün batandan sonra 1278 (10 avqust 1861).

* **89.** Danyal sultanın Rum məmləkətinə hərəkəti tarixi: $3_{50}$ - məhərrəm 1286 (aprel-may 1869).

* **90.** Şahonun gəlməsi tarixi: $5_{59}$ - 4 zilqədə axşam 1294 (10 noyabr 1877), $2_{49}$ - 1295 (1878).

---

[1] Yanlış olaraq *"Şəki xanlarının ixtisar üzrə tarixi"* əsərinin müəllifi kimi göstərilmiş kişidir. ***Qazi Əbdüllətif əfəndi*** XIX yüzilin ortalarında çarizmə qarşı cənubi Qafqaz diyarını bütünlüklə əhatə etməsi nəzərdə tutulan ümummüsəlman azadlıq mübarizəsinin, bu mübarizənin başlanğıcı sayılan 1844-dəki Şuşa üsyanının baş ideoloqu olub. 1846-da həccə gedib və bir daha Vətənə dönməyib. (Bu haqda geniş məlumatçün bax: *Rəsul Hüseynli. Azərbaycan ruhaniliyi.* Bakı: Kür, *2002, ss.72-78*).

[2] Qıraqda karandaşla *"20 cəmadiyül-axir pəncşənbə"* (5 fevral 1858) yazılıb. Bəlkə də bu, qazinin torpağa tapşırıldığı tarixdir.

[3] Hacı Tutu ağa İsmayıl xandan sonra Kərim ağa Fatehə də ərə gedib.

[4] Son cümlə türkcəmizdə yazılıb.

✵ **91.** Rus padşahının Osmanlı[1] ilə vuruşu tarixi: $2_{50}$ - 1295 (1878).

✵ **92.** Bahalığın tarixi: $5_{60}$ - 1297 (1880).

✵ **93.** Şəkidə zilhiccədən məhərrəmin sonuna kimi çəkən vəbanın tarixi: $2_{52}$ - 1309 (8 iyul - 3 sentyabr 1891).

✵ **94.** Əhməd xan Məhəmməd xan oğlunun ölüm tarixi: $2_{53}$ - 1309 (1891/92).

✵ **95.** Səadət bəyim İsmayıl xan qızının ölüm tarixi: $2_{54}$ - 29 zilhiccə 1309 (24 iyul 1892).

[1] Türkiyə.





## *Şəkili NƏBİ*[1]



## Hacı Çələbi xana[2]

*Ey bəyim[3], rəngin otağun bəzmi-ürfandır bu gün,*
*Nemətün nuşi-müsafir, qüvvəti-mehmandır bu gün,*
*Göftüguyi-rüfətün[4] bihəddü payandır bu gün.*
*Same olgil[5], söyləyim mən, gör nə dastandır bu gün,*
*Şükri-Həqq etmək gərək, yaxşı dövrandır bu gün.*

*Şahi-Nadir çün gətirdi üstünə yüz min səvar,*
*Sən bərabər cəngə durdun; kimdə var bu ixtiyar?!*
*Döndü getdi, xiclətindən axir oldu şərmisar.*
*Rəhnümadır ənbiyaya nüsrət verən Pərvərdigar;*
*Dəstgirün şahi-mərdan, şuri-yəzdandır bu gün.*

*Valilər[6] cəngin yarağın qıldılar tədbir ilən,*
*Dər zəman[7] saldun savaşı kafiri-bipir ilən[8],*
*Gör nə bərbad oldu bidin - hikməti-təqdir ilən:*

---

[1] XVIII yüzildə yaşamış, çağının olaylarına duyğuculluqla yanaşmış **Şəkili Nəbi** Məhəmmədhüseyn xan Müştaqın dostu olub və onun sarayında yazıb-yaradıb. Heca və əruz vəznindəki şerlərindən onun yüksək savad, bilik və incə duyum yiyəsi olduğu görünür.

[2] Müxəmməs Hacı Çələbi xanın sağlığında (deməli, 1755-dən qabaq) ona müraciətlə yazılıb.

[3] Şairin sadəcə *"bəyim"* deyə müraciət etməsi Hacı Çələbi xanın ləqəbdən xoşlanmamasına bir dəlil ola bilər. Şerin mübaliğəsiz olması da bunu göstərir.

[4] Böyüklüyünün söz-söhbəti.

[5] Dinlə.

[6] Gürcüstan valisi II İrakliyə, onun oğlanlarına işarədir.

[7] Vaxtında.

[8] Mürşidsiz, pirsiz, dini rəhbərsiz kafirlə.



*Kimini dutdun diri, kəsdin kimin şəmşir ilən,*
*Zəxmdari-seyfi-müslim Kafiristandır[1] bu gün.*

*Doğrudur çün etiqadun, ol Xudadır rəhnümun[2],*
*Bu səfa keyfiyyətin fəhm edə bilməz hər cünun,*
*Sən özün kani-şücaət, dövlətün həddən bürun,*
*Oldu təqdiri-qəzadən günbəgün qədrün füzun,*
*Əzmgahi-payitəxtün səqfi-keyvandır bu gün.*

*Hasidü bədxahü düşmən baş ikən pay[3] oldular,*
*Dərdü möhnət həmnişini, fikrə həmtay oldular,*
*Bəxti pamal eyləyib idbar ilən bay oldular -*
*Hər biri qəddin əyib, təzim üçün yay oldular;*
*Canü dildən xidmət eylər, bəndəfərmandır bu gün.*

*Çün xərab olmuş məhəllər oldu abadun sənün,*
*Sərbəsər dutdu cəhanı ədl ilən adun sənün,*
*Düşmənün yarü, aşna oldu tamam yadun sənün[4].*
*Afərin **Ağakişi** - dilbəndi-övladun sənün,*
*Pəhləvanlar sərəfrazı mərdi-meydandır bu gün.*

*Atı yelpa, zərbi heydər, başbilən bir növcəvan,*
*Tiği qate, sövtü yeyrək, cəng içində kardan,*
*Göftügusu bibədəldir, xülqü xoyu binişan,*
*Azimi-Dəccali-bidin, Mehdiyi-sahibzəman,*
*Məzhəri-əmnü ədalət, əhdü peymandır bu gün.*

*Çünki **Sədrəddin əfəndi**[5] ğəmküsar oldu sənə,*
*Bəhri-elmü mərifət, tədbirdə yar oldu sənə,*
*Sidqi-dildən həmdəmi-leylü nəhar oldu sənə,*
*Baisi-münqadi-aləm, hər nə var oldu sənə;*
*Mürşidi-ustadi-kamil, piri-Şirvandır bu gün[6].*

---

[1] Gürcüstana işarədir.

[2] Yolgöstərən.

[3] Ayaq.

[4] Bütün düşmənlərin [sənə] yar və yadların tanış oldu.

[5] Hacı Çələbi xanın Təbriz vilayətindəki naibi.

[6] Deməli, şer yazılanda "Şirvanın ağsaqqalı" Sədrəddin əfəndi hələ sağdı.

***Qasımi-Mirza***'*yi-əzəmdir vəzirün, niknam,*
*Katibi-mişkinrəqəm, kani-fəsahət, xoşkəlam,*
*Pərdəpuşi-eybi-miskin, iftixari-xasü am,*
*Sərvəri-dəsturi-aləm*[1], *münşiyi-aliməqam,*
*Hər sözü bir dürrü gövhər, ləlü mərcandır bu gün.*

***Yusifoğlu*** *qulluğunda naziründür bimisal,*
*Məsləhət beyni-xəlayiq nüktədanü xoşməqal,*
*Gəlməmiş ruyi-zəminə böylə mərdi-pürkəmal,*
*Anı lütfündən yaratmışdır Xudayi-layəzal;*
*Sahibi-göftari-xəlvət, sirri-pünhandır bu gün.*

*Layiqi öz halıdır - Həqq dunə dövlət verməsə,*
*Bu imanət şivəsi layiq deyil hər bir kəsə,*
*Əhli-ürfandır bunu hər kim ki idrak eyləsə;*
*Çün təmam oldu əzəl həmmam, məscid, mədrəsə,*
*Vəqti-divari-müzəyyən, nəqşi-eyvandır bu gün.*

*Mən Nəbiyəm, bəxti-dun, ey lütfü ehsan mədəni,*
*Namurad olmaz cəhanda kim sevər candan səni,*
*Dövri-dərgah etmə, məhrum eyləyib bu bəndəni,*
*Bəxş qıl təqsirü üzrüm, salma gözdən gəl məni -*
*Xatirim dövran əlindən xeyli virandır bu gün.*

***(Əlyazmalar İnstitutu: Maş-118/7971; Azərbaycan klassik ədəbiyyatı kitabxanası, VI cild. Bakı: Elm, 1988, ss.502-504).***

## Ağakişi bəyin öldürülməsi

*Cəvanlar sərvəri məqtul olubdur, xasü am ağlar,*
*Kəmali-cürətin yad eyləyib əhli-kəlam ağlar,*
*Ədanilər gülər gahi, əalilər müdam ağlar,*
*Həsudi şad olur hər dəm, mühibbi sübhü şam ağlar,*
*Təəssübdən yanar canı, bilən namusü nam ağlar.*

[1] Dünya vəzirlərinin başçısı.



*Müsəlləm oldu elm ilə şücaət lütfi-mövladən,*
*Sədayi-hilmi-xoşnudu bülənd oldu masivadən*[1]*;*
*İmarət qıldı məscidlər*[2], *döndü kafər kəlisadən,*
*Əcəb kani-ədalət, ey dirifa, getdi dünyadən,*
*Anınçün ol Məhəmmədü Mehdi sahibnizam ağlar.*

*Bilib məhrəm, gətirdilər Qumuq xanını*[3] *Şirvanə,*
*Vəli iblisi-məlun tək fəsadı saldı hər yanə,*
*Lənətlik, heyzü bidinlik bir ad oldu Dağıstanə;*
*Şəhid oldu gözəl canlar, xəlayiq düşdü əfqanə,*
*Yanar göy dudi-ahimdən, çəkər həsrət, tamam ağlar.*

*Dəxi ol pürdil, ey canlar, fəna xabindən ayılmaz,*
*Riyasət gülşəni içrə anın tək bir gül açılmaz.*
*Bu mənanı dərk eyləməz, qanıb hər bir yetən bilməz;*
*Məlalət bəzi əhyayə, nədəndir kim, əsər qılmaz,*
*Məzaristani-aləmdə rəmim olmuş övzam ağlar.*

*Xoş ol günlər! Anın dövründə xəlq andan əman oldu,*
*Vəli mərhum olandan sonra vəhşi tək rəman oldu,*
*Yetən fisqü fəsadə meyl edib, işlər yaman oldu,*
*Nişani-ruzi-məhzər faş olub axirzaman oldu,*
*İbadətxanələr yalquz qalıb beytülhəram ağlar.*

*Əmiri-sahibi-tədbir, mərdi-nadiri-dövran,*
*Olurmu bir vilayətdə anın tək sərvəri-meydan?*
*Nəsib etsin Xuda cənnət içində neməti-əlvan.*
*Əzizin ruhinə hər dəm bağışlar oxuyub Qur'an,*
*Duayi-xeyr edər dildən Nəbi–kəmtər qulam ağlar.*

***(Əlyazmalar İnstitutu: Maş-118/7971; Azərbaycan klassik ədəbiyyatı kitabxanası, VI cild. Bakı: Elm, 1988, ss.501-502).***

[1] Başqalarından, özgələrindən.

[2] Məscidlər tikdirdi (təmir etdirdi).

[3] Ağakişi xanın qayınatası və qatili olan *Qazıqumuqlu Məhəmməd xan*'ı (1748-1789). O, *Çolaq Surxay xan*'ın (1727-1734) oğlu, *II Surxay xan*'ın (1789-1827) atasıdır.

## Məhəmmədhüseyn xanın tərifi

*Həmdülillah, fələyin gərdişi yar oldu genə,*
*Bəhsi-nuşadi de kim eyşi-mədar oldu genə,*
*Müddəilər yürəyi dərdü ğübar oldu genə,*
*Xeyli gümrahə[1] siyasət nə ki var oldu genə,*
*Mənzili-əhli-nifaq əsəfi-nar oldu genə.*

*Bir sitəmpişə dəni[2] feli-bəd adab qılıb,*
*Dutdu bütxanəyə yüz, məbədi mehrab qılıb,*
*Qırdı nahəqq bəşəri daxili-seylab qılıb;*
*Dutdu lənət yuxusu, uydu zəhri xab qılıb,*
*Bəstəri-xabgəhi xaki-məzar oldu genə.*

*Bir hünər mədəni növrəstə cəvan[3] oldu zühur,*
*Nəsli-övladi-şərif, sahibi-idrakü şüur,*
*Oldu tənbihi-siyasətgəri-ərbabi-fücur,*
*Qaldı canında həsudun ələmi ta dəmi-sur,*
*Düşmənin piçi-səri məskəni-mar oldu genə.*

*Ər olan doğru gərək, bilmənəm əfsanə sözü,*
*Ərzi-sərdar edübən[4] söylədi mərdanə sözü,*
*Xəbəri-cürətinin getdi Dağıstanə sözü,*
*Dedi sərkərdələrə aqilü fərzanə sözü,*
*Sülhü misaq oluban qövlü qərar oldu genə.*

*Çünki xan oldu Hüseyn ümməti-Şirvanə bu gün,*
*Gəldi münqad oluban cümləsi fərmanə bu gün,*
*Oldu gülzari-İrəm məmuru viranə bu gün,*
*Bülbülü qumri sədə saldı gülüstanə bu gün,*
*Getdi əyyami-şita, fəsli-bəhar oldu genə.*

---

1 Yolunu azmış, azğın.
2 Məhəmmədhüseyn xanın öldürdüyü düşmənlərindən biri (çox güman ki, Ərəş sultanı Məlik Əli) düşünülür.
3 Məhəmmədhüseyn xan düşünülür.
4 Urmiya xanı, *sərdar Fətəli xan Əfşar* (?-1759) düşünülür. O, 1759-da Qarabağda olarkən yanına gəlmiş Məhəmmədhüseyn xanı Şəki xanı təyin etmişdi.



*Gör nə məhv oldu cəhandan şəri-iblisi-ləin,*
*Tabei cümlə xəcalət çəkübən oldu həzin -*
*Mürği-zar oldu sərasər çəmənü ruyi-zəmin.*
*Çıxdı seyranə əcəb huriyi-firdovsi-bərin,*
*Söhbəti-mehri-cəbin laləüzar oldu genə.*

*Düşdü dövrani-siyasət, deməsin kimsə xilaf,*
*Sözümün sidqinə şahid əsəri-nun ilə kaf,*
*Bu bəşarət[1] alınıb getdi xəbər Qafbəqaf[2].*
*Ey dil, aşüftə bu dəm nuş edə gər badeyi-saf*
*Mövsimi-tibü tərəb, məstü xumar oldu genə.*

*Ey Nəbi, eylədi çərxin bizə dövranı vəfa,*
*Doğrudur, bircə küdurətdən olur iki səfa;*
*Ayətin mənasını təfsir edən həm Mustəfa:*
*Baisi-rahət olub çəkdiyimiz cövrü cəfa,*
*Hicrü firqət ələmi vəsli-nigar oldu genə.*

***(Əlyazmalar İnstitutu: Maş-114/7971; Azərbaycan klassik ədəbiyyatı kitabxanası, VI cild. Bakı: Elm, 1988, ss.499-500).***

## Küngüt əhvalatı[3]

*Əzmi-cəzm etdi Hüseyn xan–xani-Şirvan Küngütə,*
*Yerbəyer tutdurdu rahi, getdi pünhan Küngütə,*
*Çəkdi malı Dostməhəmməd[4], saldı talan Küngütə;*
*Yari-qəmxar olmadı hərgiz bir insan Küngütə,*
*Cövrü zülm oldu, cəzayi-lütfü ehsan Küngütə.*

---

1 Muştuluq.
2 Yəni xəbər Qaf dağ(lar)ını aşdı.
3 Şerə başlığı biz artırmışıq.
Küngüt əhvalatı təxminən 1768-də baş verib.
4 Dostməhəmməd Məhəmmədhüseyn xanın naziriydi. Burada "mal" dedikdə, bizcə, Rusiyaya satmaqçün göndərilən ipək nəzərdə tutulur. Görünür, Dostməhəmməd həmin ipəyi Küngütdə gizlədib, ona görə də xan gizlincə buraya gələrək yolları bağlayıb və kəndi talan edib.

*Dövləti idbarə döndü, çün kələk yar olmadı,*
*Əhdü peyman tərk olundu, qədri-iqrar olmadı*[1],
*Cürm yox*[2], *düşmən qəvi, hakim havadar olmadı,*
*Ədli-divan hökm olub tənbihi-bədkar olmadı,*
*Qeyrilər*[3] *qıldı fəsadı, dəydi nöqsan Küngütə.*

*Mərdümi-əhli-inadın qövlü olmaz üstuvar*[4],
*Məsləhət tövrünü bilməz hər ləimi-nabəkar*[5],
*Yüz fəsadın babın örtər bir həkimi-namidar,*
*Bir neçə müfsid Şəkini eylədi bietibar,*
*Sikkədən saldı Nuxunu, qıldı böhtan Küngütə.*

*Müddət idi bu arada bir məlalət yox idi,*
*Hər kişi həddin bilib, meyli-rəyasət yox idi*[6],
*Hakimin hökmündə bir tərki-ədalət yox idi,*
*Müddəilərin işində bu ədavət yox idi,*
*Saldı hər dəm fitnəni bir məkri-fəttan Küngütə.*

*Bəzi kəslər bu hekayətdən xəbərdar oldular,*
*Rəhmü sidqiyyət mətaindən səbəbkar oldular,*
*Qeyrəti pamal edib bəxti-nigunsar oldular,*
*Qonşu həqqin görməyib*[7] *hərdəm günəhkar oldular;*
*Xar olub xiclət çəkərlər düşsə dövran Küngütə.*

*Bəhsi-laf urmaq qədərdən kari-hər nadan deyil,*
*Ta ki, Həqdən olmadan bir qövlü fel imkan deyil,*
*Böylə yazılmış əzəldən – əmri-bifərman deyil,*
*Doğru yoldan, bu siyasət qüdrəti-insan deyil -*
*Gəldi təqdiri-qəzadən qəhri-yəzdan Küngütə.*

---

[1] Söhbət Dostməhəmməddən gedir.
[2] Şair bu işdə camaatın suçunun olmadığını bildirir.
[3] Görünür, Dostməhəmməd və onun adamları düşünülür.
[4] Güclü, möhkəm.
[5] Yaramaz alçaq.
[6] Görünür, Dostməhəmmədin hərəkətlərində Məhəmmədhüseyn xanı devirmək cəhdi də olub.
[7] Qonşu kəndlərin, görünür, ixtiyar yiyəsi olan bəzi adamları düşünülür.



*Ey Nəbi, bir dəm təəssüb şəhrin abad eylədim,*
*Hörməti-nanü nəməkdir, həqqini yad eylədim*[1],
*Ərzi-raz edib əmirə dadü fəryad eylədim,*
*Çarəsiz qaldım, fərarı xəlqə irşad eylədim,*
*Sülh olub, cəng olmayıb, ta düşməsin qan Küngütə*[2].

***(Azərbaycan klassik ədəbiyyatı kitabxanası,***
***VI cild. Bakı: Elm, 1988, ss.500-501).***

---

[1] Şair bir vaxtlar duz-çörəyini yediyi Küngütün təəssübünü çəkir.
[2] Deməli, Məhəmmədhüseyn xana Küngüt əhli adından yalvaran şair onu yola gətirə bilməyib, buna görə də qan düşməsin deyə camaata kənddən qaçmağı məsləhət görüb.

❋

## *Mustafa ağa ŞUXİ*



### Nuxu şəhərinin tərifi

*Biya, ey saqiyi-məhru, nə xüdur etmisən peyda*
*Ki, könlündən şəki rəf et, götür bir sağəri-səhba.*
*Nuxunun məskəni-şəhri nə ə'la bir məkan üzrə*
*Olunmuş vəzi-zibatər təfərrüc mərkəzi-dünya.*
*Edib məhsur ətrafın cibali-kəhkəşanrüf'ət,*
*Misali-qəleyi-əla tərazi-qüdrəti-mövla.*
*Sə rükn üstündə etmişdir müəyyən suyi-qərbindən,*
*Açıb afaqə ustadi-əzəl dərvazeyi-Dara.*
*Təmaşayi-cahanə sər çəkibdir təmtəraq ilə,*
*Şimali canibindən kuhi-Əlbürzi-fələkfərsa.*
*Sərində taci-simin, padşahanə vüqar ilə*
*Hüzurunda süfufi-kuhlər ləbbəstə, biguya.*
*Tamaşa eyləsən hər bir bürucatından ətrafə*
*Olur məddi-nigahında nümayan səfheyi-ğəbra.*
*Müləvvən fərşi-əzhar ilə rəngarəng, minafam,*
*Müəlla kuhü yaylağı şimalü şərqdən bərpa.*
*Zülali-abi-heyvandan nişanə çeşmələr cari,*
*Cibalatında əşcarati-ziba qəddi-sərvasa.*
*Müəyyən seyrgəhlər hər biri namilə şöhrətyab,*
*Kənari-şəhrara hər cadə gəh zirü gəhi bala.*
*Düzübdür dəsti-ustadi-qəza bir büqeyi-rəngin,*
*Çəkib memari-qüdrət bir həsari-xoştərü ziba.*
*Digər sudən düzülmüş bağhayi-cənnətasalər,*
*Həmə pürbari-əlvan, meyvəhayi-hamizü əhla.*



*Bahari-dilgüşası qeyri-mümkün cayi-digərdə,*
*Bu mənzilgahi-canbəxşin görünməz misli digər ca.*
*Belə bir mənzili-dilcu, bu gunə məskəni-niku*
*Həmə yek-digərinə biqərəz məxluqudur ə'da.*
*Dü səd heyfa ki, yoxdur əhli-naəhlində bir zərrə*
*Dəyanətlə vəfavü qədrü qiymət, danişi-əşya.*
*Baxıb zahirlərinə etiqad eylərsən adəmdir,*
*Dəruni-şeytənətayinləridir bir digər sima.*
*Bu ətvar ilə əhlinə məratib qeyri-mümkündür,*
*Onunçün qəsr müddət başə vurmaz bunda kəs əsla.*
*Xudaya, xəlqinə ehsan qıl əhvali-təbi-xoş,*
*Edib məhfuz ənvai-bəladən cümləsin yekca.*
*Vilayət içrə asayiş yetirsin bəxt ilə rövnəq,*
*Verə xəllaqi-aləm nemətü izzətlə istiğna.*
*Vəfasızlıq cəhani-bibəqanın karıdır, Şuxi,*
*Kəsani-qədrdani az deyildir, eyləmə şəkva.*

***(S.Ə.Şirvani. Əsərləri. III cild. Bakı: Elm, 1974, s.156).***

## *Məhəmmədəmin oğlu SALMAN MÜMTAZ*[1]



### Ənvəriyyə[2]

*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*
*Səninlə fəxr edir şimdi böyük sultan, ulu qeysər*
*Ki, sənsən dahiyi-dövran, sənsən fatehi-kişvər,*
*Sana şayistədir əlhəqq tila ovrəngü zər əfsər*[3].
*Doğarmı madəri-giyti*[4] *sənin tək bir də bir nər ər -*
*Xəyalı ay kimi aydın, məramı gün kimi ənvər?!*

[1] Şəkinin Gəncəli məhəlləsində doğulmuş, çağdaşlarının həm də müqtədir bir şair kimi tanıdığı **Salman Məşədi Məhəmmədəmin oğlu Əsgərzadə (Mümtaz) (1884-1941)** 1.500-dən artıq Azərbaycan şairinin irsini min müsibətlə əldə edərək onların adını yaşadan BÖYÜK TOPLAYICI, 100-dən çox Azərbaycan yazarını ilk yol üzə çıxararaq yaradıcılıqlarını bolşevizmin ölümsaçan ağır senzurası altında da doğru-düzgün təhlil edən, onların əsərlərini tarix boyunca ilk dəfə nəşrə hazırlayan BÖYÜK ARAŞDIRICI, misilsiz söz xəzinəmizi 20 adda kitabında, yüzədək məqaləsində el malı edən BÖYÜK YAYICI, Azərbaycan ədəbiyyatşünaslığının ÖZÜLÜNÜ QOYAN'lardan biri, kommunistlərin "vətən xaini" kimi həbs edərək ölüm düşərgəsində güllələdiyi BÖYÜK VƏTƏNDAŞ'dır.

[2] 1918-də yazılmış bu müsəddəs Osmanlı imperatorluğunun hərbiyyə naziri, Başkomandan vəkili, birinci fəriq (tam general) ***Damad İsmət Ənvər paşaya*** (23.11.1881-4.8.1922; nazirliyi: 3.1.1914-14.10.1918) həsr edilib. 1918-də Bakını rus-erməni işğalçılarından təmizləmiş IX ordunun komandı, fəriq (general-leytenant) ***Nuru paşanın*** (1889-2.3.1949) böyük qardaşıdır.

Şer nəfis tərtibatlı böyük bir vərəqdə nəşr edilib. ***Nuru paşa Şəkiyə gəldikdə*** S.Mümtaz bu şeri ona oxuyaraq təqdim edib, sonra da çoxlu sayda buraxdıraraq dost-tanışlarına paylayıb.

[3] Qızıl taxt və qızıl tac sənə yaraşır.

[4] Kainatın anası.



*Səhabi-küfrü*[1] *tən böldün, qılınc zərbiylə etdin şəqq,*
*Çıxartdın milləti yeksər işıqlı günlərə əlhəqq,*
*Ayıltdın türkləri, verdin dəmadəm türklüyə rövnəq,*
*Sana bu işdə yardımcı yəqin oldu cənabi-Həqq,*
*Sən oldun həzrəti-Həqqin səfayi-lütfünə məzhər.*
*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*

*Müsəlman qeyrətin çəkdin, gözətdin türkün namusun,*
*Dağıtdın xavəri-islamdən küffar kabusun.*
*Məsaciddən dilərdi rus asa öz nəhs naqusun*[2],
*Gəbərdib, torpağa sərdin həyasız niyyətin rusun.*
*Günəşdən parlaq amalın olub Şərq əhlinə əzhər,*
*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*

*Münzəm ordunu birdən səri-ədüvvanə saldırdın,*
*"Kral"lar rişəsin qırdın, "karol"lar tacın aldırdın,*
*Edib məğlub küffarı, nəvayi-suru çaldırdın,*
*"Hilal"ı ərşə yüksəltdin, "gün"ü əflakə qaldırdın.*
*Nihali-məqsədi-fikrin gətirdi datlı bin növbər,*
*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*

*Ziyayi-fikrətin ilə ziyasızdıq, ziyalandıq,*
*Cəfavü cövr çəkmişdik, fütuhunla səfalandıq,*
*Livayi-nüsrətin ilə*[3], *bihəmdüllah, livalandıq,*
*Həqirü pəst olmuşduq, ucaldıq, etilalandıq.*
*Təmamən Qafqazın əhli könüldəndir sana əsgər,*
*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*

*Səadət dövrü, söz yoq kim, yetirmiş şanlı cahidlər,*
*İgitlər, qəhrəman ərlər, şücaətli mücahidlər,*
*Buna tarixdə vardır dəxi binlərcə şahidlər,*
*Tikibdir onlara şahlər neçə yerdə müşahidlər.*
*Yapar millət sana layiq tiladən heykəli-əkbər.*
*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*

[1] Küfr buludunu, zülmətini.

[2] Rus məscidlər(imiz)dən öz nəhs (kilsə) zəngini asmağı dilərdi.

[3] Qələbə bayrağınla.

*Səmada yıldırım tək parlayan dəm tiğinin bərqi*
*İşıqlandırdı şəmsəsa sərasər aləmi-Şərqi,*
*Nisari-xaki-payınçün düzüldü bin gözəl şərqi*[1]*;*
*Bənim naçiz şeirimlə vəli var onların fərqi -*
*Mübarək vəchini görcək tapar əşarımız zivər,*
*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*

**Şəki.**

***(Əlyazmalar İnstitutu, fond 20, saxlama vahidi 216).***

## Öyün, millət!

İşbu abdar şer Qafqasiya İslam Ordusu baş komandanı dövlətli **fəriq**[2] **Nuru paşa əfəndimiz** həzrətlərinin ***Şəkiyə vürudu***[3] münasibətilə Qafqasiya şüərasından möhtərəm **Məhəmmədəmin oğlu SALMAN MÜMTAZ** əfəndi tərəfindən ***bədahətən söylənmiş*** və paşa həzrətlərinin nami-namilərinə[4] ithafən təb və nəşr ediimişdir.

*O gün millət ki əltafı*[5] *olub şövkətli sultanın,*
*Hilalın haləsi qılsın əhatə türk övtanın*[6]*.*

*Təfaxür eylə, ey millət, muradın hasil olmuşdur,*
*Daha əflakə yüksəlməz ənini ahü əfğanın.*

*Ziyasız rus zülmündən o yüksək ruhun ölmüşdü,*
*Dökürdü şişəyə hər dəm şərabi-nab tək qanın.*

---

[1] Ayaqlarına atmaqçün min gözəl mahnı qoşuldu.
[2] General-leytenant.
[3] Gəlməsi.
[4] Məşhur adlarına.
[5] Lütfləri.
[6] Vətənlərini.



*Qızılgül tək açıl, gül, gör ki, türkün şanlı ordusu*
*Rivaqi-ərşə nəsb etmiş*[1] *böyük Osmanlı ünvanın.*

*Səmayə doğru toğrul tək sən, ey türk oğlu, uç, yüksəl*
*Ki, sənsən şanlı övladı şərəfli əski Turanın.*

*Bulud altında qalmışdı əgərçi kövkəbi-bəxtin*[2]*,*
*Gör imdi nəcmi-zahir tək hilalın, nəcmi-tabanın*[3]*.*

*Gərək tağı-müqərnəsdən*[4] *asılsın türkün tuğrası*[5]*,*
*Mələklər zibi-duş etsin livasın Ali-Osmanın*[6]*.*

*Bütün, Mümtaz, ellərdən olar türk milləti mümtaz*[7]*,*
*Sürər bundan sora türklük şərəfli-şanlı dövranın.*

**["Azərbaycan" qəzeti, 30 təşrini-əvvəl (oktyabr) 1918, №26].**

---

[1] Göyün tavanına sancmış.
[2] Bəxtinin ulduzu.
[3] Ayını, parlaq ulduzunu (Osmanlı bayrağındakı ay-ulduz nəzərdə tutulur).
[4] Göy qübbəsinin tağından.
[5] Gerb, dövlət nişanı.
[6] Mələklər Osmanlı bayrağını çiyin bəzəyi etsin.
[7] Seçilmiş, üstün.

✵

## *Bəxtiyar VAHABZADƏ*



### Şəki

"Özünüz şəkili olduğunuz halda
hələ Şəkiyə bir şer həsr etməmisiniz".

**Bir məktubdan.**

*Bir nəğmə qoşmadım hələ mən sənə,*
*Dağlar bunu mənə kəsir sanmasın.*
*Mən, dedim, vurğunam Azərbaycana.*
*Deyirəm heç zaman xırdalanmasın*
*Könlümdən ucalan bu avaz, bu səs.*
*Böyükdür, ucadır məsləkim mənim.*
*Bala anasına "sevirəm" deməz,*
*Mən də deməmişəm, a Şəkim, mənim.*

*Sən öz keçmişini daim qorudun,*
*Babanın şöhrəti yaşayır səndə.*
*Bu eşqə eşq olsun!*
*Dünənlə bu gün*
*Çiyin-çiyinədəir küçələrində...*

*Mən sənə borcluyam öz balan kimi,*
*Çox da ki şerimdə görünmür adın.*
*Mənim oxuduğum nəğmələrimi*
*Mənim qulağıma sən pıçıldadın.*

*Şerimin mayası – bu qaynar nəfəs*
*Sənin öz çiçyin, sənin öz barın.*
*Şerimdə dil açıb danışmırmı bəs*



*Sənin bulaqların, göy çinarların?*

*Mən həm bakılıyam, həm lənkəranlı,*
*Gəncəli, qubalı, həm naxçıvanlı,*
*şirvanlı,*
*qarabağlıyam,*
*Bütöv Vətənimə bütöv bağlıyam.*

*Mən sənin qoynunda gəldim cahana,*
*Özün bəxş elədin Azərbaycana.*

*İçib maral gözlü çeşmələrindən*
*Elimə, obama mən vurulmuşam.*
*Bir eldə doğulub*
*xoşbaxtam ki, mən*
*Böyük bir Vətənə oğul olmuşam.*

**Noyabr 1971.**

**(B.Vahabzadə. Dan yeri. Bakı: Gənclik, 1973, ss.43-44).**

# ADLAR GÖSTƏRİCİSİ[1]


Abaqa xan -140
Abbas Fərəcov -40
Abbas Mirzə Fətəli şah oğlu Qacar (Azərbaycan hakimi, vəliəhd, naibbüssəltənə) -166, 167,168,169,219,220
Abbas Ramazanov -40
Abbasqulu (Kərim ağa Fatehin oğlu) -91,112
Abbasqulu ağa Bakıxanov -6,8,76,97,141,144,146,147,150,151,152,154,156,160,162,169
Abbasqulu bəy Topçubaşov -37
Abbasqulu xan İrəvanski -37,39
Abbasqulu Sadıqov -40
Abbasqulu sultan -98
Abbasəli Hacıkərimzadə -35,40
Abbasəli Kərimov - *Abbasəli Hacıkərimzadə*'yə bax
Abdulla ağa Məhəmmədhəsən xan oğlu -18,112,123,133,134
Abdulla əfəndi Ərəşi (qazi) -92
Abdullayev (Şəkidə) -81
Ağa xan İrəvanski -37
Ağabəyim ağa -72
Ağaxan -65
Ağakişi bəy Mahmud ağa oğlu -112,134
Ağakişi xan Haçı Çələbi xan oğlu -103,104,105,112,117, 118,130,134,151,153,216, 227,228,229
Ağaməhəmməd Axundov -34
Ağaməhəmməd xan - *Məhəmməd xan Çolaq Surxay xan oğlu*'na bax
Ağaməhəmməd Molla Tahir oğlu -220,221
Ağaməhəmməd şah Qacar (Qacar imperatoru) -107,108, 120,121,127,132,149,160,162,163,164,217
Ağası bəy -222
Ağası xan Əsgər xan oğlu (Şirvan xanı) -106,119,120,130,146,155,157,159
Axund Ağa Ağaəlizadə (şeyxülislam) -206
Axund Hacı Məhəmmədhəsən Mövlazadə Şəkuyi -7
Axund Mirməhəmmədkərim Mircəfərzadə -47,48,51
Akif Fərzəli -9
I Aleksandr (çar) -110
Allahqulu xan (Şəki hakimi) -98
Allahverdi bəy (Xançobanı) -196
Allahverdi Əsgər oğlu (şəkili)-98
Alp Arslan - *Məhəmməd Alp Arslan*'a bax
Analı Mehdi -201
Arnole, Artur -27
Arutinov A.A. -148,152,157, 162
Aslan Məhəmmədbəyzadə -36
Aşmarin N.İ. -14,15
Aydın Hacıyev -58,59,61,62,63

Babayev F. -16
Bağı bəy Dərviş Məhəmməd xan oğlu -97,98,115,128,129


---

[1] Adlar göstəricisini *Oğuztoğrul Tahirli* tərtib edib.




Baharlı M. -174
Baxış bəy Hacı Şəfi bəy oğlu (qutqaşınlı) -221
Baxış bəy Mustafa bəy oğlu Rüstəmbəyov - 197
Baxşəli əfəndi (Şəkidə) -83
Bakıxanov A.A. - *Abbasqulu ağa Bakıxanov*'a bax
Baqrat -141
Balahacı xan Ağakişi xan oğlu -112,134
Balaxanım -221
Balaxanım xanım Hacı Əbdülqadir xan qızı (İlisulu Danyal bəyin arvadı) -134
Bəhram xan Naxçıvanski -52,53,63
Bəxtiyar Vahabzadə -83,240,241
Bəyim xanım (Məhəmmədhüseyn xanın qızı; öncə qubalı Fətəli xanın, sonra gəncəli Cavad xanın arvadı) -110,133,156
Bərgə (Bərkay) xan Cuci xan oğlu -140
Bicə Məhəmməd -202
Börküyarıq -138
Böyük Əmir Teymur Gürgan - *Əmir Teymur*'a bax
Bradel, Jorj -27
Brokhauz-Yefron -147,174
Buğa xan -140
dö Buğvaye, Fortune - 27
Bukreyev -66
Bünyadov Z.M. -140

Cağatay xan -140
Cahan xanım -72
Cahangir bəy Topçubaşov -37
Cahangir Zeynaloğlu -111
Cahanşah Həqiqi -142
Candar - *Əlican*'a bax
Cavad xan Şahverdi xan oğlu Ziyadoğlu Qacar (Gəncə xanı) -108,147,162
Cavahir xanım (Məhəmmədhəsən xanın arvadı) -134
Cavid H. - *Hüseyn Cavid*'ə bax
Cəfər ağa - *Cəfər(qulu) ağa Hacı Çələbi xan oğlu*'na bax
Cəfər ağa (Kərim ağa Fatehin oğlu) -91,112,134
Cəfər ağa Abdulla ağa oğlu -112,134
Cəfər bəy Hacı Şəfi bəy oğlu (qutqaşınlı) -221
Cəfər bəy Mustafa bəy oğlu Rüstəmbəyov -197
Cəfər(qulu) ağa Hacı Çələbi xan oğlu -105,112,118,130,131,154,216
Cəfərqulu xan (naxçıvanlı) -56,60,61
(Xoylu) Cəfərqulu xan Dünbüli (Şəki xanı) -15,17,91,111,123,133,167,218
Cəlaləddin I Məlikşah - *Məlikşah Səlcuqi*'yə bax
Cəlaləddin Miranşah - *Miranşah*'a bax
Cövdət -30
Cülyetta Mirbağırova -24
Cürci Zeydan -50,51

Çavçavadze -204

Çernixov –92
Çələbi əfəndi – *Hacı Çələbi əfəndi*'yə bax
Çələbi xan – *Hacı Çələbi xan*'a bax
Çingiz xan –140
Çolaq Surxay xan – *I Surxay xan*'a bax

Dadaş Bünyadzadə –66
Damad İsmət Ənvər paşa – *Ənvər paşa*'ya bax
Danyal sultan Əhməd xan oğlu –222,223
Dəccal –227
Dəli Petro (I Pyotr)–5
Dəlili H.Ə. –104,149,154
Dəllək Heydər –201
Dərgi (şair) –163
Dərviş Məhəmməd xan Həsən sultan oğlu (Şəki xanı) –18,95,96,97,98,113,115,116,127,128
Dəvəli Sərdar (Hacı) Mustafa xan –20,107,108,120,121,132,160,161
Dəyirmançı oğlu Yunis –202
Dokük, Pol –27
Dorn, Bernqard –13-17,94-110
Dostməhəmməd (Məhəmmədhüseyn xanın naziri) –231,232
Düma, Aleksandr –27

Elize-Reqlo –147,154
Emil Sadıqov –86

Əbdülcabbar Əliyev –16,94
Əbdüləziz (Kərim ağa Fatehin oğlu) –91,112
Əbdülhəmid ağa (Kərim ağa Fatehin oğlu) –91,112,134
Əbdülhəmid ağa Haşım ağa oğlu –112,134
Əbdülhəmid H.S. – *Hacı Seyid Əbdülhəmid*'ə bax
Əbdülqadir xan – *Hacı Əbdülqadir xan*'a bax
Əbdüllətif əfəndi – *Qazi Əbdüllətif əfəndi*'yə bax
Əbdülməbud Əbdülqafar oğlu –221
Əbdülvahab Mustafa oğlu –221
Əbdürrəhim ağa Məhəmmədhəsən xan oğlu –18,112,123,133,134
(qazi) Əbdürrəhman ağa (şəkili) –89
Əbdürrəhman əfəndi (xaçmazlı) –221
Əbdürrəzzaq Dünbüli –154
Əbdüssəməd (Kərim ağa Fatehin oğlu) –91,112
Əbülqasim Abdullah Übəddətid-dini-l-Müqtədi bi-Əmrillah – *Müqtədibillah*'a bax
Ədalət Tahirzadə –13,183
Əfəndiyev S.M. –35
Əhməd (Kərim ağa Fatehin oğlu) –91,112
Əhməd ağa (Məhəmməd)hüseyn xan oğlu –105,112,154
Əhməd bəy Cavanşir –6
Əhməd Əlican oğlu –98
Əhməd xan (xoylu) –102,149
II Əhməd xan Qubalı Fətəli xan oğlu –159



Əhməd xan Məhəmməd xan oğlu –224
Əhməd Midhət –27
Əhməd şah (Qacar şahı) –29
Əjdər Süleymanzadə –74
Əkbər ağa Qasımov –39
Əlabbas Müznib Mütəllibzadə –28,47,48
Ələkbərov(lar) – *Məşədi Əyyub Ələkbərov*'a bax
Ələşrəf İsmayılov – *Ələşrəf Kərimov/İsmayılov*'a bax
Ələşrəf Kərimov – *Ələşrəf Kərimov/İsmayılov*'a bax
Ələşrəf Kərimov/İsmayılov (çekist) –9,77-83,168,194
Əli bəy (Ərəş sultanı) – *Məlik Əli*'yə bax
Əli bəy Hüseynzadə –30,35
Əli bəy Rüstəmzadə –36
Əli Əvhədəddin Əbivərdi Ənvəri – *Ənvəri*'yə bax
Əli sultan Saxuri –9
Əli Şağanov –40
Əlibala –35
Əlican Allahverdi oğlu –98
Əlican bəy Bağı bəy oğlu –98,129
Əlican Qara keşiş oğlu –95,113,126
Əlimərdan bəy Məhəmmədxan bəy oğlu –98
Əliyev M.A. (artist) –35
Əlvənd xan –95,96,97,113,114,115,126,127
Əmin Əfəndiyev –43
Əmir İbrahim (Şirvanşah) –141
Əmir Teymur –76,141,142,183
Əmiraslan sərdar –102,117,130,149
Əmircanov Haşım bəy –207
Əmircanov Sultan bəy –205
Ənvər paşa –29,236,237,238,239
Ənvər Şükürzadə –15
Ənvəri –139
Əsəd Əliyev –40
Əsgər bəy Əlican bəy oğlu –98,129
Əsgər Hacıheydərzadə –36
Əsgər xan Allahverdi bəy oğlu (Şamaxı xanı) –146,159
Əsgər xan Məhəmmədsəid xan oğlu (Şirvan xanı) –159
Əşir-Bəşir –201
Əyyub bəy Rəfibəyov –208
Əziz Qasımov –86
Əzizbəyov M. –35

Faiq Bağırzadə –24
Fəxrənnisa xanım Səlim xan qızı –133
Fərhad Ağazadə –72
Fətəli xan Hüseynəli xan oğlu (Quba xanı) –133,145,153,155,156,157,158
Fətəli xan Əfşar (sərdar, Urmiya xanı) –104,105,118,153,154,230
Fətəli xan Xoyski (baş nazir) –111

Fətəli xan (Məhəmməd)hüseyn xan oğlu Möhnəti (Şəki xanı) –10,12,15,16,21,89,90,91,
106,109,110-112,120,121,122,123,131,132,133,134,156,165,167,218,220,223
Fətəli şah Qacar –72,111
Firidun Ağasıoğlu –94,126,135
Firidun bəy Köçərli –11,12,13
Fitnət xanım –72

Göynüklü Şikəst Əhməd əfəndi – *Şikəst Əhməd əfəndi Göynüklü*'yə bax

Hacı Abdulla (şəkili) –221
Hacı Abdulla əfənli (müdərris) –124
Hacı bəy Mustafa bəy oğlu Rüstəmbəyov –197
Hacı Çələbi əfəndi (Şəkidə) –84,219,220,221,222
Hacı Çələbi xan Qurban oğlu (Şəki xanı) –14,18,19,20,21,76,98,99,100,101,102,103,104,
112,116,117,118,128,129,130,134,146,147,148,149-153,169,171,216,219,220,226,227
Hacı Davud –215
Hacı Əbdülqadir xan Hacı Çələbi xan oğlu (Şəki xanı) –90,105,106,112,118,119,120,130,
131,134,154,155,156,217
Hacı Əbdüllətif əfəndi – *Qazi Əbdüllətif əfəndi*'yə bax
Hacı Əbdürrəhim bəy (padarlı) –221
Hacı Əbdüssalam əfəndi –15,221,223
Hacı Əlican bəy –222
Hacı Əsgər bəy Feyzullabəyov –37
Hacı Həsən –222
Hacı Hüseyn əfəndi (xaçmazlı) –221
Hacı Xalid əfəndi –222
Hacı xan – *Hacı Əbdülqadir xan*'a bax
Hacı xan Səlim xan oğlu –112
Hacı xan Sultanov –202,203
Hacı İbrahim (şəkili) –221
Hacı İsmayıl bəy Qutqaşınlı –217,221,222
Hacı İsmayıl əfəndi –220
Hacı Kərim Sanıyev/Sanılı – 64,65
Hacı Mehdi Bağırov –63
Hacı Məhəmməd əfəndi (imam) –124,220
Hacı Məhəmməd Hacı Əbdürrəhim oğlu –222
Hacı Məhəmmədəli xan Sofi Nəbi oğlu (Şamaxı xanı) –146,152,157,159
Hacı Mircəfər Hacı Mirbağır oğlu –24
Hacı Mirtağı Mirbabayev –37
Hacı Murad –222
Hacı Mücrim Kərim əfəndi Vardani –92
Hacı Nəbi (şəkili) –221
Hacı Piri (Hacı Çələbinin elçisi) –152
Hacı Rəhim –223
Hacı Rəsul bəy –119,131
Hacı Rəsul oğlu (fabrikant) –204
Hacı Seyid – *Hacı Səid bəy*'ə bax
Hacı Seyid Əbdülhəmid –10,18,19,21,98,124,125,126



Hacı Seyidrza Mirbabayev –34
Hacı Səfərzadə –36
Hacı Səid bəy (elçi) –107,160,161
Hacı Səlim əfəndi –15
Hacı Şeyx Həsən Mollazadə Gəncəvi –7
Hacı Şəfi bəy (qutqaşınlı) –221
Hacı Şəmsəddin bəy –218
Hacı Şıxəli Əhməd oğlu –14,98,100,101
Hacı Şıxqulu – *Hacı Şıxəli Əhməd oğlu*'na bax
Hacı Yaqub əfəndi Əfəndizadə –124
Hacı Yəhya bəy –222
Haşım ağa Məhəmmədhəsən xan oğlu –18,112,123,133,134
Haşım bəy Nərimanbəyli/Nərimanbəyov –35,36,40
Haşımbəyli –63
Haşim ibn Mərvan –137
Heddin, Somen –27
Herakli – İrakli'yə bax
Herakliyus (İrakli, Roma imperatoru) –136
Heydərqulu bəy Əlibəyov –40
Heydərqulu xan (Naxçıvan xanı) –147,150
Həbib Cəbiyev –68
Həbib Səmədzadə –85
Həbibulla Manaflı (tarixçi) –77,78,82
Həmid bəy Şahtaxtinski –37
Həmidova Ş.P. –103
Həsən ağa Hacı Çələbi xan oğlu –102,104,105,112,117,118,130,149,219
Həsən bəy Qazıyev –36
Həsən Əbdürrəhmanov –79
Həsən Mustafayev –77
Həsən Salmanzadə –36
Həsən sultan Şəki xan oğlu (Şəki xanı) –18,95,113,126,127
Həsənov İ.M. –7
Həsi Abdullayev –5,6
Hikmət Əbdülhəlimov –8,79,86,104,111
Huripeykər xanım (qubalı Fətəli xanın bacısı, Məhəmmədhəsən xanın arvadı) –133,1
Hülakü xan –140
Hürü xanım – *Huripeykər xanım*'a bax
Hüseyn ağa Abdulla ağa oğlu –112,134
Hüseyn bəy Ququşov –55,57,60,62
Hüseyn Cavid –31
(Böyük) Hüseyn xan – *Məhəmmədhüseyn xan*'a bax
Hüseyn xan Səlim xan oğlu (Şəkinin son xanı) –112,133,168,219,220
Hüseyn Sadiq – *Seyid Hüseyn*'ə bax
Hüseyncan – *Məlik Hüseyncan*'a bax
Hüseynəli xan (İrəvan xanı) –147,150
Hüseynəli xan Sultan Əhməd xan oğlu (Quba xanı) –145,152
Hüseynqulu – *Məlik Hüseynqulu*'ya bax
Hüseynqulu xan Qacar –149

Hüseynzadə Ə.B. – *Əli bəy Hüseynzadə*'yə bax
Xacə Qivaməddin əbu Əliyyil-Həsən Nizamülmülk – *Nizamülmülk*'ə bax
Xan Xoyski –111
Xan İlisuyski –207
Xanbaba bəy –198
Xanıkov N.V. –15,16
Xarəzmşah Cəlaləddin Mənkburni –140
Xeyrənnisa xanım (Məhəmmədhəsən xanın arvadı) –134
Xəlil bəy Qasımbəyov –37
Xızır bəy (elçi) –162
Xosrov Ənuşirvan –135,136
Xosrov xan –98
Xruşşov N.S. –81,83
Xurşid xanım (Fətəli xanın arvadı, Kərim ağa Fatehin anası) –90,134

İbrahim bəy Talış –15,91
İbrahim xan Zahirüddövlə (Nadir şahın qardaşı) –216
İbrahim Qədimov –36
İbrahim Rifət –27,40,51
İbrahimxəlil Cavanşir (Pənahəli xanın atası) –146
İbrahim(xəlil) xan Pənahəli xan oğlu Cavanşir (Qarabağ xanı) –105,108,110,118,119, 122,131,133,134,146,154,155,162,163,164,166,167,216
İkinci Keyxosrov –136
II İrakli –102,103,147,150,151,158,162,216,226
İrəvanlı oğlu Bilal –202
İsa bəy Aşurbəyli –28,48,49
İsa xan Levan xan oğlu –9,143
İsfəndiyar bəy Sultanov –37,40
İsgəndər bəy Əsgərbəyov –66
İsgəndər bəy Hacınski –6
İsgəndər bəy Münşi –95
İsgəndər xan –134
İsgəndərov A. –81
İsmayıl ağa (Kərim ağa Fatehin oğlu) –91,112,134
İsmayıl bəy Qaspıralı – 39
İsmayıl bəy Şəfibəyov –40
İsmayıl Calallı –86
İsmayıl Çələbi əfəndi oğlu -219
(Xoylu) İsmayıl xan Cəfərqulu xan oğlu (Şəki xanı) –18,21,91,123,133,167,168,195,218,219,223,224
İsmayıl Kərim oğlu –80
İsmayıl Musayev (prof.) –23,58,59,60,61,62,63
İsmayılov Ə. – *Əlaşrəf Kərimov/İsmayılov*'a bax
İsmayılov R. –59

Kafiyə Hacı Çələbi əfəndi qızı –221
Kamran Bağırov –24
Kazım xan (Qaradağ xanı) –102,147,149,150
Kazımzadə A. –26



Kerenski –205
Kəlbəli/Kəlbalı xan (naxçıvanlı)–56,60,61
Kəlbəli sultan Qutqaşınlı –154,217
Kərim ağa Fətəli xan oğlu Fateh Şəkixanov –6-19,21,84,88,92,93,94,112,12
Kərim bəy (padarlı) –221
Kərim xan İrəvanski –56,63
Kərim xan Zənd –149
Kərimov Ə. – *Əlaşrəf Kərimov/İsmayılov*'a bax
Klars, Jül –27
Konstantin Mirzə –144
Kosa Pirqulu –97,115
Kumanets –79

Qara keşiş –94,95,113,126,148
Qaraxanov –40
Qaraxanov Sərkiz bəy –202
Qasım bəy –205
Qasım bəy Zakir –13
Qasım Camalbəyov –52
Qasım xan Məhəmmədsəid xan oğlu (Şirvan xanı) –159
Qasımov H. –59
Qasımi-Mirzə –*Mirzə Qasım*'a bax
Qaspari A.A. –148,174
Qaytas paşa –143
Qazan xan –141
Qazan Mahmud Elxan – *Qazan xan*'a bax
Qazi Əbdüllətif əfəndi –13,14,15,16,76,125,134,148,223
Qəhrəmanov C.V. –98
Qızxanım (Məhəmmədhəsən xanın anası) –106
Qızıl Arslan –139
Qudoviç İ.D. –110
Ququşov – *Hüseyn bəy Ququşov*'a bax
Qulam Axundov –79
Qulam Məmmədli –78
Quluyev Ə.N. –7
Qurban Əlican oğlu (kətxuda) –98,129
Qutul xan Əlican oğlu (Şəki xanı) –95,113,126

Lautin (general-qubernator) –54
Levan xan – *Əlvənd xan*'a bax
Lələ Mustafa paşa –143
Lətif Hüseynzadə –25
Ləvənd xan – *Əlvənd xan*'a bax
Lisaneviç D.T. (qatil mayor) –110,135,167

Mahmud ağa (B.Vahabzadənin atası) –83
Mahmud ağa Balahacı xan oğlu –18,112,133,134
Mahmud İsmayıl(ov) –7,8

Mahmud Qazan xan – *Qazan xan*'a bax
Mahmud Nədim Qaragözov –34
Makinski A. –59
Makinski T. –59
Marağalı oğlu –202
Mehdi Qurbanzadə –36
Mehdi sahibzaman –227,229
Melo, Hektor –27
Mədinə Hacı Çələbi əfəndi qızı –221
Məhəmməd peyğəmbər (s.ə.s.) –229
Məhəmməd (Kərim ağa Fatehin oğlu) –91,112
Məhəmməd (Kərim ağa Fatehin başqa oğlu) –91,112
Məhəmməd ağa Şahmalıyev (samuxlu) –203
Məhəmməd Alp Arslan –138
Məhəmməd bəy Fərzəlibəyov –207
Məhəmməd bəy Hacıməhəmməd oğlu –219
Məhəmməd bəy Mehrəli bəy oğlu Cavanşir –164
Məhəmməd əfəndi Hacı İsmayıl əfəndi oğlu –220
Məhəmməd Əsəd əfəndi –72
Məhəmməd xan –216
Məhəmməd xan Çolaq Surxay xan oğlu –20,103,104,117-118,130,153,216,229
Məhəmməd Səid Ordubadi –47,48,68
I Məhəmməd Tapar –138
Məhəmməd Toğrul bəy Mikayıl bəy oğlu (səlcuqlu) –137,138
Məhəmmədağa Şeyxülislamov –36
(Molla) Məhəmmədbağır Xəlxali –32
Məhəmmədəli [Rəsulzadə] –35
Məhəmmədəli paşa (Qəbələ valisi) –144
Məhəmmədəli Sidqi –59,68
Məhəmmədəmin paşa – *Məhəmmədəli paşa*'ya bax
Məhəmmədəmin Rəsulzadə –23,35
Məhəmmədfateh –202
Məhəmmədhəsən xan Qacar (Ağaməhəmməd şahın atası) –149
Məhəmmədhəsən xan (Məhəmməd)hüseyn xan oğlu (Şəki xanı) –15,18,19,90,106-109,112,119,120,121,122,123,131,132,133,155-161,164-166,172,217,219,220,222
(Məhəmməd)hüseyn xan Həsən ağa oğlu Müştaq (Şəki xanı) –10,16,92,102,104,105,106,112,118,119,130,130,153,154,155,217,219,226,230,231,232,233
Məhəmmədhüseyn xan İmamqulu xan oğlu (Dərbənd xanı) –146
Məhəmmədxan bəy Səfiqulu xan oğlu –98
Məhəmmədsaleh bəy –106
Məhəmmədsəid xan (Şamaxı hakimi) –157,159
Məlik Cəfər –98,101,129
Məlik Əhməd Məlik Qasım oğlu –97,115,128
Məlik Əli bəy (Ərəş sultanı) –104,105,106,118,153,154,216,230
Məlik Əli sultan (Şəki hakimi) –98
Məlik Əlimərdan bəy –98,116,128
Məlik Həsən –98
Məlik Hüseyncan –97,115,128



Məlik Hüseynqulu –97,115,128
Məlik Qaim/Qayım yüzbaşı – *Məlik Qasım*'a bax
Məlik Qasım Məlik Ziyaəddin oğlu –97,115,128
Məlik Nəcəf – *Məlik Nəcəf(qulu)*'ya bax
Məlik Nəcəf(qulu) –21,98,99,101,116,128,129,129,148
Məlik Səfiqulu –98
Məlik Ziyaəddin Məlik Hüseyncan oğlu –97,115
Məlikşah Səlcuqi –138
Məmməd –35
Məmun bin Rəşid (xəlifə) –137
Məsləmə ibn Əbdülməlik –136
Məşədi Ağa bəy Topçubaşov –37
Məşədi Cabbar Dadanov –207
Məşədi Ələkbər Sabir Tahirzadə – *Mirzə Ələkbər Sabir Tahirzadə*'yə bax
Məşədi Əyyub Ələkbərov –33,42,50,51
Məşədi Qasım –203
Məşədi Məhəmməd ağa Rütuli –221
Məşədi Yusif İsmayılov –34
Məzahir Cəmilli –86
Mixak Boyaqçı oğlu –207
Miln C. (komandan) –60
Mir Mehdi Xəzani –6
Mirabbas Mirbağırov – *Mirabbas Mirbağırzadə*'yə bax
Mirabbas Mirbağırzadə –9,22-77,135,169,175,181,183
Mirabbas Mirhüseynzadə – *Mirabbas Mirbağırzadə*'yə bax
Mirabbas Seyid oğlu Mirbağırzadə –22
Mirabdulla (Mirbağırzadə) –24,30,48
Mirabdulla Mirhüseynzadə – *Mirabdulla (Mirbağırzadə)*'yə bax
Miranşah –142
Mirbağırov qardaşları –49
(Mir)cavad Mirbağırov –24
Mircəfər Bağırov –75
Mircəfər Seyidzadə –36
Mirhidayət Ordubadi –35
Mirhüseyn Mirbağırov –24
Mirhüseyn Hacı Mirbağır oğlu –24
Mirhüseynzadə – *Mirabbas Mirbağırzadə*'yə bax
Mirməhəmmədkərim – *Axund Mirməhəmmədkərim Mircəfərzadə*'yə bax
Miryusif Mirbağırov –37
Mirzə Adıgözəl bəy –6,8,147,150,154
Mirzə bəy Mahmud ağa oğlu –112,134
Mirzə Camal Cavanşir Qarabaği –6,17,146,147,150,154
Mirzə Cəbrayıl Süpehri –6
Mirzə Ələkbər Sabir Tahirzadə –27
Mirzə Fətəli Axundzadə –12,49,50,78
Mirzə Heydər Dərbəndi –76,147,156,158
Mirzə Həsən əfəndi Əlqədari –6
Mirzə Həsən Tahirzadə –34

Mirzə Hüseyn Axundzadə -40
Mirzə İbrahim -222
Mirzə Qasım (Hacı Çələbi xanın vəziri) -228
Mirzə Məhəmmədəli Qəmərlinski -40
Mirzə Mustafa Rəcəbov -35,36
Mirzə Şükür Aruşanov -40
I Mirzəməhəmməd xan Dərgah xan oğlu (Bakı xanı) -146
Molla Abbas (calutlu) -124
Molla Mustafa Şeyxzadə (Şəki üsyanının başçısı) -82
Molla oğlu Əkbər -202
Molla Pənah Vaqif -163
Molla Veyis -90
dö Montanyen, Kisavye -27
Mövlazadə - *Axund Hacı Məhəmmədhəsən Mövlazadə*'yə bax
Musa bəy Ağakişi bəy oğlu -112
Musayev İ. - *İsmayıl Musayev*'ə bax
Mustafa ağa -221
Mustafa ağa Qazaqi -92
Mustafa ağa Şuxi Şəkixanov (Kərim ağa Fatehin oğlu) -9-11,17-19,21,88,91,93,112,134, 234,235
Mustafa bəy Rüstəmbəyov -197,198
Mustafa əfəndi Əfəndizadə (müfti) -206
Mustafa xan Ağası xan oğlu (Şirvan xanı) -21,90,106,107,108,109,121,122,132,133,146, 159,162,164,165
Mustafa Quluyev -205
Mustafa paşa -215
Müqtədibillah (xəlifə) -138
Mümtaz - *Salman Mümtaz*'a bax
Mürşüdqulu xan (Şəki kələntəri) -98
Müslim - *Məsləmə ibn Əbdülməlik*'ə bax
Müstəhzir bin Müqtədi (xəlifə) -139
Müstəsim bin Müstənsir (xəlifə) -140
Müzəffərəddin Sultan Cahanşah Həqiqi -142

Nabi əfəndi - *Yusif Çələbi Nabi*'yə bax
Nadir şah Əfşar (Əfşar imperatoru) -5,21,98,99,100,102,104,116,117,127,129,130,144, 145,146,147,148,149,153,215,226
Namiq Kamal -35
Napoleon -166
Nazim İbrahimov -86
Nebolsin P.F. -16,110,111,122,123,133,167
Nəbi - *Şəkili Nəbi*'yə bax
Nərimanov N. -203
Nəsib Nəsibzadə -58
Nikolay (çar) -27
Nizami Gəncəvi -94,126,135,139,151
Nizamülmülk -138
Nuh nəbi -209



Nurməhəmməd əfəndi İmanzadə -39
Nuru oğlu Musa -201
Nuru paşa -236,237

Oğuztoğrul Tahirli -86
Orucov qardaşları -42,43,44,46
Osman Müzəffərəddin Qızıl Arslan - *Qızıl Arslan*'a bax
Osman paşa (vali) -142

Ömər Faiq Nemanzadə -65
Ömər Naci (müəllim) -32
Ömər Nəcməddin (Şəkidə) -81
Övliya Çələbi -30

Paskeviç İ.F.(canişin) -17,93
Paşa Bayramov -40,52,53,65
Pənah(əli) xan İbrahimxəlil oğlu Cavanşir (Qarabağ xanı) -102,146,149,1
Pəricahan xanım (Qubalı Fətəli xanın qızı) -157
Pirqulu - *Kosa Pirqulu*'ya bax
Puri-Pələng -15,91

Reşburq, Emil -27
Rəcəb Əfəndizadə -77
Rəfiyev X. -35
Rəhim bəy (bəzzaz) -35
Rəsul Hüseynli -220,223
Rəsulzadə M. - *Məhəmmədəmin Rəsulzadə*'yə bax
Rəşid bəy Əfəndiyev -77
Rəşid bəy İsmayılov -7,103,105,111,144,174
Romanov I Nikolay (çar) -92
Romanov II Nikolay (çar) -92
Rüknəddin Börküyarıq - *Börküyarığ*'a bax
Rüstəmbəyli -81
Rzaqulu Nəcəfov -47

Sabir - *Mirzə Ələkbər Sabir*'ə bax
Sabir Əfəndiyev -77
Sadıq ağa Haşım ağa oğlu -112,134,222
Saleh əfəndi -222
Salman xan - *Süleyman xan Səlim xan oğlu*'na bax
Salman Mümtaz Məhəmmədəmin oğlu -10,11,14,15,48, 68,84,88,125,16
Salyani -30
Seqal İ.L. -18
Seyid Əhməd Çələbi -124
Seyid Əzim Şirvani -11,235
Seyid Hacı Əbdülhəmid əfəndi -124
Seyid Hüseyn -45,46,47
Seyidəli xan (Şəki hakimi) -141

Səadət bəyim İsmayıl xan qızı –224
Sədrəddin bəy –195
Sədrəddin əfəndi (Hacı Çələbi xanın Təbrizdə naibi) –76,149,169,227
Səfiəddin Məhəmməd Tuğrai –140
Səkinə xanım İsmayıl xan qızı –134
Səlanikli Tofiq –27
Səlim ağa – *Səlim xan*'a bax
Səlim xan (Məhəmməd)hüseyn xan oğlu (Şəki xanı) –18,19,90,106,107,108-112,120, 121,122,123,131,132,133,134,156,161,162,164,165-168,217,219
Səlman ibn Rəbiə –136
Səltənət Əli qızı –80
Səniidövlə Mirzə Məhəmmədhəsən xan –15,16
Sısoyev –168,174
Sidqi M.Ə. – *Məhəmmədəli Sidqi*'yə bax
Sisianov –111
Striqunov İ.V. –7
Sultan Arslan (səlcuqlu) –139
Sultan Bayəzid –46
Sultan Davud (səlcuqlu) –139
Sultan Əhməd xan (qubalı) –145
Sultan II Mahmud (səlcuqlu) –139
Sultan Məhəmməd Fateh –46
Sultan Məhəmməd Rəşad –29
Sultan II Məhəmməd şah Səlcuqi –139
Sultan Məlikşah – *Məlikşah Səlcuqi*'yə bax
Sultan Məsud (Qəznəli) –137,139
Sultan III Murad (Osmanlı) –143
Sultan Murad Xudavəndiyar –46
Sultan Səncər –139
Sultan Süleyman (səlcuqlu)–139
Sultan Toğrul – *Məhəmməd Toğrul bəy*'ə bax
Sultan III Toğrul (səlcuqlu) –139
Sumbatzadə Ə. –24
I Surxay xan (Çolaq)–18,103,153,215,216,229
II Surxay xan Məhəmməd xan oğlu –103,122,153,160,229
Süleyman xan Səlim xan oğlu –112,123,133
Süleyman Məlikov –67

I Şah Abbas Səfəvi –95,143,144
II Şah Abbas Səfəvi –98
I Şah İsmayıl (Səfəvi imperatoru) –95,113,127
Şah Sultan Hüseyn –98
Şah Süleyman Səfəvi –98
I Şah Təhmasib –95,96,114,127
II Şah Təhmasib –98
Şahmir xan (Şəki xanı) –9,144
Şaho –223
Şahverdi xan Ziyadoğlu Qacar (Gəncə xanı) –102,147,149,150



Şamlı Çərəndab sultan –97,115
Şaşaməlik Allahverdov –207
Şaumyan S. (millətimizin düşməni) –207
Şeyx İbrahim ibn Məhəmməd ibn Keyqubad – *Əmir İbrahim*'ə bax
Şeyx Nizami – *Nizami Gəncəvi*'yə bax
Şeyx Şamil –223
Şeyxəli bəy (Şirvanlı Mustafa xanın əmisi oğlu) –20,21,121,132,165
Şeyxəli xan Fətəli xan oğlu (Qubanın son xanı) –122,162
Şəfi bəy Rüstəmbəyov –197
Şəhabəddin sultan (Ərəş sultanı) –160,217
Şəhriyar (Şirvanşah) -137
Şəki xan Qutul xan oğlu (Şəki xanı) –18,95,113,126
Şəkili Nəbi –226,228,229,230,231,233
Şəmsəddin bəy –195
Şəmsəddin Eldəniz –139
Şəmsəddin Sami bəy –32
Şəmsəddinli Əli sultan –162
Şərifov (həkim) –200
Şıxəli bəy – *Şeyxəli bəy*'ə bax
Şıxəli xan – *Şeyxəli xan*'a bax
Şikəst Əhməd əfəndi Göynüklü –15,92
Şirməmməd Hüseynov –79
Şirvani S.Ə. – *Seyid Əzim Şirvani*'yə bax
Şuxi – *Mustafa ağa Şuxi*'yə bax

Tacəddin Məhəmməd Bəlxi –140
Tağıyev İ. –81
Ter-Qriqoryan –207
Ter-Osipov –199
Təhmasib xan –215
Təhmasib xan Cəlayir –215,216
Təhmasib Mirzə – *I Şah Təhmasib*'ə bax
Təkgöz Manaf xan Hacı Məhəmmədəli xan oğlu (Şamaxı hakimi) –159
Təkinski M. –62
Toğrul bəy Mikayıl bəy oğlu – *Məhəmməd Toğrul bəy*'ə bax
Toqtamış xan –142
Tomson (general) –60
Tubu bəyim (Məhəmmədhüseyn xanın qızı, İbrahimxəlil xanın arvadı) –110,167
Turbe, Andre –27
(Hacı) Tutu ağa Məhəmmədhəsən xan qızı –91,123,134,223
Tutu bəyim (İbrahimxəlil xanın qızı, Səlim xanın arvadı) –110,122,134,167

Uğurlu bəy Abdulla ağa oğlu –112
Uzun Həsən bəy –142

Ümmə (Ömər) xan (Dağıstan hakimi) –157,218

Vern, Jül –27

Vəkil Çələbi – *Hacı Çələbi xan*'a bax
Vəlid ibn Əbdülməlik (xəlifə) –136
Vəliyullah –202
Voronsov M.S. –17
Voronsov-Daşkov İ.İ. (canişin) –93
Vrangel P.N. (general) –93

Yaqub (peyğəmbər) –49
Yaşmut (Eşmet) Abaqa xan oğlu –140
II Yekaterina –161
Yermolov A.P. (canişin) –93,168,219
Yılmaz Öztuna –140
Yusif (peyğəmbər) –27,30,47,49
Yusif (erməni) –206
Yusif bəy Qazıyev – 40,52,53
Yusif bəy Vəzirov –74
Yusif Çələbi Nabi –13
Yusif İzzəddin (vəliəhd) – 29
Yusifoğlu (Hacı Çələbi xanın naziri) –228

Zaxurlu Əli Sultan – *Əli sultan Saxuri*'yə bax
Zakirə Əliyeva –43
Zaman bəy –134
Zeynalov Z. –35
Zəhir Faryabi –139
Zəkəriyyə Əlizadə –79,86
Zəki Müğamiz –50
Zibeydə xanım –72
Zifeldt A.R. –15
Zubov V.A. –161
Züleyxa –30,47,49

Üz qabığının arxasında verilmiş Rəşid bəy İsmayılovun fotoşəkli ilk dəfə nəşr olunur. Şəkli tarix elmləri doktoru Tamilla xanım Kərimova təqdim edib.

Kitabın cildində və içərisində Şəki Xan sarayının divar təsvirlərindən və naxışlarından, eləcə də Hüseyn Hüseynzadənin çəkdiyi fotolardan istifadə edilib.

---

Kitab MASTER nəşriyyatına məxsus olan Masterprint mətbəəsində çap olunub.
Cildləmə: Çaşıoğlu mətbəəsi
Çapa imzalanıb: 03.08.2005
Nəşrin ölçüsü: 64x86 1/32. Ofset çapı.
Fiziki çap vərəqi: 32. Sifariş: 03. Sayı: 500 nüsxə.

MASTER

Ünvan: Azərbaycan, Bakı,
AZ1033 Arif Heydərov küç. 19/36
Tel.: +(994 12) 498 62 01
Faks: +(994 12) 493 50 60